

Telman Orucov

Çin - qədim sivilizasiya və müasir möcüzələr ölkəsi

Çin zəngin tarixə və unikal mədəniyyətə malik olan bir ölkədir. Dünyaya Konfutsi kimi dahini vermiş bu ölkə təəccüb doğuran kontrastlara, göz oxşayan landşafta malik olmaqla, həm də göydələnlərin bəzədiyi müasir şəhərləri ilə seçilir. Şimala uzanan Qobi səhrasının həyatdan xali olan düzənliyi cənubdakı cənnətə bənzər tropik zonalarla əkslik təşkil edir.

Çin qədim qüdrətli sivilizasiyanın beşiyi olmaqla, dünyaya özünün ixtira etdiyi ipəyi, farforu, barıtı, kağızı və digər faydalı əmtəələri bəxş etdi. Çinin tarixi abidələri möcüzələr hesab olunur. Ölkənin bir çox təbiət mənzərələri öz füsunkarlığı ilə adamları heyran edir.

Çinlilərin yaradıcılıq istedadına qibtə etmək olar. Böyük Çin Səddi qədimdən bu ölkənin zamana tabe olmayan qiymətli simvolu hesab olunur. Dünyadakı bu ən böyük və məharətlə yaradılmış divarın tikintisi Şimali Çində 5 min kilometrə qədər uzanmaqla Yer üzündə kosmosdan müşahidə edilən yeganə bir abidədir. Onun tikintisinin tarixi bizim eradan əvvəlki əsrlərə təsadüf edir.

Çin təkcə qədim tarixi ilə deyil, həm də müasir dünyada ən sürətlə inkişaf edən bir ölkə kimi diqqəti cəlb edir. Son üç onillikdə bu inkişaf dünyanın bütün başqa böyük ölkələrindən fərqli olaraq fasilə vermədən, təəccüb doğuran sürətlə davam edir. Ümumi daxili məhsul (ÜDM) istehsalına görə, XX əsrin birinci yarısında geridə qalmaqla işğallara məruz qalan, yoxsulluğu ilə seçilən yarımfeodal Çin indi dünya iqtisadiyyatında, yeganə fövqəldövlət sayılan ABŞ-dan sonra ikinci yeri tutur.

Çin dünyanı paltar və ayaqqabı ilə təmin etməkdə nəhəng bir kainat fabrikinə çevrilmişdir. Planetin sakinlərinin az qala üçdə birini məhz Çinin yüngül sənayesinin istehsalı geyindirir. Dünya iqtisadiyyatının əslində yeni arxitekturasını yaradan bu ölkə ilə, ABŞ istisna olmaqla, heç bir dövlət müqayisə oluna bilməz. Çinin istehsal sahəsindəki artım sürəti də son illərdə hamını geridə qoymuşdur. 2014-cü ildə bu artım 7,4 % olmuşdur, bu isə son 25 ildəki ən aşağı göstəricidir. Dünyanın iri dövlətləri iqtisadi böhranla üzləşdikdə Çin Xalq Respublikasının iqtisadiyyatı Herakl igidliyi nümayiş etdirilməklə bəşəriyyəti təəccübləndirməkdə davam edir. Son onillikdə həmin dövlətlər böhranın Stsillası və Xaribdasının ağuşunda çabaladığı halda, Çin belə monstrlara əslində məhəl qoymamaq cəsarəti və qabiliyyəti göstərir.

Çin son illərdə İpək Yolu ideyasını gerçəkləşdirmək üçün praktiki addımlar atır. 2015-ci ilin martında həm də dünya maliyyə bazarında çox böyük hadisə baş vermişdir. Çində keçirilən konfransda ÇXR-in başçılığı altında Asiya infrastrukturalar investisiyaları bankının (AİİB) təsis edilməsi elan edilmişdir. Həmin bank digər məsələlərlə yanaşı İpək Yolunun maliyyələşdirilməsinə də xidmət edəcəkdir. Bundan əlavə Çində İpək Yolu fondu yaradılır. Yeni AİİB-in fəaliyyəti qlobal xarakter daşıyacaqdır, əslində Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının ağalığına son qoymaqla, bu sahədə də ABŞ-ın inhisarını ləğv edəcəkdir.

Ərazi və təbii sərvətlər

Çin dünyanın ən iri ölkələrindən biri olmaqla 9,6 milyon kv.km ərazini tutur ki, bu da Yer kürəsinin quru hissəsinin 6,5 %-ni təşkil edir. Öz ərazisinə görə Çin dünyada üçüncü yeri tutur, onun sahəsi 40-dan artıq ölkənin yerləşdiyi Avropanınkına təqribən bərabərdir. Onun ərazisinin qərbdən şərqə uzunluğu 5200 km-ə, şimaldan cənuba isə təqribən 5500 km-ə bərabərdir. Ölkənin dəniz məkanı da çox genişdir, onun şərqdəki və cənubi-şərqdəki sahillərini üç dənizin suları yuyur.

Çin Avrasiya materikinin - dünyanın ən böyük quru hissəsinin şərq hissəsində, Sakit okeanın qərb sahilində yerləşir, 14 dövlətlə həmsərhəddir.

Ölkənin sifətinə böyüklük və təbii landşaftların kontrastlılığı xasdır. Yer üzündə ən geniş və ən hündür Tibet dağlığı, Böyük Qobi səhrası, dünyadakı ən güclü lyoss qatı olan Lyoss yaylası, münbit torpağı və sıx əhalisi olan Böyük Çin düzənliyi bu ölkədədir. İqlim də öz kontastlılığı ilə seçilir – Şərqdə musson yağışları, Qərbdə kəskin kontinental və quru hava. Çinin ərazisindən cənubi və cənubi-şərqi Asiyanın ən iri çayları öz mənşəyini götürür, öz ərazisini isə Yantszı və Huan ho çayları kəsib keçir. Çin həm də müxtəlif təbii sərvətlərlə zəngindir. Ölkənin bir çox rayonlarında yerin təki müxtəlif mineral sərvətlərin ehtiyatlarının bolluğu ilə fərqlənir.

Çin dünyada ən çox əhalisi olan dövlətdir, burada təqribən 1,3 milyarddan çox əhali yaşayır, bu da planetin əhalisinin beşdə birinə yaxındır. Ancaq bu əhali kütləsi ölkə ərazisində müstəsna dərəcədə qeyri-bərabər yerləşmişdir. Elə əyalətlər var ki, orada orta hesabla hər kv.km-ə 400-dən artıq, elələri də var ki, orada yalnız 1 adam düşür. Bütövlükdə ölkənin şərqi sıx əhalilidirsə, qərbi isə az məskunlaşmış məkandır.

Çinlilər (hanlar) ölkə əhalisinin əsas kütləsini təşkil etməklə, onların böyük hissəsi şərq vilayətlərində yaşayır. Çinin 50-dən çox digər (han olmayan) xalqları isə (onlar bir neçə dil ailələrinə mənsubdurlar) ölkənin qərbinin, cənub-qərbinin və şimali qərbinin geniş ərazilərində yaşayırlar.

Çinin relyefinin ən əlamətdar xüsusiyyəti dağ silsilələrinin böyük ərazini tutmasıdır. Dağlar ölkənin siyasi, iqtisadi və mədəni inkişafına nəhəng təsir göstərmişdir. Təqribi hesablamalara görə Çinin ümumi ərazisinin 1/3-nə yaxınını dağlar təşkil edir. Çin dünyanın ən yüksək dağlarına və çox iri yaylalarına malikdir. Beş başlıca torpaq forması – dağ, yayla, təpə, düzənlik və su hövzəsi burada yaxşı təmsil olunmuşdur. Mürəkkəb təbii mühit və ölkənin zəngin təbii sərvətləri relyefin müxtəlifliyi ilə sıx bağlıdır. Turfan çökəkliyi dəniz səviyyəsindən 154 metr aşağıdadır. Uca dağların ölkənin torpaq ərazisinin 1/5-ni tutması iqlim və torpaq şəraitinə, həm də torpaqdan istifadəyə, birbaşa olmasa da, öz təsirini göstərməmiş qalmır.

Relyef bir sıra cəhətlərinə görə Çinin inkişaf prosesini diqtə etmişdir. Çin sivilizasiyası öz başlanğıcını Lyoss yaylasının cənub hissəsindən götürür. Cənubda Tibet yaylası, şimalda isə Qobi səhrası təbii sərhəd rolunu oynayırdı. Nəticədə, Çin sivilizasiyası onların arasındakı dəhlizdə yayılırdı və burada əkinçilik suvarma suyu ilə təmin edilirdi. Dəhlizin qərbə tərəf genişlənməsi qədimdə Şərq və Qərbin görüşdüyü yerə çevrilmişdi.

Çinin qədim siyasi mərkəzi uzun müddət ərzində Huan Honun (Sarı çayın) aşağılarına qədər uzanmaqla, onun sahilində yerləşirdi. Sərhədlər mərkəzi hakimiyyət üçün çətinlik törədirdi, olduqca az rast gəlinən qüvvətli sülalələr bütün ölkə üzərində

tam nəzarətə malik olurdu. Mərkəzi hökumət öz təsirini genişləndirməyə qadir olmadığından yalnız üç güclü sülalə – Han (bizim eradan əvvəl 206-cı, bizim eranın 220-ci illəri), Tan (b.e. 618-907-ci illəri) və Tsin (1644-1911-ci illər) regiona nəzarət etmək gücündə idi.

Çinin üç başlıca regionuna şərq, şimali-qərb və cənubi-qərb zonaları daxil idi. Şərq zonası çayların əhatə etdiyi region idi, şimali-qərb dəmyə zonası olmaqla, külək eroziyasına məruz qalırdı. Cənubi-qərb soyuq, yüksəklik və dağlıq regionu olmaqla dağlar arası yaylalara və daxili göllərə malik idi. Şimali-şərq düzənliyi ölkədə ən iri düzənlik olmaqla əvvəllər Mancuriya kimi tanınan regionda yerləşirdi. Zonanın çox hissəsi eroziyaya məruz qalsa da, dərin torpaq qatına malikdir. Onun torpaqları münbit və qara torpaqdır, bura məşhur əkinçilik regionudur. Daşqın mövsümündə çaylar sahildən çıxıb, geniş əraziləri basır. Şimali Çin düzənliyi ölkənin ikinci böyük düzənliyidir. Huan Ho və Huay Ho çayları Lyoss yaylasından buraya çox miqdarda çökən torpaq qatı gətirir. Bu, Çindəki bütün regionlara nisbətən torpağın daha çox hissəsinin əkin üçün istifadə edilməsinə imkan verir.

Lyoss yaylası lyoss təpələrdən ibarətdir, şərqdə Şimali Çin düzənliyi ilə, qərbdə isə səhralarla əhatə olunur. Yaylanın çox hissəsi qalınlığı 150 futla 600 fut arasında olan qalın lyoss qatı ilə örtülmüşdür. Lyoss, təbəqələşməmiş, bircinsli xırda dənəvər olmaqla, əhəng daşı qalıqları çöküntüsündən ibarət olan açıq-sarı rəngli dağ süxurudur. Şaquli yamacları saxlamağa qadirdir və rütubət qəbul etdikdə çöküntü verir. Su qovşaqlarındakı vadilərdə və yamaclarda torpaq təbəqəsi bir neçə metrdən 100-200 metrə çatır. Ona görə də lyossda münbit torpaq əmələ gəlir. Çində lyoss küləyin Asiya səhralarından gətirdiyi və dağlara, təpələrə yayılan qum qatıdır.

Lyoss torpaqlar xüsusən daha çox su eroziyasına məruz qalır. Ölkənin bütün ərazisinin 1/6-i eroziyadan əziyyət çəkir. Lakin əsas torpağı lyoss olan Huan Ho çayının orta axınındakı rayonlarda bu proses daha güclüdür. Çin xalqı torpaq eroziyasına qarşı böyük təcrübəyə malikdir. Bunlardan biri yamacların süni terraslaşdırılmasıdır.

Orta və Aşağı Yantszı düzənlikləri həmin çay boyunca uzanır. Düzənlik allivual (su axınının çöküntülərindən yaranmaqla çay terraslarını əmələ gətirir) torpaqlara malikdir. Çaylar, kanallar və göllər su yollarının geniş şəbəkəsini yaradır. Düzənliyin səthi isə artıq hamar terraslar sisteminə çevrilmişdir.

Tarim hövzəsindəki Təklə-Məkan səhrası dünyanın ən qeyri-münbit, məhsul verməyən səhralarından biridir.

Çinin üç başlıca çayı qərbdən şərqə axmaqla ətraf dənizlərə tökülür, bunlar Huan Ho və ya Sarı çay, Yantszı və Hsi Çian çaylarıdır.

Bir vaxtlar Çinin ərazisinin yarısı meşələrlə örtülmüşdü, lakin indi ölkənin ərazisinin yalnız 7 %-ini meşələr təşkil edir. Mərkəzi və Cənubi Çində geniş meşələr əkinçilik üçün qırılıb, təmizlənmişdir. Əkinçilər eroziyaya görə, nəticədə divarlarla möhkəmləndirilən səth terrasları yaratmışlar, bununla düyü tarlaları üçün suyun geri axmasından ötəri səmərəli qaydada eroziyaya nəzarət edirlər. Təpə və dağ yamaclarını nazik qurşaq lenti şəklində kəsib keçən süni terraslardan ibarət bu antropogen relyef əhalinin böyük sıxlığına görə yaradılmışdır və çox qədim dövrlərdən terrasları tikən Çin kəndlisinin əkinçilik məharətinə borcludur. Terraslar tikilən yerdə eroziya yoxa çıxmışdır. Ölkədə mövcud terraslar kənd mənzərəsinin xarakterik bir xüsusiyyətinə çevrilmişdir.

Təbii bitkilərin növləri olduqca müxtəlifdir. Çində 30 min növdə toxumlu bitkilər vardır, onlardan 200-dən çoxu endemik olmaqla Çin ərazisi ilə məhdudlaşır. Burada 2,5 minə yaxın meşə ağacı vardır, onlardan çoxu iqtisadi əhəmiyyətə malikdir.

Çində yağış mövsümü iyunun sonunda, iyulun əvvəlində başlanır və sentyabra qədər davam edir. Yağış əvvəlcə Huan Ho hövzəsində yağır, sonra şimala tərəf istiqamət götürür, tədricən Böyük Çin düzənliyinin bütün ərazisinə yayılır.

Yay yağışları ilə çaylarda su tədricən artır, daşqın əmələ gəlir. Yalnız qışda və erkən yazda bu çayların suyu nisbətən şəffafdır, qalan bütün vaxtlarda isə onlar sarı rəngə boyanırlar, buradan da «sarı çay» kimi Huan Honun adı meydana gəlmişdir. Güclü daşqınlar olanda çayda çöküntülər suyun ümumi çəkisinin 40%-dən çoxunu təşkil edə bilir. Dörd min il ərzində Huan Ho bəndləri dəfələrlə dağıtmış və 1,5 min dəfə aşağı axınında sahilləri basmış, həm də bu daşqınlar vaxtı 20 dəfədən çox öz məhvərini də dəyişmişdir.

Çin subtropikləri bəzi hallarda güclü şaxtalara məruz qalır, onlar subtropik bitkilərin qışlamasına məhvedici təsir göstərir. Bu subtropiklər həm də rütubətlilik rejiminə görə fərqlənirlər. 1100 mm-dən 2000 mm-ə qədər olan yağışın əsas kütləsi yay vaxtına düşüb, izafi rütubətlilik əmələ gətirir.

Əhalinin sıxlığı və tərkibi

Hələ 27 il əvvəl keçirilən siyahıya alınmaya görə Çində əhalinin sıxlığı 1 kv.km-də 107 nəfər adama bərabər idi. Çin dünyanın ən sıx əhalisi olan ölkələrindən biridir, lakin əhali ərazi cəhətdən qeyri-bərabər şəkildə bölünmüşdür. ÇXR-in mövcudluğunun ilk 33 ilində əhalinin sayı 542 milyondan 1 milyarda çatmışdır. Çin çoxmillətli dövlətdir, onun ərazisində 56 xalq yaşayır. Çinlilər (hanlar) əhalinin 93%-ni təşkil edir və ölkənin bütün ərazisində yaşayırlar. Çinin hüdudlarından kənarda 30

milyondan çox çinli yaşayır, onların da çoxu «xuatsyao» adı altında cənubi-şərqi Asiya ölkələrindədir. Çin əhalisinin etnik tərkibinin mürəkkəbliyi və rəngarəngliyi uzunmüddətli inkişaf, qarşılıqlı təsir nəticəsində və həmçinin müxtəlif sosial-iqtisadi səviyyəsi, dil mənsubluğu və antropoloji tipi olan çox sayda xalqların qarışması prosesində əmələ gəlmişdir. Çinlilərin yaşadığı ərazinin genişliyi, təbii-coğrafi mühitin rəngarəngliyi və onunla əlaqədar təsərrüfat-mədəni xüsusiyyətlər, həmçinin han əhalisi ilə uzunmüddətli kontaktlar nəticəsində Çin xalqının tərkibində bir-birindən xeyli maddi və mənəvi mədəniyyət əlamətlərinə görə fərqlənən və müxtəlif dialektlərdə danışan bütöv etnik qruplar dəstəsi meydana gəlmişdir. Daha çox fərqlər şimal əyalətlərinin çinliləri arasında yaranmışdır, orada vaxtilə etnik konsolidasiya prosesi üstünlük təşkil etmişdi.

Etnik azlıqların əhalisinin tərkibində nisbətən kiçik xüsusi çəkiyə (7%-ə yaxın) malik olmasına baxmayaraq, onlar ölkə ərazisinin 5/8-nə səpələnmişlər. Çinin kənd sakinlərinin əksəriyyəti kompakt kəndlərdə yaşayır. Böyük kəndlərin çoxu əvvəllər heç bir şəhər atmosferinə malik deyildi. İndi isə vəziyyət dəyişmişdir. On minlərlə əhalisi olan kəndlərdə sənaye müəssisələri meydana gəlmişdir. Bazar şəhərlərinin çoxu və hətta iri kəndlər köhnədən adətən divarlarla əhatə olunurdu. Mərkəzi və cənubi Çinin kənd mənzərələrində düyü zəmiləri hakim mövqeyə malikdir. Kəndlərin arasında əlaqə əvvəllər əsasən sıx su yolları şəbəkəsində üzən qayıqlarla aparılırdı.

Çinin kənd mənzərəsinin digər fərqli xüsusiyyəti qayadan çapılmış yaşayış yerləridir. Onlar Lyoss yaylasında, xüsusən Şimali Şensidə, qərbi Şansidə və cənub-şərqi Kansuda daha çox idi. Çünki həmin yerlərdə Lyoss qalın olduğu kimi, meşə materialı da azdır. Qayadan çapılan yaşayış məskənləri az ağac materialı tələb edir, yayda sərin, qışda isə isti olur.

Çin Xalq Respublikası yarananda ölkədə əhalisinin sayı 1 milyon nəfərdən yuxarı olan 9 şəhər var idi. Ölkədə urbanizasiya meyli həmin vaxtdan etibarən xeyli artdı, çünki hökumət ölkəni sənaye qüdrətinə yiyələndirmək üçün cəhdlərini gücləndirdi, 1970-ci ildə əhalisi 1 milyondan çox olan şəhərlərin sayı artıq 21-ə çatmışdı. 1981-cı ildəki Honkonq yaxınlığındakı körfəzdə bir neçə balıqçı koması olan məkan, azad iqtisadi zona şəhərinə çevrilməklə, on ildən sonra 2 milyona qədər əhalisi olan, müasir göydələnləri və parkları ilə göz oxşayan Şenjen şəhəri kimi tanındı. İri şəhərlər daha da böyüməyə başladı. Şanxayın sahilində olduğu dənizdəki süni quru adada başqa bir azad iqtisadi zona yaradılmaqla, nəhəng yeni şəhər salındı və o, köhnə şəhəri möhtəşəmliyinə görə kölgədə qoyur.

Çin çoxmillətli ölkə olduğundan əhalisi çox sayda etnik və linqvistik qruplardan ibarətdir. Bütün sakinlər, demək olar ki, monqoloid mənşəyə malikdir.

Hanlar əslində Çin xalqının böyük homogen kütləsini təşkil edir. Etnik azlıqların çox sayda yaşadığı yerlərdə onlara muxtariyyətə bənzər status və özünüidarə hüququ verilir. Xalq hökuməti kiçik qrupların münasibətinə müvafiq olaraq onlara böyük etimad göstərir. Bura iqtisadi rifahın yaxşılaşdırılması, həyat səviyyəsinin yüksəldilməsi, təhsil qabiliyyəti üçün şərait yaradılması, onların milli dillərinin, mədəniyyətlərinin və savadlılıq səviyyəsinin yüksəldilməsi, həmçinin əvvəllər mövcud olmayan yazılı dillərin inkişaf etdirilməsi daxildir. Kommunistlərin hakimiyyətindən əvvəlki 50-dən artıq milli azlıq dilindən yalnız 20-si yazı formalarına malik idi və yalnız az sayda yazı dilləri, misal üçün, monqol, tibet, uyqur, qazax, tay və koreya dilləri gündəlik istifadə olunurdu. Digər yazı dilləri isə əsasən dini məqsədlər üçün işlədildiyindən, az sayda adamları əhatə edirdi. Milli azlıqlar üçün təhsil ocaqları bir sıra iri şəhərlərin nəzərə çarpan xüsusiyyətinə çevrilmişdi.

Beş əsas dil ailəsi – Çin-tibet, altay, hind-avropa, Cənubi Asiya və İndoneziya dil ailələri Çində təmsil olunur. Lakin bu dil ailələrinin danışıldığı ərazilərdə milli dil böyük əhəmiyyət daşısa da, çin han dili ən geniş istifadə edilən dil hesab olunur. Ona görə də bu ərazilərdə han dilinin dialektləri mövcuddur. Ümumiyyətlə, ölkədə han dili lingua franca - ceniş istifadə edilən dil rolunu oynayır. Ən vacib Çin dili mandarin və ya putunxua dilidir. Həmin dildəki ifadəyə görə, bu «ümumi başa düşülən dil» adlanır. Əhalinin 90 faizi bu dili başa düşür və ya ondan istifadə edir. 1955-ci ildəki yazı və dil islahatına görə dövlət dilinin köhnə «qoyuy» adı ləğv edildi, bu, «putunxua» adını aldı. Üç sahə vardır ki, burada putunxuanı bilmək çox mühüm şərt hesab olunur. Bu məktəb, ordu və iri sənaye istehsalıdır.

Putunxuanın müxtəlif variantları mövcuddur, onlardan birincisi ənənəvi quanxua, müasir bayxua olmaqla, onun Pekin dialekti Şimalda ən çox danışılan dildir. İkincisi qərb variantıdır, onunla Çinin cənubi- qərbində və Yantszı çayının hövzəsində danışılır, üçüncüsü cənub variantıdır, eyni adlı coğrafi əyalətlərdə istifadə olunur. Han çinlilərdən başqa mançurlar və hueylər (və ya Çin müsəlmanları) həmçinin mandarin dilində danışdılar və Çin əlifbasından istifadə edirlər. Hueylər islam VII əsrdə Çinə nüfuz edəndə bu dini qəbul etmiş çinlilərin törəmələridir. Onlar o qədər də çox deyillər, sayları 1 milyona yaxındır, bütövlükdə isə ölkədə müsəlmanların sayı 20 milyona çatır, onlara uyqurlar, qazaxlar, qırğızlar daxildir.

Mancurlar 6 milyondan artıq olmaqla özlərini XVII əsrdə Çinə müdaxilə etmiş və 1644-1911-ci illərdə hökmranlıq edən Tsin sülaləsini yaratmış Mancu döyüşçülərinin törəmələri kimi qələmə verirlər. Qədim Mancu dili faktiki olaraq ölü dildir və mancurlar bütünlüklə çinli mədəniyyətinə assimilyasiya olmuşlar. Tibetlilər 5 milyona yaxın olmaqla, bütünlüklə Tibet yaylasında yaşayır, onlardan yarısı Tibet

muxtar rayonundadır. Onlar əsasən mal-qara saxlayır, həmçinin ərzaq təchizatı naminə ovçuluqla məşğul olurlar. Tibetlilərin əsas dini buddizm - lamaizmdir.

Han çinliləri əsasən şəhərlərdə və münbit çay vadilərində fəaliyyət göstərirlər, azlıqlar isə öz yaşayışlarını təmin etmək üçün kənd təsərrüfatının primitiv formalarından və ya öz mal-qaralarını dağ yamaclarında və dağlarda otarmaqla bağlı olan istehsaldan asılıdırlar. Onların zonalarının şaquli yaşayış sahəsinə görə bölünməsinə gəldikdə, adətən onlar nə qədər hündür ərazilərdə yaşayırlarsa, həyat yolları da müvafiq qaydada mürəkkəb olur.

Altay dil ailəsinə daxil olanlar üç qrupa bölünürlər: türk, monqol və mancu-tunqus qollarına. Türk dilində danışanlar arasında uyqurlar 8 milyondan çox olmaqla, ən böyük azlığı təşkil edirlər. Qazaxlar və qırğızlar isə öz xalqlarının müstəqil dövlətləri ilə sərhəddə yaşayırlar və islam dininə sitayiş edirlər. Onlar əsasən köçəri çobanlardır. Burada tayfa təşkilatına məxsus izlər hələ də nümayiş etdirilir. Bu əhalinin əksəriyyəti daxili Monqolustan muxtar regionunda yaşayır, onların çoxu tayfa bölgüsünü və çobanlıq məşğuliyyətini saxlasa da, 1970-ci illərdən çox sayda monqol oturaq kənd təsərrüfatına keçmişdir. Az sayda adam öz gəlirləri üçün ovçuluqla və xəz əldə etmək üçün tələ qurmaqla məşğul olur.

Ölkənin daxilində miqrasiya əhalinin yerləşməsində mühüm əhəmiyyətə malikdir. Sıx əhalisi olan əyalətlərin sakinləri az istifadə olunan və seyrək əhalisi olan rayonlara köçürlər. Tarixin gedişində sülalələrin dəyişilməsi, sərhəd rayonlarında boş qalmış torpaqların axtarışı, əyalətlər daxilində köçürmə siyasətinin aparılması nəticəsində müxtəlif milli azlıqların nümayəndələri daim miqrasiya edirdilər, indi isə qarışıq və ya kompakt icmalar şəklində yaşayırlar. Milli azlıqların 10 milyondan artıq nümayəndəsi Çinin bütün bucaqlarında qarışıq qruplarla yaşayır və hətta bu kiçik etnik icmalar hanlarla çuğlaşmışşlar.

Hanlar öz danışıq və yazı dilinə –çin dilinə malikdirlər. Bu dildən ölkədə, həm də onun sərhədlərindən kənarda istifadə olunur. Hanların yaşadıqları ərazilər bir qayda olaraq milli azlıqların məskunlaşdığı rayonlara nisbətən daha yaxşı inkişaf etmişdir. Bunun da səbəbi ondadır ki, millətlərin sosial inkişafı müxtəlif tarixi, coğrafi və sosial şəraitlərdən asılı olaraq qeyri-bərabər idi. Ölkə azad olana qədər han rayonlarının feodal iqtisadiyyatı kənd təsərrüfatı istehsalına əsaslandığından və kapitalist təsərrüfatçılığı elementlərindən istifadə etdiyindən kifayət dərəcədə yaxşı inkişaf etmişdi. Milli azlıqların əsas iqtisadi mərkəzlərdən aralı yaşadığı rayonlarda isə təsərrüfatın patriarxal qaydada aparılması saxlanılırdı, məsələn, bəzi xalqlarda meşələri qırıb, yandırma əkinçiliyi, monqollarda, tibetlilərdə, qazax və uyqurlarda köçəri heyvandarlıq, şimal xalqlarında isə ovçuluq yayılmışdı. ÇXR yaranana qədər

milli azlıqlar sosial-iqtisadi inkişafın aşağı səviyyəsində idilər. Demək olar ki, onların hamısı kapitalist formasiyasına qədər olan şəraitlərdə yaşayırdılar. Tibetlilərdə və bütün xalqlarda feodal təhkimçilik hüququ ağalıq edirdi. Primitiv icma sisteminin qalıqlarını oroçonlar, evenklər kimi şimal xalqlarında görmək olardı.

Çin yazısı heroqlifə əsaslanır, bu yazıların işarəsi səmərəli deyil, onun daşıdığı linqvist vahidin mənasını bildirir. Heroqlif yazısının bu xüsusiyyəti onu universal yazı vasitəsinə çevirir və müxtəlif dialektli Çində ünsiyyətin çətinliyini asanlaşdırır. Heroqlif və bütün Çin üçün yazılı ədəbi dil olan venyan həmişə ünsiyyətin yazı vasitələrinin rahat kompleksi kimi çıxış etmiş və ölkənin linqvist birliyinin rəmzi kimi xidmət etmişdir. Çin heroqlif yazısının bu funksiyası indi də qalır. Şifahi ünsiyyətdə bir-birini yaxşı və ümumiyyətlə anlamayan adamlar vahid yazı dilinə görə təmasda heç bir çətinlik çəkmirlər. Çin kinofilmlərinin ölkədə nümayiş etdirilməsi üçün onlar hökmən heroqlif subtitrlərlə müşayiət olunurlar və bu, filmin bütün əhali tərəfindən yaxşı başa düşülməsinə şərait yaradır.

Çin heroqlif yazısı III əsrin sonunda müasir görünüşü almışdır. Həmin vaxtdan 1956-cı ilədək onun işarələrinin standart cızılması dəyişməmişdir, bu da onun bütün zamanlar üçün – panxron (daimi) vasitə xüsusiyyətinə yiyələnməsinə səbəb olmuşdur. Beləliklə, Çin yazı ənənəsinin mövcud olduğu istənilən dövrdəki mətnləri asanlıqla oxumaq imkanı yaranırdı.

Çin yazısı digər heroqlif yazılar kimi çox sayda işarələrdən ibarətdir. Bu işarələrin sayı durmadan artır. Əgər IX əsrin Çin lüğətində 10 min işarə var idisə, XVIII əsr lüğətində 45 min, müasir lüğətdə isə 50 min işarə vardır. Ancaq daha çox işlənən işarələrin sayının həmişə təqribən 7 min olduğu qəbul edilirdi. Savadsızlığı ləğv etmək sistemində öyrənməyin rəsmi minimumu kəndlilər üçün 1,5 min, fəhlələr və qulluqçular üçün 2 min işarəni mənimsəməkdən ibarət idi. İbtidai təhsil alanlar 3,5 min heroqlifi bilməlidirlər.

Çin yazısının işarəsi ya bir qrafik elementdən, yaxud da onların iki və ya daha çox birləşməsindən ibarətdir. İşarə xətlərinin sayı 33-ə çata bilər, bu da heroqlifi tanımaq, mənimsəmək və təsvir etməkdə çətinliyə səbəb olur. Ona görə də heroqlif yazısı savadlılığın yayılmasında və Çin xalqının mədəni səviyyəsinin yüksəldilməsi yollarında mühüm maneə rolunu oynayır. Yazı islahatının əsas yolu onun işarələrinin sadələşdirilməsi hesab olunur. XIX əsrin sonlarında əlifba yazısının yaradılmasına cəhd edilmişdi. Lakin təklif edilən bu köməkçi vasitə ancaq 1955-ci ilə qədər mövcud olmuşdu. Çinli olmayan xalqlardan yalnız tibet, uyqur və monqol dilləri köhnə yazılardan istifadə edir. Tibet əlifbası VII əsrdən qədim uyqur əlifbasından

başlanğıcını götürməklə tətbiq olunur. Çox sayda dillər isə, hansılardakı Çində yaşayan xalqlar danışırlar, yazısız idi.

Bizim eranın əvvəlinə Çinin ümumi əhalisi 80-85 milyon nəfər olmaqla, iki min il ərzində bu ölkə Yer kürəsində daim ən çox əhalisi olan bir məkan kimi qalmışdır. Lakin sonralar daxili müharibələr və hərc-mərclik, onların da aclıq və epidemiyalarla müşayiət olunması nəticəsində əhalinin artımı bir qədər dayanmışdı. Bundan sonra baş verən əhali artımının «partlayışını» isə dövlətin sərhədlərinin genişlənməsinin və yeni rayonlardakı əhalinin siyahıya alınmasının nəticəsi kimi izah etmək olar. Ən böyük artım 1741-1850-ci illərə təsadüf edir; bu dövrdə əhalinin sayı 143 milyondan 430 milyona çatmışdı. Bu dövrdə həm də becərilən torpaqların sahəsi xeyli böyümüş, torpaq ovu bu vaxtdan özünü göstərməyə başlamışdır. Çinin ümumi əhalisinin böyük əksəriyyəti kənd yerlərində yaşayırdı.

ÇXR yaranandan sonra keçən ilk 33 il müddətində ölkə əhalisi 455 milyon nəfər artmışdı. Bu artım isə 1850-ci ildə olan əhalinin faktiki sayından da bir qədər çoxdur. Təkcə 1954-cü ildən 1958-ci ilədək ölkədə orta hesabla illik əhali artımı 17 milyon nəfər idi.

Lakin əvvəlki dövrlərdə üsyanlar və müharibələr xeyli əhali itkisinə səbəb olurdu. 1850-1864-cü illərdəki Taypin üsyanı ərzində Çinin əhalisi xeyli azalmışdı. Bəzi əyalətlər çoxlu adam itkisinə məruz qalmışdı. Tszyansu və Anxoy əyalətlərinin hər biri 20 milyon sakinini itirməklə üzləşmişdi. Əgər 1850-ci ildə Çin dünya əhalisinin 36%-ni təşkil edirdisə, XIX əsrin axırıncı onilliyində bu rəqəm 23%-dən yuxarı deyildi. ÇXR-in yaranması ərəfəsində, 1933-1945-ci illərdə müharibə itkilərinin sayının 20 milyon nəfər olduğu güman edilir.

Ölkənin ən sıx əhalisi olan rayonu Şərqi Çindir, burada ümumi əhalinin 1\4-dən çoxu yaşayır. Çində demoqrafik inkişafın müasir meylləri digər ölkələr və butövlükdə Yer kürəsi fonunda nəzərə alınsa, planetin orta sakinləri arasında Çin əhalisinin xüsusi çəkisi azalmaqda davam edəcəkdir, əgər bu nisbət indi 20%-ə yaxındırsa, gələcəkdə daha da aşağı düşəcəkdir.

ÇXR yaranandan sonrakı ilk illərdə uşaq doğumu ritminə iqtisadi və həm də demokratik amillər öz təsirini göstərdi – bunlar aqrar islahat, ərzaq bölgüsünün normallaşdırılması, qadınların və gənclərin məşğulluq şərtləri, əhalinin yaş strukturunun dəyişilməsi və sairə idi. Bu faktorların təsiri doğum səviyyəsinin qısa müddət ərzində yüksəlməsinə səbəb oldu. Əgər 60-cı illərin əvvəllərində doğum əmsalı 32-34 faiz idisə, həmin onilliyin sonunda bu 22-24 faizə düşdü. Əhalinin sürətli artımına maneə törədilməsi dövlət siyasəti səviyyəsinə qaldırıldı, mərkəzləşmiş planlaşma tətbiq olundu. Ölkədə nikah yaşının yüksəlməsi, az uşaqla («təkcə bir

uşaq») ailəyə malik olmaq kimi zəmanətlər, ilk uşağın gec doğulması, birinci və ikinci uşaq arasında 4 illik fasiləyə riayət edilməsi doğumun sürətlə azalması üçün hazırlanmış proqramın tərkib hissələri idi. Bu yolla əhalinin təbii artımının tezliklə və radikal qaydada aşağı salınması nəzərdə tutulurdu və bu vəzifəyə əsasən nail olunur.

Erkən nikahlar bünövrədən pislənirdi ki, onlar fiziki və ruhi cəhətdən valideynlərin və uşaqların səhhəti üçün zərərlidir və gəncləri təhsildən və məhsuldar işdən ayırır. 1970-ci illərin əvvəllərində artıq dörd uşaqdan sonra analara maddi yardım göstərilmirdi.

Həmin kampaniya hesabına XX əsrin 70-ci illərinin sonundan təbii artım tempi aşağı düşdü. 1979-cu ildə doğum iki dəfədən çox azaldı, 1000 nəfərə 20 körpənin doğulması düşürdü.

Çox əsrlər ərzində Çinə müstəqil dərəcədə yüksək ölüm dərəcəsi xas idi. Lakin ÇXR bu göstəricini ciddi surətdə aşağı saldı. Ümumi ölüm dərəcəsi göstəricisi 12-14% azaldı. Burada qidanın kaloritliliyi də elə yüksək deyildir, cənubi-şərqi Asiyadakından 500 kalori yüksəkdirsə, Avropadan geri qalmaqda davam edir.

Çində əhalinin strukturunun bir xüsusiyyəti də kişi cinsindən olan əhalinin qadın cinsindən olanlara nisbətən xeyli çox olmasıdır. Avropadakı nisbətin əksinə, Çində qadınların sayından 30 milyona qədər artıq kişi vardır. Hər 100 qadına Çində 107 kişi düşür, bəzi əyalətlərdə isə bu fərq daha böyükdür.

Çin vaxtilə urbanizasiyanın aşağı səviyyəsi olan ölkələrə aid idi. 1949-cu ilə qədər bu, şəhərlərdə müasir istehsalın və xidmətin kifayət dərəcədə inkişaf etməməsi ilə əlaqədar idi. 1958-cı ildə başlanan bədnam «Böyük Sıçrayış» başa çatdıqda inzibati metodlarla şəhər əhalisinin artımını saxlamaq siyasəti aparılırdı, şəhər sakinlərinin müəyyən hissəsi kənd regionlarına göndərilirdi. Çində iri şəhərlərin formalaşmasının özünəməxsusluğu həm də onların ətraf kənd rayonları ilə diffuziya etməsidir. İri şəhərlərə 6-17 min kv.km ərazi aiddir. Onlar bu nöqteyi – nəzərdən iri miqyasda qədim Yunanıstanın polislərini (şəhər-dövlətlərini) yada salırlar.

Çin üçün ən kəskin sosial-iqtisadi problem əhalinin işlə təmin edilməsidir. Köhnə Çin üçün şəhərlərdə daimi və nəhəng işsizlik, kənd əhalisinin əksəriyyətinin xroniki olaraq tam olmayan məşğulluğu xarakterik idi. Son 30 ilin yüksək inkişaf sürəti işsizlik probleminin nisbətən ləğvinə də xeyli köməklik göstərmiş, sənayenin diversifikasiyası və xidmətin inkişafı xeyli yeni iş yerlərinin açılmasına səbəb olmuşdur. Əvvəllər əmək bazarında daim təklif yüksək olurdu. 1979-cu ildə Çinin şəhərlərində 20 milyon işsiz var idi. Son onilliklərdə şəhərlərdə işsizliyin əhəmiyyətli dərəcədə azalması meyli ön plana keçmişdir. Kənd rayonlarında isə «tarlaların əsaslı tikintisi» adlanan işlərin – əkin fondunun ardıcıl olaraq qaydaya salınması,

terraslaşdırılmış torpaqların genişləndirilməsi və dağılmış torpaqların bərpa edilməsi, düzləndirilməsi, daşdan təmizlənməsi, irriqasiya və sairə daha geniş miqyaslarda aparılır. Qış-yaz mövsümlərində eyni vaxtda bu işlərə 80-120 milyon adam cəlb edilir, bu isə kişilərin və qadınların məşğulluq strukturunda sürətli dəyişikliklərə səbəb olur.

Tarixən davam edən miqrasiya da işçi qüvvəsi bazarına öz təsirini göstərirdi. Bəzən bu, aclıq və ya siyasi hərc-mərcliklə əlaqədar olurdu. Nəticədə intensiv becərilən torpaqlar artıq sakinlərsiz qalırdı, adamlar səhra torpaqlarına köçürdülər. XVIII əsrdəki kəndli inqilabları təkcə böyük sayda insan həyatı itkisinə səbəb olmadı, həm də əhalinin bu vaxt gedən köçü XIX əsrə qədər davam etdi. XIX əsrin özündə Taypin üsyanı da böyük miqyasda əhalinin öz yaşayış yerini dəyişməsi ilə müşayiət olundu. Yantszıda adamlar ordu tərəfindən qırğına məruz qalanda, sağ qalanlar da bu vaxt aclıqdan əziyyət çəkmişdi, çünki onların ərzaq ehtiyatı qarət edilmişdi. Kəndli üsyanı məğlub edildikdən sonra Hupeh, Hunan və Honandan adamlar əvvəllər sakini olmayan ərazilərə köçdülər, orada isə torpaqlar işçi qüvvəsi olmadığından becərilməmiş qalırdı.

Xarici dövlətlərin təsiri ilə XVII əsrdən XX əsrin əvvəllərinədək Çinin şimalının izafi əhalisi cənuba miqrasiya etdi və həmin ərazini inkişaf etdirilməyə başladı. Bəzən onların yolları kəsildiyindən, miqrantlar şimal tərəfə qayıtmağa məcbur olurdular.

Təsərrüfat

İnqilaba qədər Çinin iqtisadi inkişafı geri qalmış istehsal münasibətləri ilə və xarici kapitaldan asılılıq nəticəsində tormozlanırdı. Kənddə feodal-sələmçilik istismarına məruz qalan və icma-nəsil qalıqları ilə bağlanmış, primitiv əmək alətlərinə əsaslanan kiçik yarımnatural təsərrüfat üstünlük təşkil edirdi. Güclü əhali artımı şəraitində kütləvi şəkildə torpaqsızlaşma, yoxsulluq, aclıq və taqətdən salan zəhmət Çin kəndlilərinin böyük əksəriyyətinin acı qisməti idi.

Fabrik-zavod müəssisələrinin məhsulları ümumi daxili məhsulun kiçik hissəsini təşkil edirdi. Sənaye müəssisələrinin çoxu primitiv avadanlıqla təchiz edilmişdi. Onların çoxu ölkənin şərqindəki liman şəhərlərində yerləşirdi. İki şəhərin – Şanxayın və Tyantszinin payına bütün sənaye müəssisələrinin 60 faizi düşürdü. Dənizkənarı rayonların sənayesi idxal olunan xammala və avadanlığa istiqamətlənmişdi.

ÇXR yarandıqdan sonra bərpa, çox hallarda isə yeni təsərrüfat sahələri yaradılmağa başlandı. Axı mövcud müəssisələrə də imperialist Yaponiyası ilə müharibədən və Vətəndaş müharibəsi vaxtı böyük ziyan dəymişdi. Kənddə feodal münasibətləri ləğv edildi. Mülkədar torpaqları tikililəri və avadanlıqları ilə birlikdə zəhmətkeş kəndlilərin mülkiyyətinə keçdi. Ölkənin sənayeləşmə xətti irəli sürüldü. Bu sahədə birinci beşillik plan (1953-1957-ci illər) mühüm addım kimi xarakterizə olunur. İqtisadiyyatın inkişafında böyük müvəffəqiyyətlər qazanıldı, əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcələ yüksəldi.

Milli gəlir 1,5 dəfə, sənayenin ümumi məhsulu 2 dəfədən çox artdı, kənd təsərrüfatında isə artım 25 faizə bərabər idi. Fəhlə və qulluqçuların əmək haqqı 30 faiz artdı, kəndlilərin gəlirlərinin artımı da buna yaxın idi.

Ölkənin iqtisadiyyatında kəmiyyət göstəriciləri ilə yanaşı dərin keyfiyyət dəyişiklikləri də baş verdi. Milli gəlirin yaradılmasında sənayenin xüsusi çəkisi artdı, sənayedə əmək məhsuldarlığı yüksəldi. Çin üçün yeni olan avtomobil və traktor maşınqayırması kimi sahələr meydana gəldi.

1958-ci ilin mayında isə partiya rəhbərliyi real inkişaf xəttindən uzaqlaşıb, onun əvəzinə fantastik inkişafa dair volyuntarist layihə irəli sürdü. Bu layihəyə görə ümumi daxili məhsul istehsalının demək olar ki, 5 dəfə, o cümlədən polad istehsalının 15-18 dəfə, alüminium istehsalının 33 dəfə, energetika avadanlığı istehsalının 20 dəfədən çox artması nəzərdə tutuldu. Bu, Çində və xaricdə kədərli şöhrət tapmış «Böyük Sıçrayış» siyasəti idi.

Sənayedə başlıca diqqət qara metallurgiyaya verildi, bu vəzifənin yerinə yetirilməsi üçün iri və orta müəssisələrin tikintisi ilə yanaşı, hər yerdə kiçik domna sobaları və primitiv poladəritmə sobaları yaradıldı, onların sayı 2 milyona çatdı. Bu kiçik sobalar aşağı keyfiyyətli və on dəfələrlə baha məhsul buraxırdı. Çox vaxt bu məhsullar yararsız olurdu. «Kiçik metallurgiya» uğrundakı kütləvi kampaniya nəqliyyatın da işini çətinləşdirmişdi.

«Böyük Sıçrayışın» uğurla həyata keçirilməsi vəzifəsini Çin cəmiyyətinin sosial təşkilatlanmasının yeni forması – xalq kommunası təmin etməli idi. İlk plana görə xalq kommunaları həm şəhərdə, həm də kənddə yaradılmalı idi. Lakin şəhərdə onu yaratmaq cəhdi hətta təcrübə vaxtı uğursuz oldu. Kənddə isə «kommunalaşdırma» çox qısa müddətdə həyata keçirildi. 1958-ci ilin sentyabrında artıq «kommunalar» 98 faiz kəndli həyatını əhatə edirdi. Özü də kənd kommunaları süni surətdə böyüdülürdü, xeyli sayda kəndi əhatə edirdi. Nəticədə 740 min kənd təsərrüfatı istehsalı kooperativi 26 min xalq kommunasına çevrildi. Onlarda kənd təsərrüfatının çox sahələri ilə yanaşı sənaye istehsalı, ticarət, maarif və hərbi iş həyata

keçirilirdi. Hər bir kommuna universal istehsal sahəsinə çevrilməli idi və əslində yeni səviyyədə natural təsərrüfata qayıtmaq vəzifəsini güdürdü. Əmək haqqının bir hissəsi «pulsuz» ərzaq ödənişi ilə əvəz olunurdu. Bu yolla guya bölgü sistemində sosializmdən kommunizmə keçid baş verəcəkdi, «hər kəsə tələbatına görə» prinsipi həyata keçiriləcəkdi. Pulsuz təchizat ərzaq ehtiyatını nəzərə almadan tətbiq edildiyindən taxılın və digər qida maddələrinin izafi məsrəfinə səbəb oldu.

Kommunalar qarşısında «təşkilatı hərbiləşdirməklə kollektiv həyat tərzi sürmək» vəzifəsi qoyulmuşdu, bəzi əyalətlərdə polad və çuqun tökməklə və digər işlərlə məşğul olan əmək orduları yaradılmağa başlandı.

Xalq kommunaları bir az əvvəlki kooperativlərdən xeyli iri idi və minlərlə, bəzən hətta on minlərlə kəndli həyətini əhatə edirdi. Əkinçilikdə əsas diqqət «çox dərin şuma» və «sıxlaşdırılmış səpinə» verilirdi. Bu isə bütünlüklə aqrar elminə və təcrübəsinə əsaslanmadığından, hansısa bir ciddi məhsul artımı əməl gətirmədi.

«Böyük sıçrayış» siyasəti bütün iqtisadiyyatın ciddi surətdə pozulmasına səbəb oldu. Müəssisələrin avadanlıqla, elektrik enerjisi və xammalla təchizatında fasilələr meydana gəlirdi, əmək intizamı kəskin zəiflədi. Bütün bunların nəticəsində XX əsrin 60-cı illərinin əvvəllərində sənaye və kənd təsərrüfatı istehsalı, xarici ticarət dövriyyəsi xeyli aşağı düşdü, əhalinin ərzaqla, çox işlənlənilən mallarla təchizatı pisləşdi. Ölkənin bəzi rayonlarında aclıq başladı, epidemiya xəstəlikləri meydana gəldi. 1961-ci ildə sənaye istehsalı 38.2 %, 1962-ci ildə isə daha 16.6 % aşağı düşdü. Kənd təsərrüfatı məhsulları istehsalı ildə beş il əvvəlki səviyyəyə nisbətən 19 % aşağı idi.

Belə bir şəraitdə Çin rəhbərliyi yeni iqtisadi siyasətə görə əsaslı tikintinin həcmini kəskin surətdə azaltdı, zərərlə işləyən müəssisələri bağladı, şəhər əhalisinin bir hissəsini kəndə göndərdi. Kənddə istehsal birliyi kimi kommunaların çoxu öz fəaliyyətini faktiki olaraq dayandırdı. Kəndlilərə onlardan kommuna yaradılan vaxt alınmış həyətyanı torpaqlar, mal-qaranın və əmək alətlərinin bir hissəsi qaytarıldı. «Pulsuz ərzaq təchizatı» xeyli azaldıldı.

XX əsrin 60-cı illərinin ortalarında ölkə «mədəni inqilaba» cəlb edildi, bu tədbir də ÇXR iqtisadiyyatının bütün sahələrinin normal inkişafını çox illər ərzində ləngitdi. Mao-Tszedən və onun yaxın ətrafı 1966-cı ildə «böyük proletar mədəni inqilabı» adını alan, mahiyyətcə isə daha çox siyasi çevrilişə bənzəyən tədbiri həyata keçirdi. Siyasi əleyhdarlar izolə edildi, partiya, həmkarlar ittifaqı, gənclər təşkilatları kənarlaşdırıldı. «Mədəni inqilabın» qurbanları arasında çox sayda görkəmli partiya xadimləri, hərbi xadimlər, ÇKP Mərkəzi Komitəsinin əksər hissəsi var idi. Kütləvi repressiyalar milyonlarla vətəndaşları əhatə etdi.

70-ci illərin ortalarında kənd təsərrüfatının, sənayenin, elmin və texnikanın hərtərəfli modernləşdirilməsi xətti elan edildi, bu, “dörd modernləşhdirilmə» adlanırdı. Bu plana görə Çinin 2000-ci ilə dünyanın iqtisadi cəhətdən qabaqcıl ölkələrinin səviyyəsinə çatması nəzərdə tutulurdu. Bu məqsədə nail olunmaqla Çinin milli gəlir, sənaye və kənd təsərrüfat məhsullarının istehsalı həcminə görə dünya ölkələrinin birinci cərgəsinə çıxması planlaşdırılırdı.

ÇXR iqtisadiyyatı üçün kənd təsərrüfatının böyük əhəmiyyəti bir sıra şərtlərlə müəyyən olunur. Bu sahə ərzaq mallarının, həmçinin yüngül sənayeni xammalla təmin etməyin başlıca mənbəyidir. Kənd təsərrüfatında Çinin əvvəllər ixrac resurslarının xeyli hissəsi istehsal edilirdi. Çinin kənd təsərrüfatında ənənəvi olaraq taxılçılıq istiqamətinin çox seçildiyi əkinçiliyə olan meyl daim şox güclü olmuşdu. Burada bitkiçilik kənd təsərrüfatının aparıcı sahəsidir, heyvandarlıq isə köməkçi təsərrüfatdır. Çində əkinlər ərazinin 1\10-ni; meşə ilə örtülü sahələr 1\8-ni; otlaqlar isə 1\3-ni tutur. Çin kəndliləri əsrlərlə isti və rütubətli iqlimi olan çay vadilərindən, həmçinin ölkənin çərqindəki münbit torpaqlardan istifadə etmiş və onları becərmişdir. Düzənlik, əsasən şərq vilayətlərindəki sahələr Çin ərazisinin yarısından azını təşkil etməklə, orada əkin sahələrinin 9\10-u yerləşir, 1\10-i sə qərb əyalətlərinin payına düşür. Böyük Çin düzənliyi daha çox əkilmişdi, bura ölkə əkinçiliyinin ən qədim ocaqlarından biridir. Yantszı çayının deltasındakı ərazi də əsasən əkilmişdir. Burada becərməyə yararlı hər kiçik torpaq parçasından istifadə olunur. Əkinə yararlı xam torpaqların sahəsi 35 milyon hektar olmaqla əkin fondu üçün olduqca böyük ehtiyatdır.

Laterit torpaqlar (onlar rütubətli tropik meşələrin altında formalaşır) texniki bitkilər üçün xüsusən yararlıdır. Belə torpaqlarda bütün pambıq məhsulunun 70%-i istehsal edilir. Laterit torpaqlarda həmçinin çay plantasiyalarının 50%-i yerləşir. Onlarda həmçinin barama istehsalı üçün yarpaqları xammal olan tut ağacı və həmçinin meyvə ağacları yaxşı böyüyür. Lakin əhalinin artması şəraitində adambaşına düşən əkinçilik sahəsi ölçülərinin azalması baş verir. Mövcud əkin fondunun məhsuldarlığının artırılması imkanları hələ də qüvvədə qalmaqdadır. Əsas əkinlər əkinçilik üçün bir sıra əlverişli cəhətləri ilə – vegetasiya dövrünün uzun müddətliliyinə imkan verən, əsasən yazda yağan yağışların bolluğu və yaxşı torpaqları ilə fərqlənən rayonlarda yerləşir. Bu ərazilərin xeyli hissəsində il ərzində iki, uzaq cənubda isə hətta üç bitkiçilik məhsulu götürməyə imkan verir. Nəticədə faktiki olaraq səpin sahəsi əkin sahəsindən demək olar ki, 1,5 dəfə çox olur.

Çində bitkiçiliyin məhsuldarlığını yüksəltməyin ən əsas vasitələrindən biri süni suvarmadır. Ölkənin mərkəzi və cənub rayonlarında geniş suvarma və drenaj

sistemlərinin tikintisi bu ərazilərdə kənd təsərrüfatının əsas sahəsi olan düyüçülüyü qoruyub saxlamağın və inkişaf etdirməyin mühüm şərti kimi xidmət edir. Süni suvarma xüsusən ildə iki dəfə məhsul götürmək üçün zəruridir. Suvarılan torpaqlarda bir qayda olaraq məhsuldarılq quru dərə torpaqlarına nisbətən 2-2,5 dəfə yüksək olur. Bundan başqa, hidrotexniki qurğuların tikintisi olmadan kənd təsərrüfatını quraqlıq və daşqınlar təhlükəsindən qorumaq da mümkün olmazdı.

Çin dünyanın iri dövlətləri arasında əkin fondunda suvarılan sahələrin payına görə qədimdən fərqlənirdi. Hazırda bütün əkin torpaqlarının beşdə birinə yaxını suvarılır. Əkinçiliyin quraqlıqdan əziyyət çəkdiyi Böyük Çin düzənliyində suvarma üçün əsasən subartezian quyularından çıxarılan sudan istifadə olunur. Kənd təsərrüfatı su istehlakına görə Çin iqtisadiyyatının ən böyük sahəsi hesab olunur. Ancaq suyun praktiki olaraq izafi miqdarı yalnız Yantszı çayı hövzəsində mövcuddur.

Torpağın uzun əsrlər ərzində intensiv istifadə edilməsi, onun münbitliyini qoruyub saxlamaq üçün fasiləsiz olaraq qayğı göstərməyi tələb edir. Son onilliklərdə mineral gübrələrin tətbiqi xeyli artmışdır, onların çatışmaması əvvəllər əsasən yerli gübrələrin istifadəsi hesabına ödənilirdi. Ölkədə yerli üzvi gübrələrin onlarla növündən istifadə olunur. Onların ümumi həcmi isə olduqca böyük rəqəmdə ifadə olunur. Çində istifadə edilən əkinçilik sistemi (bir sahədə eyni vaxtda müxtəlif bitkilərin becərilməsi, torpaq sahələrinin, xüsusən düyü əkən rayonlarda xırda hissələrə bölünməsi) kənd təsərrüfatı texnikasının tətbiqini xeyli çətinləşdirir.

Çində ən mühüm taxıl bitkisi düyüdür. Əkin sahələrinin xeyli hissəsini düyü tarlaları tutur, taxıl istehsalının yarısı onun payına düşür. Düyüçülüyün əsas rayonları Huan Ho çayından cənubda yerləşir. Bu hər şeydən əvvəl Yantszı hövzəsidir ki, orada düyü əkinlərinin 2\3 hissəsi toplanmışdır, həm də cənub dənizkənarıdır. Düyüçülüyün ayrı-ayrı ocaqları Huay Ho çayından şimalda da vardır, Koreya-Çin sərhədi boyunda və Amur çayının hövzəsindədir.

Çin dilində «yemək» sözünə bir yox, iki söz uyğun gəlir – «çi fan», hərfi mənada bu, «düyü yemək» deməkdir. Səhər yeməyi çin dilində «tszao fan» adlanır, bu, «erkən düyü» mənasını verir, nahar «u fan» və ya «günorta düyüsü», şam yeməyi isə «van fan» və ya «gec yeyilən düyü»nü bildirir. Etimologiyaya azacıq nəzər saldıqda bu qida növünün çinlilərin həyatında necə böyük rol oynadığı məlum olur. Düyü Çinin mərkəzi və cənub rayonlarında yaşayan yüz milyonlarla insanın qida maddəsidir. Onun çatışmaması qida ratsionuna hökmən öz mənfi təsirini göstərir.

Düyüçülük ölkədə uzaq qədimdən inkişaf etməyə başlamışdır. Düyü bitkisinin becərilməsi bir sıra şərtlərlə bağlıdır. Düyü qiymətli ərzaqdır, qidalılığına görə dənli bitkilər arasında buğdadan sonra ikinci yeri tutur. Ən mühüm cəhət isə odur ki, heç bir

ərzaq bitkisi suvarılan düyü kimi belə yüksək məhsul verə bilməz. Bu şərait müstəsna dərəcədə yüksək sıxlıqlı kənd əhalisi rayonlarında və daimi torpaq kasadlığında həlledici əhəmiyyətə malikdir. Düzdür, düyü təkcə başqa bitkilərdən 2-3 dəfə artıq məhsul vermir, həm də daha böyük əmək sərfi tələb edir.

Düyüyə nisbətən daha çox rütubət, günəş işığı və isti lazımdır. Bütün bunlar Çinin mərkəzi və cənub rayonlarında vardır. Çin kəndliləri 10 minə yaxın düyü sortu yaratmışlar. Bir sort tez yetişir, digərləri isə gec yetişir. Müxtəlif vegetasiya müddəti olan sortların seçilməsi rayonların çoxunda ildə eyni sahədən iki düyü məhsulu götürməyə imkan verir. Haynan adasında isə hətta üç məhsul götürmək mümkündür. Bundan ötrü ya gec yetişən sortlar tez yetişən sortların yetişməsinə qədər cərgələr arasına əkilir, yaxud da məhsul yığıldıqdan sonra onu əvəz edir. Düyünün su sortları daha geniş yayılmışdır, bu da tarlanın suya batırılmasını tələb edir. Düyü sahələrinin səthi ideal qaydada düz və üfüqi olmalıdır, ona görə də onların ölçüsü xırda olur. Düzənlikdə belə sahələri düzəltmək daha asandır, lakin kəndlilər düyü altına dağ yamaclarını da, onlarda süni terraslar yaratmaq yolu ilə uyğunlaşdırırlar. Düyünün toxumu əvvəlcə xüsusi xırda sahələrdə səpilir – bunlar şitillikdir, sonra, təqribən bir aydan sonra həmin şitillər – körpə bitkilər tarlaya köçürülür.

Düyü çox vaxt dəyişilmədən eyni tarlada uzun illər boyu becərilir. Yalnız bəzi əyalətlərdə yay düyüsü payızlıq buğda və ya yazlıq rapsla növbələşdirilir. Bəzən düyü biçildikdən sonra qış mövsümündə yaşıl gübrə rolunu oynayan bitkilər səpilir.

Çin kəndliləri təkcə düyü dənindən deyil, (o bilavasitə qidaya gedir, həmçinin ondan müxtəlif spirtli içkilər və kraxmal hazırlanır), həm də düyünün samanından istifadə edirlər. Samanla evlərin damı örtülür, geniş günlüklü şlyapalar hazırlanır, həm də yağışdan qoruyan saman-plaş düzəldilir. Saman həm də mal-qaranın altına döşənir, kağız istehsalı üçün xammal kimi istifadə olunur.

Öz əhəmiyyətinə görə ikinci dənli bitki olan buğda, Çində VI-VII əsrlərdən yayılmağa başlanmışdır. Payızlıq buğda əsasən Böyük Çin düzənliyində yayılmışdır, yazlıq taxıl isə daha çox şimali-şərqi Çində becərilir. Cənubi və mərkəzi rayonların çoxunda buğda payızlıq bitki kimi istifadə olunur. Böyük Çin düzənliyindəki buğda rayonları bəzən yaz şaxtalarından ziyan çəkir. Buğda tarlası üçün erkən və isti yazda şaxta vurması xüsusilə qorxuludur. Yaz quraqlığı ilə üst-üstə düşən şaxta vurması daha böyük təhlükədən xəbər verir. Vaxtında aparılan suvarma və ya şaxta vurmasından sonra yağan yağış adətən bitkinin inkişafını bərpa edir və dəyən ziyanın azalmasına səbəb olur.

Digər dənli bitkilər isə qarğıdalı, qaolyan, darı, arpa və qarabaşaqdır. Qarğıdalı Çində ilk dəfə XVI əsrdə becərilməyə başlamışdır, axı bu bitki Avropaya da Xristofor

Kolumbun Amerikanı kəşf etməsindən sonra gətirilmişdi. Çində onun tez yetişən sortları seleksiya edilmişdir ki, bu da dağ rayonlarında nisbətən qısa vegetasiya müddətində məhsul yetişdirməyə, vegetasiya dövrü uzun olan regionlarda isə ildə iki məhsul və ya iki ildə üç məhsul götürməyə imkan vermişdir. Qarğıdalı çinlilər tərəfindən qida üçün, mal-qara yemi və müxtəlif sənaye sahələri üçün xammal kimi istifadə edilir.

Qaolyan barədə Çin yazılı mənbələrində VI əsrdən rast gəlinir. Bu bitki əvvəlcə cənubi-şərqdə becərilsə də, sonralar Böyük Çin düzənliyində geniş yayılmağa başlamışdır. Bunun səbəbi qaolyanın quraqlığa çox davamlı olması, torpağın münbitliyinə tələbkar olmaması və quraqlıq ərazilər üçün daha mühüm cəhət kimi duza, şorana davamlı olmasıdır. Qaolyan dəni qida kimi və spirtli içkilər üçün xammal kimi istifadə olunur. İri gövdəsi meşəsiz düzənlik rayonlarda yanacaq, tikinti materialı və kağız sənayesi üçün xammal kimi istifadə edilir.

Darı və çumiza (Çin darısı) da qaolyan kimi torpağa tələbkar olmayan bitkidir. Tez yetişən arpa əsasən dağlıq rayonlarda becərilir. Arpanın xüsusi növü olan tsinke Tibetdə başlıca dənli bitki hesab olunur, dəniz səviyyəsindən 4200 metr hündürlüyə qədər olan torpaqlarda becərilir. Həmin yüksəkliklərdə yağıntının miqdarı da çox azdır, hətta səhralarla müqayisə edilə bilər. Çin dünyanın ən çox batat yetişdirən ölkəsidir. Batatın meyvə kökü kraxmal və şəkərlə çox zəngindir. Bu bitkini, demək olar ki, hər yerdə becərirlər.

Çin pambığın, soyanın, araxis və tütünün iri istehsalçısıdır. Əsas pambıq rayonları Huan Ho və Yantszı çaylarının hövzələrində yerləşir. Qədimdən Böyük Çin düzənliyində pambığı suvarmasız becərirdilər. Bu isə havasının dəyişkən olması hesabına çox vaxt pambığın keyfiyyətinə mənfi təsir edirdi. Kəndlilər pambıq əkinlərini quraqlıqdan qorumaq üçün onları quyulardan çəkilən su ilə suvarırdılar, lakin bu, heç də həmişə kömək etmirdi, çünki pambıq bitkisi başqa bitkilərdən, məsələn, payızlıq buğdadan çox su tələb edir.

Çində əsas qida piyi mənbəyi kimi çox müxtəlif yağ verən bitkilər yayılmışdır. Onlardan başlıcaları araxis, raps, küncüt, soyadır. Yantszı hövzəsində hər yerdə becərilən raps yeganə yağ verən bitkidir ki, qış vaxtı yetişdirilir. Soya əkini sahələri isə taxıl istehsalını artırmaq vəzifəsi sayəsində xeyli azalmışdır. Ölkədə həm də şəkər çuğunduru ilə yanaşı, şəkərə olan tələbat ancaq Avstraliya və Braziliyadan gətirilən məhsul hesabına ödənilir.

Çay Çin ədəbiyyatında ilk dəfə IV əsrdən xatırlanır, həmin vaxt ondan dərman kimi istifadə edirdilər. VI əsrdən isə çay adi içkiyə çevrildi. Lakin hələ çox vaxt Çin və çoxlu Avropa təbibləri çayı bütün xəstəliklərin dərmanı – panatseya hesab

etdiklərindən onu xəstələrə yazırdılar. Çay bitkisi torpağa tələbkar deyildir, qısamüddətli şaxtaya da dözə bilir, lakin çox miqdarda yağıntıya möhtacdır. Onu şərqi dəniz kənarının, Yantszı və Yunnanın hövzələrinin təpəlik yerlərində becərirlər. Çində yaşıl çayın çoxlu sortları mövcuddur. Bəzilərinə xoş iy vermək üçün onlara jasmin ləçəyi qatırlar. Qara və ya çinlilərin onu adlandırdıqları kimi «qırmızı» çay demək olar ki, yalnız ixrac üçündür.

Çinin, Haynan adası da daxil olmaqla, uzaq cənubu ölkədə ən uzun vegetasiya dövrü ilə fərqlənir, burada bitkilər bütün il boyu inkişaf edir. Bütün il ərzində yüksək temperatur və böyük miqdardakı yağıntılar bir sıra qiymətli tropik və subtropik bitkiləri becərməyə imkan verir, onlara heveya, kokos və yağ verən palmalar, kofe ağacı, ananaslar daxildir.

Çində tarixən heyvandarlığın, təsərrüfat üslubu, sürünün tərkibi və yayılma arealına görə iki tipi mövcud olmuşdur. Onlardan birincisi əkinçiliklə sıx bağlıdır və köməkçi xarakter daşıyır. Əsasən çinli əhalisi olan şərqi düzənlik rayonlarda daha çox donuzçuluqla, qoşqu üçün iri buynuzlu qaramal yetişdirməklə, həmçinin quşçuluqla məşğul olurlar. Ərazinin yüksək əkin səviyyəsinə görə və otarmaq üçün sahələr, çəmənlik və otaqlar məhdud olduğundan ev heyvanları bütün il boyu bağlı şəraitdə saxlanılır.

Əsasən qeyri-çinli xalqların (monqolların, tibetlilərin, qazaxların, uyqurların və s.) yaşadığı qərb rayonlarına başqa tip təsərrüfat – ekstensiv köçəri və ya yarımköçəri heyvandarlıq xasdır. Həmin ərazilərdə qoyunçuluq, ət-süd novu olan iribuynuzlu mal-qara yetişdirilməsi və atçılıq yayılmışdır.

Donuzçuluq Çində hələ bizim eradan əvvəl mövcud idi. Donuzların sayına görə Çin dünyada ən qabaqcıl yerlərdən birini tutur. Bu sahə böyük iqtisadi əhəmiyyətə malikdir, donuz əti çinlilər tərəfindən istehlak edilən ət məhsulunun əsas hissəsini təşkil edir, donuz tükü və içalatı isə ixrac maddəsi hesab olunur. Bundan başqa, donuz peyini bitkiçilikdə üzvi gübrə kimi istifadə olunur.

Çox əsrlər ərzində süni seçmə, seleksiya bir sıra qiymətli donuz cinslərinin yetişdirilməsinə səbəb olmuşdur ki, bu cinslər ölkə sərhədlərindən kənarda da geniş yayılır. Quandun donuzlarından İngiltərədə məşhur Yorkşir cinsini meydana gətirmək üçün istifadə olunmuşdur.

Çin torpaqçılığında əsas qoşqu vasitəsi iri buynuzlu mal-qaradır, onu hər yerdə saxlayırlar, lakin ölkənin şimal hissəsində onlar daha çoxdur. Bir qayda olaraq xırda, kiçik boylu, lakin tələbkar olmayan və dözümlü heyvanlar müstəsna olaraq sahələrin becərilməsi və yüklərin daşınması üçün istifadə olunur. Düyüçülük rayonlarında su basmış sahələrin becərilməsi üçün böyük əzələ enerjisi tələb olunduğundan, bu iş

camışların köməyi ilə görülür. Şimal rayonlarında çöl işlərində həmçinin qatır və eşşəklərdən istifadə olunur. Qədim zamanlarda Çində heyvandarlığın mühüm sahəsi atçılıq idi. Hətta Çinin ilk imperatoru Tsin Şi Huandinin əcdadlarının yaxşı cins at bəsləməklə məşğul olduqları güman edilir. At yük daşımaq üçün, sonralar isə tarla işlərini görmək üçün istifadə olunurdu.

Çinin şərq hissəsində quşçuluq geniş yayılmışdır. Çin kəndliləri çox sayda qiymətli quş növləri yetişdirmişlər, onlar ölkənin sərhədlərindən kənarda da yaxşı tanınırlar. Ağ Pekin ördəyini və bir yerli toyuq cinsini hələ XIX əsrin ikinci yarısından ABŞ, İngiltərə, Almaniya və Yaponiyada yetişdirməyə başlamışdılar.

Çin Yaponiya və ABŞ-la birlikdə molyuskların və xərçəngəbənzərlərin dünyadakı ovunun böyük hissəsini verir. Balıq və dəniz məhsulları ovuna görə Çin dünyada üçüncü yeri tutur. Dəniz akvakulturasına da böyük diqqət verilir. Çin ərazisini əhatə edən dənizlərdə 1 mindən artıq balıq növü vardır, onlardan ov əhəmiyyətinə yalnız 50-dən az növ malikdir. Dəniz məhsullarının əsas hissəsini Sarı dəniz və Şərqi-Çin dənizi verir. Bir az əvvəllər onlar yer kürəsinin ən məhsuldar dənizləri hesab olunurdu. Şirin sudakı balıqların isə Çində 500-dən çox növü vardır, onlardan yalnız 20-30 növ ov əhəmiyyətinə malikdir. Balıq ovunun 4\5 hissəsini karp ailəsinə məxsus olanlar təşkil edir. Hələ qədimdən Çində düyü tarlalarında balıq becərilməsi tətbiq edilirdi. Bu balıqlar (əsasən ağ amur və qalınalınlı balıq növləri) demək olar ki, yedizdirilmir, onlar qida axtarışında torpağı yumşaldır və bu yolla hava mübadiləsinə kömək edir, düyünün zərərvericilərini, bəzi növlər isə bitən alaqları yeməklə məhv edirlər.

Çinin rayonlarının çoxunun sakinlərinə uzun keçmişə gedib çıxan süni meşə salmaq ənənələri və adətləri xasdır. Meşə ehtiyatlarının məhdudluğu, həm də torpağın eroziyası və sovrulması, qumların irəliləməsi və ölkənin şimal rayonlarında tez-tez baş verən quraqlıqlar mövcud meşə fondunun qayğı ilə qorunması və müntəzəm olaraq meşə salma işlərini zəruri edir. Xalq bunun vacibliyini olduqca çoxdan anlamışdır. Mərkəzi və cənub rayonlarının kəndliləri qiymətli ağac növlərinin əkilməsi sahəsində böyük təcrübəyə malikdirlər. Kunninqaliya ağacının becərilməsi dağ yerlərində kəndlilərin gəlirinin əhəmiyyətli hissəsini əmələ gətirir, bu ağac çox tez böyüyür, 25-30 ildə artıq kəsilməyə yararlı olur. Onun suya, çürüməyə davamlı olan ağac materialı inşaat və bəzək əşyaları düzəltmək üçün istifadə edilir. Yantszı çayının orta və aşağı axınındakı yerli şam ağacı dəmir yollarının şpallarının hazırlanması üçün, kağız və tikinti materialı kimi istifadə olunur. Yantszıdan cənuba bambuk xüsusən mühüm yer tutur.

Sənaye

ÇXR respublikasının mövcudluğunun 65 ili ərzində ölkənin sənayesi nəinki xeyli inkişaf etmişdir, son 30 ildə isə bu vaxtilə geridə qalmış diyar əsl sənaye nəhənginə çevrilmişdir. Keçən əsrin 80-ci illərinin başlanğıcına ağır sənaye məhsullarının istehsalının dəyəri 1949-cu illə müqayisədə 90 dəfə, yüngül sənayeninki isə 20 dəfə artmışdı. 2014-cü ilin göstəricilərini ÇXR-nin ilk illərinin göstəriciləri ilə müqayisə etməyə isə, onlar əslində müqayisəedilməz olduğundan ehtiyac da yoxdur.

Çinin yanacaq balansının əsasını daş kömür təşkil edir, onun payına istehlak edilən enerji resurslarının əhəmiyyətli hissəsi düşür. Əhəmiyyətinə görə ikinci enerji mənbəyi neftdir. Ölkə neftə olan ehtiyacının 2\3-nə qədərini öz istehsalı hesabına ödəyir. Lakin Çinin bir paradoksal xüsusiyyəti də ondan ibarətdir ki, neft idxalı, ölkənin öz yataqlarında istifadə ediləndən ucuz başa gəlir. Bəzi neft məhsulları istehsalının dəyəri idxal edilənlərdən 50% yüksəkdir. Ancaq burada digər enerji növlərinə də böyük diqqət verilir. 2010-cu ildə Çin güclü külək generatorlarının qoyulmasına görə ABŞ-ı ötüb, dünya liderinə çevrildi.

Çində öz əsaslı tikintisinə gedən sement istehsalı da ABŞ-dan dəfələrlə irəlidədir. Çin həm də ABŞ-ı əvəz edərək, tikilmiş və tikilməkdə olan göydələn binaların sayına görə birinci yerə keçmişdir. Çanşa şəhərində hündürlüyü 838 m. olan, 220 mərtəbəli «Səma şəhəri» adlanan göydələn inşa edilir ki, bu da Dubaydakı «Bürc əl-Xəlifə”ni də ötüb keçəcəkdir.

ÇXR olduqca sürətli templə texnologiya sferasını inkişaf etdirir və qeydə alınmış patentlərin miqdarına görə ABŞ-ı xeyli qabaqlayır. Səmaaltı ölkəsində istehsal edilən mallar faktiki olaraq dünya bazarını doldurmuşdur.

Çin iqtisadiyyatının uğuru onun islahatlara və innovasiyalara istiqamətlənməsidir, onlar bütövlükdə dünya iqtisadiyyatının yenidən qurulması üçün də zəruridir. Çin bürokratiyası bazar iqtisadiyyatının bir hissəsidir, çünki bu, iş adamlarının fəaliyyətini xeyli asanlaşdırır.

ÇXR-in iqtisadiyyatı son üç onillikdə daim və sürətlə artır, ona heç bir dünya böhranı da təsir göstərə bilmir. XXI əsrin başlanğıcında Çin sənaye məhsulunun istehsalına görə, həm də kosmik tədqiqatlara və nüvə silahına malik olan dövlət kimi dünyanın fövqəldövlətinə çevrilmişdir.

Çin öz təhsil sistemini inkişaf etdirmək qayğısına qalır, xaricdə (xüsusən ABŞ-da və Yaponiyada) çoxlu tələbələr oxutdurur, texnologiya idxalına hər cür həvəs göstərir.

Mədəniyyət: ənənələr və müasirlik

Çinlilərin (hanların) və Çinin digər xalqlarının maddi mədəniyyəti ayrı-ayrı etnosların sosial-iqtisadi inkişaf prosesində bir neçə min illər boyu əmələ gəlmişdir. Çin xalqlarının maddi mədəniyyətinin formalaşmasında məhsuldar qüvvələrin və istehsal münasibətlərinin qeyri-bərabər inkişafının, həmçinin fiziki-coğrafi rəngarənglikdə öz əksini tapan ekoloji şəraitin spesifikası da öz rolunu oynamışdır.

Müasir Çinin ərazisi iki iri tarixi-etnoqrafik regiona: Şərqi-Asiya və Mərkəzi-Asiya regionlarına bölünmüşdür. Birinciyə, Çinin bütün şərq əyalətləri, ikinciyə Daxili Monqolustan muxtar rayonu, Qansu, Tibet və Sintszyan – Uyqur muxtar rayonlarının böyük hissələri daxildir. Şərqi-Asiya regionunda qədimdən mülayim quraq zonanın əkinçilərinin təsərrüfat-mədəni tipi üstünlük təşkil etmişdir. Mərkəzi-Asiya tarixi-mədəni regionunda iki vilayət; Şimali-qərb (Sintszyan-Uyqur) və Qərb vilayətləri (Tibet) seçilir. Birincidə mülayim quraqlıq qurşaqdakı əkinçilər qrupları köçəri heyvandarlarla qarşılıqlı əlaqədədirlər. Qərb vilayətində (Tibet) yüksək dağlıq təsərrüfat-mədəni tipi – əkinçilik və heyvandarlıqla məşğul olanlar üstünlük təşkil edir.

Şimali Çinin müxtəlif xalqların yaşayış evi çox böyük müxtəlifliyinə görə fərqlənir. Demək olar ki, hər yerdə evlərin tikintisində gil geniş tətbiq edilir. Çin ənənəvi arxitekturasının qaydalarına görə karkas tipli evlər daşla üz çəkilmiş yüksək platformalarda ucalır. Damın uclarına çin arxitekturası üçün xarakterik olan yuxarıya əyilmə görünüşü verilir. Çin ənənəsinə görə binaya giriş cənub tərəfdən olur. Evlərdə mebel çox azdır, ancaq müxtəlif formada olan stollar və ev əşyaları üçün ağacdan olan sandıqlar xarakterikdir.

Çinlilərdə və koreyalılarda ət xörəklərini əsasən donuz və toyuq ətindən hazırlayırlar. Huey və uyqurlarda isə qoyun və mal əti çox işlədilir. Uyqurlarda plov çox populyardır. Çinlilərdə və koreyalılarda çay və dəniz balıqlarından, xərçəngəbənzərlərdən, su bitkilərindən və digər «dəniz nemətlərindən» müxtəlif

xörəklər hazırlamağa üstünlük verilir. Hər yerdə tünd qida əlavələri – soya sousu, qırmızı bibər, sirkə çox işlədilir.

Çinlilərin və çox sayda digər xalqların evində bambuk çubuqlarından hörülmüş mebelə və qab-qaşığa çox rast gəlinir. Bu xalqların qida ratsionunda soyutma düyü mühüm rol oynayır. Ölkənin cənubunun çox saydakı xalqları, xüsusən taylar tərəvəzi və balığı xüsusi metodla turşuya qoyurlar. Onlardan tünd iyi və dadı olan özünəməxsus «paştet» hazırlayırlar.

Yüksək dağlıq əkinçilərinin qidasında hər cür kökələr (vələmir, qarabaşaq, qarğıdalıdan bişirilmiş) əsas yer tuturdu. Tibetdə onları arpa tszambası (qovrulub, sonra bişirilən arpa) əvəz edirdi. Tibetlilər qida üçün süd məhsullarından, xüsusən saxlanmış bişmiş inək südündən istifadə edirlər. Kərpic qara çay burada çox işlənir.

Monqol, türk, bir qədər də tunqus-mancur xalqlarının qidalanmasında birinci yeri soyutma qoyun əti və müxtəlif süd məhsulları tutur. Burada da ən çox yayılan içki çaydır, özü də başlıca olaraq kərpic formasında. Onu adətən südlə, bəzən hətta duz və yağla içirlər. Madyan südü kumıs düzəltmək üçün istifadə edilir. Onların yaşayış evi, indi də bəzi yerlərdə bu qalır, şəbəkəli karkası olan və üstü keçə ilə örtülmüş, bir yerdən başqa yerə daşınan alaçıq-yurtadır. Məişətdə ən müxtəlif məqsədlər üçün də keçədən istifadə olunur. Qab-qacaqların arasında dəri, bəzən isə ağac və metal məmulatlar başlıca rol oynayır. Gil qablara rast gəlinmir. Çünki köç edəndə onlar çox tez qırılırlar. Amma tuluq tipindəki dəri qablar çox geniş yayılmışdır.

Şimali və Qərbi Tibetin uca dağ yaylalarında daha bir özünəməxsus təsərrüfat-mədəni tip – yüksək dağ heyvandar - köçəriləri meydana gəlmişdir. Burada əsasən yak yetişdirilir, bu bədəni sıx və uzun yunla örtülmüş və Tibetin sərt iqliminə yaxşı uyğunlaşmış heyvandır. Yakların yunu keçə və yun parçalar hazırlanması üçün, onların dərisi isə ayaqqabı və digər məişət əşyaları düzəltmək üçün istifadə olunur. Əti və südü qida üçün, peyini isə yanacaq kimi işlədilir. Onlar nəqliyyat vasitəsi kimi, xüsusən, yük daşımaq üçün tətbiq olunur. Yüksək dağ heyvandarlarının əsas yaşayış evi bir yerdən başqa yerə daşınan düzbucaqlı alaçıqdır. Etnoqrafik ədəbiyyatda bu, «qara çadır» kimi məşhurdur. Evin ortasında ocaq yerləşir, o, eyni zamanda həm qida hazırlamaq, həm də evi qızdırmağa xidmət edir. Qidalarında soyutma ət, piy, əridilmiş yağ, qatıq mühüm yer tutur.

Neolit dövrlərindən mancurların, bəzən isə Amur hövzəsində yaşayan tunqusların əcdadlarında mülayim qurşağın iri çaylarının sahillərində oturan balıqçılar təsərrüfat- mədəni tipi inkişaf etmişdir. Onlar başlıca olaraq torpaqları və çay axınını dayandırmaq üçün cürbəcür süni maneələrin köməyi ilə qızıl balıq tuturlar. Balığın

dərisindən, yaxşı emal edildikdən sonra müxtəlif məişət əşyaları, həmçinin paltar məqsədilə istifadə olunurdu.

Çinin əsas mənəvi mədəniyyətinin əsası b.e.ə. III minillikdə Huan Ho çayının vadisində yaşayan protoçin tayfalarının yazısız mədəniyyətində qoyulmuşdur. Bu vaxt çin ənənəvi naturfəlsəfəsinin əsas aparatları: dünyanın kişi başlanğıcı yan və qadın başlanğıcı in, dünyanın beş ilkin elementləri – ağac, metal, torpaq, su və od işlənib hazırlanmışdır. Tarix hesabının və təqvimin yaradılması da həmin dövrə aiddir. Onlar göy cisimlərinin və təbiətin illik dövrlərinin müşahidələrinin məlumatları üzərində qurulurdu.

Qədim çinlilər çox sayda ilahi qüvvələrə sitayiş edirdilər, lakin onların sitayiş etdikləri əsas predmet əcdadlar idi, onlara pərəstiş güclü ailə təşkilatlanması şəraitində meydana gəlmişdi. Bu ailələrin daxilində ictimai rolların dəqiq bölünməsi mövcud idi. Protoçin tayfalarının cəmiyyətində həm ailədə, həm də dövlət təşkilatlarında kiçiklərin böyüyə qeyd-şərtsiz tabe olması adamlar arasındakı münasibətlərin təməli idi.

Konfutsi fəlsəfəsi

B.e.ə. I minilliyin ikinci yarısında Çin fəlsəfəsinin əsas cərəyanları formalaşdı. Onlar bu ölkədə ən son vaxtlaradək fəlsəfi və ictimai fikirin inkişafının əsası kimi xidmət göstərmişdir. Çin ənənəvi fəlsəfəsi müasir ölkənin də ictimai fikrinə təsir göstərməkdə davam edir. Çjou epoxasının fəlsəfi məktəblərindən hər biri öz xüsusi ideyalar kompleksini işləyib hazırlayırdı. Bu dövrün bütün məktəbləri qədim yazılı mətnlərin nüfuzunu etiraf edir, onları öz təlimlərinin mənbəyi hesab edirdilər.

Konfutsinin (b.e.ə. 551-479-cu illər) təlimi hər şeydən əvvəl əxlaq və etika problemlərini işləyib, hazırlayırdı. Konfutsinin özü nəsil əyanları epoxasının və «müharibə aparan çarlıqlar» dövrünün ideoloqu olmaqla hesab edirdi ki, onun dövründə mövcud olan adətlər və ictimai qaydalar qədim Sya sülaləsinin (güman edildiyinə görə b.e.ə. XXI-XV əsrlər) dövründəki və Çjou sülaləsinin hakimiyyətindən əvvəllərdəki (Qərbi Çjou, b.e.ə. 1027-771-ci illər) həmin adətlərin və qaydaların unudulması nəticəsində meydana gəlmişdir. Buna görə də o, müasiri olan hökmdarların vəzifəsini həmin sülalələrin banilərini təqlid etməkdə görürdü.

Ailədə və dövlətdə qaydanın əsasını Konfutsi hər bir adamın ailə və ictimai münasibətlər strukturunda yerini dəqiq müəyyən etməkdən ibarət olduğunu hesab

edirdi. Bu qayda cəmiyyətin bütün üzvlərinin riayət etməli olduğu «li» ritual formasında həyata keçirilir. İnsanlar arasında münasibətlərin əsas prinsiplərini Konfutsi «jen» – insanı sevmək və «i» – ədalət kimi elan etmişdi. Konfutsi cəmiyyətində bu, kiçiyin böyüyə hökmən tabe olmasının sərt iyerarxiyasıdır. Ailədə belə iyerarxiya «Syao prinsipi – oğul ehtiramı ilə təbəələr və hökmdarlar arasındakı münasibətlər, «çjun» prinsipi – ədalətlə dəstəklənir. Konfutsi 3 min şagirdi öyrətmişdi, onlardan 72-si sonralar görkəmli şəxsiyyətlər olmuşdular.

Daosizm fəlsəfi təlimi isə dünyanın ümumi problemlərini işləyib hazırlamışdı. Bu təlimin banisi Konfutsinin müasiri olan Lao Tszı hesab olunur. Daosizmə görə, dunyanın qaydasının əsası – «dao»dur – yoldur (buradan da təlim öz adını götürmüşdü). Yollarla – dao ilə göy, ulduzlar və planetlər, Yer, cansız əşyalar və canlı məxluqlar gedirlər. Bu yolla hərəkət dəyişiləcəkdir. Heç nə və heç kəs ona qabaqcadan müəyyən edilmiş daodan kənara çıxa bilməz. İnsanların həyatında bütün bədbəxtliklərə səbəb, ona qabaqcadan göstərilmiş daodan kənarlaşmaq cəhdindən əmələ gəlir. Ona görə də insanın vəzifəsi – öz fərdi daosunu dərk etmək – hökmdarın borcu isə, onun ölkəsində işlərin və hadisələrin getdiyi daonu dərk etməkdir. Dao müəyyən mənada təbiətin qanunlarının sinonimi olduğuna görə daosizmin ardıcılları naturfəlsəfə ideyalarının işlənib-hazırlanması sahəsində çox işlər görmüşlər.

Özünün etik təlimində daosizm ritual və cəmiyyətdəki süni konfutsiçilik iyerarxiyasının əleyhinə çıxırdı. Onların əksinə o, təbiət dəyərləri iyerarxiyasını qoyurdu. İctimai həyat sonda daosizm doktrinası olan «uvey» – «fəaliyyətsizlik» prinsipini irəli sürürdü, bu da insanın hər cür fəaliyyətdən imtina etmək, özü tərəfindən inkişaf etdirilən həyata «müdaxilə etməmək» demək idi. Bu təlim sosial utopiyanı yaratdı, elə cəmiyyəti ki, orada insanlar kiçik yaşayış məntəqələrində yaşayır, bütün ictimai işlər birgə görülür, orada yoxsulluq, istismar və müharibələr yoxa çıxmışdır. Daha bir böyük daosizm əsərində «Çjuan Tszı»-da şəxsiyyət haqqında, həqiqətin nisbiliyi haqqında, bədənin və ruhun həyatı haqqında, ölüm və ölümsüzlük (əbədilik) haqqında təlim işlənib hazırlanmışdır.

Mo Tszının fəlsəfi təlimi Konfutsi məktəbinin işləyib hazırladığı eyni ideyalar kompleksindən bəhs edirdi. Konfutsidən fərqli olaraq Mo Tszı (b.e.ə. 479-381-ci illər) ailədə və cəmiyyətdə insanlar arasındakı münasibətlərin əsas prinsipini ümumi məhəbbət hesab edirdi, bu, adamların nəcib kişilərə və sadə adamlara bölünməsindən imtina etmək və onların bərabərliyini tanımaq mənasını verirdi. Şəxsi həyat sferasında Mo Tszı şəxsi istehlaka olan xərcləri azaltmağa çağırırdı, dəbdəbəli dəfnlərin əleyhinə idi, bunu isə Konfutsi ritualı tələb edirdi, həmçinin musiqi və əyləncələrə qarşı çıxırdı. İctimai həyat sferasında o, müdrikliyə ehtiram, bərabərliyə hörmət bəsləməyi,

dövlətdə hakimiyyətin irs üzrə verilməsindən imtina etməyi tələb edirdi. Dövlətlərarası münasibətlər sferasında o, müharibələrin ləğv edilməsinə və münaqişələrin dinc yolla həll edilməsinə çağırırdı.

Leqizm təlimi isə dövlət quruluşunun və dövlət idarəçiliyinin kompleks problemlərini tədqiq edirdi. Bu təlim despotik dövlət nəzəriyyəsi ili. Öz məqsədinə çatmaq üçün dövlət idarəçiliyi qanuna əsaslanmalı idi, bu qanun qarşısında bütün təbəələr mənşəyindən və sosial vəziyyətindən asılı olmayaraq bərabər olmalı idi. Qanunun nüfuzu ciddi cəzalarla dəstəklənirdi, ondan heç kəs azad ola bilməzdi. Leqistlər Sya sülaləsinin natriarxal qaydalarını o qədər də nüfuzlu sayılmırdılar.

Konfutsinin, Lao Tszının, leqizmin fəlsəfi təlimləri bəzən hakim ideologiya səviyyəsinə qalxırdı, lakin b.e. I əsrində bu mövqeyi konfutsiçilik möhkəm ələ keçirdi. Bu, Han sülaləsi dövrü idi. Konfutsi təliminin yeni variantına daosizm doktrinasının əsas kosmologiya ideyaları, leqist təlmimindən isə – dövlət idarəçiliyinin praktiki təşkili prinsipləri daxil oldu.

VIII-XII əsrlərdə konfuksiçilikdə yeni islahat aparıldı, bunun da bilavasitə səbəbi daosizmin güclənməsi və xüsusən buddizmin konfutsiçilik üçün real təhlükəyə çevrilməsi idi. Neokonfutsiçilik doktrinasının əsasına kosmoloji və mənəvi prinsiplərin vəhdəti təlimi qoyuldu. Öz vəziyyətini dəyişməyə yönələn insanın çalışmasıını yüksək qiymətləndirməyən buddizmdən fərqli olaraq məşhur neokonfutsiçi filosof Çju Si hesab edirdi ki, bilik insana kifayət qədər qüdrət verir ki, onun köməyilə o, öz həyatındakı məqsədlərinə çatmalıdır. Orta əsrlər Çinində Çju Sinin doktrinası rəsmi ehkama çevrildi və fəlsəfi nəzəriyyə kimi öz əhəmiyyətini itirdi.

Buddanın dini-fəlsəfi təlimi Çinə Hindistandan b.e. I əsrinin ortalarında gəlmişdi və artıq VI əsrdə ictimai qiymət və dövlət dəstəyi qazandı. Bu vaxt Budda kitabları Çin dilinə tərcümə olunmuşdu. Buddizmin fəlsəfi konsepsiyası bunu əsas götürürdü ki, insan həyatı – əzablar zənciridir, onlardan azad olmaq Nirvanada baş verir. Canlı məxluqun əbədi könlü o öldükdən sonra bədən qılafını tərk edib, digər məxluqa keçir. Sonrakı yenidən doğulma insanın davranışından və Budda dini təliminin tələblərinə riayət etməkdən asılıdır. Ona görə də kim ki, Buddanın vəsiyyətlərinə riayət edir, o, ölümdən sonra müqəddəs kimi və ya Nirvana kandarında olan budda panteonunun daha yüksək məmuru kimi yenidən doğulacaqdır, intibah edəcəkdir. Buddizm təliminin əsas ideyaları, xüsusən könülün birindən başqasına keçməsi ideyası daosizmə yaxın idi, bu da, Çin mühitində onun qəbul edilməsini asanlaşdırdı. VI-VIII əsrdə Budda təlimi Çində öz çiçəklənməsinə çatdı və bu vaxt o

həm də imperator sarayının dəstəyindən istifadə edirdi. Sonralar Çin cəmiyyətində buddizmin təsiri aşağı düşməyə başladı.

Konfutsiçiliyin, daosizmin və buddizmin uzun əsrlər boyu birgə mövcud olması nəticə etibarilə Çin orta əsrlər cəmiyyətində onların funksiyalarının dəqiq bölünməsinə gətirib çıxardı. Konfutsiçilik əxlaq, etika, ailə və dövlət münasibətlərində aparıcı rol oynayırdı. Daosizm ənənəvi tətbiqi və nəzəriyyə elmlərinin nəzəri əsasını təşkil etdi. Buddizm o dünya haqqında və könülün xilas edilməsi haqqındakı anlayışlarda ağalıq edirdi.

Dinlərə sitayiş

Orta əsrlər Çinində dini kultlar ümumdövlət, yerli, ailə sferalarına bölünürdü. Göy və Yer kultlarına ibadət, Yeni il günündə və yaydakı uzun gündə müvafiq ritualı həyata keçirən imperatorun səlahiyyətində idi. İmperator özü həm də Konfutsi kultuna və qədim dövrün üç müdrik imperatorlarının kultuna ibadət edirdi. Əcdadların kultuna ibadət hər bir ailədə əcdadların adları yazılmış lövhənin qarşısında və nəslin tikdirdiyi xüsusi məbədlərdə həyata keçirilirdi.

Əsas ilahi qüvvələr kütləsi isə, hansılara ki, sadə çinlilər sitayiş edirdilər, yerli müqəddəslər idi, əyalətin və ya hətta qəzanın kənarında onun barəsində heç nə məlum olmurdu. Sinkretik din asanlıqla real və mifik şəxsləri ilahiləşdirirdi, göy cisimlərini, təbiət hadisələrini və qüvvələrini sitayiş obyektinə çevirirdi, taleyə, pis və yaxşı ruhlara inanırdı.

VIII əsrdə çinlilər Çinə gələn müsəlman tacirlərdən və moizəçilərdən islam təlimi ilə tanış oldular. Hazırda islama inanc gətirənlər şimali-qərbi Çində və Quanjoudan cənubda mərkəzləşmişlər. Bundan başqa, bütün iri şəhərlərdə müsəlman icmaları vardır.

VII əsrdə Çinə Nestorian xristianları gəlib çıxdı. XIII əsrlə burada katolik missionerləri göründülər. XIX əsrin ortalarından, Tiryək müharibələrindən və Qərb dövlətləri xristian missionerlərinin sərbəst fəaliyyət hüququnu irəli sürüb razılaşdırdıqlarından sonra xristianlıq moizəsi daha geniş miqyas aldı.

Təbabət

Çində xalq təbabətinin zəngin təcrübəsi bizim eranın başlanğıcı ərəfəsində dərc edilən ayrıca traktatda ümumiləşdirilmişdi, orada insanın anatomiyası və fiziologiyasının əsasları təsvir edilirdi. Digər traktatda isə əsas xəstəliklərin simptomları və onların müalicə metodları göstərilirdi. B.e. II əsrində məşhur Çin həkimi Çjun Çjuntszin (Çjan Tszi) yatalaq və digər infeksion xəstəliklər barədə traktat yazdı. Onun müasiri Xua To orqanizmi möhkəmləndirmək tədbirlərinin köməyi ilə xəstəliklərin profilaktikası nəzəriyyəsini yaratdı. Xua To həm də Çin cərrahiyyəsinin yaradıcısıdır. O, cərrahiyyə əməliyyatı vaxtı Çində ilk dəfə narkoz tətbiq etmişdi. Avropada isə narkozun tətbiqi hətta XIX əsrin sonlarına qədər məlum deyildi. Hətta 1854-1855-ci illərin Krım müharibəsində ağır yaralanmış ingilis əsgərlərinin ayağı amputasiya edildikdə dəhşətli ağrıya dözmək üçün xəstənin dişlərinin arasına güllə (patron) qoylurdu ki, onu dişi ilə sıxıb, ağrıya davam gətirsin. Bu üsulu ingiliscə "bite bullet"- "gülləni dişlə" adlandırırdılar.

Qədim dövrün Çin həkimləri tərəfindən işlənib hazırlanmış müalicə metodları hər şeydən əvvəl insan orqanizminə xarici təsirdən ibarət idi. Çin təbabətinin spesifik metodu akupunktura idi – bu, lazım gələn terapevtik effekti əldə etmək üçün əsəb sisteminin müəyyən ilgəklər kompleksinə iynənin batırılmasıdır. Bu məqsədlər üçün həm də əsəb ilgəklərinin dəqiq qızdırılmasından istifadə olunurdu.

Çin təbabəti mineral və bitki mənşəli müxtəlif dərman vasitələrindən istifadə edirdi. Han sülaləsi epoxasında xalq təbabəti təcrübəsi ümumiləşdirilməklə ilk əczaçılıq vasitələri yaradıldı. Bu əsərlər tədricən yeni məlumatlarla tamamlanırdı. XVI əsrin sonunda – XVII əsrin əvvəllərində ilk əczaçılıq traktatı meydana gəldi. Onun müəllifi Li Qao həmin dövrün məşhur həkimi idi.

Çin təbiət, nəzəri və tətbiqi biliklərindəki bütün uğurlara rəğmən, onu da yadda saxlamaq lazımdır ki, orta əsrlər Çin elmi təbiət hadisələrini təsvir etməkdən və ya müəyyən şəraitlərdə hərəkət etmək üçün empirik göstərişlər yığımından ibarət idi. Hər bir orta əsr elmi kimi, Çinin ənənəvi elmi də əsasən humanitar elm idi. Orta əsrlər Çinin fəlsəfi tədqiqatlarının başlıca vəzifəsi Konfutsi kanonlarında və digər qədim yazılı mətnlərdə olan «həqiqəti» təfsir etməkdən ibarət idi. Öz ölkəsinin və qonşu ölkələrin tarixinin öyrənilməsi Çində qədim zamanlardan başlanmışdır. «Sənədlər kitabı» (Şutszin) qədim tarixə aid ilk materiallar məcmuudur, onda mifik hökmdarların sözləri ilə yanaşı, həm də Çin tarixinin tam real xadimlərinin ibrətamiz sözləri toplanmışdı. B.e.ə. I əsrdə Çin tarixçisi Sıma Tsyan «tarixi yazılar» (Şşitszi) kitabını yazmışdı. Burada keçmiş epoxalar barədə çox sayda məlumatlar vardır.

Təhsil, ibtidai tədris kitabı olan «Üç söz» üzrə heroqlif yazısını öyrənməkdən başlayırdı. İkinci tədris kitabı «Min söz» idi. Hər iki kitab əzbər öyrənilirdi və onların dəfələrlə yenidən üzü köçürülürdü. Onların məzmunu tam mənimsənildikdən sonra, şagird 4 min işarədən ibarət olan çin heroqlif yazısına yiyələnirdi və ənənəvi təhsilinin əsas hissəsinə – Konfutsi kanonunu öyrənməyə başlamalı idi. Lakin obyektiv çətinliklərlə əlaqədar olaraq Orta əsrlər Çinində təhsil cəmiyyətin yalnız daha imkanlı təbəqələrinin imtiyazı idi.

Şagirdlərin dövlət imtahanlarına bilavasitə hazırlaşdırılması üçün xüsusi müəllimlər və ali məktəblər mövcud idi. Təhsilin bu mərhələsində dərslərin başlıca məzmunu klassik kitabların öyrənilməsi idi. Yalnız möhkəm biliklərə yiyələndikdən sonra şagirdlər dövlət imtahanlarını verə bilərdilər.

Qəza şəhərində uğurlu imtahandan sonra şagird «syutsay» dərəcəsini alırdı, bu, ona bəzi ictimai imtiyazlar verirdi. Sonraki dərəcəni – «tczyuyjen»i almaq üçün əyalətin baş şəhərində imtahanı yaxşı vermək lazım idi, bu imtahan isə iki-üç ildən bir təşkil edilirdi. Kim bu dərəcəni alırdısa, o, dövlət idarəçiliyinin yerli aparatında xidmətə girə bilərdi. Yüksək alim dərəcəsi olan «Tszinşi»ni almaq üçün imtahanlar paytaxtda keçirilirdi. Burada uğurlu imtahan verənə dövlət idarəçiliyinin mərkəzi aparatına daxil olmaq yolu açılırdı.

Təhsilin belə sistemi təbiət elmləri və matematika dövrəsi elmləri üçün heç bir hazırlıq vermirdi. Bu isə elmin vəziyyətinə məhvedici təsir göstərirdi.

Yalnız 1905-ci ildə dövlət imtahanları ləğv edildikdən sonra Avropa tipli yeni təhsil sisteminin yaradılmasına başlandı. 1966-1969-cü illərdəki «Mədəni İnqilab» dövründə Çində təhsil sistemi faktiki olaraq işləmirdi.

Çin ədəbi ənənəsinin mənbələri, b.e.ə. I minilliyin başlanğıcında qədim Çin tayfalarının şifahi xalq yaradıcılığı idi. Bu vaxt şeir ənənəsi- tanınmayan müəlliflər tərəfindən yazılmış xalq mahnıları və ritual mahnılar meydana gəldi. Bu vaxt həm də tarixi rəvayətlərin daxil olduğu nəsr ənənələri mövcud idi. Konfutsi və onun bəzi şagirdləri onları işlədilər və onlara «Şeirlər kitabı» və «Sənədlər kitabı» formasını verdilər.

Çin ədəbiyyatının ən qədim müəllif əsəri «Çu sətirləri»dir. Onun müəllifi Tsyui Yuan (b.e.ə. 340-279-cu illər) əslində «Şeirlər kitabı»nın poetik ənənəsini bilavasitə davam etdirmişdi.

Tan sülaləsi epoxası Çin poeziyasının qızıl dövrü hesab olunur, bu vaxt dünya şöhrətli şairlər – Li Bo, Du Fu, Lyu Tszunyuan, Men Xaojan meydana gəlmişdi. Çin ədəbi dili məşhur mədəniyyət xadimi Han Yuy (768-824-cü illər) tərəfindən islahata uğradılmışdı. O, qədim poetik əsərlərin dilinə və üslubuna qayıtmağa çağırırdı.

Sonrakı tarixi epoxalarda tədricən bayxua danışıq dilində ədəbiyyat sferasının funksiyalarının genişlənməsi başlandı. Həmin dildə indiyədək Çində populyar olan «Üç çarlıq», «Çay kiçik körfəzi», «Qərbə səyahət», «Qızıl vazada gavalı çiçəkləri», «Qırmızı evdə yuxu» romanları meydana gəldi. Bu romanlar digər əsərlərlə birlikdə gec orta əsrlərin əsas mütaliə dairəsini təşkil edirdi.

XIII-XIV əsrlərdə Çin teatrı öz inkişafının ən yüksək səviyyəsinə çatdı. Bu dövrdə indi də klassik dram teatrının repertuarında qalan pyeslər yaradıldı. Çin teatrı, müxtəlif təhsil və mədəni səviyyəsi olan tamaşaçıların anlaması üçün iki variantda mövcud idi: yerli drama, bu, yerli dialektlərdə oynanılırdı və paytaxt Pekin musiqi dramı. İlk musiqi teatrları XIV-XV əsrlərdə yaranmışdı, onların melodiyası digər rayonların da musiqisinə həlledici təsir göstərən Şərqi Çin musiqi folkloruna əsaslanırdı.

Çin klassik teatrında aktyorlar dörd ampluada – qəhrəman, qəhrəman qadın, kişi personajında və komik personajda çıxış edirdilər. Pekin musiqi teatrı diqqətlə hazırlanmış mimikadan, jestdən, səhnə hərəkəti manevrindən ibarət idi. Belə aktyor oyununa görə Pekin teatrı praktiki olaraq dekorasiyasız keçinirdi: dram personajının əlindəki qamçı at çapmaq mənasını verirdi, fənər hadisənin gecə vaxtı getdiyini göstərirdi, üstündə təkər rəsmi olan bayraq faytonda getməyi bildirirdi. Səhnədə rekvizitin minimum sayda olması tamaşaçının diqqətini aktyora cəlb edirdi. Səhnədə kostyumun da rolu, oyun üslubu kimi şərti idi. Aktyorlar səhnədə Min sülaləsi epoxasının (XIV-XVII əsrlər) təntənəli hadisələr üçün olan paltar nümunələrində çıxış edirdilər. İmperatorların, sərkərdələrin, müxtəlif dərəcəli məmurların, əyanların və varlı adamların və sadə adamların geyindiyi xüsusi kostyumlar mövcud idi. Teatr qrimi də rəng simvolizmi üzərində qurulurdu: qırmızı rəng sədaqəti, ağ – məkri, qara – igidliyi və gücü, göy – qəddarlığı rəngləndirirdi. Qızıl və gümüş boya müqəddəslərin, allahların, şeytanların və sairənin ənənəvi qriminin ayrılmaz hissəsi idi.

Çin rəngkarlığı qədim ənənələrə malikdir, onun əsası b.e.ə. I minilliyə gedib çıxır. Erkən Çin təsviri sənəti tətbiqi xarakter daşıyırdı. Bu sənətin elementlərini həmin dövrün mürəkkəb və nazik keramikasında və büründə tapmaq olar. Lakin təsviri sənət fərdi yaradıcılıq işi kimi yalnız b.e. III əsrindən sonra meydana gəldi. Çin təsviri sənətinin inkişafına buddizm öz irəli çıxmış ikonoqrafiyası – Buddizm panteonunun ilahi qüvvələrinin rəngkarlıq və heykəltəraşlıq plastik təsvirləri ilə böyük təsir göstərmişdi. Məhz bu dövrdə Çində təsviri sənətin növü kimi heykəltəraşlıq meydana gəlir. Lakin əsas diqqət rəngkarlığa verilirdi.

Çin ənənəvi rəngkarlığı da Çin teatrından heç də az şərti deyildi. Təsviri sənətin vasitələri ilə diqqət hər şeydən əvvəl ümumi, tam mücərrəd ideyaların verilməsinə yönəldilirdi. Ona görə də həm bütövlükdə rəsm, həm də onun ayrı-ayrı hissələri öz mənalandırılmalarına malik idi. Rəngkarlığın bu prinsipi «ideyanı təsvir etmək» adlanırdı. Çinin ənənəvi rəngkarlığının əsas janrlarına portreti, peyzajı, heyvanların, çiçəklərin və quşların təsvirini aid etmək olar. Portretdə sifətin fərdi xüsusiyyətləri insanın təbiətinin xassələrini əks etdirən cəhətlərə qurban verilir. Peyzaj rəngkarlığında Çin rəssamları təbiətin mənzərəsini vahid üzvi bütövlük kimi verməyə çalışırdılar. Çin rəngkarlığında peyzajın əsas elementləri su, daş, ağac idi. Su bu rəsmlərdə çay, kiçik çay, gölməcələr, şəlalələr, bulaqlar formasında çıxış edirdi. Daş müxtəlif konfiqurasiyada olan dağlar və ayrıca iri daş parçası şəklində verilirdi. Ağac, müxtəlif simvolik əhəmiyyətlərə maik idi. Belə ki, Çin mədəniyyətində şam – qüvvə, dözümlülük və uzunömürlülük simvolu idi. Ona görə də şam ağacının, xüsusən qurumuş budaqları və torpaq üstünə çıxmış kökləri ilə dağ şamlarının təsviri həyat dözümlülüyünün təcəssümü olmaqla, Çin rəssamlarının əsərlərində tez-tez rast gəlinirdi. Şamın əksinə olaraq söyüd qadınlığı, sadəliyi, incəliyi və zəifliyi rəmzləndirirdi.

Çin rəngkarlığı güllərin və quşların təsvirində insan dünyası ilə müəyyən əlaqələr axtarır. Məsələn, orxideya sadəliyin, təmizliyin və daxili nəcibliyin təcəssümü kimi çıxış edir. Ona görə də orxideyanı təsvir edən əsərlər eyni zamanda nəcib insanı təsvir edir və şərəfləndirirdi. Yabanı gavalının çiçəkləri təmizliyi, dözümlülüyü, sarsılmazlığı simvolizə edirdi, bu vaxt belə bir cəhət əsas götürülürdü ki, yabanı gavalıdan axan canlı şirə hətta şaxta vaxtı da məhv olmur. Xrizantema gözəldir, sadədir, bakirədir, ən yaxşı qadın ləyaqətlərini təcəssüm etdirir. Bambuk – ağıl və könül təmizliyini, feniks – sərvəti və nəcibliyi, vəhşi qaz isə – tənhalıq və istirahəti simvolizə edir.

Bütün teatr hərəkətinin əsasını Çin musiqi teatrının vacib komponenti kimi aktyorların nitqini müşayiət edən musiqi təşkil edir. Komik personaldan başqa, digər bütün personajlar öz rollarını ya reçiçativ formasında, yaxud da musiqi melodiyası altındakı ariya formasında tələffüz edirlər. Musiqi sədaları alında aktyorların bütün hərəkətləri icra edilir. Hətta gözlərin və ya barmaqların kiçik hərəkətləri də baraban və ya qonq zərbəsi ilə müşayiət edilir.

Çinin ən böyük mədəni dəyərləri, onun tarixi arxitektura abidələridir. Yeganə və təkrarolunmaz qala arxitektura abidəsi – Böyük Səddir və ya çinlilərin özünün adlandırdığı kimi Uzun Səddir. Bu tikinti bütün Şimali Çini keçməklə 4 min km-dən də çox uzanır. Səddin tikintisi b.e.ə. IV-III əsrlərdə başlanmışdı. Bu vaxt ayrı-ayrı Çin

dövlətləri Mərkəzi Asiyanın köçəri xalqlarının basqınlarından qorunmaq üçün müdafiə tikintiləri yaratmağa məcbur idilər. B.e.ə. 221-ci ildə Çin Tsin sülaləsinin hakimiyyəti altında birləşdirildikdən sonra imperator Şi Huandi bir sıra müdafiə xətlərinin vahid səddə birləşdirməyi əmr etdi. Sonrakı sülalə olan Han dövründə də Böyük Səddə aparılan tikinti işləri davam etdirildi və b.e. III əsrində başa çatdırıldı. Hazırda özünün qərb hissəsində Böyük Sədd ilkin formasını saxlamışdır. Səddin qorunub saxlanmış hissələrində ölçüləri, əsasında eni 9 metrə, yuxarısında isə 6 metrə qədərdir, divarın hündürlüyü isə 10 metrə çatır. Hər 200 metrdən bir dördbucaqlı gözətçi qüllələri vardır. Divarın arasındakı yüksək düz yer müdafiə olunan geniş yol olmaqla, hərbi hissələrin və arabaların sürətli hərəkətinə şərait yaradırdı.

Çinə buddizmin nüfuz etməsi Çin arxitekturasının yeni sahəsinin – buddizm ibadət binalarının və mağara məbədlərinin tikilməsinin yaranmasına səbəb oldu. Bu tikinti Hindistan arxitekturasının güclü təsiri altında idi. Sitayiş təyinatlı ən görkəmli tikintilərə paqodalar – çoxmərtəbəli qüllələr daxildir. Buddizm panteonunun ali ilahi qüvvələrinin şərəfinə və ya hansısa mühüm hadisənin xatirəsi kimi tikilən bu binalar görünüş üçün ən uyğun gələn yerdə – təpənin üstündə, alçaq dağ üstündə ucaldıldığından, beləliklə, onu əhatə edən yerin zəruri detalına çevrilirdi. Çində 1,5 min il əvvəl tikilmiş və yaxşı qalmış çox sayda paqodanı görmək olar. Xristian kilsələrindən və müsəlman məscidlərindən fərqli olaraq paqodaların içərisində ibadət yeri yoxdur.

Qayalardan yonulmuş məbəd kompleksləri də çox maraqlıdır. Dünyada çox məşhur olan Çin ənənəvi göy kultu üçün olan məbəd kompleksi – Pekindəki Səma məbədidir. Bu məbəd Min sülaləsi vaxtı tikilmişdir. Burada Çin imperatorları öz əcdadlarının ruhuna qurban verir və göylərə məhsul göndərməsi barədə dua edirdilər. Kompleks məhsul barədə dua məbədindən, əcdadların məbədindən və Səma mehrabından ibarət idi. Bu üç bina xiyabanlarla birləşirlər. Məbəd kompleksinin divarı elə akustik xassəyə malikdir ki, divarın yanında dayanan adamın səsini geniş həyətin hər tərəfində dayanan hər bir kəs eşidə bilir.

Çin arxitektorları memarlıq ansambllarını yaradarkən onların ətraf mühitə uyğun gəlməsinə xüsusi fikir verirdilər, ona görə də arxitektura tikintilərinin ətrafında çox vaxt bağ-park ansamblı yaradılırdı. Çin dövlətləri hökmdarlarının saraylarının həyətindəki parklar və bağlar barədəki ilk məlumatlar b.e.ə. I minilliyin ortalarına aiddir. Qərbi Han sülaləsinin paytaxtındakı saray həyətində Çin bağ-park sənəti kimi tarixdə ilk dəfə göllə birlikdə park yaradıldı. Həmin vaxtdan göllər (istər təbii, istər süni olsun) adacıqlarla birlikdə Çində bağ-park ansamblının ayrılmaz hissəsinə çevridi. Bağ-park komplekslərinin tikintisində Çin arxitektorları parkın məhdud

sahəsində daha çox sayda olan landşaft tiplərini yaratmaq tələbatından çıxış edirdilər, ona görə də Çin parklarında əllə düzəldilmiş dağları, çox sayda və bədii formadakı kiçik adacıqları əhatə edən su hövzələrini görmək mümkündür. Su hövzələri müxtəlif formadakı daşdan yonulmuş işlərlə və heykəllərlə bəzədilmiş və qəribə şəkildə burulan körpücükləri olan kanallarla birləşirlər. Su hövzələrində adətən dekorativ balıqlar, rəngarəng karp növündən olanlar yetişdirilir. Parka gələnlərin onların nəzərləri qarşısında uzanan mənzərələrdən həzz alması üçün hündür yerlərdə dəyirmi rotondalar – söhbət yerləri tikilir. Su hövzəsinin sahilində isə örtülü qalereyalar düzəldilir. Bu gözəlliklərdən birini Pekindəki İxeyuan imperator yay sarayının parkında görmək mümkündür.

Çin tarixindən səhifələr

Çin xalqının və sivilizasiyasının başlanğıcı dəqiq məlum deyildir. Çox sayda müxtəlif etnik qruplar və primitiv mədəniyyətlərin çox saydakı ayrı-ayrı mərkəzləri tədricən meydana çıxmaqla qarışıb, bu qitə regionuna yayılan sivilizasiyanı meydana gətirmişdir. Çindəki neolit mədəniyyəti Avrasiyanın çox hissələrindəki neolitikliklə təməl oxşarlığa malik idi. Çinin müxtəlif hissələrində, buna baxmayaraq, ilk vaxtlarda müəyyən regional fərqlər də var idi.

Ən qədim Çin tarixi ədəbiyyatı olan «Klassik tarix»də və ya «Sənədlər kitabı»nda b.e.ə. I minillikdən əvvəlki dövrə aid məlumatlar yoxdur. Erkən sənədlərdə və çinlilərin doğma və ya əcnəbi mənşəyə malik olduğunu dəqiq sübut edən heç nə yoxdur. Mərkəzi Asiyadakı arxeoloji qazıntılar Xəzər dənizindən şərqdə olan qədim mədəniyyət yerlərini tədqiq etmişdir və belə gümana gəlməyə imkan verir ki, yəqin ki, miqrantlar indiki Monqolustandan, bəlkə də daha uzaq qərbdən, qərbi Asiyadan və Avropanın cənubi-şərqindən gəlmişlər. Daha çox güman edilir ki, Çin mədəniyyəti elə Çinin özündə təşəkkül tapmış və inkişaf etmişdir.

Burada əvvəlki dövrlərə aid Çin rəvayətləri mövcuddur. Qədim dövrdə, b.e.ə. I minillikdə mövcud olanlardan yalnız üçü real şəxsiyyətlərdir. Onların hər biri müdrik olmaqla yanaşı, həm də hökmdar olmuşdu. Onlardan biri adamlara ovçuluğu öyrətmiş, digəri beş növ dənli bitkini becərmiş, kotanı icad etmiş və bazarlar yaratmışdı. Üçüncüsü isə daha məşhur olmaqla, Çjou dövrünə təsadüf edir. Saraydakı və feodal dövlətlərdəki adamlar onu ilkin əcdad kimi qiymətləndirirdilər. Onun

ixtiralarına qayıqlar, avarlar və oddan istifadə daxildir. Odla o, təpələri və düzləri ağaclardan və kollardan təmizləyir, ölkəni vəhşi heyvanlardan qoruyur və güman ki, mal-qaranı əhlilləşdirməyə keçirdi. O, həmçinin qulluqçular arasında musiqinin tətbiqini meydana gətirmişdi.

Çinin yazılı mənbələrdə qeydə alınmış tarixi 3600 ilə yaxındır və öz başlanğıcını b.e.ə. XVI əsrdə əsası qoyulmuş Şan sülaləsinin ilk dövrlərindən götürür. Şan sülaləsi barədə məlumatlar tısbağa çanağından olan lövhəciklərdə və öncəgörmə məqsədini güdən heyvanların sümükləri üzərindəki yazılarda qalmışdır. Lakin ilk ənənəvi istorioqrafiyaya görə lap əvvəlki sülalə Şan deyil, b.e.ə. XXI əsrdən XVI əsrə qədər hökmranlıq etmiş Sya sülaləsidir. Lakin onun haqqında nə arxeoloji, nə də sənədli bir məlumat yoxdur. B.e.ə. 841-ci ilədək hadisələrin müntəzəm xronikası aparılmırdı. Ancaq həmin dövrdən Qərbi Çjounun hökmranlıq edən sülaləsi hadisələrin məlum yazısını aparır və saxlayırdılar. Bu praktikaya Çjou sarayının vassalları olan digər dövlətlər də əməl edirdilər.

Qədim Çinin ilk tam tarixi olan «Tarixi qeydlər» b.e.ə. 104-91-ci illərdə Çin istorioqrafiyasının «atası» olan Sıma Tsyan tərəfindən tərtib edilmişdir. «Min sülaləsinin tarixi» ilə başa çatan 24 rəsmi sülalə tarixlərindən o birincidir. Ümumiyyətlə, Çin tarixi üzrə mənbələrin miqdarını dibsiz okeanla müqayisə etmək olar.

Lap qədim dövrlər

Arxeoloji tapıntılar hesabına məlum olmuşdur ki, Çinin nəhəng ərazisində bir milyon ildən əvvəl, artıq ibtidai icma insanı yaşamışdır. Təqribən 500 min ildən əvvəl «pekin sinantropu» və ya «pekin insanı» adlanan digər qədim insanlar qrupu indiki Pekin şəhərinin ətrafında meydana gəlmişdi. Bu mədəniyyətin nümayəndələri «ağıllı insanın» əsas xüsusiyyətlərinə malik idi. Onlar iki ayaq üstündə gəzirdilər, sadə alətləri düzəltmək və istehsal etməyə qadir idilər, odu əldə etməyi və qoruyub saxlamağı bacarırdılar.

Qədim Çində həm matriarxal, həm də patriarxal icmalar var idi. 6 min il əvvəl çiçəklənməyə başlamış Yanşao mədəniyyəti, güman ki, matriarxal cəmiyyət idi. 5 min il əvvəl mövcud olmuş Lunşan mədəniyyəti isə patriarxal cəmiyyət idi. Adamlar daş alətlərin və keramikanın düzəldilməsi adətlərini təkmilləşdirirdilər. Ovçuluğa və balıqçılığa əlavə olaraq əkinçilik və heyvandarlıq da inkişaf edirdi. Bu dövrün sonuna cəmiyyət siniflərə bölündü. Bütün dünyada etnik çinlilər özlərini Huandinin (Sarı

imperatorun) və imperator Yandinin törəmələri adlandırırlar. Bu iki müdrik hökmdar qədim miflərdə və əfsanələrdə yüksəldilmişlər. Belə ki, Sarı imperator arabanı, qayığı, paltarı, yerüstü evi və yazını icad etməsinə görə məşhurlaşmışdı. Onun arvadı Ley Tszu barama qurdunu becərməklə və ipək parça toxumaqla məşğul olurdu. Bu iki imperatorun başında dayandıqları tayfalar Huan Ho (Sarı çayın) vadisində yaşamaqla, indiki dörd əyalətin ərazisini tuturdular. Onlardan şərqdə öz ox və nizə yaratmaq sənətilə məşhur olan tayfalar yaşayırdılar. Onların rəhbəri Çi Yu müharibə allahı kimi tanınırdı. Başqa bir tayfanın lideri isə balıq torunu icad etmiş və öz xalqına balıq tutmağı və ovu öyrətmişdi. Torpağı becərmək üçün alətlər icad etməsilə Şennunun (Müqəddəs əkinçi) adı da heç də az şöhrət tapmamışdı. O, öz xalqını əkinçiliyə öyrətmiş və müalicə xüsusiyyətlərini aşkar etmək üçün öz orqanizmində yüzlərlə bitkinin təsirini sınamışdı. Belə əfsanələr ona görə maraqlıdır ki, həm qədim dövrlərdəki sosial-iqtisadi təkamülə işıq salır, həm də həmin dövrün cəmiyyətində baş verən əmək bölgüsü haqqında müəyyən təsəvvür yaradır.

Daha iki müdrik hökmdar Sarı çay vadisində xalqları idarə etmişdi, onlar rəvayətə görə Sarı imperatorun törəmələri idi. Onlardan Şun adlanan ikincisi Yuy adlı adamı daşqınla mübarizə üzrə baş məmur təyin etdi. Yuy bəndlər tikməyin adi metodikalarından imtina edib, bunun əvəzinə çayların və kanalların məhvərini dərinləşdirdi. Beləliklə də daşqın stixiyası cilovlandırıldı. Hakimiyyətdən imtina eən Şun Yuyu öz varisi təyin etdi. O, Böyük Yuy kimi şöhrət tapdı və Sya sülaləsinin banisi oldu.

Sya, Şan və Çjou sülalələri

Ənənəvi olaraq belə hesab edilir ki, Sya sulaləsi b.e.ə. XXI əsrdən XVI əsrə qədər hökmranlıq etmişdir. Bu sülalənin ilk hökmdarı Böyük Yuyu onun oğlu Tsi əvəz etmişdi. Bu fakt Çində irsi monarxiyanın başlanğıcı kimi qiymətləndirilir, bu əvvəlki tayfa və ya tayfalar ittifaqı başçısının demokratik seçkisi sistemini əvəz etmişdi. Sya sülaləsinin hökmranları şəhər divarlarını tikdirdi, ordu, dustaqxana yaratdı və cinayət məcəlləsi tətbiq etdi. Bu sülaləyə Çin tarixində ilk quldarlıq dövləti kimi baxılır. Mədəniyyət sahəsində çinlilərin əldə etdiyi nailiyyətlərdən Sya epoxasında yaradılmış təqvimi qeyd etmək lazımdır. Bu təqvim sonrakı nəsillər tərəfindən astronomiyanın inkişafına mühüm bir töhfə kimi yüksək qiymətləndirilmişdir. Sya sülaləsinin sonuncu hökmdarı, adi Tszi olmaqla, dəhşətli

qəddarlığı ilə məşhurlaşmışdı, ona görə də xalqın nifrətin qazanmışdı. Şanlar tərəfindən taxt-tacdan devrildi.

Şan-İn sülaləsi dövründə (b.e.ə. XVI-XI əsrlər) sosial proqressə nail olunmuşdu. Kənd təsərrüfatı və heyvandarlıq sürətlə inkişaf etmişdi. İpəkçilik və ipək parça toxumaq yüksək səviyyəyə çatmışdı. Bürüncdən məmulatlar hazırlanırdı. Tısbağa çanağından olan lövhələrdə və heyvan sümüklərində, həmçinin bürünc qablarda fal açmaq üçün olan yazılar əmələ gəldi. Mənbələr qulların olması barədə şəhadət verir. Bu dövrlərdə dəfn mərasimləri vaxtı insan qurbanı vermək adi hal idi.

Şan sülaləsi devrildikdən sonra meydana gələn yeni quldarlıq quruluşu tarixçilərə Qərbi Çjou (b.e.ə. XI əsr – 770-ci illər) sülaləsi kimi tanışdır. Çjou nəslinin hansı əcdadlara malik olduğu məlum deyildir. Bu, güman ki, güclü qonşular olan nomad (köçəri) xalqların təzyiqindən qorumaq üçün bu xalqın miqrasiya etməsilə bağlı olan bir məsələdir. Onların şəhəri saraylara və əcdad məbədlərinə malik idi, tökmə torpaqdan olan divarlarla əhatə olunmuşdu. Münbit Uey Ho vadisi lyoss torpaqlara malik olmaqla, onlara bu yeni vətəndə əkinçiliklə məşğul olmağa imkan vermişdi. Divarlarla qorunan şəhər tikildi və yeni şəhər formalaşdı. «Mahnılar kitabı» və «Tarix kitabı»ndaki qeydlərdən göründüyü kimi Çjou nisbətən inkişaf etmiş cəmiyyət idi, burada kənd təsərrüfatı irəli getmişdi. Çox sayda əkinçilik bitkiləri meydana gəlmiş və istehsal xeyli artmışdı.

Qərbi Çjounun mədəniyyəti irəli getmişdi. Çox sayda yüksək bədii səviyyəsi olan ədəbiyyat və incəsənət abidələri, həmçinin fəlsəfə, siyasət və tarix üzrə əsərlər meydana gəlmişdi. «Mahnılar kitabı» Çində ən qədim poeziya antologiyası idi. Ona daxil olan 305 şeirdən əksəriyyəti Qərbi Çjou dövrü ilə tarixlənir.

Çjou sarayı Şanı əvəz etməklə Çinin ağasına çevrilmək barədəki ideyaya özünü inandırmışdı. Bu səlahiyyəti öz üzərinə götürmək üç nəsil ərzində baş verdi. Çjounun hökmranlılığını qəbul edən digər dövlətlərlə geniş ittifaq yaratdı. Uen Uan Çjounun təsir zonasını Şan çarlığının şimalına qədər genişlənirdi. Çin tarixi ənənəsinə müvafiq olaraq Uen Uan fərasətli və mərhəmətli hökmdar kimi təsvir olunur. O, Çjou səltənətini genişləndirmişdi. Onun oğlu U Uan isə daim qəsbkar kimi qiymətləndirilir. Həqiqətən də onun ölümündən sonrakı adı «Döyüşkən» idi. (Bir qayda olaraq Çin hökmdarlarına ölümündən sonra onun həyatdakı adından tam fərqli ad verilirdi).

Şan hökmdarı Tu Hsinin dövründə onun səltənəti nomad tayfalarına qarşı iri miqyaslı kampaniyalarda taqətdən düşdü. Bu vaxt U Uan ilk sınaq yürüşünü həyata keçirdi və qonşuluqdakı Şanın paytaxtına gəlib çıxdı. Şanın böyük ordusu məğlub oldu. Qələbədən az sonra U Uan öldü, nəhəng ərazini birləşdirməyə imkan tapmamış

dünyanı tərk etdi. Bu iş onun qardaşı tərəfindən həyata keçirildi. Bütövlükdə iki əsrə yaxın bir müddətdə Çjou Çinində stabillik və sülh hökm sürdü.

Daxildəki Çjou olmayan xalqlara və şimal sərhədindəki köçərilərə qarşı müharibələr gedirdi, lakin Çin dövlətlərinin özləri arasında da kiçik mübahisələr baş verirdi. Mübarizədə birləşib tiran Li Uani taxt-tacdan uzaqlaşmağa məcbur etdilər, onun yerinə iki nüfuzlu kübarın başçılığı altında kollektiv rəhbərlik yaratdılar. B.e.ə. 771-ci ildə Yu Uan müdaxilə edən barbarlar tərəfindən öldürüldükdə çar sülaləsi xətti yenə də dağıldı. Hakimiyyət uğrunda gedən uzunmüddətli mübarizə Çan Kyo («Döyüşən dövlətlər») dövrü (b.e.ə. 481-221-ci illər) kimi tanınır.

B.e.ə. VIII əsrdən b.e.ə.221-ci ildən olan yüzilliklər birləşmiş Çinin ağrılı şəkildə doğulmasına şəhadət verir. Bu, qanlı müharibələr və həmçinin siyasətdə, cəmiyyətdə və intellektual baxışda uzağa gedən dəyişikliklər dövrü idi.

Köhnə feodalizm quruluşunun yerini tarixi monarxiyanın başçılığı altında meydana gələn bürokratik sistemlər tuturdu. Feodalizmin tənəzzülü baş verdikdə, Çan Kyo dövründə yeni qaydanın təşəkkül tapması görünməli idi. Həmin dövrdə urbanizasiya prosesi baş verdi. Ölkə daxilindən iri və kiçik şəhərlərə resurslar göndərilirdi. Huan Ho vadisindəki mərkəzi düzənlikdə ilk salxım tipli şəhərlər meydana gəldi.

Urbanizasiya dövrü həmçinin əsl assimilyasiya dövrü idi. Çjou olmayan əhali şəhərlərə gəlməsələr də, Çjou xalqının və feodalizmin təmsil etdiyi sivilizasiyaya yaxşı münasibət bəsləyirdilər. Daxildəki daim münaqişə aparan barbar əhali bir-birinə inteqrasiya etməyə məcbur edilirdi. Onların torpaqları anneksiya edilir, adamlar kütləvi qaydada köçürülür və ya absorbsiya edilirdi. İri dövlətlərin qüdrəti, onrların çinli olmayan qrupları özünə birləşdirmək sahəsindəki uğuruna borclu idi. B.e.ə. III əsrdə Çinin birləşməsi zamanından Yantszı vadisindən şimalda və düzənliyin cənubunda faktiki olaraq çinli olmayan qrupların hansısa bir əhəmiyyətli mərkəzləşməsi yox idi.

Dövlətlər həm əhali, həm də ərazi cəhətdən böyüdükcə daxili siyasi dəyişikliklər də baş verirdi. Yeni hökmdarlar öz hakimiyyətlərinin dəstəklənməsi və təşkil edilməsi üçün yollar arayırdılar. Yerli inzibatçılıq olduqca ləng təkamüldən keçirdi. Yenilik kimi profekturalar sistemi meydana gəldi. İşğal hesabına meydana gələn yeni torpaqlar da çarın təyin etdiyi məmurlar tərəfindən idarə olunan profekturalara çevrilirdi. Bu, Çan Kyo dövrünün yerli idarəçiliyinin əsl formasına çevrildi. Qulluqçulara əmək haqqı kimi nağd pulla birlikdə taxıl verilirdi.

Hərbi məsələlər də böyük dəyişikliyə məruz qaldı. Kübarlar professional döyüşçülərə və muzdlu əsgərlərə yol verirdilər. Bəzi dövlətlərdə uğurlu döyüşçülərə

onların mənşələrindən asılı olmayaraq xüsusi kübar titulları verilirdi. Döyüş cəbhəsində başlıca qüvvə kimi piyada əsgərləri artıq döyüş arabaları əvəz edirdi.

Döyüşlər əsasən on minlərlə piyada əsgərlərdən ibarət qüvvə ilə aparılırdı, onlara süvari dəstələri kömək edirdi. Çan Kyo dövrü bir neçə min adamdan ibarət qüvvənin iştirak etdiyi döyüşləri idarə edən komandanlar meydana çıxmışdı. Döyüş xətti bəzən yüz millik məsafələrə uzanırdı. Süvari vuruşması əsasən şimal dövlətləri arasında gedirdi.

Kənd təsərrüfatında da mühüm dəyişikliklər əmələ gəldi. Darı şimalda əsas dənli bitki hesab olunurdu. Cənubdan düyü bitkisi idxal edilmişdi. Çox müxtəliflikdə olan soya paxlası ən mühüm dənli bitkilərdən bir hesab olunurdu. Çinli əkinçilər tədricən intensiv kənd təsərrüfatı qaydalarına keçirdilər. Üzvi gübrələrdən istifadə edilməsi hesabına torpaqların münbitliyi yaxşılaşdırılırdı. Həmin dövrdə kotanla şumlamanın aparılması vurğulanırdı. Əkinçilər həm də əkin dövriyyəsinə riayət edilməsinin qiymətini bilirdilər. Soya paxlası çox hallarda dövriyyənin bir hissəsini təşkil edirdi. Kotanları çox vaxt heyvan əvəzinə adamlar özləri çəkirdilər.

İqtisadi sferada digər mühüm dəyişiklik regionlar arasında ticarətin genişlənməsi idi. Ticarət Çjou Çininin bütün hissələrinə yayılmışdı. Böyük kommersiya mərkəzləri yaranırdı. Yeni şəhərlərdə dəbdəbə üçün tələblər meydana gəlirdi. Varlı adamlar büründən və qızıldan düzəldilmiş əşyalara malik idilər.

Feodal kübarlar dövlət daxilində hakimiyyət uğrunda mübarizənin qurbanlarına çevrilirdilər, onlar həm də güclü dövlətlər tərəfindən məğlub edilirdilər. Feodal sistemin tənəzzülü ilə əkinçilər tədricən ümumən ağalarının təbəələri olmalarını dayandırıb, dövlətin təbəələrinə çevrilirdilər.

Buna bənzər transformasiya tacirlər və sənətkarlar arasında da baş verirdi. Beləliklə, feodal cəmiyyət dövlətlərin birləşməsindən əvvəlki iki əsrdə bütünlüklə öz formasını dəyişib, yeni formaya yiyələndi.

Bu böyük siyasi və iqtisadi dəyişikliklər intellektual qaynama ilə müşayiət olunurdu, alamlar sürətlə dəyişilən dünyaya, Konfutsinin vəsiyyət etdiyi kimi, özlərini uyğunlaşdırmağa çalışırdılar. Köhnə feodal qayda silkələnmişdi və bu dövrdə böyük müəllim Konfutsi sonrakı Çin sivilizasiyası üçün normaya çevrilən sosial konsepsiyasını detallarına qədər işləyib hazırlamışdı. Sərt feodal vəzifələrin yerinə daha çox ümumi insan əlaqələrinə əsaslanan münasibətlər (Ata ilə oğul arasındakı münasibət kimi) ön plana çıxmışdı. Konfutsi öyrədirdi ki, bacarıq və mənəvi yüksəklik, liderlik üçün hansı nəsldə doğulmaqdan, mənşədən əmələ gələndən artıq dərəcədə insana lazım olur.

B.e.ə. V əsrə qədər Çinə mərkəzi düzənlik dövləti olan Uey dövləti ağalıq edirdi. İslahatci Şan Yan birinci möhkəm tədbir kimi qanunun və çar dekretlərin hakimiyyətini qurdu. O, hökmdarı inandırdı ki, kübar imtiyazları mükafat kimi dövlətə daha yaxşı xidmət edənə, xüsusən döyüşdə fərqlənənlərə verilməlidir. Bu, mövcud kübarlığı ona məxsus olan titullardan və imtiyazlardan məhrum edirdi və sarayda böyük antoqonizm əmələ gətirirdi. Ən təsirli islahatlardan biri yerli inzibatçılığın standartlaşdırılması idi. Bu tədbir birləşmiş dövləti yaratmaq üçün addım rolunu oynadı, çünki müxtəlif yerli hakimiyyətləri ölkənin strukturuna daxil edirdi, onlar prefekturalara çevrilməklə birbaşa sarayın nəzarəti altında olurdu. Bu sistem b.e.ə. 221-ci ildə birləşdikdən sonra bütün Çinə yayıldı.

Şan Yanın digər tədbiri istehsalı, xüsusən kənd təsərrüfatı istehsalını həvəsləndirmək idi. Əkinçilərə geniş torpaq sahələri verilirdi. İşçi qüvvəsi çatışmadıqda qonşu dövlətlərdən yararlı adamlar işləməyə cəlb edilirdi. Bu həm istehsalı artırmağa, həm də qonşu dövlətlərdə işçi qüvvəsinin azalmasına səbəb olurdu.

Şərqi Çjou hökmranlığı dövrü xronoloji cəhətdən iki epoxaya bölünür: Bahar və Payız epoxaları (b.e.ə. 770-476-cı illər) və Vuruşan çarlıqlar dövrü (475-221-ci illər). Bu mərhələ bütövlükdə quldarlığın tənəzzülü və dağılması illəri idi. Qul üsyanları və xalq buntları onun süqutunu sürətləndirirdilər. Bahar və Payız epoxaları dövründə Çində 140-dan artıq dövlət mövcud idi.Çox illər davam edən işğal müharibələrindən sonra onlardan yalnız 7-si qaldı, bunlar da tarixə Vuruşan çarlıqlar kimi daxil oldular.

İlk Çin imperiyası

B.e.ə. 221-ci ildə Tsin Şi Huandi, Tsin sülaləsinin ilk imperatoru olmaqla Vuruşan çarlıqların separatizmini dayandırdı və Çin tarixində bu növdən olan ilk yüksək mərkəzləşdirilmiş çoxmillətli feodal rejim yaratdı. Çin tarixçisinin yazdığı kimi Şi Huandinin mərkəzi hökuməti yaratmağının ərəfəsi imperiyanın meydana gəlməsinə doğru cəhdlərlə əlamətdar idi. Axırıncı dövlət də birləşmiş Tsinə uduzduqda, Tsin çarı Şi Huandi kimi ilk suveren imperator tituluna iddia etdi. O, güclü və böyük enerjiyə malik hökmdar idi, özünə bir sıra bacarıqlı köməkçilər təyin etsə də, hakimiyyətin yeganə mənbəyi imperatorun şəxsən özü idi. Son dövrlərdə aparılan arxeoloji qazıntılar, terrakotadan düzəldilmiş 7 min əsgər heykəlinin və 600 döyüş arabasının tapılmasına şərait yaratmışdır. Əsgərlərin bir çox zahiri görünüş

cəhətləri onların həmin dövrdə mövcud olan çox sayda xalqlara mənsub olmalarından xəbər verir. Hər bir əsgər özünəməxsus fərdi xüsusiyyətlərə malikdir və biri digərinə bənzəmir. İmperator öz hakimiyyətinin möhkəmliyinə uyğun gələn bir orduya malik idi.

Şi Hüandi bir sıra mühüm islahatlar həyata keçirdi. O, bütünlüklə feodal sistemi ləğv etdi, prefekturaların və knyazlıqların inzibatçılığını mərkəzi hökumətin təyin etdiyi məmurlara həvalə etməklə, onları Çinin hər tərəfinə göndərirdi. Dövrə vuran inspektorlar yerli magistratlara nəzarət edirdi. Çin 40 prefekturaya bölünmüşdü. Şi Huandi imperiyası Çinin ənənəvi ərazisinə çevrilməli idi. Sonrakı eralarda Çin bəzən digər əraziləri də əhatə edirdi, lakin imperatorun qəbul etdiyi ərazi bölünməz olaraq qaldı. Bu geniş əraziyə nəzarət etmək üçün Şi Huandi öz qoşunlarının hərəkəti üçün geniş yollar şəbəkəsi yaratdı. Bir neçə yüz min fəhlə şimal sərhədi boyundakı mövcud divarın (böyük Çin Səddinin) birləşdirilməsi və möhkəmləndirilməsi işinə cəlb edildi. Nəticə istehkamlanmış divarların, qarnizon stansiyalarının və siqnal qüllələrinin qarışığını əmələ gətirdi. Bu divar qərbdə indiki Daxili Monqolustan otlaqlarından Huan Honun münbit torpaqlarına dövrə vurmaqla keçib, Tibetin yamaclarına çatırdı. Bu müdafiə xətti Böyük Sədd kimi tanınır və böyük düzənliyin köçəriləri ilə lyoss torpaqlarında Çin əkinçilərinin bir-birlərinə qarşı durmalarını bir nişan kimi qeyd edirdi.

İmperator digər böyük bir layihə üzrə - Cənubda dağların ətrafından keçməklə cənubun sahil ərazilərini Çinin başlıca bədəni (torpaqları) ilə birləşdirmək üçün kanal qazdırmaqda isə uğursuzluğa uğradı.

Bütün Çin 11 il ərzindəki dəyişikliklərin yükünü daşımalı oldu. Milyonlarla adam nəhəng tikinti işlərinə cəlb edilirdi, çoxları həmin yerə çatmaq üçün uzun səfərlərdə ölürdü, digərləri qaçırdı. Əyalətlərdəki varlı və nüfuzlu adamlar paytaxta köçürtdürülürdü. Silahlar müsadirə edilirdi. Yüzlərlə ziyalı imperatorun siyasətini tənqidə məruz qoymağa cəsarət etdiyinə görə öldürülürdü. Qanundan əlavə bütün kitablar ictimai dövriyyədən çıxarılırdı. Bütün bunlara görə Şi Hüandi Çin tarixində arxitiran kimi meydana çıxır.

Onun kitabları yandırması və ziyalıları qırmağı, bəlkə də, tarixçillər tərəfindən şişirdilimişdir. Şi Huandinin özünə gəldikdə, o, dövrünün daş yazılarında iddia edir ki, xalqa məhz sülh və qayda-qanun vermişdir. Onun siyasi fəlsəfəsi sonralar Han imperatorları tərəfindən qəbul edildi, onlar isə tarixdə xeyirxah hökmdarlar kimi qiymətləndirilirlər.

Şi Huandi ölməkdən qorxurdu, mümkün olan hər şeyi edirdi ki, ölməzliyə, ədəbi həyata nail olsun. Lakin b.e.ə. 210-cu ildə imperiyasına səfərlərindən birini

edərkən ölüm onu yaxaladı, bu vaxt onun imperator titulunu qəbul etməsindən 11 il keçirdi və vur-tut 49 yaşı var idi.

Onun ölümü sülalənin süqutuna səbəb oldu. Qanuni varis özünə sui-qəsd etməyə məcbur edildi, bu vaxt onun kiçik qardaşı taxt-tacı qəsb etdi. Bacarıqlı və loyal xidmətçilər ölümə məhkum edildilər, ikinci imperator yalnız dörd il taxt-tacda oldu. Yantszı çayı zonasında qiyam baş verdi, bu vaxt bir qrup qəsdçilər onu müşayiət edən zabitləri öldürdülər və hökmranlığın imperatordan əvvəlki dövrə qayıtmasını iddia etdilər. Altı dövlətin köhnə idarəçilik elementləri öz keçmiş titullarının qaytarmağa iddia edəndə, üsyan sürətlə yayılmağa başladı. İkinci imperator qüdrətli hərəm ağası (yevnux nazir) tərəfindən qətlə yetirildi və b.e.ə 206-cı ildə qiyam başçısı hakimiyyəti qəbul etdi.

2000 ildən çox bir müddətdə Çində feodalizm hökm sürürdü. Bu, uzun zaman məsafəsi ərzində cəmiyyətin inkişafının milli birliyə can atması mühüm tendensiya olaraq qalırdı, baxmayaraq ki, bəzi dövrlərdə feodal separatizm də mövcud olurdu. Müxtəlif xalqlar müəyyən antoqonizmə və münaqişələrə baxmayaraq öz aralarındakı sıx əlaqələri saxlayırdılar.

Vuruşan çarlıqlar dövründən Şərqi Han sülaləsinin hökmranlığının sonuna qədər olan yeddi yüzillik feodal cəmiyyətinin yaranması və möhkəmlənməsi dövrü idi. Feodalizm ağalıq edənə çevrildi, baxmayaraq ki, bəzi rayonlarda hələ də quldarlıq qalırdı.

Han sülaləsi

Han sülaləsi b.e.ə. 202-ci ildə imperator tituluna yiyələnmiş Liu Pan tərəfindən yaradılmışdır. Liu ailəsinin 11 üzvü b.e. 9-cu ilinə qədər səmərəli imperatorlar kimi onun yerini tutmuşlar. Həmin ildə sülalə xətti Yan Man tərəfindən kəsilmişdir, o, öz rejimini Hsin titulu altında qurmuşdu. B.e. 25-ci ilinə Han sülaləsinin hakimiyyəti Liu Hsiu tərəfindən möhkəmləndirilmiş və o, 57-ci ilə qədər imperator kimi hökmranlıq etmişdi. Onun da 11 törəməsi imperatorluğu 220-ci ilədək saxlamışdı, bu vaxt vahid imperiyanın idarə edilməsi üç ayrıca çarlıq tərəfindən aparılmışdı. Qərb (və ya Keçmiş) Han və Şərq (və ya Sonrakı) Han terminləri meydana gəlmişdi.

Dörd əsr ərzində imperiyada xeyli dəyişikliklər əmələ gəlmiş, siyasi və sosial inkişaf baş vermişdi. Hökumət orqanları qurulmuş, yeni sosial fərqliliklər meydana

gəlmişdi. Han ailəsinin siyasi stabilliyinə və hərbi gücünə müvafiq olaraq digər xalqlar arasında Çinin nüfuzu dəyişirdi. Saray nümunəsi, hökumətin fəaliyyəti, şəhər həyatının artan dəbdəbəsi dini və texnoloji nailiyyətlərin yeni standartlarının meydana gəlməsinə səbəb olmuşdu. Dul imperatriça Liu öz ailəsinin bir sıra üzvlərinin dövlətin yüksək mühüm vəzifələrinə təyin etmişdi və açıqca ümid edirdi ki, onun ailəsi hökmranlıq edən Liu ailəsini əvəz edəcəkdir. Lakin 180-ci ildə onun ölümü ilə bani imperatora və onun ailəsinə loyallığı saxlayan adamlar tərəfindən bu planlar pozuldu.

Şərqi Han evi Liu Hsiu tərəfindən bərpa edilmişdi, o, 25-ci ildən 57-ci ilədək hökmranlıq etmişdi. Bu ailənin digər üzvü öz iddiası üstündə mübahisə etdiyinə görə iki il sonra öldürüldü. Yevnuxlar (hərəm ağaları) sarayda irəli çıxdılar. Çinin nüfuzu 90-cı illər ərəfəsində öz zenitinə yüksəldi, lakin 125-ci ildən nəzərə çarpan dərəcədə aşağı düşdü. 88-105-ci illərdə tənəzzül baş verdi, bu vaxt saray bir daha çar arvadlarının ailələrinin və yevnuxların təsiri atına düşdü. Bu faktda taxt-tacın zəifliyi özünü göstərirdi. Şərqi Hanın 12 imperatorundan 8-indən az olmayanı taxt-taca körpə vaxtı çıxmışdı, onların yaşı 100 günlə 15 il arasında idi. Təqribən həmin dövrdə də Romada 12 imperatordan 7-si qətl vasitəsilə taxt-tacdan uzaqlaşdırılmışdı.

İmperial arvadların ailələri və yevnuxlar öz mənafelərini dövlətin mənafelərindən üstün tutduqlarına görə imperator kürsüsünə kimin sahib olmasını seçə bilərdilər. Şərqi Hanın axırıncı 50 ili ərzində Şimali Çin müxtəlif tərəflərdən müdaxilələrə məruz qalırdı, bir sıra filosof dövlət xadimlərinin müşahidə etdiyi kimi inzibatçılıq rüşvətə çuğlanmış və qeyri-səmərəli olmuşdu. Qüdrətli regional qulluqçular özlərini mərkəzi hökumətdən müstəqil etməyə qadir idilər.

Han sülaləsinin gələcək imperiya Çini üçün ən başlıca xidmətlərindən biri mülki xidməti, mərkəzi və əyalət hökumətlərinin quruluşunu inkişaf etdirmək idi. Han hökumətlərinin üzləşdiyi problemlərdən biri imperiyanın mülkiyyətinə bacarıqlı və təmiz adamların götürülməsi idi. Əyalət birliklərinə göstəriş verilirdi ki, müəyyən sayda adamlar müəyyən müddət fasiləsindən sonra paytaxta göndərilsinlər. Namizədlərdən tələb olunurdu ki, siyasət və inzibatçılıq barədəki suallara cavab versinlər və öz qabilyyətlərini sübuta yetirsinlər. Öz uğurlarından asılı olaraq onlar sarayda müşavir və köməkçi kimi fəaliyyət göstərə bilərdilər və ya mərkəzi hökumətdən əyalətlərə təyinat ala bilərdilər. Bu dövrdə hələ müntəzəm imtahan və təyinat sistemi yox idi, bu, yalnız Suy və Tan sülalələri vaxtı inkişaf etmişdi.

Handa mülki xidmət vəzifələri, ümumiyyətlə, 12 dərəcəli sistemə daxil idi, ildə 100 ölçüdə taxıl qazanan aşağı məmurdan dövlətin ən yüksək nəzarətə malik olan vəzifə sahibinə qədərki, onların maaşının «bütöv 2000 ölçüdə» olduğu bildirilir, qulluqçulardan ibarət idi. Mərkəzi vəzifələrdə və ya əyalət qruplarında işləyənlər

arasında ciddi fərq yox idi. Vəzifədə irəliləmə bir dərəcədən sonrakına keçirdi və nəzəri cəhətdən hər bir adam lap aşağı vəzifədən ən yüksəyinə qalxa bilərdi. Üç vəzifə sahibi – kansler, imperial kansler, baş komandan imperatorun baş məsləhətçiləri kimi işləyir və hökumətin fəaliyyətinə axırıncı nəzarəti həyata keçirirdilər. Məsuliyyət 9 nazir arasında bölüşürdü. Bəzən rəqabətə də şərait yaradılırdı. Belə ki, maliyyə işlərinə iki nazirlik tərəfindən nəzarət edilirdi – kənd təsərrüfatı və gəlir nazirlərii tərəfindən. Aşağı Xəzinə tərəfindən hökumətin müntəzəm orqanlarında irəli çıxan qurum «xarici saray» kimi tanınırdı, zaman keçdikcə «xarici saray» şəklində hakimiyyətin ikinci qolu böyüdü və bu, tarazlığın yaranmasına səbəb oldu.

Han sülaləsinin xaricində olan böyük ərazilər imperatorun qohumlarına etibar edilmiş çarlıqlar idi. Bu vaxt mərkəzi hökumət həmin əyalətləri inzibati qaydada öz komandirləri vasitəsilə olan kimi idarə edirdi. B.e.ə. 100-cü illərdən başlayaraq imperial hökumət çarlıqları öz gücündən məhrum etdi və onların torpaqları mərkəzi hökumətin idarəçiliyi altına keçdi.

B.e.ə. 106-cı ildən hökumət əyalət qulluqçularının işinə yenə də birbaşa nəzarətə cəhd etdi. Ümumilikdə 14 regional inspektor təyin edildi, onlar müxtəlif ərazilərə səfər edir və qulluqçuların səmərəliliyi barədə mərkəzə məruzə edirdilər.

Hakimiyyətin son arbitri imperator, bəzən isə dul imperatriçə olurdu, onlar imperial idarəçilyi ediktlər elan etmək vasitəsilə həyata keçirirdilər. Han hökumətləri müntəzəm olaraq icmaların öz işində istifadə etməsi üçün mövsümlərdən ötəri və həm də məmurların öz məruzələrini dəqiq vaxtda təqdim etməsi üçün təqvim buraxırdı. Əyalət və yerli qulluqçular hökumətin məşğul olmadığı iki mühüm cəhətə məsuliyyət daşıyırdı – əhalinin siyahıya alınmasına və torpaqların, onların məhsul istehsalı ilə birlikdə qeydə alınmasına.

Duz və dəmir üzərində dövlət inhisarı qoyulmuşdu. B.e.ə. 112-ci ildə sikkənin standartlaşdırılması və sikkə buraxılışının həddi sahəsindəki son tədbirlər dövlət agentliklərinə həvalə edildi. Hökumət bir sıra səbəblərə görə miqrasiyalar getməsinə göstəriş verirdi. Bəzən belə miqrasiyadan niyyət ərazini süni surətdə məskunlaşdırmaq idi, bu iş daha çox sərhəd torpaqlarında baş verirdi. Bəzən isə əhali təhlükədən qorunmaq üçün köçürülürdü.

Han hökuməti xidmətə görə mükafat verməklə, tabe olmamağa və cinayətə görə isə tələbkarlıq qaydasında cəza vermək yolu ilə ölkəni idarə edirdi. Han imperatorları mədəni həyatı mümkün qədər geniş şəkildə yaymağa çalışırdı. Çinlilərin mədəni həyatına görə onların öz oturaq kənd təsərrüfatı işləri və şəhərin əyləncələri ilə Mərkəzi Asiyanın at belindəki köçərilərinin kobud və çətin həyatı arasındakı aydın fərqlər nəzərə alınırdı. Han hökuməti ədəbi nailiyyətlərə, elmi qabiliyyətə, dini

fəaliyyətə, elmi kəşflərə və texnoloji nailiyyətlərə əsaslanırdı və onları artırmaq qayğısına qalırdı. Daha çox ağac material üzərində yazı yazılırdı, bu material ağır və kövrək idi. İpək parça üzərindəki yazı isə dəbdəbə məqsədləri üçün istifadə edilirdi.

B.e.ə. 105-ci ilində Çində çox böyük inkişaf baş verdi, kağız kimi yeni yazı materialı istehsal edən manufaktura yaradıldı. Kağızdan istifadə ilə bundan əvvəlki üç və ya dörd əsr ərzində tətbiq edilən ilkin materiallar bütünlüklə sıxışdırılıb çıxarıldı. Bu vaxt böyüyən sivilizasiyanın çinlilərin yazı dilinə olan tələbləri çoxalmışdı. İlk çin dili lüğəti b.e. 100-cü ilində dərc edilmişdi, bu, 9.000 işarədən ibarət idi. Lüğətdə onların mənası, yazıda istifadəsinin müxtəlif formaları izah edilirdi.

Han qanunları nəzəri cəhətdən əhalinin bütün üzvlərini birləşdirilmişdi və bəzi hadisələr yüksək vəzifəlilərin cəzalandırılması barədə şəhadət verir. Son illərdə Çində ÇXR-in yeni sədri Si Tszipin də korrupasiyaya qarşı sərt mübarizəyə başlamış, bir sıra yüksək vəzifəli adamlar ən ağır cəzaya məhkum edilmişdir. O, kampaniyasını «Milçəklərə və pələnglərə zərbə vur» adlandırmaqla, bununla siyasət və inzibatçılıq pələnglərinin – xətaya yol vermiş ən yüksək dövlət xadimlərinin də cəzadan yaxa qurtara bilməyəcəklərini də əvvəlcədən vəd edir.

Han hökuməti ədəbiyyatı və öyrənməni qadağan etmək barədəki köhnə ənənəni pozmağa cəhd etdikdə, bu vaxt müəyyən addımlar atmaqla öz missiyasını yerinə yetirdi. Konfutsi ilə bağlı olan əsərlərə hörmətlə yanaşılırdı. «Poeziya klassikası», «Dəyişikliklər klassikası» və «Bahar və payız» kimi bilik mətnlər dərc edildi. Salnamələr məmurlar üçün zəruri vasitəyə çevrildi.

Altı sülalə

II əsrin sonundan Han imperiyası rəsmi olaraq öz mövcudluğunu kəsdi. Bu dövr Sarı çalmalıların daoist üsyanlarının yatırılması ilə, cilovlanmayan müharibələrin və siyasi xaosun başlanması ilə əlamətdar oldu. Bundan üç müstəqil siyasi hakimiyyət mərkəzi meydana gəldi. Şimalda bütün hakimiyyət generalissimus və «sülalənin himayəçisi» Tsao Tsaonun əlinə keçdi. B.e. 220-ci ilində axırıncı Han marionet imperatoru taxt-tacı rəsmən Tsao Tsaonun oğluna verdi. O, Uey sülaləsinin ilk hökmdarı oldu. Bundan sonra tezliklə, iki rəqabət aparan hərbi lider də özlərini imperator elan etdilər. Bu «üç çarlığın» qısa və qarışıq dövrü qanlı müharibələrlə və diplomatik intriqalarla dolu di.

İlk dövrlərdə hakimiyyət boşluğu çinli olmayan qüvvələrlə dolduruldu. 304-cü ildə hun tayfa başçısı, çinliləşmiş Hsiun-nu Han çarı titulu ilə hakimiyyəti ələ keçirdi

və nomad ordaları ilə Şimali Çini işğal etməyə başladı. O, yerli çinlilərin üsyanlarının köməyi ilə çin sivilizasiyasının qədim vətənini işğal etdi. İki paytaxtın məğlub olması və dağıdılması bir neçə əsrliyə Şimalın çinli sülaləsinin hökmranlığını sona çatdırdı. Bütöv Şimali Çin düzənliyinin özü müxtəlif «barbar» xalqları dövlətlərinin səhnəsinə çevrildi, kollektiv qaydada bu, Çin tarixçiliyində Altı çarlıq kimi tanınır.

«Barbar» hökmdarlar yarımçinli olan dövlətlər yaratdılar, onlarda xarici element hərbi kübarlığı təşkil edirdi və silahlı qüvvələrin özəyi idi. İnzibatçılıq işləri üzrə təcrübələri olmadığından və öz tayfa institutları iri aqrar cəmiyyəti idarə etməyin mürəkkəb vəzifələrinə uğyun gəlmədiyindən, onlar idarəetmənin ənənəvi çinli qaydalarından istifadə etməyə məcbur oldular. Bir tərəfdən öz etnik varlığını saxlamaq ehtiyacı ilə, digər tərəfdən çinli ailələrinin üzvlərindən istifadə etməyin praktiki zərurəti arasında gərginlik meydana gəldi. Bu qısa ömürlü imperiyaların əksəriyyəti həmin gərginlikdən salamat çıxa bilmədi.

Çinin torpaq mulkiyyətçiləri olan kəndlilər yenidən cəmiyyətin onurğa sütununa çevrildilər, köçəri mənşəli primitiv nomadlar sadəcə onların həyat yollarına keçməyə məcbur oldular. Barbar sarayları çinlilərin mərasim və etiketinin mürəkkəb qaydalarını qəbul etməyə məcbur oldu. Əcnəbi işğalçılar qanunilik haləsi yaratmaq üçün özlərini çinli mədəniyyəti şəraitində ifadə etməyə məcbur idilər. Bunu etdikdə isə onlar hökmən öz xalqına mənsubluqlarını itirirdilər. Tarix özünü yenidən və yenidən təkrar edirdi. Buna uyğun olaraq, IV və V əsrlərdəki Çieh və Toba XIX əsrdəki Mançu hökmdarlarının müjdəçiləri idilər.

Suy və Tan sülalələri

Suy sülaləsi dörd əsrə yaxın davam edən siyasi parçalanmalardan sonra Çini yenidən birləşdirdi. Suy Çində elə institutlar yaratdı ki, onların varisləri Tan tərəfindən də qəbul edildi.

Suy sülaləsinin banisi Yan Çien (581-604-cü illərdə hökmranlıq etmişdi) Şimali Çjou sarayında yüksək rütbəli qulluqçu idi, şimalın qüdrətli kübar ailəsindən çıxmışdı, Şimali Çindəki qeyri-çinli sarayında xidmətə götürülmüşdü və öz əcnəbi ağalarının ailəsindən olan qıza evlənmişdi. Qüdrətli orduya komandanlıq etmək üçün o, vaxt itirmədən öz sərhədləri daxilində qayda yaratdı. O, özünə köhnə Han paytaxtının yaxınlığında yeni böyük paytaxt tikdirdi, bu məqsədlə məcburi əməkdən

israfçılıqla istifadə edirdi. Həmin böyük şəhər Çanqan adı altında Tan sülaləsinin də paytaxtı oldu və X əsrin başlanğıcına qədər hökumətin iqamətgahı burada yerləşirdi.

O, yeni dövlətinin sərhədlərini tezliklə qorumağa girişdi. VI əsr ərzində Çin türklərin timsalında qorxulu şimal qonşusuna malik idi, onlar Mancuriya sərhədindən Bizans və Sasanid imperiyalarının sərhədlərinədək çölə nəzarət edirdilər. Bu vaxt türklər iki böyük imperiyaya bölünmüşdülər. Şərqi imperiya Çinin şimal sərhədindən, Mancuriyadan Kansuya qədər olan ərazidə ağalıq edirdi. Qərbi imperiya isə Mərkəzi Asiyanın içərisindəki geniş qövs şəklində – Tarim hövzəsinə qədər uzanırdı. İmperatror Yan Çien Qərbi türklərin xanına dəstək verməklə bu ayrılmanın baş tutmasına kömək etmişdi. O, Şərq türklərinin də arasındakı fraksiya mübarizələrini qızışdırırdı. Eyni vaxtda o, Böyük Səddi təmir etməklə şimaldakı sərhədlərini möhkəmləndirirdi. 580-ci illərin sonunda Yan Çuen dövləti stabil idi.

Suy rejiminə qarşı cənubda bir sıra qiyamlar baş verdi, lakin onlar asanlıqla yatırılırdı. Elə hökumət modeli yaranmışdı ki, bu quruluş Tan sülaləsi dövründə və sonralar da yaşamağa qadir oldu. Çox işləyən inzibatçı kimi Yan Çuen bir sıra müstəqil dərəcədə qabiliyyətli olan nazirlər təyin etmişdi. Onlar savadlı xalqın etimadını qazanmaq üçün Konfutsinin dövlət rituallarını dirçəltdilər. Həmin vaxt onlar Buddizmə də hörmətlə yanaşırdılar, bu, cənubda hakim din idi. Ona görə də ideal buddist qaydasındakı müqəddəs çarlılıq idealına uyğun olan imperator imicini yaratmaq istəyirdi.

İkinci Suy imperatoru Yan Ti (605-618-ci illərdə hökmranlıq etmişdi) cahillik, əllaməlik, pozğunluğun ali nümunəsi kimi təsvir edilir. O, manyakcasına düzəldilmiş tədbirlərə və ağılsız hərbi macəralara hamilik edirdi. Onun ölümündən sonra bu mifik Yan Ti haqqında düşmənçiliklə yazılmış çoxlu məlumatlar vardır. Qanun məcəlləsi sonralar bir daha təftiş edildikdə, 607-ci ildə həmin vaxtadək həyata keçirilən əsas cəzalar xeyli azaldıldı. 609-cu ilin siyahıya alınmasına qədər əhalinin sayının 50 milyon olduğu göstərilirdi.

Yan Tinin ən mühüm nailiyyəti Cənubun birləşmiş Çinə daha möhkəm inteqrasiya edilməsi idi. Əhalinin siyahıya alınması bütövlükdə vergi sistemi və hərbi işlər üçün bünövrə rolunu oynayırdı. Yan Ti özü Cənubla şəxsən çox bağlı idi, Lian cənub dövlətinin printsesasına evlənmişdi. Onun ən böyük planlarından biri atasının metropoliya regionunda başladığı kanal sisteminin birləşmiş imperiyadakı inkişafına kömək etmək idi. O, Ho-nanı Cuay Ho ilə birləşdirən böyük kanal çəkdirmişdi. Burada işləməyə çoxlu fəhlə kütləsi məcbur edilmişdi. Digər böyük kanalı şimal tərəfə çəkdirmək istəyirdi, bu, indiki Pekinə gəlib çatmalı idi. Bu tikililər qeyri-adi qaydada böyük xərc tələb edirdi, dəhşətli əzablara səbəb olurdu və geniş yayılmış

sosial iğtişaş irsi qoymuşdu. Lakin birləşmiş imperiyanı saxlamaq üçün infrastruktura sistemi çox böyük əhəmiyyətə malik idi.

Böyük Səddin Şansidə yenidən tikilməsi və möhkəmləndirilməsi də böyük işçi qüvvəsi tələb etmişdi, bu iş Şərqi türklərin təkrar oluna biləcək həmlələrinə qarşı ehtiyatlılıq tədbiri idi.

Ən böyük təhlükə hələ də türklərdən gəlirdi. Çinin şimal sərhədlərinin çoxunu işğal etmiş Şərq türklərinin içərisində parçalanma bu vaxt başa çatmışdı. Nəhəng qüdrətə malik olan Qərb türklərinin torpaqları qərb tərəfdə Tarim hövzəsinin şimalına, Sasanid Persiyası və Əfqanıstana qədər uzanırdı. Onun hökmdarı Çulo xan yarımçinli olmaqla, Suy ilə yaxşı münasibətdə idi. Şərq türkləri də, onların carları da Çin printsessalarına evləndiklərindən Suy ilə həmçinin yaxşı münasibət saxlayırdılar.

Onun ən baha başa gələn işi Koreya ilə seriya şəklində aparılan kampaniyalar idi. Bu vaxt Koreya üç çarlığa bölünmüşdü, onlardan daha mühümü və güclüsü Şimali çarlıq idi. Bu çarlıq çinlilərə düşmən idi və Yan Tiyə ehtiram bəsləməkdən imtina etmişdi.

611-ci ildə Ho-nandan Pekinə çəkilən kanalın tikintisi başa çatdı, böyük ordu və ehtiyat toplandı. Lakin dəhşətli daşqın Koreyaya qarşı kampaniyanı təxirə saldı. 612-ci ildən başlayaraq üç il ərzində o, koreyalılara qarşı kampaniyalar apardı. Birincisi uğursuz oldu. 614-cü ildə digər ordu Koreyanın içərisinə göndərildi və paytaxt Pxenyanı tutmaq qorxusu yaransa da, həlledici qələbə çalınmadan geri çəkilməyə məcbur oldu. Bu yürüşlər diqqəti imperiyanın özünün böyüyən daxili həyatı problemlərindən ayırırdı, nəhəng canlı qüvvə və material itkisinə səbəb olurdu. Onlar Suyu demoralizə edir, hərbi cəhətdən yoxsullaşdırırdı. Ona görə də Yan Ti öz şimal qonşuları ilə əlaqələrini qoruyub saxlamaq qərarına gəldi. Tezliklə imperiyanın hər bir regionunda qiyamlar və iğtişaşlar baş verdi. 618-ci ildə o, öz əyanları tərəfindən öldürüldü. Onun ölümündən sonra Li Yuan onun marionet hökmdarını devirib, özünü yeni Tan sülaləsinin imperatoru elan etdi. O, cəmi 8 il hökmranlıq etdi, Suy imperiyasına nəzarətə cəhd edən iddiaçılardan biri idi.

Tan üç mühüm rəqib qüvvələrlə rəqabət aparmalı idi. Onların müqavimətinə son qoyula bilindi, təkcə şimali-şərqdə müqavimət davam edirdi. İmperiya yenidən bütünlüklə sakitləşdi və Tan ailəsinin başçılığı altında birləşdi.

Tan birləşməsi Suy işğalına nisbətən daha uzun və daha qanlı oldu. Təkcə Çin cəmiyyəti sürətlə inkişaf etmirdi, həm də Yaponiya, Koreya və Vyetnamdan fərqli olaraq Çin birinci mərkəzləşmiş dövlət idi. Sarayın aparıcı qruplarında elə bir köklü dəyişiklik aparılmadı. Tan nikah vasitəsilə Suy çar evi ilə qohum idi, baş nazirlərin

çoxu da Tan və ya Suy imperial ailələrinin qızlarına evlənməklə onlara qohum olmuşdular. İmperator sarayı əsasən eyni sosial mənşəyə malik adamlardan ibarət idi.

Lu Yuan bir irs kimi iflasa uğramış dövləti qəbul etmişdi, onun tədbirlərinin çoxu sadə və ucuz inzibatçılıq qurulmasına kömək edirdi. Onun bürokratiyası çox kiçik idi, özü də həm mərkəzdə, həm də yerli səviyyələrdə. Hər bir vergi ödəməyə qadir kişi cinsindən olan adam torpaq hədiyyəsi alırdı. Böyük torpağa sahib olan malikanələr imperial nəslin üzvlərinə və qüdrətli məmurlara mənsub idi. Bəzi torpaqların vərəsəlik qaydasında əldə edilməsinə baxmayaraq, torpaqlar bütün oğlanlar arasında bölüşdükdə sahələr kiçilməyə meylli olurdu.

Vergi sistemi də Suy və ondan əvvəlki sülalələr dövründə olan kimi idi. Hər bir yaşlı kişi cinsindən olan taxılla və parça ilə adambaşına olan vergini ödəyirdi və mərkəzi hökumət üçün ildə 20 iş günü işləməyə qadir olmalı idi. Başqa bir iş dövrü də yerli hakimiyyətin xeyrinə sərf edilirdi.

Li Yuan sikkəxana yaratdı və yaxşı mis valyuta buraxmağa başladı ki, bu bütün Tan erasında standart olaraq qaldı. O, həmçinin bütün mərkəzi qanunların yeni kodifikasiyasını həyata keçirdi, bu iş 624-cü ildə başa çatdırıldı. Tan məcəlləsi özünün yüksək dərəcədə yararlı olduğunu zamana sübut etdi.

Li Yuanın iki oğlu varisliyə görə rəqib idi. Bu rəqabət fraksiya mübarizəsinə aparıb çıxardı. Hərbi çevrilişdə Li Şih- min rəqib olanı öldürdü və öz xeyrinə atasını taxt-tacdan imtina etməyə məcbur etdi. 626-cı ildə taxt-taca sahib olmaqla, ölümündən sonrakı Tay Tsun titulu ilə tanınmaqla Çin tarixinin ən məşhür hökmdarlarından biri oldu.

Tay Tsunun hökmranlığı (627-649-cu illər) adətən «Çen-Kuanın yaxşı hökuməti» erası kimi tanınır. O, qeyri-adi qabiliyyətli müşavirlər komandasına malik idi. Onun hökmranlığı siyasi təşkilatlanmada mühüm dəyişikliklərin başlanğıcı oldu. Saray, demək olar ki, əsasən müstəsna qaydada kübar nəslinə aid olan adamlardan ibarət idi.

İkinci dəyişiklik imtahan sisteminin geniş miqyasda tətbiq edilməsi idi. Suy imtahanları artıq Kao Tsunun başçılığı altında yenidən qurulmuşdu, o paytaxtdakı yüksək səviyyəli Suy sistemini canlandırmışdı. Tay Tsunun başçılığı altında məktəblər daha da genişləndi və yeniləri yaradıldı. Tədbirlər öz təhsil kursunda standartlaşdırıldı. Paytaxtda məktəblər yalnız böyük ailələrin və yüksək rütbəli məmurların oğlanları üçün idi. Digər imtahan namizədləri yerli məktəblərdən gəlirdi. İmtahanlar prinsip etibarilə hamı üçün açıq idi, lakin onlar bürokratiyaya daxil olmağa nisbətən az sayda yeni giriş imtahanlarına malik idi. İmtahanlar ənənəvi dərs planında yüksək təhsil səviyyəsi tələb edirdi və geniş qaydada gənc oğlanların və aşağı ailələrin

üzvlərinin kübarlığa daxil olmasının alternativ metodu kimi qəbul edilirdi. Bununla yanaşı, fərqli zəmanətlər, imtahan götürənlərin lobbiçiliyi və bəzən imperatorun özünün apardığı söhbət mühüm rol oynayırdı və bunlar geniş yayılmışdı.

Tan dövrlərində imtahan sisteminin başlıca səmərəsi bürokratiyanın yuxarı səviyyələrinə yerli mötəbər nəsillərin üzvlərinin qalxmasına həvəs yaratması idi. Bu, uzun müddət ərzində yuxarı kübarlığın əlində saxladığı siyasi hakimiyyət inhisarının dağılmasına səbəb oldu. Adamların işə götürülməsi imperator və sülalə yanında onların mövqeyindən asılı idi, bu hətta doğumdan irəli gələndən və sosial vəziyyətdən də üstün əhəmiyyətə malik olurdu.

Tay Tsun öz atasının iqtisadi siyasətini davam etdirdi. O, mərkəzdəki bürokratik quruluşu zəiflətdi və yerli hakimiyyət dövrələrinin sayını əhəmiyyətli dərəcədə azaltdı. Ölkə on əyalətə bölündü. Mərkəzi hökumət üstəlik yerli inzibatçılığın standartlaşdırılmasına və səmərəliliyinə mərkəzdən göndərilən xüsusi komissionerlərin yoxlamaları hesabına nail olurdu. Hökumət müqayisəli qaydada adi və ucuz olaraq qalırdı. Tay Tsunun hökmranlığı malların ucuz qiymətləri və ümumi tərəqqi dövrü idi.

O, həmçinin xarici siyasətdə də uğurlu idi. 630-cu ildə Şərqi türklər onların liderləri arasındakı münaqişə və təbəə xanlıqlarının üsyanı hesabına tölöslərə və uyğurlara bölünmüşdülər. Çin qüvvələri onların ərazilərinə müdaxilə edir, bütövlükdə məğlub edir və xalqı əsir götürürdü. Təslim olan türklərin çoxu Çin sərhədi boyu məskunlaşdırılırdı və onlardan çoxu Tan ordusunda xidmətə götürülürdü. Buna bənzər daxili münaqişəni həvəsləndirmək siyasəti Qərbi türklərə qarşı da həyata keçirilirdi. Onlar bu vaxt iki ayrıca xaqanata bölündülər. 642-643-cü illərdə yeni xan çinlilərin köməyi ilə birgə nəzarət səviyyəsini yenidən qurdu və onların çinlilərə bac verənə çevrilmələri ilə razılaşdı. Bu ittifaqı möhürləmək üçün Tay Tsun onu Çin printessasına evləndirdi.

Türk qüdrətinin sönməsi Tay Tsuna Tarim hövzəsinin müxtəlif kiçik dövlətləri üzərində öz hakimiyyətini genişləndirməyə şərait yaratdı. Çin hərbi inzibatçılığı indiki Çin Türküstanının sərhədlərinin arxasına qədər genişləndi. Şimalda Orhon reigonunda Tan ordaları şərqi türklərin keçmiş vassalları olan tölösləri məğlub etdi və onlar həmçinin 646-cı ildə Tanın vassallarına çevrildilər.

Çinin qərb əraziləri Hanın böyük günlərində olduğundan bu vaxt daha uzaqlara genişləndi. Qərblə, Mərkəzi Asiya ilə, Hindistanla ticarət inkişaf etdi. Çin sarayı Sasanid Persiyasından və Bizans imperiyasından səfirlər qəbul etdi. Paytaxt xarici tacirlərlə, əcnəbi rahibələrlə dolu idi və onlar müxtəlif çinli olmayan icmalar yaradırdılar. Böyük şəhərlər buddist monastırlarıyla yanaşı zoroastrizm, məzdəkçi və

nestorian məbədlərinə malik idi və onlar bir neçə əsr ərzində Çin mənzərəsinin bir hissəsini təşkil etdilər. Tay Tsunun xarici siyasətdə yeganə uğursuzluğu Koreya ilə bağlı idi. Şimali Koreya dövləti müntəzəm bac verirdi, lakin 642-ci ildə orada daxili çevriliş baş verdi. Yeni hökmdar Tanın cənubi Koreyadakı digər vassal dövləti olan Sillaya hücum etdi. Tay Tsun Koquryaya müdaxilə etməyi qərara aldı, nazirləri isə bunu etməməyi məsləhət gördülər. 645-ci ildə Mancuriyadakı Xitanla və cənubi Koreyanın iki dövləti – Pençe və Silla ilə ittifaqda Koquryaya müdaxilə etdi, lakin ağır itki verməklə geri çəkilməyə məcbur edildi.

Sarayda da onun problemləri yarandı, nəzərdə tutulan varisinin ağıldankəm olduğu aşkara çıxdı, saray müxtəlif namizədləri müdafiə edən fraksiyalara bölündü. Ölümündən sonra Kao Tsun titulunu daşıyan 21 yaşlı gənc taxt-taca çıxdı. İlk illərdə ona əmisi ağalıq edirdi. Lakin tezliklə real hakimiyyət Kao Tsundan Çin tarixinin ən görkəmli qadınlarından biri olan imperatriçə Unun əlinə keçdi. U Tay Tsunun aşağı dərəcəli kənizi idi. U Tay Tsunun sarayına gətirilmiş və bir sıra mürəkkəb intriqalardan sonra 655-ci ildə qanuni imperatriçə Uanı devirib, özünü onun yerinə təyin etmişdi. Bu iki qadın arasındakı mübarizə sadəcə saray intriqası deyildi. Kübar nəslindən olan Uan köhnə aristokrat farksiyasına və Tay Tsun sarayından salamat qalmış böyük nazirlərə arxalanırdı. İmperatriçə U isə cənublu ailəsindən olduğundan Suy ilə möhkəm əlaqələrə malik idi və Cənub kübarlığının, xırda torpaq sahiblərinin və aşağı dərəcəli bürokratiya eşolonunun dəstəyinə malik olduğu kimi görünürdü.

Unun uğuru əsasən intriqa qabiliyyətinə, üstün şəxsiyyəti ilə nəhayətsiz rəhmsizliyinə borclu idi. Devrilmiş imperatriçə və digər imperial favoritlər qəddarcasına öldürüldülər və sonrakı yarım əsr yeni imperatriçə tərəfindən həqiqi və güman edilən rəqiblərinin bir qrupunun digərinin ardınca ölümə məhkum edilməsi ilə əlamətdar oldu.

Tay Tsun hökmranlığını uğurlu edən imperatorla onun sarayı arasındakı yaxşı əlaqə tezliklə dağıdıldı. Siyasi həyat mümkün zərbədən ehtiyatlananlara və mühafizə olunanlara çevrildi, imperatriçənin baş çıxarmaq mümkün olmayan şıltaqlığından asılı oldu. İlk qurbanlar Tay Tsun hakimiyyətinin yaşlı dövlət xadimləri oldu, onlar 657-659-cu illərdə sürgün edilir, öldürülür və ya özünü intihar etməyə məcbur edilirdilər.

657-ci ildə Lo-yan, U ailəsinin coğrafi mərkəzi kimi ikinci paytaxt edildi. Bütöv saray bu şəhərə köçürüldü. İkinci nazirlər və saray məmurları meydana gəldi. Imperatriçənin daimi iqamətgahı da burada idi. Onun cəhalətə, simvolizmə və dinə maniyası var idi. Münəccimlərdən, cadugərlərdən və ya rahiblərdən biri digərini əvəz edirdi. Simvoliklik nöqteyi-nəzərindən bütün məmurların adı dəyişdirildi, imperator da yeni «Səma imperatoru» titulunu aldı.

Yeni vəzifələrin çoxu imtahandan keçən namizədlərlə doldu. Kübarlığa digər zərbə 659-cu ildə imperiyanın şəcara ağacının tərtib edilməsi oldu. Onu deməyə ehtiyac yoxdur ki, bütün ailələr içərisində birinci ailə Unun ailəsi oldu. Imperatriçənin möhkəm dəstəyə malik olduğu bürokratiyanın aşağı dərəcəliləri yeni vəzifələr yaradılmaqla irəli çəkilmək yolu ilə və maaşlarının artırılması ilə həvəsləndirilmişdilər.

Əvvəlki dövrlərdə çinlilər çoxlu xarici müharibələr aparırdılar. 657-ci ilə qədər onlar türklərlə xeyli davam edən müharibə apardılar və öz ərazilərini 659-66-ci illərdə öz protektoratlığıı altında olmaqla Oks vadisinə qədər genişləndirmişdilər. Kao Tsunun hökmranlığı dövründə ən ciddi xarici təhlükə qərbdə yeni yaranan, qüdrətli gücə malik olan tibetlilər idi. Onlar 630-cu ildən şimal sərhədinə daim təzyiq göstərirdilər. 670-ci ildən tibetlilər Koko Nor hövzəsində yaşayanları öz evlərindən qovdular.

683-cü ildə Kao Tsun öldükdə onun yerini gənc Çun Tsun tutdu. Lakin imperatriçə U dul imperatriçə kimi mərkəzi inzibatçılığa bilavasitə nəzarəti öz əlinə keçirdi. Bir ildən də az müddətdə o, Çun Tsunu da devirdi və onun yerinə digər marionet imperatoru yerləşdirdi. 684-cü ildə hakim sinfin narazı üzvləri cənubda ciddi qiyam qaldırdılar, lakin o tezliklə yatırdıldı. Imperatriçə Tanın çar ailəsinin üzvləri və məmurları arasında terror hakimiyyəti yaratdı, bu məqsədlə agentlər və xəbərçilər ordularından istifadə edirdi. Saray həyatının üstünü qorxu və vahimə almışdı. İmperatriçə elan etdi ki, sülalə Tandan Suya dəyişmişdir. O, öz hüququnda rəsmi olaraq imperatriçəyə, Çin tarixinin yeganə qadın hökmdarına çevrildi. U soyadını daşıyan hər bir adam vergidən azad edilirdi. Hər bir prefekturada məbəd yaradılması barədə göstəriş verilmişdi. Onlarda rahiblər imperatriçənin Buddanın inkarnasiyası olduğunu izah etməli idilər. Paytaxt şəhəri «müqəddəs paytaxta» çevrildi. 690-cü ildən onun rejiminin ən pis əmələri artıq arxada qalmışdı. Lakin o, ləyaqətsiz favoritlərinin təsirinə şübhəli münasibət bəsləməkdə qalırdı və 700-ci ildən sonra işlərə diqqətini tədricən itirməyə başladı.

İmperiyanın xarici işləri bu vaxt daha da pisləşməyə üz tutdu. Tibetlilər sərhəddə müharibəni bərpa etdilər. 696-ci ildə Mancuriyada Xitan özünün çinli qubernatoruna qarşı qiyam qaldırdı. 698-ci ildə türklər öz növbəsində Hopehə müdaxilə etdilər.

İmperiyanın artan xərcləri yeni vergilər qoymağı tələb edirdi. Ev sahibliyinə görə vergi tətbiq edildi. Şəhər əhalisindən də belə vergi tutulurdu. Yeni vergilər məhsuldarlıq və ya sərvət əsasında olmalı idi, adambaşına olan vergidən isə imtina edilirdi. Bəziləri vergidən yayınmaq üçün öz yararlılıqlarını itirdiklərini irəli

sürürdülər. Kəndli alilələri Hopeh və Şandun ərazilərindən istismara və ağır vergilərə görə qaçırdılar. Onlar mərkəzi və cənubi Çinin boş torpaqlarında məskunlaşırdılar. 705-ci ildə imperatriçənin 80 yaşı olanda, o, hadisələrə artıq barmaqarası baxırdı. Saraydakı bürokratik fraksiya onu Çun Tsunun xeyrinə istefa verməyə məcbur etdi. Tan sülaləsi bərpa edildi.

Yeni imperator da imperatriçə Ueyin şəxsində özünün hökmlü arvadına malik idi. 716-cı ildə o, öldükdə, onu öz arvadının zəhərlədiyi güman edilir, qadın ondan əvvəlki imperatriçə U kimi özünü hökmdar elan etməyə çalışdı. Lakin imperatriçə Unun heybətli qızı, printsessa Tay-nin və saray ordusu onun atası Cuy Tsunu (Çun Tsunun qardaşını) taxt-taca bərpa etdilər. İndi də printsessa imperatora ağalıq etmək istədi, onların arasında da mübarizə başlandı. 712-ci ildə taxt-tacı ələ keçirən Hsüan Tsun 756-cı ilə qədər hökmranlıq etdi. Bu dövr Tan sülaləsinin yüksək nöqtəsi idi. Bu var-dövlət və inkişaf erası idi, institutsional proqresslə yanaşı, incəsənətin çiçəklənməsi baş verdi. Siyasi həyata əvvəllər imtahan sistemindən gələn bürokratlar ağalıq edirdi.

720-ci ildən sonra əhalinin geniş miqyasdakı qeydə alınması və vergi ödəyənlərin xeyli artması baş verdi. Yeni ev sahibliyi və torpaq vergiləri genişləndi. Çox sayda qeydə alınmış ailələr üzərində dövlətin nəzarəti bərpa edildi. Imperatriçə U tərəfindən laqeyd münasibət bəslənən kanal sistemi təmir edildi və Yantszı regionundan paytaxta və şimal sərhədlərindəki ordulara taxıl daşınması qaydaya salındı. Nəhayət, Cənub maliyyə cəhətdən Şimala inteqrasiya edildi. 740-cı illərdən hökumət nəhəng taxıl və sərvət ehtiyatları toplayırdı.

Torpaq qeydiyyatı, nəqliyyatın yenidən qurulması və sikkə islahatı böyük qüdrətə malik olan xüsusi təyin edilmiş komissiyalar tərəfindən idarə olunurdu. 736-cı ildən sonra kübar elementlərin siyasi ağalığı möhkəm qaydada yenidən quruldu. Hsüan Tsunun hökmranlığında hərbi komandanların qüdrətinin böyüməsi ən mühüm yeni inkişaf idi. Onun hökmranlığının başlanğıcında türklər yenə də başlıca qüvvəyə çevrilməklə təhlükə törədirdilər. Türk xanı Mo-co şimali-qərbi Çinə hücum etdi, sonra isə nəzərini şimala tərəf döndərdi. 711-ciildən o, Çin sərhədindən Transoksianaya qədər çölə nəzarət edirdi, bu yeni birləşmiş Türk imperiyası kimi meydana çıxmışdı. 716-cı ildə o, öldü və onun möhkəm olmayan imperiyası müxtəlif türk təbəəsindən ibarət olan tayfalar arasında gedən mübarizədə uğurla qələbə çalmışdı. 714-cü ildə onlar qüdrətli imperiya qurdular və o, 840-cı ilədək Çinin şimal sərhədində aparıcı qüvvə olaraq qaldı. Tanla daim müttəfiqlik siyasəti aparırdılar. Bir sıra təsadüflərdə isə Uyqurun köməyi hətta çətin şərtlər müqabilində təklif olunsa da, sülaləni bədbəxtlikdən xilas etmişdi.

Hsüan Tsunun hakimiyyətinin erkən hissəsində tibetlilər də həmçinin düşmənçilik münasibətində idilər. 714-cü ildən sonra onlar Şimali-qərbə müdaxilə etdilər. 727-729-cü illərdə çinlilər onlara qarşı iri miqyaslı müharibə apardılar və 730-cü ildə razılıq əldə edildi. Lakin tibetlilər bu vaxt öz diqqətlərini Tan imperiyasının Tarimdəki qərb ərazilərinə yönəltdilər. 751-ci ildə Talasda, uzaq qərbdəki ərazilərdə imperial orduları ərəblər tərəfindən məğlub edildi. Şimalda Mancuriya öz torpaqlarını Koreya sərhədində Koquryo dövlətinin yerində yaranan yeni Parhayeyə itirdilər. Beləliklə, Hsüan Tsunun hökmranlığının sonu olduqca qeyri-stabil şəraitlə üzləşdi.

755-ci ildə yeni dövrün başlanğıcını göstərən An Lu-şan qiyamı baş verdi. An Lu-şan türk mənşəli qeyri-çinli general kimi üç şimali-şərq ordularının hərbi-qubernatoru idi.

İlk dövrlərdə qiyam uğur qazandı, şərq paytaxtını işğal etmiş və əsas Tan paytaxtını tutmuşdu. İmperator qaçmışdı, yolda onun arvadı və saraydakı digər tərəfdarları öldürülmüşdü. Yeni imperator Su Tsun (756-762-ci illərdə hökmranlıq etmişdi) ümidsiz şəkildə çətin hərbi vəziyyətlə üzləşdi. Qiyam orduları paytaxtı və Hopehin, Honanın əksər ərazilərinə nəzarət edirdilər.

Hsüan Tsunun hökmranlığının son günlərində o, imperiyanı beş zonaya bölmüşdü, onların hər biri imperial printslərin knyazlıqları (leni) olmalı idi, həm də onlardan biri komandanlığı öz üzərinə götürməli idi. Lakin həmin şəxs generalların biri tərəfindən öldürüldü. Ancaq qiyam davam edirdi, yalnız 763-cü ildə yatırdıldı.

Qiyamdan sonrakı həll vasitəsilə təkcə bir sıra ən güclü qiyam generalları bağışlanmadı, həm də onların təslim etdikləri ərazilərə imperial qubernatorlar təyin edildi. Hupeh dörd yeni əyalətə bölündü. Əyalət separatizmi hər yerdə artıq problemə çevrildi.

Hsien Tsunun (806-820-ci illərdə hökmranlıq etmişdi) başçılığı altında Tan öz qüdrətinə yiyələnmək üçün böyük iş gördü. Kobud və rəhmsiz olan bu hökmdar işləri öz möhkəm əlinə götürdü, onun əyalətlər barədəki siyasəti xüsusilə uğurlu idi. O, imperiyanı əksər ərazilərində mərkəzi hökumətin hakimiyyətini bərpa etdi.

Lakin siyasətə yevnuxların təsiri böyümüşdü. Hsien Tsun öz yevnux köməkçiləri tərəfindən öldürüldü və həmin vaxtda saray şurasının baş yevnuxları və saray orduları demək olar ki, taxt-tacın hər bir vərəsəsinin seçilməsinə müdaxilə edirdilər. Bəzi hallarda onlar əvvəlki imperatorun vəsiyyətinə əməl etməyərək, namizədləri taxt-tacdan məhrum edirdilər. Qədim Çin ibrətamiz hekayətlərindən birində yevnuxların sarayda necə böyük qüdrətə yiyələndiyi açılıb göstərilir. Çin hökmdarı sarayda böyük hərəmxanaya malik idi. Lakin hansı hərəmin gecə hökmdarın yatağını bölüşməsi yevnuxun düzəltdiyi protseduradan keçirdi. Yevnux

qəşəng qızların portretlərini çəkdirib, hökmdara göstərir, onun xoşuna gələn qız həmin axşamın qonağına çevrilirdi. Hərəmxanadakı ən gözəl qızdan xoşu gəlmədiyindən, çünki o, yevnuxun rüşvət təmənnasına boyun əymirdi, onun eybəcər şəklini çəkdirib hökmdara göstərdiyindən, bu qız bir dəfə də olsun hökmdara qonaq olmamışdı. Qonşu köçəri xalqın hökmdarı Çin imperatoruna yaxşı hədiyyələrlə sülh təklifi etmişdi, Çin hökmdarı da ona hərəmlərindən birini hədiyyə kimi göndərmək istədikdə, yevnux xoşu gəlməyən qızı seçdi. Qonaqlar yola düşmək istəyərkən Çin imperatoru öz hədiyyəsini görmək istədi və qızın gözəlliyini ilk dəfə görəndə ağlı başından çıxdı. Lakin qərarı dəyişmək olmazdı və qız ölkəni tərk etməli oldu.

İmperator hirsindən özünə yer tapa bilmirdi, yevnuxun hiyləgərliyindən agah olduqda onun boynunu vurdurdu. Yevnuxun sənədləri yoxlandıqda «sarı düyü» və «ağ düyü» sözləri və onların qarşısında iri rəqəmlər gözə dəydi. Hökmdar bilirdi ki, yevnux sarayda qidalanır, onun heç nəyə ehtiyacı yox idi, bəs nəyə görə düyü ehtiyatı yığırmış? Hökmdarı başa saldılar ki, «sarı düyü» qızıl, «ağ düyü» isə gümüş deməkdir və o, aldığı rüşvətlərin uçotunu belə aparırmış. Yevnux bu yolla böyük sərvət əldə edibmiş.

Lakin yevnux qüdrətinin apogeyi qısa müddət çəkdi, 840-cı ildə U Tsunun taxt-taca çıxması ilə başa çatdı. O və onun varisləri yevnuxlara bel bağlamağı davam etdirirdilər, lakin onların təsirinə nisbətən az məruz qalırdılar. İmperator Uen Tsun (827-840-cı illərdə hökmranlıq etmişdi) yevnuxların ağalığını məhv etmək yollarını arayırdı, lakin bu niyyət baş tutmadı. 835-ci ildəki “Şirin şeh” uğursuz çevrilişindən sonra onun ağılsız planları bürokratiyanı demoralizə etdi və bir neçə nazirin və çox sayda qulluqçuların ölümünə səbəb oldu.

Tan imperatorları rəsmən Daosizmi dəstəkləyirdilər, çünki onların iddlialları Lao-Tszıdan qidalanırdı. Buddizmə də böyük rəğbət bəsləmələrini davam etdirirdilər. Həmin dövrün ən mühüm tərəqqisi yeni yerli məktəblərin böyüməsi idi. Onlar buddizmi çinli fikirin yoluna uyğunlaşırdılar.

843-845-ci illərdə U Tsun fanatik daolist olmaqla, buddizmi məhv etməyi qərara aldı. Onun motivlərindən biri iqtisadi xarakter daşıyırdı. Çin ciddi maliyyə böhranları ilə üzləşmişdi. İmperator və onun müşavirləri bunu, monastırların torpaqlarını və sərvətini ələ keçirməklə həll etməyə ümid bəsləyirdilər. Bu istismar çox uzağa getdi. 40 min ibadət yeri və məbəd bağlandı, 260 min rahib və rahibə dünyəvi həyata qaytarıldılar. Axı rahiblər bir qayda olaraq özlərini dünyadan izolə edirdilər. Geniş monastır torpaqları müsadirə edilib satıldı. Bu zülm qısa müddət davam etdi, lakin büddizm institutlarına sağalmaz yara vuruldu. Buddizm artıq öz

intellektual təsirini itirməyə başlamışdı və bir sosial institut kimi ona vurulan bu zərbə Çində buddizmin tənəzzülünün başlanğıcı kimi əlamətdar oldu.

Bundan yeddi əsr sonra katolitsizmlə, Roma papası ilə əlaqəsini kəsməklə, yeni anqlikan kilsəsi yaradan İngiltərə kralı VIII Henri də monastır torpaqlarını və sərvətini ələ keçirməklə xeyli maddi fayda götürmüşdü. Yepiskop Con Fişer kralın bu tədbirinin başlanğıcında ona etirazını bildirərək, obrazlı şəkildə dediyi kimi "meşədən özünə bir sap xahiş edən balta ona nail olduqdan sonra həmin meşəni doğramağa başlamışdı, bu vaxt odun daşqını əmələ gəlmişdi." Kral da əvvəlcə bir monastır istəmişdi, sadəlövh yepiskoplar onun xahişinə əməl etdikdə isə o, yepiskop Fişerin xəbərdar etdiyi kimi, bütün monastır torpaqlarını ələ keçirmişdi. Ona ömrünün son ilində Papa III Pavel kardinal rütbəsi vermişdi, çünki o, kralın Anna Boleynlə izdivacının qanuni qüvvəsini etiraf etməkdən imtina etmişdi. Kralın yeni kilsənin ali başçısı olmasını tanımağı rədd etdiyindən 1535- ci ildə Con Fişerin boynu vurulmuşdu. Bundan dörd əsr sonra Vatikan onu kanonlaşdırmış, Müqəddəs elan etmişdi.

Ədəbiyyatda isə Tan dövrünün ən böyük şərəfi onun poeziyası idi. VIII əsrdən başlayaraq şairlər süni diqqətdən və Cənub sülalələrinin saray poeziyası işlərindən uzaqlaşdılar, yeni istiqamətlər və naturalizm kəsb etdilər. Artıq şairlər aydın və sadə dildə yazırdılar. Sülalənin sonuna yaxın yeni poetik forma əmələ gəldi, bu, beş sözlü və yeddi sözlü sətirdən az olan bir müntəzəm ölçüyə malik idi və üzə çıxdıqda nəğmə mənasını verməli idi.

Tan imperatorlarının himayəsi altında təsviri sənətin inkişafına da diqqət verilirdi. Mənzərə rəssamlığı sonrakı dövrlərin mistik təbiət rəngkarlığının müjdəçisi oldu.

VIII və IX əsrlər böyümə və inkişaf dövrü idi. Münbit və məhsuldar torpaqları olan Cənub, istehsalı xeyli artırırdı. Lakin hələ də Cənubda istifadə edilməyən torpaqları olan geniş ərazilər qalırdı. Şəkər və çay kimi yeni qida növlərinin istehsalı geniş surətdə artırdı. Məhsuldar Yantszı vadisində iki dəfə məhsul verən torpaq sahələri vardı, burada düyü, qışda isə buğda və ya başqa dənli bitkilər becərilirdi. Erkən Tan zamanlarında əsas ipək istehsal edən ərazilər şimali-şərqdə idi, sonra isə Yantszı deltası regionunda ipək istehsalı artdı.

Ticarətin böyüməsi puldan daha çox istifadəyə səbəb oldu. Puldan və gümüşdən artan istifadə isə həmçinin rəsmi maliyyəyə və hesablaşmalara təsir göstərdi. Vergilər pulla ödənməyə başlandı. Daha çox varlanmış tacirlər duz satışı ilə məşğul olurdular, iri şəhərlərdəki bankirlər və tacirlər sahil limanlarında dənizlərin o tərəfi ilə ticarət aparırdılar. Xarici ticarətdə isə bu vaxtadək çinli olmayan tacirlər

ağalıq etmişdilər. Kanton şəhəri iri ticarət icmasına malik idi. Şimalın sahil ticarət yoluna koreyalılar ağalıq edirdilər. Mərkəzi Asiya ilə quru yollarla aparılan ticarətin əksəriyyəti Soqdiya və sonralar isə Uyğur tacirlərinin əlində idi. Mərkəzi Asiya, Soqdiya və Persiya tacirləri yerli pərakəndə ticarətlə məşğul olurdular. Yalnız IX əsrdə ticarətdə əcnəbi təsir azalmağa başladı.

Tan sülaləsinin sonrakı dövrlərində məmurların çoxu öz pullarını kommersiya fəaliyyətinə qoyurdular. İdarə edən siniflə tacirlər arasındakı sədd Han dövründən mövcud olsa da, IX əsrdə surətlə yoxa çıxmağa başladı.

220-618-ci illərdəki erkən Altı Sülaləyə bənzəməyən Beş Sülalə kimi Tanın X əsrdəki dövrü qısa müddətli olmaqla, Çin mədəniyyətinin təkamülünü sərt qaydada pozmadı. Sosial, siyasi, iqtisadi və mədəni sahələrdə çox saydakı uzun müddətli dəyişiklik meylləri artıq hərəkətdə idi və sonrakı Çin cəmiyyətini keçmişdən xarakterik qaydada fərqləndirirdi. Tarixçilərin əksəriyyəti Tandan Suna keçidin əhatə etdiyi bir sıra əsri böyük ayrılma dövrü kimi qiymətləndirirlər. Beş sülalə qısa dövrü sadəcə keçid səhnəsi idi, onun hərbi və siyasi metamorfozaları dərin təsirə malik olan dəyişikliklərin nümayişi idi.

Tan mədəniyyətinin çox uzağa gedən təsiri sərhəddə nomad, yarım nomad və çoban xalqların qalxmasına səbəb oldu. Həmin vaxtdan etibarən XVII əsrdə yeni Tsin sülaləsi qalxanadək Çin iki hissədən ibarət idi, hərbi cəhətdən güclü Şimaldan, iqtisadi və mədəni cəhətdən varlı Cənubdan. Çində on müxtəlif çarlıq – şimalda Tanqut və Xitan, cənubda isə səkkiz kiçik çarlıq meydana gəldi. Şimali-qərb küncdəki Tibet xalqı olan tanqutlar Böyük Səddin indiki Kansudakı uzaq qurtaracağı ilə Huan Honun Daxili Monqolustana birləşdiyi yerin arasındakı regionda yaşayırdı. Onların yarımvahə iqtisadiyyatı, irriqasiya əkinçiliyi ilə çobanlığı birləşdirirdi. Onlar məşhur İpək Yolunun çıxış məntəqələrinə nəzarət etməklə, Mərkəzi Asiya ilə Çin arasındakı ticarətdə vasitəçilik edirdilər. Onlar dövlət dini kimi buddizmə uyğunlaşmışdılar, hökumətdə və təhsildə isə Tan modelini seçmişdilər və öz dinləri üçün yazı əlifbasını icad etmişdilər. Burada qarışıq olmaqla zəngin mədəniyyət çiçəklənirdi, mağaralarda saxlanılan Çin, Tibet, Uyğur dillərindəki və digər dillərdəki 10 min dini rəsm, əl yazısı və kitablar bunu sübut edir.

1038-ci ildə tanqutlar özlərinin Hsi Hsiya çarlığını elan etdilər və bu dövlət Şimali Çinin qonşu dövlətləri ilə sərhəd toqquşmalarına cəlb olunmalarına baxmayaraq, iki əsrə qədər yaşadı. Çarlığın sonu monqollar vasitəsilə gəldi, onlar Çinin bütün hissələrini ilk köçəri işğalına məruz qoydular.

Beş sülalənin həmin dövrundə şimala tərəf yarımköçəri, lakin əsasən çoban olan Xitan xalqı qalxdı, Xitan (və ya orta əsrlər Avropasında Marko Polonun

çatdırdığı kimi tanınan Xitay) şimali Çinin adı kimi Katey sözünün mənşəyi idi. Ruslar buna görə Çini Kitay adlandırırlar. Xitan Liao imperiyasını (947-1125-ci illər) yaratmışdı, Monqolustan sərhədindən Cənubi Mancuriyaya və Böyük Səddən aşağı 16 prefekturanın içərilərinə girirdi. Onlar öz tayfalarını mötəbər başçıların rəhbərliyi altında birləşdirmişdilər və digər tabe olan tayfalarla konfederasiya yaratmışdılar ki, bu da irsi monarxiyaya çevrilmişdi. Liderlik isə həmişə idarə edən Yeh-lü tayfasının əlində olurdu.

Liaonun iqtisadiyyatı at və qoyun yetişdirilməyə və əkinçiliyə əsaslanırdı. Darı başlıca bitki idi, duz dövlətin inhisarında olmaqla mühüm əhəmiyyət daşıyırdı. Liao səmərəli ikili inzibatçılıqdan istifadə edirdi. Çinlilərin absorbsiya etmək təhlükəsinə qarşı onlar öz xalqı üçün tayfa qanunlarını tətbiq edirdilər, ənənəvi adətləri dəstəkləyirdilər və qidada və paltarda geniş qaydada Çin üslubunu saxlayırdılar. Monqol dilinin iki yazı tipindən istifadə edirdilər, onlardan kiçiyi əlifbaya əsaslanırdı, böyük olanı isə Çin işarələri ilə bağlı idi.

Əkinçilik regionlarına inzibatçılıq kimi köhnə Tan sistemi, bütöv Tan məmur titulları, imtahan sistemi, vergi qaydaları tətbiq edilir və Çin dilindən istifadə olunurdu. İkinci inzibatçılığın qanunları isə çinli təbəələr arasındakı, əcdadlara sitayiş kimi təcrübə də daxil olmaqla başqa həyat yolunu qurmağa məcbur edirdi. Çinli təbəələrin statusu müxtəlif qaydada idi. Aşağı təbəələr mülki xidmətdə irəli getmək imkanına malik idi, bu vaxt digərləri isə kiçik hissə qaydasındakı azadlıqdan təhkimçiliyə və quldarlığa xas olan dərəcələrə bölünürdü.

Konfutsi fəlsəfəsinə hörmət bəsləmələrinə baxmayaraq, Liao hökmdarları buddizmi himayə edirdilər.

Çin mədəniyyətinin gələcəyinə ölkənin cənubunda baş verən dəyişikliklər həlledici təsir göstərdi. Yantszı çayı vadisində və uzaq cənub zonalarında on çarlıqdan səkkizi mövcud idi. Onlardan bəzilərində stabillik mövcud olsa da, heç biri kifayət dərəcədə gücə malik deyildi ki, birləşmə uğrunda mübarizə aparsın. Sahil boyunda dəniz ticarəti genişlənirdi, şəhərlərin böyüməsi və mədəniyyətinin inkişafı baş verirdi. Cənubi-qərbi Çində davam edən böyümənin maraqlı fərqli mənzərəsi özünü göstərirdi. Dağlarla əhatə olunduğundan, bura adətən xarici sarsıntılardan və müdaxilələrdən qorunurdu. Ona görə də sülh və inkişaf şəraitində yaşayırdı. Tan mədəniyyəti irsi burada təkcə canlanmaqda özünü göstərmirdi, həm də buna irəli gedən texnologiya öz köməkliyini göstərirdi.

Gözəl mənzərə ardıcıl olaraq ən yaxşı istedadları köhnə dəbli şeirə və esselərə təzə həyatilik verməyə ilhamlandırırdı. Bu region Daosizm dininə möhkəm bağlı idi. İqtisadi səhnədə isə misin olmaması ucbatından daha səmərəli metodlarla dəmir

istehsalı artırılırdı. Pula və kreditə tələbat artdığından və mis sikkələr artıq ticarət üçün məhdud miqdarda olduğundan, qısa müddətdə dövriyyəyə dəmir valyuta büraxılsa da, digər həll yolu kimi "uçan pul" adlanan yerli icaddan istifadə ediliməyə başlandı. Uçan pullar əvvəlcə tacirlər arasında istifadə olunurdu, sonra isə dövlət duz inhisarı agentliyi tərəfindən banknot kimi buraxıldı. Bu kağız pulun müjdəsi olmaqla, nəticədə Sun dövründə qanuni qaydada istifadə olunmağa keçdi. Bu həm də çap işində hərəkət edən tipdən istifadənin yaxşılaşdırılması ilə bağlı idi. Tan sülaləsi və Sun dövrü ərzində yaxşı çapetmə artıq mövcud idi.

İqtisadiyyatla bağlı olan estetika alimlik öyrənməsinin «dörd xəzinəsi» idi, bunlar fırça, qələm, kağız, qatı mürəkkəb və plitka şəklindəki mürəkkəb olmaqla, ən yaxşıları Tay gölünün qərb sahillərindən gətirilirdi. Axırıncı Tan hökmdarı təslim olduqdan sonra paytaxt Nankindəki əvəzi olmayan saray kitabxanası Şimala köçürüldü. Onunla birlikdə incəsənət, ədəbiyyat və biblioqrafiya üzrə qabiliyyətli məmurların çoxu oraya yollandı. Digər çarlıq da təslim olanda eyni belə hadisə baş verdi. Buna baxmayaraq, cənubi-şərqi Çin öz mədəni yüksəkliyini saxlayırdı.

Sun sülaləsi

Şimali Sun (həm də sadə qaydada Sun kimi tanınır) heç də şərəfli başlanğıca malik deyildi. Onun banisi Çao Kian-yin (Tay Tsu) paytaxt zonasının komandanı və imperial qüvvələrin baş inspektoru olmaqla, sadəcə olaraq Beş sülalədən axırıncısı olan Çjounu uzurpasiya etdi. Özünün hərbçi olmasına baxmayaraq, Çao öz hərbçiliyini uzurpator kimi başa vurdu. İmperator kimi Çao (960-976-cı illərdə hökmranlıq etmişdi) digər qüdrətli generalları öz əvvəlki sələfləri qaydasında olan kimi məhv etmədi. Bunun əvəzinə onları inandırdı ki, şərəfli titullar, sinekura vəzifələri və böyük pensiyalar naminə öz komandanlıqlarından imtina etsinlər. Belə bir razılaşma Çin tarixində işlədilməmişdi. O, öz hiyləgərliyi ilə bütöv ölkəni yenidən birləşdirmək üçün xalqa böyük təsir göstərdi. Praqmatik mülki məhdudlaşdırma və tarazlaşdırılma sistemi yaratdı. İmperator, akademiklərdən və digər məsləhətçilərdən əlavə məsləhətlər alırdı, axırıncılar rəy məmurları kimi tanınırdı, onların funksiyası ayrı-ayrı informasiya kanalları ilə sarayı təmin etmək və inzibatçılıq qollarını yoxlamaq idi.

Konfutsi ideallarına əməl edərək Tay Tsu sadə həyat tərzi keçirirdi, nazirlərinə qulaq asırdı və izafi vergi qoyulmasını cilovlayırdı. Onun rejiminin artan nüfuzu işğallarına da şərait yaradırdı. Onun imperiyanı yenidən birləşdirmək proqramı müharibə və diplomatiyanın qarışığından ibarət idi. O, bir qayda olaraq əliaçıqlığı ilə rəqiblərini məğlub edirdi.

Tay Tsunun qəfil ölümü onun qətlə yetirilməsi barədə fitnəkar şayiələrə səbəb oldu, baxmayaraq ki, çox güman ki, ölümün əsl səbəbi onun spirtli içkilərə olan meyli idi. Rəvayət belə bir faktla daha da möhkəmləndi ki, onun gənc oğlu məlum qayda əsasında varislikdən imtina etdi. Əvəzində imperatorun gənc qardaşı, bu adam onun yanında yaxşı təcrübə qazanmşdı, taxt-tacı tutdu. Yeni imperaor Tay Tsun (976-997-ci ilərdə hökmranlıq etmişdi) Xitan imperiyası ilə vuruşmaq üçün şimala tərəf döndü, bu vaxt 986-cı ildə bədbəxt məğlubiyyətə düçar oldu və qaçmaqla canını qurtara bildi. Məğlubiyyətin səbəbi təkcə güclü Xitan süvarisinə qarşı atların az sayda olması və onları yetişdirmək üçün otlaqların olmaması deyildi. Bu həmçinin elə siyasətin nəticəsi idi ki, generallar öz ordularından uzaqlaşdırılmışdılar, zabitlər mülki işçilərə tabe edilmişdilər. Əyalət orduları zəif idi və hərbi ruh tənəzzülə uğramışdı.

Sun heç vaxt Han və Tanla müqayisə oluna bilən hərbi şücaətə çata bilmədi, hətta Hind-Çinə müdaxilə etdikdə də uğur qazanıla bilinmədi. Şərqi Asiyadakı nüfuzu ilə kifayətlənərək Çin o vaxtdan etibarən coğrafi izolyasiyadan, xüsusilə Mərkəzi Asiyadan izolə olunmaqdan əziyyət çəkdi, oradan isə çox sayda mənəvi stimullar gəlirdi. Daxili irəliləyişlərin gətirdiyi təbii iftixarla birləşməklə Çin mədəni etnosentrizmi dərinləşirdi.

Üçüncü imperator Tsen Tsunun (998-1022-ci illərdə hökmranlıq etmişdi) başçılığı altında Sun konsolidasiyaya nail oldu. Təhlükə törədən Xitan hücumu birbaşa imperatorun özü tərəfindən qarşılandı. Bir neçə döyüşdə heç bir tərəf qalib gəlmədi. İki imperiya 1004-cü ildə birgə yanaşı yaşamaq barədə sülh bağladı. Xitan Böyük Səddin aşağısındakı bir dəfə işğal etdiyi mübahisəli əraziyə iddiasından imtina etdi və Sun ildə 100 min unsiya gümüş puldan və 200 min top ipəkdən ibarət bac verməklə razılaşmalı oldu. Bu sərhədi qorumaq üçün Sunun ödədiyi ağıllı bir haqq idi.

Münəccimlərin və xoşa gəlməyə çalışan yüksək məmurların öyrətmələri ilə imperator elan etdi ki, o, birbaşa göylərdən müqəddəs sənəd almışdır. O, göstəriş verdi ki, bu hadisə geniş qaydada bayram edilsin. Bayramda bərpa edilmiş qədim müsiqi alətləri çalındı. O, bunun uzun müddət davam edəcəyinə ümid edirdi, lakin bu ümid əbəs oldu. Onun ölümündün sonra regentlik edən arvadı – dul imperatriçə ilə onun yeniyetmə yaşındakı oğlu imperator Yen Tsunun (1023-1063-cü illərdə

hökmranlıq etmişdi) aşağı zümrədən olan saray qadını arasında münaqişə baş verdi. Dul imperatriçə öləndən sonra imperator onun üçün seçilmiş öz imperatriçəsini boşadı və köhnə qadına olan rəğbətini saxladı.

Konfutsi əxlaqına görə boşanma ədalətsiz idi və imperiyanın nüfuzuna xələl gətirirdi. Bu, idealist bürokratlar arasında narazılıq yaratdı, ancaq bunun heç bir səmərəsi olmadı.

Bu vaxtdan bürokratiya – Sunun başlanğıcında olduğundan daha yüksək keyfiyyətə malik oldu. Yaxşı nizamlanmış mülki xidmət imtahanları ali dərəcəli alim məmurlar məhsulunu yetişdirirdi. Himayə sistemi öz təyinatına görə məsuliyyət daşımadığından favoritizmi sıradan çıxarmaqla, həmçinin layiq olan irəliləmələrə və təyinatların diqqətlə seçilməsinə şərait yaratdı. Birinci dərəcəli məmurların çoxu Konfutsi ideallarını dəstəkləyirdi. Mütləqiyyətə ehtiram bəsləməklə onlar imperatorun uzun illər inandığı veteran baş müşavirlərə hücum edirdilər. Ona görə də fraksiya mübarizəsi başlayırdı.

Bir sıra böhranlar idealistlərin şikayətlərinin haqlı olduğunu göstərdi. Yarım əsr davam edən xoş günlərdən sonra sülh və inkişaf eroziya etməyə, dağılmağa başladı. Paytaxtın lap yanında qiyam baş verdi. İğtişaşlar vaxtı yerli qubernatorların özlərinin qabiliyyətsizlikləri üzə çıxdı. Hsi Hsiya tərəfindən şimali-qərb sərhədində təhlükəli müdaxilədə vassal statusunu rədd etməklə, onlar özlərini müstəqil çarlar elan etdilər. Digər təhlükəli müdaxilə vasitəsilə Xitan hərbi tarazlığın dəyişilməsindən fayda götürdü, 1043-1044-cü illərin böhranlı şəraitlərində sərhəddə Hsi Hsianı dayandırıb, onu Suna fövqəlimperiya kimi hörmət bəsləməyə məcbur etdi. Aşağı Xitanla sülh illik bacın böyüməsinə səbəb oldu.

Zahirdə stabillik görünüşünün əksinə inzibatçılıq maşını bir daha sürünüb yaxınlaşmaqda olan pisləşmənin qurbanı oldu. Bir sıra islahatçılar saraya qayıtdıqda, 1050-ci illərin başlanğıcında onların idealizmi, öyrətdikləri siyasi dərs şəklini aldı. Lakin bir çox fundamental problemlər həll olunmamış qalırdı. Artan hərbi xərclər heç də böyük səmərə vermirdi.

Şen Tsun (1068-1085-ci illərdə hökmranlıq etmişdi) islahatçı imperator idi. Əvvəldən hökmdar saraydan kənar qüvvələrə arxalanırdı, sosial şəraitlərlə tanış idi və özünü ciddi öyrənmələrə həsr etmişdi, atası kimi imperial irsi sadəcə taxt-taca qalxmaq kimi qəbul etməmişdi. Şen Tsunun hökmranlıığından dəyişikliklərə olan ehtiyacları açmaqda cəsarət tələb olunurdu. O, alim-şair Yan An-şihi baş müşavir etdi və bütün islahatlar aparmağı ona tam etibar etdi. Yeni qanunlar və ya yeni siyasət kimi tanınan bu islahatlar güclü institutsional dəyişiklikləri nəzərdə tuturdu. Nəticədə onlar inzibati səmərəliliyə, maliyyə gəlirinin artmasına və hərbi gücün böyüməsinə

səbəb oldu. Yanın «on min söz memorialı» islahatların fəlsəfəsinin təsvirini verirdi. Şərti Konfutsi nöqteyi-nəzərlərinin əksinə bu, hökumətin yolunun yuksəlməsini dəstəkləyirdi. Lakin onların idealı iqtisadi inkişafın mahiyyətcə sosial mühiti təmin edəcəyi olmaqla, konfutsiçi olaraq qalırdı. Çünki belə mühit də özlüyündə mənəvi rifahı inkişaf etdirəcəkdi.

Əvvəllər heç vaxt hökumət belə çox iqtisadi fəallıq göstərməmişdi. Vergini planlaşdırmaq üçün yüksək vəzifə təsdiq edildi, o, Maliyyə Komissiyasına nəzarət edirdi, qabaqcadan baş müşavirin yuridiksiyasından uzaq idi. Hökumət valyuta ehtiyatını böyütməklə sürətlə genişlənən monetar iqtisadiyyat reallığı ilə üzləşdi. Dövlət bir zonadakı spesifik məhsulları alıb, başqa yerlədə pərakəndə qaydada satmaqla, lazım olan vaxtlarda və yerlərdə qiyməti sabitləşdirməklə və özünə də fayda götürməklə ticarətə cəlb olunana çevrildi. Bu heç də özəl ticarət fəaliyyətini əvəz etmək deyildi, əksinə, hökumət kiçik şəhərlərdəki və regional tacirlərə borc verilməsini genişləndirdi, bu, o vaxtlar, haqqında eşidilməmiş müasir hökumət banklarına bənzəyirdi. Daha mühüm cəhət o idi ki, hökumətin marağının səviyyəsini, borcların faiz dərəcəsini müəyyən edən inspektor var idi. Bu kreditlər bəzən çox aşağı faizlə verilirdi, səpin mövsümündə bütün kəndlilərə 20 faizlə buraxılırdı, bu isə onlarda əkinçilik istehsalının nəticəsinə yaxşı inam yaradırdı. Hökumət müxtəlif şəhərlərdə ehtiyat üçün əldə lazım olan qədər əmtəə saxlamaq üçün anbarlar yaradılmasını da dəstəkləyirdi. Bu, Bibliyadakı İosifin Misirdəki bol məhsul illərində taxılı tədarük edib, məhsul qıtlığı illərində əhalini aclıqdan xilas etmək üçün anbarlarda saxladığına çox bənzəyir.

Varlı və kasıb adamların borc yükü dərəcələrlə verilən ödənişlər sistemi ilə daha ədalətli qaydada tənzimlənirdi. Bu məhsul istehsal edilən torpaqların həcminə və məhsuldarlığına əsaslanırdı. Beləliklə, bu, sosializm quruluşunun mütləq torpaq rentasından imtina edərək, yalnız differensial torpaq rentasını tətbiq etməsini yada salır. Buna bənzər qaydada məcburi əmək də dərəcəli vergi ödənişi sisteminə keçirildi.

Yanın islahatları hərbi gücün də böyüməsinə şərait yaratdı. Sun hərbi zəifliyini azaltmaq üçün kəndlərə mütəşəkkil militsiya vəzifəsi verdi, bu, sülh dövründə yerli qaydanı qoruyub saxlamalı, müharibə dövründə isə ordunun ehtiyatı kimi xidmət etməli idi. Süvari qüvvələrini gücləndirmək üçün hökumət atları alıb tədarük edir, onları şimal və şimal-qərb zonalarında kəndli təsərrüfatlarına verirdi ki, ailənin hansısa bir üzvü orduda öz atı ilə xidmət etmək imtiyazına malik olsun. Müxtəlif silahlar da həmçinin inkişaf etdirilirdi. Bu cəhdlərin nəticəsi kimi, imperiya şimali-qərb sərhədində bir neçə kiçik qələbə çaldı.

Nəhəng islahat proqramı güclü bürokratiya tələb edirdi, Yan müxtəlif siyasət növləri üçün onları yaratmağa çalışırdı. Milli dövlət ərazisində məktəb sistemini inkişaf etdirirdi. Vacib fəaliyyət növləri olan olan hərbi, qanunçuluq və tibb sahəsində ixtisaslaşmış təhsil sistemi yaradılmışdı, bunlara isə Konfutsi təhsili laqeyd idi.

Fraksiyaçılıq özünün məhv ediləcək olduğunu bir daha sübut etdi. İmperiyadakı sistem təkcə çox funksiyalı deyildi, həm də pozucu təsir göstərirdi. Canfəşanlıqla aparıldıqda, islahat öz qazandıqlarını da itirirdi. 1093-cü ilə qədər davam edən anti-islahat dövründə islahatların əksəriyyəti ləğv edildi. Bərpa edilən islahat hərəkatı isə öz orijinal idealizminə malik olmadığından sadəcə kabusa çevrildi. Sülalənin yıxılması üçün islahatları biabır etməkdən ötəri mühafizəçilər hakimiyyətdən kənarda kifayət dərəcədə müstəvi tapırdılar.

Sonrakı imperator Hui Tsun (1100-1125-ci illərdə hökmranlıq etmişdi) özü əla rəssam olmaqla incəsənətin böyük himayəçisi idi. Lakin bu onu yaxşı imperator edə bilmədi. Əyləncələrə maraq göstməklə və dövlət işləri üçün məsuliyyət daşımaması ilə o, öz fəaliyyətinə inamını itirdi. Hakimiyyətdə olanlar nizamlama sistemi ilə istədikləri kimi davranaraq izafi vergi gəlirləri götürmək istəyirdilər. Bu vaxt imperator çox baha bir imperial bağ saldırdı, o, cənnətə bənzər bir mənzərəyə malik idi. Olduqca böyük olan belə xərclər xəzinəni defisit vəziyyətinə saldıqda, o, hökumət məktəblərində alimliyi ləğv etdi. Alimlərin ona göstərdikləri dəstək tezliklə yoxa çıxdı.

Müharibədə və diplomatiyada daha ciddi laqeydlik özünü büruzə verirdi. Liao imperiyası ilə müqaviləni və dinc yanaşı yaşamağı qiymətləndirməməklə Sun Mancuriyada olan və genişlənən Cuçenlə ittifaqa girdi. Liaonu məhv etmək üçün onunla birgə hücuma keçdi. Liaonun süqutu sarayda bayram edildi. Döyüşün əksəriyyətini Cuçen apardığından, o, Sunu öz borcunu yerinə yetirməməkdə ittiham etdi. Cuçen tezliklə Sunun üzərinə hücuma keçdi. İmperator istefanı seçməli oldu və dövləti hazırlığı olmayan oğlunun ixtiyarına verdi, özü isə Yantszı regionundakı həzz səfərinə yollandı.

Cuçen Huan Ho ətrafını təmizlədi və daxilən çürümüş Sunu asan bir qurban kimi tapdı. 1128-ci ildə Kayfenin uzun mühasirəsi vaxtı onlar ardıcıl olaraq qızılla, gümüşlə, daş-qaşla, digər qiymətli şeylərlə və ümumi resurslarla haqq ödənilməsini tələb edirdilər. Nəticədə yoxsullaşmış kütlə pis şöhrətə malik olan imperial bağı qarət edib, ondan ocaq odunu kimi istifadə etdi. Saray sirrli maliyyə gücü hesabına sülhü satın ala bildi. Cuçen qısa müddətdə mühasirəni qaldırdı. Qəflətən iki imperatoru və bütün imperial evini əsir kimi götürüb, onları Mancuriyaya sürgün etdi və burada onlar Şimali Sunu faciəli sonluğa çatdırdılar.

Cuçen öz işğalını Yantszının arxasına qədər genişləşdirə bilmədi. Huay Ho vadisi öz qol axınları və bataqlıqları ilə süvari əməliyyatlarını çətinləşdirirdi. Onlar üçün iqlim də çox isti və rütubətli idi. Həm də onlar uzağa getdikcə daha güclü müqavimətlə rastlaşırdılar. Bu zonalar məhsuldarlığı və sıx əhalisi ilə ölkənin aparıcı qüvvəsi olduğundan, burada müdafiə qabiliyyəti də yüksək idi.

Şimali Sunun süqutunun əksinə konfutsiçi loyallıq qalırdı. Zaman keçdikdən sonra həm mülki, həm də hərbi adamlar taxt-taca iddia edən Kao Tsuna tərəf döndülər. O. keçmiş imperator Hui Tsunun yeganə oğlu idi. Kayfendə olmadığından əsirliyə düşməkdən özünü qorumuşdu.

Cənubi Sunun banisi kimi Kao Tsun özünü uzun müddətli (1127-1162-ci illər) hökmranlığa həsr etdi, o, parçalanmış hissələri bir yerə yığmaq kimi ağır bir işi yerinə yetirməli idi. O, gəlir resurslarını qoruyub saxladı və mərkəzləşdirilmiş nəzarəti gücləndirdi. Keçmişi tərifləməklə, öz əcdadlarına təxəyyül yolları çəkməklə, islahat sisteminin əleyhinə qalmaqda davam edən mühafizəkarların xoşuna gəldi. Miras kimi qəbul etdiyi sistemi əslində bir qədər təkmilləşdirdi. O, marionet imperatorlara xidmət göstərməkdən imtina edən alim məmurları şərəfləndirdi, onun birləşdirmə siyasəti ilə razılaşmalarına görə isə bir çox başqalarını da xidmətə götürdü. Şəhər vergiləri artırıldı, onları toplamaq isə kənd vergilərini yığmağa nisbətən asan idi.

Ardıcıl inkişaf hesabına Cənubi Sun qəti olaraq Şimali Sundan varlı oldu. Onun paytaxtı dənizə yaxın idi. Çin imperiyaları arasında bu hadisə yeganə hal idi, beynəlxalq ticarət böyüsə də, ölkə heç də dənizə istiqamətlənmiş deyildi. Kao Tsun fasilələrlə davam edən Cuçenin şimaldan həmlələrinə qarşı müdafiə postları yaratmışdı və bu vaxt uzaq qərbə və digər strateji ərazilərə yaxın olan daxili torpaqlarda imperial hakimiyyəti bərpa etməyə çalışırdı.

Hərbi qüvvələrə olan adekvat ehtiyac da az əhəmiyyət daşımırdı. Hərbi cəhətdən zəif, lakin maliyyə cəhətdən güclü olduğundan o, fəaliyyətdə olan müxtəlif bandalara sülh təklif etdi. Hökumət onlara müntəzəm qoşun növü kimi böyük ehtiyatları ilə qanuni qüvvə statusu verdi və yerli işlərdə onların kiçik sui-istifadələrinə də barmaqarası baxırdı. Beləliklə, imperial qüvvələr şişdi və daxili təhlükəsizlik problemi əsasən həll edildi. Saray bu vaxt həmin ordulara nəzarəti artırdı, bu da Cuçen ilə müharibə və ya sülhün nəticəsindən ötrü kənar bir məsələ ola bilməzdi. Kao Tsun müharibəni təxirə salmaq istəmirdi, lakin o, daha çox öz səltənətinin təhlükəsizliyinin qayğısına qalırdı. O, başa düşürdü ki, müharibə ağır xərc və həm də müəyyən şəraitdə məğlubiyyət riski tələb edir. Hiyləgər imperator iddia üçün qəbul edilmiş şərti də tapdı, o, anasının əsirlikdən qaytarılmasına çalışırdı. Bunu heç bir konfutsiçi inkar edə bilməzdi. 1141-ci ildə dramatik böhran baş verdi. Sülh

bağlamaq danışıqları ərəfəsində o, öz komandanlığının üç aparıcı generalını vəzifədən azad etmək qərarına gəldi. Generallar xidmətlərinə görə mükafat bəhanəsi ilə paytaxta çağırıldı, onlar hərbi komissionerlərə yüksəldilər. Bu vaxt onların qoşunları yenidən birbaşa imperial nəzarətdə olan ayrıca qüvvə kimi təşkil edildilər. İki general bu nominal şərəflə və pensiya almağa razılaşdı. Lakin üçüncü general sülh danışıqlarını açıqca tənqid etdi. O, yüksək xəyanət ittihamı ilə ölüm cəzasına məhkum edildi. Sonralar həmin adam böyük əfsanə mövzusuna çevrildi. Həmin vaxt isə ancaq onun məhv edilməsi saray üçün bütöv daxili və xarici təhlükəsizlik əlaməti idi.

Hətta sakitlik baş verəndə də, idealist konfutsiçilərin çoxu saray siyasəti üçün potensial olaraq həlledici əhəmiyyət daşıyırdı. Kao Tsun qəti olaraq istefa verməyi qərara aldı və işləri özünün götürmə oğlu olan vəliəhdə verdi. Lakin taxt-tacın arxasından işləri öz nəzarəti altında saxlayırdı. Yeni imperator Hsiao Tsun (1163–1189-cu illərdə hökmranlıq etmişdi) idealistlərə rəğbət bəsləyirdi, onların bəzilərini saray mövqelərinə və komandan vəzifələrinə təyin etmişdi. Çünki saraydakı çevriliş və Cuçen imperiyasında, xüsusən də bir qədər əvvəl işğal edilmiş hissələrdə baş verən iğtişaş müharibəyə başlamaq qərarını verməyə gətirib çıxardı. İlkin Sun hücumu ağır itkilərlə dəf edildi, lakin qəflətən baş verən vuruşlar iki ilə qədər davam etdi və 1165-ci ildə mühüm dəyişikliklər yeni sülh formulası ilə nəticələndi. Vassal dövlət vəziyyəti ləğv edildi və Sun Cuçenlə bərabərə yaxın olan bir əsas əldə etdi.

1187-ci ildə Kao Tsunun ölümündən sonra Hsiao Tsun da istefa ənənəsini davam etdirdi. Onun oğlunun qısa, dörd illik hakimiyyəti dövründə beynəlxalq çülh qorunub saxlandı, lakin 1205-ci ildə, onun nəvəsinin hakimiyyəti dövründə yenidən pozuldu. Cənubi Çin yenidən şimala tərəf kampaniyaya başladı.

Cuçen çinli üslubda olan öz Çin imperiyasını yaratmaqla ölkənin geniş əkinçilik coğrafi regionunu işğal etmişdi. Burada çinli əhali çoxluq təşkil edirdi. Öz imperiyalarında onlar kiçik azlığa malik olduqlarından tayfa başçıları daim müharibəyə hazır olan nizami ordu saxlayırdılar. Hərbi xidmətdə Cuçen dili saxlanırdı və heç bir çinli dəbindəki adlara, paltara və ya adətlərə icazə verilmirdi. Çinlilərin hökumətdə də iştirak etməsinə yol verilmirdi. Cuçenin cəhdlərinə baxmayaraq zaman çoxluq mədəniyyətinin tərəfində idi və tədricən ağalıq edən azlığı absorbsiya edirdi. Tayfa başçıları xüsusən uzun sülh dövrlərində çinli həyat tərzinə aludə olurdular.

İqtisadi cəhətdən Cuçen çinlilərlə müqayisə oluna bilməzdi. Bəzi hallarda xeyli cuçen çinli torpaq sahiblərinin icarəçisinə çevrilirdi, bəziləri hətta pauper vəziyyətinə düşürdü. Onların iqtisadi tənəzzülü sosial münasibətləri də dəyişdirirdi. Şəraitdən asılı olaraq onlara çinlilərlə, özü də adətən özlərindən varlı olanlarla nikah bağlamağa icazə verilirdi. Onların hərbi gücü də zəifləməyə başladı. «Yüzlərin» kapitanı bəzən

hətta cəbhəyə 25 adamdan artıq əsgər çıxara bilmirdi. İdarə edən sinif də paralel qaydada tənəzzül edirdi. Yalnız assimilyasiya müəyyən qədər başa çatmaqda idi. Cuçen cənuba tərəf ekspansiya barədəki ambitsiyasını yenidən canlandırırdı.

Cənubi Sun imperatorları onlara olan tənqidi zahiri görünüş qaydasında ehtiramla dinləyirdilər, onlara qiymət vermək qaydasında cavab verirdilər, lakin heç bir konkret iş görmürdülər, bəzən imperator tənqidə tədqiqat aparmaq və ya ümumən razılaşmağı ifadə etmək qaydasında göstəriş verirdi. Bəzi hallarda imperator tənqid edəni cəsarətinə görə tərifləyirdi. Lakin saray yaxınlaşan tufandan qorunmaq üçün tənqidin alim məmurlar arasında özəl nüsxələr şəklində yayılmasına qadağa qoyurdu. Saray nadir hallarda rəy qulluqçularını cəzalandırırdı, bəzən hətta onlara vəzifədən çıxmağa da icazə vermirdi. Hər bir belə hərəkət sarayın yararlı konfutsiçi nüfuzuna xətər toxundururdu.

Sonrakı Cənubi Sun imperatorları nəhəng və mürəkkəb bürokratiyanın qorxulu yükünü daşımaq istəmirdilər. Onların əksəriyyəti başlıca olaraq təhlükəsizliyə və status-kvoya maraq göstərirdilər. Cənubi Sun siyasəti tarixin qüdrətli baş müşavirləri ilə çox iş görməli idi. Yaxşı bir baş müşavir vergi gəlirlərini artırmış, sarayın fiskal bazasını möhkəmləndirmiş və özəl imperial xəzinəni varlandırmışdı. Bu xidmətlərinə görə o, bütün ömrü boyu bürokratiya üzərində tam nəzarətə malik olmuşdu. Bir sıra aparıcı baş müşavirlər müvəkkillik qaydasında həmin hökmdarlara yaxın idi. Onlar həm maliyyə, həm də hərbi işlərə nəzarət edirdilər. Ancaq imperatorlar özlərinin ayrıca imperial xəzinələrinə malik idilər. Baş müşavirlər yalnız imperatorun etimadı ləyaqətinə görə nəhəng qüdrət sahibi olurdular.

Cənubi Çinin süqutundan bir neçə il əvvəl kağız valyutanın inflyasiyası ilə birlikdə ağır vergilər, torpaq mülkiyyətinin təmərküzləşməsi, bürokratiyanın zəifliyi, dəftərxananın sui-istifadələri və kasıb kəndlilər üçün ədalətli olmaması daxili iğtişaşların yüksək dərəcədə baş verməsinə meyl edirdi. Bir sıra yerli iğtişaşlar baş versə də, hələlik elə bir iri qiyam yox idi. Nəzərə çarpan daxili həmrəyliyə bir neçə alimlər də təsir edirdi. Hökumət ərazisinin digər hissələrini buna cəlb etməməklə, aşağı Yantszının varlı regionunun ehtiyatlarını yığırdı, ağır vergi yükü imperiyanın onurğa sütunu olan kəndlilər üzərinə deyil, əsasən varlı şəhər bölmələrinin üzərinə qoyulurdu. Kəndlilər yəqin ki, öz imkanlarına və davranışlarına görə daha çox konfutsiçi idilər.

Monqollar müəyyən şəraitlərdə kəndlilərə ağalıq edirdilər, lakin onların həmrəyliklərini məhv edə bilmirdilər. Monqol işğalı altında da Çin mədəniyyətinin təkamülü gedirdi.

Li Tsun (1225-1264-cü illərdə hökmranlıq etmişdi) və onun varisi Tu Tsui (1265-1274-cü illərdə hökmranlıq etmişdi) müstəsna olaraq əyləncə ilə məşğul olurdular, lakin onlardan çoxunu ehtiyat edərək xalqdan gizlədirdilər. Torpaq mülkiyyətçilərinin iri malikanələrindən üçdə biri müsadirə edildi və ordunun xərcləri üçün istifadə edildi. Bu vaxt hökumət qeyri-adi təhlükə və gəlir defitsiti ilə üzləşdi. Görülən tədbirlər hakim sinfin nüfuzlu elementlərinə ziyan vurmaqla, baş müşaviri populyar etdi. Onun tarixdəki xəstə şöhrəti isə monqollar tərəfindən məğlubiyyətin nəticəsi kimi üzə çıxdı. Baxmayaraq ki, o, möhkəm müdafiə olunurdu.

Cənubi Çində mülki xidmətdə müntəzəm vəzifələrin sayı, bir çox sinekuraları nəzərə almadan 20 minə çatırdı. Bura çox sayda hərbi zabitlər daxil deyildi. Hökumət xidmətinə daxil olanlar nadir hallarda vəzifədən gedir və ya kənara atılırdı. Bu vaxt dövlət imtahanları dalğasında gəlmiş yeni namizədlər vəzifə almağı gözləyirdilər. Beləliklə, daim böyüyən namizəd ehtiyatı boş vəzifələrdən xeyli çox olurdu.

Konfutsi nəzəriyyəsinə müvafiq olaraq hər bir inkişaf daha çox kitab çap etmək, məktəblər və təhsil üçün imkan yaradırdı. Lakin orijinal Konfutsi ideallı olan elit nümayəndələrinin, ümumiyyətlə, cəmiyyətə və icmaya xidmət etmək niyyətini güdürdü.

Yüksələn təhsil standartları imtahanlarda rəqabəti nəzəri cəhətdən daha çətin edirdi və orta hesabla vəzifə tutanların keyfiyyət dərəcəsini qaldırırdı. Lakin boş vəzifə yerləri az olduğundan təyinatda təsir, favoritizm və rüşvət vicdanlılıq və keyfiyyət əvəzinə həlledici faktorlara çevrilirdi.

İri prefekturalarda 300-ə, kiçik prefekturalarda isə 100-ə yaxın məmur işləyirdi, onlar az sayda qulluqçuların nəzarəti altında fəaliyyət göstərirdilər. Bütün bürokratların idarə məmurlarının sui-istifadələrindən gileylənmələrinə baxmayaraq, çoxu bu məmurlara həmin pozuntular üçün şərait yaradırdılar. Məmurun pis hərəkəti aşkar edildikdə, o, özünü xilas etməyi də kifayət dərəcədə bilirdi – həbs edilməmişdən əvvəl qaçırdı, hökmün yumşaldılmasını xahiş edirdi və ya imperial bayramlara təsadüf etdikdə mərhəmət göstəriləcəyinə bel bağlayırdı.

Bu pis şəraitdə xüsusi neokonfutsianizm məktəbi qalxmağa başladı. İdealist filosofların çoxu bu məktəbə üzv və şagird kimi qoşuldu. Onların siyasətdə güclü olmamalarına baxmayaraq, qazandıqları nüfuz hakimiyyətdə olanlara təhlükə törədirdi. Baş müşavir özünün bəzi siyasi məsləhətçilərinin onlara rəğbət bəsləmələrindən agah olduqda, xüsusilə təşviş keçirməyə başladı. Əslində münaqişə iki qütbvarı səviyyədə idi – siyasi hakimiyyətdə və ideoloji nüfuzda. Konfutsi dövlətinin təbiəti tələb edirdi ki, əgər onlar üst-üstə düşmürlərsə, bir nöqtədə birləşməlidir.

Sun Çininin dəyişiklikləri mədəniyyəti yüksəltmək üçün xeyli dərəcədə kifayət idi. Kənd təsərrüfatının inkişafı 100 milyondan artıq əhali üçün yaxşı məhsul ehtiyatı istehsal etməyə imkan vermişdi. Həmin vaxtkı dünyada bu, ən böyük əhali idi. Müxtəlif növ erkən yetişən düyü XI əsrdə müasir Kambocadakı Çampadan idxal edilirdi, onlar becərmə dövrünü 100 gündən az olan müddətə çatdırmışdılar, ildə iki, isti cənubda isə üç dəfə məhsul götürürdülər. Digər yeni məhsullar arasında ən mühümü pambıq idi, bu həm varlını, həm də kasıbı paltarla eyni qaydada təmin edirdi. İpək və kətan həmçinin mühüm əhəmiyyət daşıyırdı. Yaxşılaşdırılmış alətlər və mexaniki ixtiralar işçi qüvvəsinin səmərəliliyini artırmışdı.

Qızıl, gümüş, qurğuşun və qalay kimi mineral malların da istehsalı artmışdı. Dəmir və daş kömür, axırıncı Marko Poloya görə qara daş kimi tanınırdı, istehsalı da sürətlə yüksəlirdi. Nəqliyyatın qabiliyyəti yaxşılaşdırıldı, bu, resurs mənbələrində istehsal edilən məhsulu uzağa daşımağa imkan verirdi və uzaq hissələrdə məhsulların yararlı qalmasına şərait yaradırdı. Yollar ətrafında özəl mehmanxanalar yerləşirdi. Çaylarda gəmilər və barjlar üzürdü. İri gəmilər işçi qüvvəsi vasitəsilə sürətlə hərəkət edən təkərlərə malik idi. Onların çoxu dənizlərdə üzürdü.

İnkişaf etmiş pul iqtisadiyyatı hər yerdə özünü büruzə verirdi. Çox sayda becərilən torpaqlar nağd pula satılan məhsul istehsal edirdi. 1065-ci ildən nağd pul şəklindəki vergi ödənişinə keçildi və bu, Tanın 749-cu ildə aldığından 20 dəfə çox idi. Cənubi Sunun gəliri taxıl və parça qəbuluna nisbətən daha çox nağd puldan ibarət idi. İqtisadiyyat, daha çox dəyişikliklərə lazım olan belə bir vəziyyətdə tərəqqi edirdi. Tacirlər uçan pul adlanan çeklərdən istifadə edirdilər. Hökumət regional dövriyyə üçün məhdud qaydada kağız pul çap etməyə icazə versə də, sonra onu bütün milli ərazidə leqal seçim yolu kimi səlahiyyətləndirdi.

Bəzi metropoliya zonalarında əhali 1 milyona çatırdı, 250 mindən 500 minə qədər əhalisi olan bir düjün digər şəhərlər də mövcud idi.

Əhali sıxlığı çox ciddi idi. Evlər adətən dar arakəsmələrə malik idi. Yanğınlar tez-tez baş verir və bədbəxtlik gətirirdi. Qonşuluqdakı yanğınsöndürmə dəstələri əllə su vurmaqla, evlərin məhv olmasının qarşısını ala bilmirdi və bəzi yanğınlar bir neçə gün davam edirdi. Buna baxmayaraq, şəhər həyatı inkişaf edirdi.

Çay evləri, şərab dükanları, yüksək ləzzətli xörək mətbəxləri çox sayda və müxtəlif qaydada idi. Əyləncə üçün çoxlu şəraitlər yaradılmışdı. Yuxarı sinfə məxsus ailələr yüksək mədəniyyətdən həzz alırdılar, buna musiqi, qumar oyunları, zövqlü hobbilər, kalliqrafiya, rəssamlıq və poeziya daxil idi. Gənc adamlar idmanla məşğul olurdular.

İqtisadiyyatın dəstəyi yararlı bir mərkəzdə yerləşməsindən asılı idi. Cənubi Sunun paytaxtı «tərəvəzi şərqdən, suyu qərbdən, ağac materialını cənubdan, düyünü isə şimaldan alırdı». Axınlar həm də kanalizasiya sistemi kimi işləyirdi.

İxtisaslaşmaya görə bilik genişlənirdi. Təbabət akupunktura, diş, burun-boğaz, göz həkimliyi, revmatizm və iflicin müalicəsi kimi sahələri əhatə etdi. Texnologiyanın yaxşılaşdırılması tələbinə neokonfutsionalizm fəlsəfəsi müəyyən müraciətlərlə kömək edirdi, elmdə meydana çıxan bir sıra tədqiqatların inkişafına şərait yaradırdı. Çap etmə ilə savadlılıq genişlənmişdi. Klassikanın öyrənilməsi ilə çox sayda alimlər yüksək standartlara nail olmuşdular. Astrologiya, arxeologiya, fəlsəfi izahatlar, dövlətçilik ideyaları, poeziyanın klassik formaları inkişaf edirdi.

Çin mədəniyyətinin Sun irsi ətalətdən çox uzaq idi. Qədim başlanğıclara əsaslanmaqla o, yeni fəvvarə vurana çevrildi və bu, sonrakı əsrlərdə də aparıcı rol oynadı.

Yuan sülaləsi

Çingiz xan 1206-cı ildə Çində monqol tayfaları üzərində ali hakimiyyətə yüksəldi və bir neçə ilin içərisində o, Şimali Çini işğal etməyə cəhd etdi. Hsi Hsianın Tanqut dövləti və şimali-şərqi Tibetlə ittifaq bağlayıb, Cuçenə qarşı hücum üçün əlverişli şərait yaratdı. Monqol orduları öz hücumuna 1211-ci ildə başladı, şimaldan üç qrupla müdaxilə etdi. Çingiz xanın özü isə mərkəzi qrupa başçılıq edirdi.

Monqollar mühasirə sahəsində və sıx əhalisi olan zonalarda müharibə aparmaqda az təcrübəyə malik idilər. Onların gücü başlıca olaraq süvari hücumlarında idi.

1215-ci ildən sonra Cuçendəki Çin şimalda monqollarla, cənubda Sun Çini arasındakı kiçik bufer dövlətə çevrildi. Hsi Hsiaya qarşı 1226-1227-ci illərdəki monqol kampaniyaları və 1227-ci ildə Çingiz xanın ölümü Cuçen Çininə azacıq fasilə verdi, lakin monqollar öz hücumlarını 1230-cu ildə bərpa etdilər.

Sun Çini Cuçenə itirdiyi bəzi əraziləri geri almağına şans yarandığını görüb, monqollarla ittifaq bağladı. Cuçen Çininin imperatoru paytaxt təslim olmamışdan əvvəl Honandakı axırıncı iqamətgahına köçdü, lakin bu qaçma fəlakətli oldu. 1234-cü ildə imperator özünü intihar etdi və mütəşəkkil müqavimət kəsildi. Bu dövlətin cənub sərhədi – Huay Ho bu vaxt şimali Çindəki monqollara tabe olan ərazinin sərhədinə çevrildi.

Sonrakı onillikdə Çinin şimalındakı monqollarla cənubdakı Sun dövləti arasında heç də asan olmayan birgəyaşayış vəziyyəti davam etdi. Monqollar Çingiz xanın nəvələri Böyük xan Mönkenin və onun qardaşı Xubilay xanın başçılığı altında 1250-ci ildə öz irəliyə doğru hərəkətlərini bərpa etdilər. Onların orduları Yantszı çayı üzərindəki başlıca Çin müdafiə məntəqələrinə çatdılar və indiki Yunnan əyalətindəki cənubi-qərbi Çinin xeyli içərilərinə girdilər. Burada müstəqil Tay dövlətini işğal etdilər və hətta indiki Şimali Vyetnama çatdılar. 1259-cu ildə Mönke öldü və Xubilay onun varisi oldu. Xubilay Sun sarayına səfir göndərib, dinc yanaşı yaşamaq şəraitinin yaradılmasını təklif etdi. Lakin Sun hökuməti onun diplomatik missiyasını cavabsız qoydu.

Sun kansleri güman edirdi ki, Xubilaya qarşı vuruşmağa risk etmək üçün Sun kifayət qədər möhkəm mövqeyə malikdir, ona görə də Xubilay tərəfindən təklif edilən şansa məhəl qoymadı. Sun generallarının bir neçəsi sonralar monqollara döyüşsüz təslim oldular.

1268-ci ildən monqollar bir neçə cəbhədə hücuma keçdilər. Beş il ərzində onlar Hsian-yanı mühasirədə saxladılar. Marko Polo öz kitabında lovğalanır ki, onun atası və əmisi monqollar üçün katapulta yaratmışdılar, lakin Çin mənbələri qeyd edir ki, mühasirə artilleriyası birbaşa İraqdan olan ərəb mühəndislərinin rəhbərliyi altında idi. Nəhayət, 1273-cü ildə Çin komandiri təslim oldu. Lakin monqollardan belə bir vəd alına bildi ki, əhaliyə aman veriləcəkdir və onun özü isə köhnə düşmənlərinin yanında vəzifə tutdu.

Xubilay xan öz qüvvələrini xəbərdar etdi ki, mənasız qırğına yol verməsinlər. Yantszı çayı üzərində bir neçə prefektura təslim oldu, monqol qoşunları Lin-ana çatdılar. Sun sarayının son dəqiqələrdəki sülh bağlamaq cəhdləri uğursuzluğa uğradı və monqol orduları fevral ayında Lin-anı tutdu. Hökmranlıq edən Sun dul imperatriçəsi və nominal imperator olan oğlan qayıqla ölkənin içərilərinə qaçdılar, sədaqətli nazir isə çayda batdı və sonuncu sağ qalan imperial printslər isə okeanda qərq olub, həyatla vidalaşdılar. Mütəşəkkil müqavimət tezliklə başa çatdıqda, xarici müdaxiləçilər tarixdə ilk dəfə olaraq artıq bütöv Çin imperiyasına nəzarət edirdilər.

Hələ 1211-1215-ci illərdə monqollar Çinin şimalında uğur qazandıqdan sonra bu ərazini necə idarə etmək və iri oturaq əhalidən maddi faydanı necə əldə etmək problemi ilə üzləşmişdilər. Onlara həmin vaxt xitan-çinlilər, hətta Cuçen reneqatları kömək edirdilər. Bunun əvəzində onlara çöl kübarlığının yüksək rütbələrinə bənzər vəzifələr verilirdi.

Monqol işğalının ilkin illəri ərzində hökumət sistemi monqol hərbi inzibatçılığının və çinli ənənələrinin sintezindən ibarət idi. Monqol inzibatçılığında ən

mühüm vəzifə möhür daşıyan idi, ilk əvvəllərdə onun səlahiyyətləri hər şeyə aid idi. Monqol Çininin mərkəzi inzibatçılığı, Çingiz xanın ən inanılmış müşavirlərindən birinin yaratdığı idi. O, 1229-cu ildə böyük xan olan Ödögeyin rəhbərliyi altında işləmiş və onu inandırmışdı ki, rəsmi bürokratiya qursun və qarışıq vergi yığmağı isə çinli xətti üzrə səmərələşdirilmiş vergi sistemi ilə əvəz etsin.

Ərazi əyalətlərə bölündü və əyalət inzibatçılığı nizama çalınmış vergilər üçün başlıca məsuliyyət daşıyırdı. Adamlar torpaq vergisi və can vergisi ödəməli idilər, bunlar parça və taxıl növü ilə, yaxud da gümüşlə verilməli idi. Tacirlər satış vergisi ödəməli idilər. Şərab, sirkə, düz və mədən məhsullarına da inhisar qoyuldu. Bütün bunlar monqol sarayının xəzinəsini xeyli sərvət toplamağa qadir etdi.

Ödögey Çində monqollara tabe olan torpaqlardakı daxili şəraitlərə marağını açıqca itirdi. 1230-cu illərdə Yaxın Şərqdən müsəlmanlar artıq monqol sarayında yüksək vəzifələri tutmağa başladılar və onların rəhmsizcəsinə istismarı monqol hökmranlığına qarşı nifrəti artırdı. Çin, əcnəbilər və onların müttəfiqləri tərəfindən çox və ya az dərəcədə müstəmləkə kimi idarə olunurdu. 1260-cı ildə Xubilay xanın taxt-taca yüksəlməsi monqol hökuməti təcrübəsində əsl dəyişikliklərlə əlamətdar oldu. Xubilay monqol hökumətinin yerini Monqolustandakı Karakorumdan Şan-tuya (Yuxarı paytaxt) köçürdü, bu daxili Monqolustandakı müasir To-lun yaxınlığında idi. 1267-ci ildə rəsmi paytaxt Pekinə və ya Ta-tuya (Böyük Paytaxt) köçdü. Türkləşmiş adı Xanbalıq (Qan Balya, «Xan şəhəri») olan Pekin bütün Asiyada, hətta Avropada məşhurlaşdı. Xarici Monqolustan və Karakorum artıq monqol imperiyalarının mərkəzi deyildi.

Xubilay özünü çinli məsləhətçilərlə əhatə etmişdi. O, hələ də Asiyadakı digər monqol torpaqlarının (ulusların) nominal hökmdarı idi. Lakin çinli əyanları onu inandırdılar ki, ənənəvi Çin imperatorunun rolunu qəbul etsin. Həlledici addım 1271-ci ildə atıldı, bu vaxt Çin torpaqlarına çinlilərin sülalə adı – Ta Yuan, Böyük Yuan adı verildi. «Yuan» adının özü ancaq Çin ənənələrindən kənarlaşma idi. Bütün erkən Çin sülalələri qədim, feodal sistemli dövlətlərdən sonrakı adla və ya coğrafi terminlərlə adlanırdı. Xitan və Cuçen bu ənənəyə əməl edərək, öz dövlətlərini Liao və Çin (Mancuriyadakı çayın adı ilə Qızıl, Cuçen adı da «qızıl» mənasını verirdi) adlandırdılar. Yüksək vəzifələr də ənənəvi çinli adlarına malik olsalar da, onlar qeyri-çinlilər üçün saxlanırdı. Xubilay xan isə yüksək inzibati vəzifələrdə az sayda monqollara malik idi. Öz tayfa liderliyinin üzvlərinin bəzilərindən açıqca şübhəli olduğundan, o, bütünlüklə əcnəbilərə üstünlük verirdi. Ancaq monqol kübarlığı ali vəziyyətdə qalırdı. Yuan Çinində aşağı zümrə qullar idi, onların sayı kifayət qədər çox idi. Qul statusu irsi idi və yalnız müəyyən şəraitdə qul azad ola bilərdi.

Monqol və Çin dualizmi həmçinin inzibati sənədlərin və dillərin problemlərində də əks olunurdu. İdarə edən monqollardan çox azı Çin dilini bilirdi, Çin yazısını bilənlər isə daha az idi.

Monqol inzibatçılığı Çin iqtisadiyyatını yenidən birləşdirdi. Dənizlə başqa yerlərə taxılı daşımaq güzəştləri Cənub sahil zonalarından olan bəzi çinli özəl iş adamlarına verildi. Bu özəl gəmi sahibləri taxılı aşağı Yantszı regionlarından Şimali Çin limanlarına daşıyırdı, oradan isə məhsul paytaxta göndərilirdi. Çində daxili ticarətin inkişafına kömək edən digər faktor valyutanın vahid formaya çevrilməsi idi. Sun və Cuçen Çini kağız pullar buraxırdı, ancaq bu, bürünc sikkələrə əlavə kimi çap edilirdi. Yuan hökuməti ilk dəfə kağız pulu bütün imperiya üzrə yeganə qanuni valyutaya çevirdi.

Monqollar təbəələri üzərində öz dinlərini sitayiş qüvvəsinə mindirməyə cəhd etmirdilər. Bu Çində mövcud olan dinlərə təsəlli verən azadlıq bəxş edilməsi demək idi. Çingiz xan 1223-cü ildə daoist patriarxına və onun ardıcıllarına vergilərdən tam azad olunmaq hüququ vermişdi. Bu Çindəki müxtəlif dinlərin xadimlərinə xüsusi imtiyazlar verilməsi barədə idk ediktlər seriyası idi.

Bir sıra dövrlərdə belə görünürdü ki, daosizm monqol hökmdarlarının hörmətini qazanacaqdır. Böyük xan Mönkenin icazəsi ilə daosist və buddist keşişləri arasında bir sıra diskussiyalar baş verdi. Daosizm Yuan sülaləsinin hakimiyyəti altında öz mövcudluğunu davam etdirirdi.

Çin ölkədə ayrı-ayrı şəkildə mədəni mahiyyətə malik olsa da, Yuan sülaləsinin hökmranlığı altında çinlilər Asiyanın digər hissələrinə yayıldı. Çin təbabəti fars dilinə tərcümə edilmişdi, XIII və XIV əsrlərdəki Persiya miniatür rəssamlığı Çin rəngkarlığının çox saydakı təsirinə məruz qaldığını göstərir. Çin tipli inzibatçılıq və kansler təcrübəsi Mərkəzi Asiyadakı və Yaxın Şərqdəki müxtəlif monqol hökmranlıqlarında tətbiq edilirdi. Hətta bu da güman edilir ki, Avropada barıtın və çap işinin icadı Çindən nüfuz etmiş həvəsin təsirinə borcludur, baxmayaraq ki, Çindən Yaxın Şərq vasitəsilə birbaşa təsirin mövcudluğu sübut edilə bilinməmişdir.

Yuan sülaləsindən əvvəl Çin sivilizasiyası çox böyük olaraq qalırdı və müəyyən mədəni izolyasiyanizm mühüm element kimi öz təsirini itirmirdi. Dünyada çinlinin imici və ya çinli mövqeyi heç də ciddi sürətdə dəyişilməmişdi. Yuan sülaləsi altında Çində baş verən dəyişikliklər və çağırışlar ancaq Min tarixində daha çox qaydada özlərini büruzə verdi.

Çində monqol idarəçiliyinin təməl dilemması monqolların Çin mülki institutları ilə eyniliyə nail olmağa qadir olmaması idi. Onlar özlərinin idarəçiliklərinin hərbi və müstəmləkə xarakterini də dəyişə bilmirdilər. Bu xüsusiyyət daha çox Xubilayın

varislərinin dövründə özünü göstərdi və Yuan sülaləsinin son hökmdarı olan Toqon-temirin hökmranlığında maksimum həddə çatdı. Toqon-temirin özü Çin sivilizasiyasına heç də dostcasına münasibət bəsləmirdi. Həm də bu, bir çox aparıcı monqol xadimlərinin Çin mülki institutlarına qarşı nifrətini dəyişdirə bilmirdi. Əsrlər ərzində Çin öz sarayındakı qrup fraksiyaçılığı ilə tanınmışdı, ancaq bu, əsasən siyasi mənada vuruşma idi. Monqol franksionalizmi isə adətən hərbi gücü qazanmağa yönəlirdi. Monqol idarəetmə sinfinin hərbiləşməsi tədricən Çin cəmiyyətinə də keçirdi. Zəif imperatorun başçılıq etdiyi mərkəzi inzibatçılıq öz aliliyini saxlamaq qabiliyyətinə malik deyildi.

Beləliklə, monqol idarəçiliyinin hərbi xarakteri çinli qiyamları üçün yola daş döşədi, onlardan bəziləri yuxarı siniflərdən gəlirdi və istismar edilən kəndlilər arasında tərəfdarlar tapırdı. Monqol sarayı və əyalət inzibatçılığı müəyyən sayda sədaqətli zabitlərə və əsgərlərə arxalana bilərdi. Beləliklə, qiyam hərəkatının 1350 və 1360-cı illərdəki proqressi yavaş sürətlə getməkdə qalırdı. Nankin şəhərini öz bazası kimi seçən qiyam orduları 1368-ci ildə Ta-tunu tutdular. Monqol imperatoru Şan-tuya, sonra isə Xarici Monqolustana qaçdı, onun arxasınca devrilmiş hökumətin qalıqları da getdi.

Sonrakı əsrdə monqollar hələ də Çinin güclü potensial düşməni olaraq qalırdı və Monqolustanda Çingiz xan nəsli özünü Çinin legitim hökmdarları kimi qiymətləndirməkdə davam edirdi. Monqol hökmranlığının əsri Çin hökuməti üzərində davam edən bir sıra xüsusiyyətlər qoymuşdu – imperial mütləqiyyətin avtoritar idarəetməsinin müəyyən kobudluğu Yuan sülaləsindən irs kimi götürülmüşdü və bunlar varislik edən Çin hökumətinə də xas idi.

Taxt-tacda olanların səfehliyi, saraydakı fraksionalizm, monqol generalları arasındakı rəqabət, səmərəsiz nəzarət, əyalət və yerli inzibatçılığın səmərəsiz koordinasiyası 1340-cı illərdən Yuan sülaləsi hökumətini ciddi sürətdə zəiflətdi. 1334-ci ildə Huan və Huay çaylarının hövzələrində fəlakətli daşqın uzun müddət ərzində istismar edilən yüz minlərlə çinli kəndliləri açıq üsyana qaldırdı. Üsyan hərəkatı xüsusən mərkəzi Çində sürətlə və geniş sürətdə yayılırdı. Yuan tayfa başçıları Ta-tuja (indiki Pekin) ağalıq etmək üstündə bir-birləri ilə rəqabət aparanda, bu üsyan ayrı-ayrı əyalətlərdə genişlənəndə, cənuba keçəndə yaranan dövlətlər problemi həll etmək əvəzinə özlərini qoruyub saxlamaq və ali mövqe üstündə mübahisəyə başladılar. Belə qarışıqlıqdan kənarda Min adlanan yeni yerli sülalə (1368-1644-cü illər) meydana gəldi.

Min sülaləsi

Yeni sülalənin banisi Çu Yuan- can Kayfen şəhərindən olan ailədən idi.. Yuan dövrlərində ailənin vəziyyəti Anveydə gəzib-dolaşan icarəçi əkinçilər arasında daha da pisləmişdi. 1344-cü ildə aclıq və taun xəstəliyi nəticəsində yetim qalan gənc Çu kiçik buddist monastırına götürülmüşdü. O, üç il ərzində Huay hövzəsində dilənçi kimi dolaşmışdı, sonra isə monastırlarda buddist keşiş olmaq üçün təhsil almışdı. 1352-ci ildə daşqınlardan, qiyamlardan və Yuanın quldurcasına istismar kampaniyalarından sonra bütöv region viran qalmışdı. Çunu üsyana qoşulmağa inandırdılar. O, qiyamçı Sun rejiminin cənub cəbhəsindəki ən uğurlu generalına çevrildi və 1356-cı ildə Nankini işğal edib, orada öz qərargahını qurdu. Bu, Yantszı çayının üstündə yerləşən sıx əhalisi və strateji əhəmiyyətli olan bir şəhər idi. Burada o, köhnə hökumətin qalıqlarını toplamağa başladı və öz hərbi gücünü xeyli möhkəmləndirdi. 1360-cı illə 1367-ci il arasında onun orduları Yantszı vadisinin mərkəzi və şərq tərəflərindəki geniş ərazilərə nəzarəti ələ keçirdi. Sonra Çu bütün Çini monqol hökmranlığından azad etmək niyyətini bəyan etdi və 1368-ci ilin başlanması ilə yeni sülaləsini yaratdığını elan etdi. Sülalənin adı olan “Min” sözü «parlaqlıq» mənasını verirdi, Manixeyn təsirini ifadə edirdi, bu təlim altında isə Çu görkəmli vəziyyətə nail olmuşdu.

1368-ci ildən o, güclü kampaniya apararaq monqolları Şandun, Honan və Şansi əyalətlərindən və Ta-Tunun özündən qovdu, beləliklə, Min hakimiyyəti xeyli ərazilərə genişləndi. Şimali-qərbdə monqollara qarşı aparılan kampaniya Mərkəzi Asiyaya, şimali-qərbdə Mancuriyaya, şimal tərəfdə Karakorumun arxasındakı Xarici Monqolustana və demək olar ki, Baykal gölünə yol açdı.

Belilklə, Çu Yuan-çanın 30 illik hökmranlığı 1398-ci ildə yeni sülalənin bütün müasir Çinin ərazisinə nəzarət etməsi ilə nəticələndi.

Min sülaləsi 16 imperatorun hökmranlığını əhatə etməklə, Çin tarixinin ən stabil və uzun sürən sülalələrindən biri oldu. Koreyanın, Monqolustanın, Çin Türküstanının, Birmanın, Siamın və Vyetnamın hökmdarları müntəzəm olaraq Minin ağalığını etiraf edirdilər. Bəzi vaxtlarda uzaqlarda yerləşən Yaponiyadan, Yava və Sumatradan, Seylon və Cənubi Hindistandan, Şərqi Afrika sahillərindən, Persiya körfəzi regionundan və Səmərqənddən bac qəbul edilirdi. O vaxtki Çin dövlətinin beynəlxalq gücünü və nüfuzunu bərpa etmələri Min imperatorlarını xüsusilə şərəfləndirir, bu nüfuz isə VIII əsrdən tənəzzüldə olmuşdu. Min imperatorları yəqin ki, bir sıra yeni Çin hökmdarlarına nisbətən Şərqi Asiyada daha yüksək təsir gücünə malik olmuşdular və onların Portuqaliya, İspaniya, Rusiya, Britaniya və Hollandiya

nümayəndələrinə qarşı münasibətdə, bi elçilər sülalənin sonunda Çində görünmüşdülər, özlərini təkəbbürlü aparırdılar.

Çin tarixində ilk dəfə Min hökmdarlarının hər biri adətən yalnız bir era adı götürürdülər, yeganə istisna altıncı imperator idi, o, səkkiz illik fasilə ilə iki dəfə hökmranlıq etmişdi. Era adı praktikasını müasir yazıçılar fərdi adlarla və ya imperator adları ilə adlandırırdılar, era adı fərdi adla eyni olduqda sadəcə Uan-li adlanırdı.

Bani imperator Tay Tsu (bu, Çu Yuan-çanın məbəd adı idi) Çin tarixinin ən güclü və daha koloritli şəxsiyyətlərindən biriidir. Onun uzun müddətli hökmranlığı hökumət quruluşunu, həm də siyasəti müəyyən etmiş və bütöv sülaləyə öz xüsusiyyətlərini vermişdi. 1398-ci ildə onun ölümündən sonra nəvəsi Hui Ti varis oldu. O, öz qüdrətli əmiləri üzərində nəzarəti əldə etməyə çalışdıqda, bu, qiyama səbəb oldu və 1402-ci ildə devrildi. Yeni hökmdar Çen Tsu taxt-tacı əlinə aldı və özünü güclü və təvazökar bir hökmdar kimi göstərdi. O, şimalda yenidən təşkil olunmuş monqollara qarşı şəxsi yürüş apardı və dənizin o tərəfinə iri donanma ekspedisiyası göndərdi, Afrika kimi uzaq diyarların hökmdarlarından bac tələb etdi.

Çen Tsudan sonra bir əsr ərzində imperiya stabil, sakit və inkişaf edən ölkəyə çevrildi. Lakin dövlət administrasiyası zəif imperatorlar üzərində yevnuxların ağalıq etmələrindən əziyyət çəkməyə başladı. U Tsuna və Şih Tsuna Min imperatorları arasında ən az hörmət edilir. 20 illik bir dövrdə Şih Tsun, demək olar ki, bütünlüklə hökumət qayğılarından uzaqlaşmışdı. Hər iki imperator yüzlərlə məmuru onların etirazlarına görə alçaldır və cəzalandırırdı.

1592-ci ildə Hideyoşinin başçılığı altında yapon qüvvələri Koreyaya müdaxilə etdi. Min Çini öz bac verən qonşusunu dəstəkləmək üçün səmərəli kampaniya aparmaqdan ötəri bu vaxtadək kifayət qədər güclü olmaqla, cavab vermək qabiliyyətində idi. Hideyoşi altı ildən sonra öldükdə yaponlar geri çəkildilər. Bu müharibə Mindən ağır resurslar tələb etdi və açıq surətdə Çinin hərbi tənəzzülündən xəbər verdi.

Həmin vaxt şimal sərhədində yeni təhlükə meydana çıxdı. Mancurlar Min qüvvələri üzərində 1619-cu və 1638-ci illərdə tarmaredici qələbə çaldılar və Min imperiyasının bütöv şimal-şərq seqmentinə nəzarəti ələ keçirdilər.

Min dövlət sistemi Tan və Sun sülalələrindən irs kimi qəbul edilmiş institutların bünövrəsi üzərində qurulmuşdu və şimaldan olan işğalçı sülalələrin, xüsusən Yuanın müdaxiləsi ilə öz şəklini dəyişdirilmişdi. Min dövrlərində meydana çıxan sosial və inzibati təşkilatlanma nümunələri öz əsas xüsusiyyətlərini XX əsrin başlanğıcındakı Tsin sülaləsinə qədər saxladı.

Min mərkəzi hökumətinin erkən formasında vahid Katiblik ağalıq edirdi. Katibliyin baş icraçı məmuru baş müşavir və ya baş nazir kimi imperatora xidmət edirdi. Mərkəzi hökumətin digər idarələri arasında xüsusi nəzarət edən orqan seçilirdi. Bərabər əhəmiyyətə beş baş hərbi komissiya malik idi, onların hər biri müdafiə nazirliyi ilə birlikdə məsuliyyət daşıyırdı. Əvvəldən vahid Baş Hərbi Komissiya Katibliyə paralel idi, lakin 1380-ci illərdən onun səlahiyyəti parçalanmağa başladı.

XV əsrdə tədricən yeni institutlar meydana gəldi, onlar mərkəzi və regional inzibatçılığı əlaqələndirmək məqsədini güdürdü. Ənənəvi təcrübədən uzaqlaşmaqla, Yuan pretsedentinə müvafiq olaraq Min dövrlərində yalnız bir növ imtahan etmə mövcud idi. Klassikləri və tarixi ümumən bilmək tələb olunurdu. Min sülaləsinin solunda yazılı imtahan yaradıcı fikirə əzici təsir göstərdi.

Tay Tsunun hökmranlığının başlanğıcında hökumət maraq səviyyəsindəki məktəbləri himayə edirdi, dövlətin təqaüd verdiyi onlarca tələbə mülki xidmət imtahanlarına hazırlaşdırılırdı. Çox istedadlı tələbələr belə yerli məktəblərdən inkişaf etmiş öyrənmə proqramlarına və paytaxtda Milli Universitetin sınaq şöbəsinə keçirilirdi. 1500-ci ildən sonra xüsusən özəl akademiyalar var idi ki, orada alimlər fəlsəfəni müzakirə etmək üçün, tələbələr isə imtahanlara hazırlaşmaq üçün yığışırdı.

Minin hökumət nümunəsi mülki xidmətin rəhbərliyi altında öz stabilliyinə görə hörmətə malik idi, dəyişən xidmətlərin ehtiyacı üçün onun yeni institutlarının icadında yenilik yaradıcılığı özünü göstərirdi. Hərbi sistem təkcə özünü müdafiəyə nail olmaqda uğursuzluğa uğramadı, həm də möhkəm qaydada durğunluğa keçdi, həqiqi bir çağırışa möhtac idi və nəticədə muzdlu əsgərlərlə əvəz edildi.

Min dövründə çinlilər özləri bütöv bürokratik və sıx mərkəzləşmiş inzibatçılıq xəttini təşkil etdikdə, Min imperatorları əcnəbi xalqlarla ənənəvi feodal münasibətlərinə bənzər əlaqələr qururdular. Çinlilər öz imperatorlarını hər şeyin hökmdarı kimi qəbul edirdilər, faktiki olaraq qeyri-çin hökmdarları, regionları və dövlətləri mahiyyətcə onun asılılığında idi. Əcnəbi hökmdarlar da Min ritual təqvimlərinə hörmətlə yanaşmaqla və riayət etməklə, arabir Min paytaxtına öz yerli malları ilə bac vermək üçün nəsə göndərəcəklərini gözləyirdilər. Bütün elçilər onların baclarının qəbul edilməsi əlaməti kimi yaxşı hədiyyələr alırdılar. Onlara həmçinin özəl ticarət mallarını almağa və satmağa icazə verilirdi. Beləliklə, mis sikkələr və dəbdəbə malları (xüsusən ipək və farforlar), həm də bibər Çindən xaricə axırdı. Digər ədviyyatlar ölkəyə gətirilirdi. Qərbdəki və şimaldakı sərhədlərdə əsasən Çin çayının və çöl torpaqlarında bəslənmiş atların mübadiləsi gedirdi. Tarazlıq nöqteyi-nəzərindən bacın və ticarət fəaliyyətinin birləşməsi əcnəbilərə böyük fayda verirdi. Bu mübadilə o qədər böyük idi ki, çinlilər tezliklə əcnəbi elçilər üçün malların həcmi və növləri

üzrə məhdudiyyət qoydular, həm də elçilər arasında uzun fasilələr olması qaydasını tətbiq etdilər.

Min xarici siyasətinin əsas məqsədi siyasi işlərin görülməsi, Çinin təhlükəsizliyini təmin etmək və xüsusən ona nail olmaq idi ki, monqollar bir daha Çinə təhlükə törətməsinlər. Bu onunla nəticələnirdi ki, Tay Tsu ardıcıl olaraq şimala və şimali-qərbə tərəf ordular göndərirdi ki, qiyam qaldıran monqol qoşunlarını cəzalandırsın və monqol qüvvələrinin yenidən konsolidasiyasının qarşısını alsın.

Monqolların artıq yenidən birləşməmələri özlüyündə Min Çini üçün taleyin bəxş etdiyi şərait idi. Erkən dövrlərdə bəzən monqollar bir-birləri ilə antoqonist olan üç qrupa bölünürdülər. Onlar Qərb monqolları və ya Oyratlar, Şərq monqolları və ya tatarlar və Urianqad tayfaları idi. İmperator Çen Tsu Urianqad tayfalarına faktiki olaraq muxtariyyət vermişdi.

Monqollardan fərqli olaraq əcnəbi xalqlara münasibətdə Minin mövqeyi bütövlükdə qeyri-aqressiv idi. Yaponların Çin sahillərində qarətçiliyini cəza ekspedisiyaları ilə qorxutmasına baxmayaraq, bu problemi bütövlükdə möhkəm istehkamlar tikmək və sahil müdafiəsi donanması ilə uğurlu qaydada qarətçiləri dəf etməklə həll edirdi. Teymurləngin türk-monqol imperiyası uzaq qərbdəki Səmərqənddə qalxanda, hətta Teymurun Çin elçilərini öldürməsinə və Çinə qarşı yürüş planlaşdırmasına baxmayaraq, imperator hərəkətsiz dayanmışdı. Yalnız iki hadisə vaxtı Min hərbi qüvvələri Çin sərhədlərindən kənarda fəallıq göstərmişdilər. 1445-1446-cı illərdə Çin qoşunları qiyam qaldırmış sərhəd başçısının arxasına düşüb, birmalıların müqavimətinə baxmayaraq, Birmanın içərilərinə girmişdi və 1592-1597-ci illərdə Min sarayı Çosona (Koreya) yapon müdaxiləçilərini dəf etməkdə uzun müddətli və baha başa gələn kömək göstərmişdi.

Çinliləri «barbar» adətlərindən qorumaq üçün Min hökmdarları çinlilərlə əcnəbilər arasında özəl əlaqələri və xaricə hansısa özəl səfər etməyi qadağan etdi. (Bu Spartada Likurqun eyni qaydadakı hərəkətlərini yada salır, axı o da spartalıların əcnəbilərin təsiri ilə pozulacağından qorxub, məhz belə qadağalar qoymuşdu.) Hökmdarlar o qədər ciddi idilər ki, hətta sahil balıq ovuna və sahil ticarətinə imkan vermidilər, bundan isə cənub və cənubi-şərq əhalisinin ənənəvi olaraq yaşayışının təminatı asılı idi. Sonrakı Min dövrlərində bu qadağalara görə riskə gedən minlərlə çinli ticarət işi ilə məşğul olmaq üçün cənub-şərqi Asiyanın müxtəlif regionlarına və hətta Yaponiyaya miqrasiya etdilər. XVI əsrin başlanğıcında bircə Quançjou istisna olmaqla Min sarayı bütün dəniz ticarətini bağladı və 1540-cı illərdən qarətçilərə qarşı sahil mühafizəsini yenidən gücləndirdi (Min hökmdarının bu tədbiri ABŞ-ın üçüncü prezidenti Tomas Ceffersonun 1807-ci ildə imzaladığı Embarqo Aktini yada salır. Bu

sənəd İngiltərə gəmilərinə amerikan limanlarına girişini qadağan etməklə yanaşı, ABŞ-ın öz ticarətinə və gəmiçiliyinə böyük ziyan vurmuşdu).

Avropalıların Çinə gəlişi

Belə şəraitlər erkən Çinin sahilinə müasir avropalıların gəlmələrini məhdudlaşdırırdı, ilk dəfə onlar 1514-cü ildə Min Çininə gəlmişdilər. Portuqaliyalılar artıq cənubi Hidistanda və Malakkada özlərini yerləşdirmişdilər, onlar həmin məkanlardan nəhəng gəlir götürməyə öyrənmişdilər. Bu da Çin sahili ilə cənubi-şərqi Asiya arasında regional ticarət aparmağı mümkün etmişdi. Onlar qaçaqmalçılıqla və dəniz quldurluğu ilə məşğul olduqlarından Min sarayı portuqaliyalıların Çinə gəlməsini istəmirdi. Lakin onlar 1557-ci ildə sahil yarımadasında (indiki Makaoda) məskunlaşmaqla nəzarəti ələ keçirdilər və Quançjou yaxınlığında arabir ticarət aparırdılar. 1575-ci ildə ispanlar Maniladan Quançjouya gəldilər, lakin onların rəsmi ticarət imtiyazları əldə etmək cəhdi uğursuz oldu və tezliklə onlar qanunsuz ticarət aparmaqda fəallıqlarını artırdılar. Holland Şərqi İndiya Kompaniyasının 1622-ci ildə Makaonu Portuqaliyanın əlindən almaq, işğal etmək cəhdi uğursuz olduqdan sonra, 1624-cü ildə Tayvan sahilini ələ keçirdilər. 1637-ci ildə beş ingilis gəmisindən ibarət eskadra Quançjouya yol açdı, orada yüklərini yeləşdirirdilər. Bu vaxt Rusiya öz sülhməramlı elçilərini Pekinə göndərdi və Min sülaləsinin sonunda rusların Sibirdən keçməklə şərqə doğru ekspansiyası nəticədə onları Amur çayının şimalında Sakit okean sahillərinə gətirib çıxardı.

Avropadan olan xristian missionerlərə onların tacir həmvətənlərinin pis reputasiyası maneçilik törədirdi. Lakin İezuitlərin yerli adətlərə uyğunlaşması taktikası onlara Çin ərazilərinin içərilərinə girməyə imkan verdi. İtalyan Matteo Riççi ilk uğurlu iezuit missioner olmaqla 1583-cü ildə öz işinə başladı və Çin dilində Qərb elminin bəzi nailiyyətlərini təsvir etdi. O, Çin dilini yaxşı öyrənmişdi, bu dildə 15 kitab yazdı, həmçinin Konfutsi təlimi ilə də tanış olmuşdu. Ondan əvvəl Yaponiyadan buraya gələn İezuit ordeninin - İisus Cəmiyyətinin banilərindən biri, İqnatus Loyolanın müavini Fransisko de Ksavyer Çində az müddət yaşadıqdan sonra orada ölmüşdü.

Sülalənin sonundan əvvəl iezuitlər sarayda nüfuz qazandılar, Çin kitablarını Avropa elminə və teologiyasına təqdim etdilər, Minin mancurlara qarşı istifadə etməsi

üçün Portuqaliya tipli top istehsal etdilər. Avropa texnologiyası və ideyaları Çində müəyyən effekt verməyə başladı.

Ölkədə aqrar siyasət

Şimala geri dönmə miqrasiyası ərzində cənubi-şərqin iri şəhər mərkəzlərinin qeydə alınan əhalisi azaldı. Bu meylə baxmayaraq, cənub və xüsusən cənubi-şərq Min dövründə Çinin ən çox əhalisi olan, varlı və daha mədəni regionu kimi qalırdı. XVII əsrin əvvəllərində əhalinin sayı, demək olar ki, 150 milyon idi. XVI əsrdə Amerika mənşəli qida məhsullarının (yerfındığı, qarğıdalı və şirin kartof) becərilməsi artıq Tsin dövründə sürətlə artan əhalinin möhkəm aqrar baza ilə təmin edirdi.

Hökumət tərəfindən böyük torpaq sahələri olan malikanələr müsadirə edildi, bölündü və icarəyə verildi. Özəl quldarlıq qadağan edildi. XV əsrdə nəticədə müstəqil torpaq sahibləri olan kəndlilər Çin kənd təsərrüfatında az qala aparıcı yer tuturdu. Min hökmdarları Çində torpağı icarəyə vermək problemlərini həll etməyə daim qadir olmuşdular.

Minin kənd təsərrüfatı işlərində hökumətin iqtisadiyyata müdaxilə etməmək siyasəti fiskal inzibatçılıqda öz ikili tipinə malik idi. Gəlirin başlıca hissəsini torpaq vergisindən yığılan məbləğ təşkil edirdi. Torpaq vergisi dərəcəsi xeyli müxtəlif idi, təkcə torpaq sahəsinin məhsuldarlığından deyil, həm də onun icarə şərtlərindən asılı idi. Torpaq vergilərindən başqa digər gəlirlər də hökuməti saxlamağa kömək edirdi. Onlar mədən vergiləri, bazar dükanlarından alınan vergi olmaqla, mülkiyyət sahibliyinə əsaslanırdı.

Dövlət hakimiyyətinin ağalığı həmçinin Min Çinində intellektual və estetik həyatda da özünü nişan verirdi. Bütün kiçik sənətlər üçün, kənd təsərrüfatı sənətləri və hətta rəssamlıq üçün standartlar qoyulmuşdu. Min erasının sonu xüsusən intellektual və sənət sahəsində yüksəlmə dövrü idi. Min dövründə sənət aləmində dövlətin himayə etdiyi sənətkarlıq malları özünün müxtəlifliyi və yüksək keyfiyyəti ilə seçilirdi, onların içərisində farfor məmulatlarını xüsusən qeyd etmək lazımdır. Əvvəlki sadə məmulatların yerini yaxşı bəzədilmiş yarımxrom qablar tutdu. Bundan «söyüd nümunəli» məmulatlar meydana çıxdı ki, onlara da Avropada böyük tələbat var idi. İrandan idxal edilən kobalt ən gözəl mavi-ağ məhsullar üçün istifadə olunurdu. Bəzi polixrom məmulatlarda üç və hətta beş rəng üstünlük təşkil edirdi. Rəngkarlıq, xüsusən portret rəngkarlığı ənənəvi nümunələrə əsaslanırdı.

Min poeziyası və nəsri əvvəlki ustaların dəbindən sonrakı qaydada yazılırdı, yazıçı və tənqidçi qrupları Tan və Sun nümunələri ilə öz yaradıcılıqlarını müqayisə

edirdilər. Yuan sülaləsi vaxtı başlıca yeni incəsənət forması kimi meydana çıxan opera dramı bütün Min sülaləsi dövründə də populyarlığını davam etdirirdi. Yeni cənub opera ariya forması xüsusi populyarlıq qazanmışdı, bütün ölkədə mahnı oxuyan qızların repertuarına daxil olmuşdu. Hissiyyatlı romantizm Min dövründə yazılan dramlar üçün xüsusən xarakterik idi.

Tsin sülaləsi

1619-cu ildə Mancuriyadakı Nurhaçi (1559-1626-cı illər) Min ordusu üzərində həlledici qələbə çaldı, 1621-ci ildə isə Liao-yan və Mukden kimi mühüm şəhərləri tutdu. Axırıncını o, 1625-ci ildə öz paytaxtı etdi. 1626-cı ildə isə onun oğlu Abahay taxt-taca çıxdı. Tezliklə o, Çosona (Koreya) hücum etdi. 1634-cü ildə isə Daxili Monqolustana yürüş etdi. 1636-cı ildə mancurların, monqolların və Mancuriyadakı çinlilərin imperatoru oldu və Tsin və ya «təmiz» adını qəbul etdi. Lakin Koreya onun mövqeyini tanımaqdan imtina etdi. Abahay Koreyaya ikinci yürüş etdi və onu illik iri bac verən vassal dövlətə çevirdi.

Bandit liderləri iki yeni dövlət yaratdılar, onlardan biri 1644-cü ilin aprelində Pekini tutdu. Bu, Min sülaləsinin sonu idi. Ölkəyə yayılan qrupların çoxu Minin son illərində ona qarşı qalxmışdı, bu vaxt isə onlar öz düşmənçiliklərini yeni rejimə qarşı döndərdilər. Tsin Yunnanda 1681-ci ildə bərpa olundu, bu, səkkiz il davam edən böyük qiyama son qoydu. Onun təsiri hətta Daxili Monqolustanda, Vyetnamda və Tibetdə də özünü göstərdi.

Erkən Mancu dövlət bayraq (hərbi kompaniya) sisteminə əsaslanırdı, bu, traybalizmdən monarxiya kübarlığına keçmək idi. Bu kübarlıq altında hər bir Mancu tayfa adamı bayraqda siyahıya alınırdı. Əvvəlcə bu bayraqların sayı dörd idi, sonralar isə səkkizə qədər böyüdü. Abahayın hökmranlığı ərzində bu sistem onun nəzarətində olan monqollardan və çinlilərdən ibarət olmaqla genişləndi. Abahay çin institutlarını geniş şəkildə tətbiq etdi və Mancu Pekinə gəlib çıxanda Min inzibatçılıq təcrübəsindən geniş istifadə edildi.

Tsinin digər spesifik institutu müstəmləkə işləri sarayı idi, bu, Monqolustan idarəçiliyindən irəli gəlmişdi, sonralar Tibetlə, Şərqi Türküstanla və Rusiya ilə əlaqələri əldə etmək üçün istifadə olundu. Digər idarələrdən fərqli olaraq onun baş heyəti müstəsna olaraq mancurlardan və monqollardan ibarət idi.

Tsin ordusunun özəyi bayraq qüvvəsi idi, Taypin üsyanına qədər onun tərkibi təqribən 200 min nəfərə bərabər idi. Bu qoşunların yarısı paytaxt ətrafında yerləşdirilmişdi, qalanları isə əyalətlərdə qarnizonlaşdırılmışdı. Digər ordu isə «Yaşıl ştandartlar» adlanırdı və çinlilərdən ibarət olmaqla, ümumilikdə 600 min nəfərlik heyətə malik idi. Çin tarixində bu görünməmiş bir hadisə idi ki, nəhəng imperiyaya hansısa 800 minlik ordu nəzarət edə bilirdi.

Erkən Tsin Çini işğal etməklə və onu öz hökmranlığına konsolidasiya etməklə Çin sərhədlərinin daxilində və kənarında olan problemlərlə üzləşməli olmuşdu. Rusiyanın şərqə tərəf ekspansiyası XVI əsrdə başlanmaqla çox ciddi bir hal idi. Ruslar 1650-ci ildə Amur çayı üzərində görünmüşdülər, 1689-cu ildə Tsinlə Rusiya arasındakı Nerçinsk müqaviləsi Sibir-Mancuriya sərhədlərini Amur çayı və Stenovoy dağları boyunca dənizə qədər müəyyən etdi və Rusiya karvan tacirlərinin Pekinə gəlməsinə şərait yaratdı.

İlkin dövrlərdə başlıca ticarət malı Rusiya xəzləri, qızıl, gümüş sikkələr, Avropa yun parçaları, Çin ipəyi və pambıq parça idi. Erkən Tsin dövründə qərbi Monqolustan Pekinin nəzarətindən uzaq idi. Lakin XIX əsrdə Rusiya parçası və Çin çayı başlıca ticarət əmtəəsinə çevrildi və bu, öz inkişaf zenitinə 1830-cu və1840-cı illərdə çatdı.

Tibetdə hakimiyyətin qəsb edilməsi ilə qarışıqlıq baş verdi. Uzurpatorun varisi öldükdən sonra əyalət daxili mübarizədən dağılırdı. Erkən Tsin ilə Tibetin əlaqəsi dinə dünyəvi hamilik ilə ruhi lider arasında partnyorluqdan xəbər verirdi.

Bütün Çin tarixi boyu şimalın köçəri və yarımköçəri xalqları ilə çinlilər arasındakı əkslik mühüm əhəmiyyətə malik olmuşdu. Çin ilk əvvəllərdə Şimalın təzyiqindən azad olmuşdu. Şərqi Türküstana tərəf irəliləmək həmçinin Tsinin görkəmli töhfəsi idi.

Mancurlar Çinə daxil olandan Day Vietdə (Vyetnamda) iki bir-birinə zidd olan hakimiyyət var idi: Hanoydakı Le sülaləsi və Huyedəki Nquen ailəsi, axırıncı ölkənin mərkəzi və cənub hissələrində hökmranlıq edirdi.

Tsinin Çosonla (Koreya) əlaqələri digər bac verən dövlətlərə nisbətən dərin idi. Pekin və Seul arasında elçilər mübadiləsi daha tez-tez olurdu və mədəni əlaqələr başqa ölkələrlə müqayisədə nisbətən çox idi.

XVII əsrin sonunda Tayvanın anneksiyasından başlayaraq ölkə daxilindəki dinc həyat XVIII əsrin sonunadək yüz ildən artıq müddətdə davam etdi. Çin xeyli sosial və iqtisadi inkişafın şahidi oldu. Bu dövr həqiqətən də Pax Sinica adlanmağa layiqdir

Sonrakı Min və erkən Tan dövrlərində buğda və arpa toxumları başqa ölkələrdən gətirilirdi. Amerika mənşəli məhsullar mərkəzi və cənubi Çinin təpə və

dağ regionlarının istifadə edilməsinə şərait yaratdı. Çay, pambıq, tütün və digər kommersiya məhsullarının becərilməsi geniş yayılmışdı.

XVIII əsr ərzində sənətlər və sənaye sahələri öz yüksək səviyyəsinə çatdı. Mis və qalay istehsalı inkişaf edirdi. Min və Tsin dövrlərində Çinə gümüş əsasən avropalılar və amerikalılar tərəfindən gətirilirdi.

XVIII əsrdə Çində əhalinin sürətlə artması görünməmiş bir hadisə idi. 1600-cü ildə əhalinin sayı təqribən 150 milyon olduğu halda, 1850-ci ildə 430 milyona çatmışdı. Miqrasiya Mancuriyaya, Tayvana, Kuantinə və Haynana istiqamətlənirdi. Lakin immiqrasiyanın başlıca hədəfi qərbi-cənubi Çin, qərbi Hupehin dağ torpaqları və cənubi Şensi idi.

Ağ lotos sektası Szeçuan zonasında pozulmuş əhalini özünə daha da artan qaydada cəlb edirdi. Ağ lotos üsyanı (1796-1804-cü illər) bir sıra sosial və siyasi bədbəxtliklər nəticəsində baş verdi, bu Tsin sülaləsinin tarixində dönüş nöqtəsini göstərir. Bu, Tsinə iki zərbə vurdu. Birincisi, milisin nəhəng sayda üzvlərindən istifadə etməsi, ikincisi isə, Tsin maliyyəsinə xətər toxundurması idi. Üsyan ağır xərc tələb etdi, onunla Tsinin inkişafına birdəfəlik son qoyuldu.

XIX əsrin birinci yarısında narazılıqlar və iğtişaşlar əhalinin xeyli artması ilə izah oluna bilərdi. Pul iqtisadiyyatının göstərdiyi təsiri, qulluqçular və kiçik torpaq sahibləri tərəfindən ümumi əhalinin istismarının artması – bunların hamısı Çinin aqrar cəmiyyətinin parçalanmasına şərait yaradırdı. Bu problemlərin üzərinə tiryək idxalının artması ilə gümüş pulun xeyli azalması da əlavə olunurdu. Tiryək müharibəsi və onun nəticəsi əhalinin yaşayış şəraitinin daha da pisləşməsinə səbəb oldu. Sonrakı Tsin dövründə yaranan xaos, beləliklə, siyasi, sosial və iqtisadi vəziyyətin daha da ağırlaşmasına səbəb oldu və Qərbin Çinə hərbi və kommersiya müdaxiləsi böyüdü.

Tiryək müharibəsi

Tiryək məsələsi XIX əsrdə ilk Çin-Britaniya toqquşmasına səbəb oldu. Britaniyalılar çalışırdılar ki, Çinin xeyrinə olmayan ticarəti Hindistandan tiryək gətirməklə əks tarazlığa nail olsunlar. 1779-cu ildə Şərqi İndiya Kompaniyası tiryək ticarətini inhisara aldıqdan sonra, onun hökuməti 1780-ci ildə Hindistandan tiryəki Çin alıcılarına göndərməyə başladı. 1819-cu ildə kompaniya tiryəkdən gələn gəlirin böyük hissəsini ələ keçirməyə başladıqda, bu Çinə gətirilən narkotikin həcminin kəskin sürətdə artmasına səbəb oldu. Pekin sarayı dəfələrlə tiryək idxalını qadağan

etdi. Lakin həmin tədbir uğursuz olurdu. Çünki qadağanın özü bununla məşğul olan məmurların və əsgərlərin korrupsiyasına şərait yaradırdı. Ona görə də yerli tədbirlər vasitəsilə tiryək məsələsini həll etmək mümkün deyildi.

XIX əsr başlandıqda tiryək qaçaqmalçılarının başlıca vasitəsi – kompaniyanın lisenziyası ilə Asiya daxilində ticarət aparmağa icazə verilənlər yalnız ölkənin öz tacirləri idi. Kompaniyanın himayəsi olmadan onlar Çində özlərinin tiryək bazarını yaradırdılar. Onlar Çindəki tiryək qadağasına məhəl qoymurdular və tədricən Çin qanunlarını və ümumi qaydaları pozmağa başladılar, çünki pul qazanmaqdan başqa heç nə barədə düşünmürdülər.

İngiltərə parlamenti 1834-cü ildə Şərqi İndiya Kompaniyasının inhisarını ləğv etdikdən sonra, Uilyam Con Napier Çində Britaniya ticarətinə nəzarətin başçısı təyin edildi və o, Kantona gəldi. O, Çin hakimiyyəti ilə danışıqlar aparmağa cəhd etdi, lakin onun missiyası uğursuzluğa uğradı.

1836-cı ildə imperator antitiryək kampaniyasını aparmaq üçün imperial komissioner vəzifəsinə radikal vətənpərvər olan Lin Tse-hsunu təyin etdi. 1839-cu ilin martında Kantona gəldikdən sonra o, 20 min qutu tiryəki müsadirə edib, məhv etdi. Çinlilərlə britaniyalılar arasında sentyabrdan sonra toqquşma başlandı.

1840-cı ilin fevralında Britaniya hökuməti Çinə ekspedisiya göndərməyi qərara aldı. İyunda 16 Britaniya hərb gəmisi Honkonqa gəlib, şimala tərəf üzməyə başladı. 1841-ci ilin mayında britaniyalılar divarlarla əhatə olunan Kantona hücum etdilər və 6 milyon dollar məbləğində bu həmlədən azad olunmağa görə pul aldılar. Lakin belə hadisə Kanton sakinlərinin bir hissəsinin əks-hücumunun meydana gəlməsinə səbəb oldu. Bu, britaniyalılarla Kanton sakinləri arasında davam edən münaqişənin başlanğıcı oldu.

Tsin Britaniyanın güclü donanmasına qarşı heç bir səmərəli taktikaya malik deyildi. Onlar düşmən donanması üzərinə gedən yanan körpücüklər düzəldirdilər və adamları düşmənin dənizçilərini ələ keçirməyə həvəsləndirirdilər, bunun üçün mükafat da təklif edirdilər. Yaşıl ştandart qoşunları düşmənlə vuruşmaqdan daha çox mülki adamları təşkil etməyə yarayırdı. Britaniyalılar elan etdilər ki, onların məqsədi xalqı təhqir edən dövlət qulluqçuları ilə və əsgərlərlə vuruşmaqdır, heç də Çin əhalisinə qarşı müharibə aparmaq deyildir. Həqiqətən də hökumətlə xalq arasında dərin uçurum var idi və britaniyalılar bundan asanlıqla fayda götürə bilərdilər. Tsin cəmiyyətinin zəifliyi isə müharibə böhranında aydın görünməyə başladı. 1842-ci ilin mayında britaniyalılar Şanxayı və digər iki şəhəri tutdular. Nankin isə üç ay sonra təslim oldu və Nankin müqaviləsi ilə sülh bərpa olundu.

Nankin müqaviləsinin başlıca faydası Honkonqun Britaniyaya verilməsi və beş limanın onun ticarəti üçün açılması oldu. Həm də Çin 21 milyon dollar məbləğində təzminat verməli idi. Bu, Çinlə ilk toqquşmanın nəticəsi oldu və britaniyalılar üçün ticarət və kommersiya «sivilizasiyanın həqiqi heraldikasına» çevrildi.

Bundan sonra Çin Birləşmiş Ştatlarla və Fransa ilə müqavilə bağladı. Bu müqavilələr həmin ölkələrə ən xoş münasibət bəslənilən millət ləyaqətinə xas olan qaydada imtiyazlar verdi. Bütövlükdə isə bunlar Çinin tarixi muxtariyyətinin itirilməsinə, həmin ölkələrin eks-ərazi hüququndan- kapitulyasiyadan istifadə etmələrinə və missionerlərin sərbəst hərəkəti üçün sonrakı şər işlərə də yollar açdı. Lakin Kantonda britaniyalıların şəhərə daxil olmasına qarşı narazılıqlar baş verdi. Britaniyalılar nəticədə güzəştə getdilər və əcnəbilər əleyhinə olan mübarizə qalib gəldi. Baxmayaraq ki, faktiki olaraq Pekin sarayı «müvəqqəti daxil olmağa» icazə vermişdi.

Tsin nümayəndələri britaniyalıların və fransızların tələblərini icra etməkdən başqa bir çıxış yoluna malik deyildilər. Rusiya və amerikan diplomatları da həmçinin imtiyazlar əldə etdilər. 1860-cı ildə müttəfiq qüvvələr Pekinə müdaxilə etdilər, imperator Hsien-feni (1851-1862-ci illərdə hökmranlıq etmişdi) paytaxtdan qovdular. İmperatorun kiçik qardaşı prints Kun danışıqlar aparmaq üçün imperial komissioneri təyin edildi. Britaniyalılar oktyabrda məşhur Yay sarayını məhv etdilər.

1841-ci ildə kantonluların müqavimətindən sonra Kvantunda kiçik torpaq sahibləri daha mütəşəkkil anti-əcnəbi hərəkata başladılar. Kanton şəhəri də həmçinin ksenofabiyanın yayılmasının mərkəzi oldu, ona görə də şəhərin böyük akademiyalarının alimləri Konfutsi nəzəriyyəsinə əsaslanaraq elan etdilər ki, mədəniyyətsiz barbarlar şəhərdən qovulmalıdırlar. Kantonlular öz vətənlərini qorumaq üçün barbarlarla mübarizəyə qalxdılar. Britaniya konsulu vuruşmaq üçün Kantona donanma göndərdi. Fransız qüvvələri bu riskli işdə onlara qoşuldular. Ruslar və amerikanlar bundan imtina etsələr də, diplomatik manevrlər üçün nümayəndələrini göndərdilər. 1857-ci ilin sonunda ingilis-fransız qüvvələri Kantonu işğal etdilər.

Şərqi Sibir qubernatoru olan Nikolay Muravyov 1858-ci ildə Tsin generalına təzyiq etdi ki, Ayqun müqaviləsini imzalasın. Bu sənədlə Amurun şimal sərhədindəki ərazi Rusiyaya verilirdi. Lakin Pekin müqaviləni ratifikasiya etməkdən imtina etdi. İngilis-fransız müttəfiq qüvvələri 1860-cı ildə Şimali Çinə hücum edəndə, Rusiya diplomatı İqnatyev Çinin dostu kimi hərəkət etdiyindən, müttəfiqlər tezliklə Pekini tərk edəndə, Çinlə Rusiya arasında yeni Pekin müqaviləsi Ayqun müqaviləsini təsdiq etdi və Ussuri çayı ilə dəniz arasındakı ərazi də Rusiyaya çatdı.

Xarici ölkə nümayəndələrinin daim Pekində məskunlaşması Çinlə digər millətlər arasında baş verən münaqişələrə uzun müddət üçün son qoyulması ilə əlamətdar oldu. Bac sisteminin müəyyən qədər süqutu imperator ləyaqətlərinin itirilməsi, Çinin sülalə roluna ciddi zərbə vurulması demək idi.

Qarışıq 1858-1860-cı illər ərzində Çin bürokratiyası iki yerə – müharibə və sülh partiyalarına bölündü. Sülh partiyasının liderləri əcnəbilərlə danışıqlar aparmaq vəzifəsini öz üzərilərinə götürdülər. Onlara bunu heç də öz prinsipləri deyil, böyük böhranın mövcudluğu məcbur etmişdi.

Çinlilər qərblilərin Çinə zəhərli narkotiklərin təchizatçıları kimi gəlib çıxdıqlarını görməli idilər. Sözün bütöv mənasında barbarlar olmaqla, çinlilər onlardan heç nə öyrənə bilməzdilər. Həm də çinlilər möhkəm qaydada öz ənənələrini qoruyub saxlayırdılar, bunlar da iki cəhətə – ideoloji və institutsional cəhətlərə malik idi. Çinlilər Qərb təsirini yeni əlavələr üçün vacib olan yeni situasiyadan daha çox öz ənənəsinin genişlənməsi kimi qiymətləndirirdilər. Ən azı 1860-cı ilə qədər Tsin liderləri öz ənənə qılafına çəkilib qalmışdılar, keçmişin yükünü qırıb dağıtmaqla, yeni mühitlə bacarmaq üçün heç bir cəhd etmirdilər.

Taypin üsyanı

XIX əsrin üçüncü rübü yenə də sosial narazılığın nəticəsi kimi bir sıra iğtişaşlar görürdü. XIX əsrin birinci yarısında Taypinin ("taypin" sözü çin dilində "dinc", "sülhsevər"demək idi) vətəni olan Kvantun əyalətini sosial iğtişaş bürüdü. Tiryək müharibəsindən sonra hökumətin nüfuzu tənəzzülə uğramışdı, qulluqçular icma düşmənçiliyini barışdırmaq sahəsində öz qabiliyyətlərini itirmişdilər. Belə münaqişələrin ən böyüyü yerli sakinlərlə gəlmə sakinlər adlanan hakkalarla – onlar keçmiş vaxtlarda bu əyalətə mərkəzi Çindən gəlmişdilər, baş verdi. Yeni din kimi yaranan Allaha sitayiş edənlər assosiasiyasının ardıcılları şaxtaçılar, ağac kömürü istehsal edən fəhlələr və kasıb kəndlilər idi. Onların əksəriyyəti hakkalara məxsus adamlar idi. Üsyana Tiryək müharibəsi nəticəsində meydana gələn yüksək inflyasiyaya nəticəsində və iri mülkədarların qoyduqları ağır vergidən daha çox yoxsullaşan minlərlə kəndlilər qoşulmuşdular.

1851-ci ildə yaranan yeni dövlət Taypin Tien-kuo (Böyük sülhün səma səltənəti) adlanırdı. Taypin üsyanının başçısı Hun Hsiu-çüan özünü İisus Xristin qardaşı adlandırırdı və o, Səma kralı elan edildi. Yeni dövlət iri torpaq sahibliyinin

ləğv edildiyini elan etdi. Torpaqlar bərabər qaydada bölünməli və xalqa paylanmalı idi. 1852-ci ildə onlar imperial ordunu mühasirədə saxladı, sonra mühasirəni qaldırıb, Hunanın içərilərinə soxuldular. 1853-cü ildə Nankini işğal edib, onu özlərinin paytaxtı etdilər.

Taypin dininin özəyi monoteizm olmaqla fundamental protestant xristianlığına bənzəyirdi. Bu din həm də güclü anti-mancurizmlə (Tsin sülaləsinin hakimiyətinə qarşı mübarizə kimi) qarışmaqla, Çin mədəni ənənəsinə qarşı münasibətdə də tolerant deyildi. Bu siyasi-dini mürəkkəblik Taypinin döyüşən ruhu tərəfindən möhkəm qaydada dəstəklənirdi. Taypin dini ideyalarının, əxlaqının və institutlarının başlanğıcı öz izini Çin ənənəsindən götürə bilərdi. Taypinlər Nankində məskunlaşdıqdan sonra kənd məmurları təyin edildi, primitiv kommunizm ideyalarına uyğun olaraq onlar əkin torpaqlarını yenidən bölüşdürməyi planlaşdırırdılar. Lakin faktiki olaraq torpaq islahatı həyata keçirilən deyildi, kəndlərdə məmur vəzifələri başlıca olaraq keçmiş torpaq sahibləri və ya yerli hökumətlərin məmurları ilə dolmuşdu.

1853-cü ilin mayında Taypin Şimali Çinə ekspedisiya göndərdi, lakin 1855-ci ilin yazında nəticədə məğlub oldu. Bundan sonra Yantszı vadisindəki əlamətlər mübarizənin başlıca səhnəsinə çevrildi. Həmin illərin hökumət orduları pis intizama malik idilər, ona görə də başqa çıxış yolu olmadığından yerli milisə bel bağlamalı olurdular. Bu yerli ordular kənd fermerlərindən ibarət idi və Konfutsi ortodoksiyasını himayə etmək missiyasından və sadəcə öz kəndlərini mühafizə etməkdən daha çox geniş miqyaslı əməliyyatlar həyata keçirirdilər. Yerli kiçik torpaq sahibləri onları lazım olan pul fondu ilə təmin edirdilər.

Çindəki Taypin üsyanı (1850-1864-cü illər) nəticəsində on milyonlarla insan həlak olmuşdu. Bu tarixdəki ən qanlı və dağıdıcı vətəndaş müharibəsidir. Bəzi tarixçilər mübaliğəyə yol verərək, onun qurbalarının sayını bəşəriyyətin I Dynya müharibəsində verdiyi dəhşətli rüsumun miqdarı ilə müqayisə edirlər. Əlbəttə, tarixdə əvvəllər mövcud olmuş və onunla elə eyni vaxtda gedən vətəndaş müharibələrindən kəskin surətdə fərqlənirdi. ABŞ-da təqribən eyni dövrdə gedən Vətəndaş müharibəsində isə həlak olanların sayı 600 min nəfər olmuşdu.

Taypin tədricən darmadağın edildi və 1861-ci ilin oktyabrında inqilabi səbəb artıq sıradan çıxdı. 1864-cü ilin iyulunda Nankinin ələ keçirilməsi ilə dünya tarixindəki ən böyük vətəndaş müharibələrindən biri başa çatdı. Onların enerjiləri də tükəndi. Üstəlik, din fanatizm, baxmayaraq ki, onu döyüşçülərin özü ilhamlandırmışdı, hərbi və inzibati işləri ələ keçirməyə mane oldu. Ənənəvi mədəniyyətə qarşı dözümsüzlük də həmçinin xırda torpaq sahiblərini və onlara bənzərləri bu hərəkatdan uzaqlaşdırırdı.

Yunnanda, Şensidə və Kansudakı müsəlman üsyanları həmin əyalətlərdə çinlilərlə müsəlmanlar arasında toqquşmalardan öz başlanğıcını götürmüşdü. Dini rəğbətsizlik nəzərə alınmalı idi, lakin daha əhəmiyyətlisi sosial və siyasi fon idi. Müsəlman-çinli rəqabəti 1821-ci ildən meydana gəlmişdi. Hökumət qulluqçuları çinliləri müdafiə etmişdilər və müsəlmanlar həm çinlilərə, həm də hakimiyyətə qarşı mübarizəyə qalxmağa məcbur olmuşdular.

1862-ci ildə Şensidəki digər müsəlman iğtişaşı Kansuya və Şərqi Türküstana yayıldı və 15 il ərzində davam etdi. Üsyanın sonrakı səhnəsində üsyançılar imperial ordu tərəfindən məğlub edildikdə, Kansuya qaçdılar və bu əyalət mübarizənin başlıca teatrına çevrildi. Şensidə və Kansuda çoxlu müsəlman liderləri var idi, lakin onlar nə ümumi qərargaha, nə də vahid siyasətə malik deyildilər.

Sənaye inkişafı və kənar zonalardakı dəyişikliklər

Müasir sənaye inkişafının birinci dövründə (1861-1872-ci illər) cəhd istiqaməti odlu silah və maşınlar manufakturalarında cəmləşmişdi. Çox sayda kiçik müəssisələr yaranmışdı. Lakin onların istehsal səviyyəsi ümidləri doğrultmurdu. İkinci dövrdə(1872-1894-cü illər) ağırlıq silahlar sənayesindən manufakturaların geniş sahəsinə dəyişildi. Başlıca sərmayə qoyanlar kompradorlar (iqtisadi cəhətdən geridə qalmış ölkələrdə burjuaziyanın bir hissəsi olmaqla, onlar xarici kapitalla milli bazar arasında vasitəçilik edirlər) idi. Onlar Çin kommersiyası ilə müqavilənin izn verdiyi limanlardakı xarici firmalar arasında birləşdirici həlqəni təşkil edirdi və özlərinə böyük sərvət toplaşmışdılar.

1760-cı ildən sonra Şərqi Türküstanda, Kaşkariyadan qərbdə Fərqanədə qüdrətli karvan ticarətinin mərkəzi kimi Kokand xanlığı meydana gəldi. Mükəmməl üsyan Şensidən və Kansudan sürətlə Şərqi Türküstana keçdi. Kokand avantüristi Yaqub bəy Kaşkariyaya müdaxilə etmək imkanı qazandı və 1865-ci ildə orada özünün hakimiyyətini qurdu. O, Hindistanda britaniyalıları dəstəkləmək istəyirdi. Kansudakı müsəlman üsyanını 1879-cu ildə yatırtdıqdan sonra Taypin generalı 1876-cı ildə Urumçini işğal etdi.

Nepalla Britaniya Hindistanı arasındakı sərhəd mübahisəsi 1801-ci ildən sonra qəflətən baş verməklə, 1814-1816-cı illərdən ingilis-Nepal müharibəsinin getməsinə səbəb oldu. Nepalda siyasi iğtişaşlar dövründə 1832-ci ildən sora ingilislər əleyhinə olan dəstə hakimiyyəti ələ keçirdi və Çindən kömək göstərilməsini aradı, lakin bu təklif rədd edildi. 1846-cı ildə Nepalın baş naziri gənc Bahadur Britaniya meylli

siyasət yeritməyi qərara aldı. Çindəki Taypin üsyanından fayda götürüb, 1855-ci ildə Tibetə müdaxilə etdi. Tsinin Tibetə nəzarəti 1792-ci ildə öz yüksək nöqtəsinə çatmışdı. Lakin Çin Tibeti xarici müdaxilələrdən qorumağa qadir deyildi.

1802-ci ildə Vyetnamda yeni sülalə yarandı və Tsin onu tanıdı. Vyetnamda ikinci və üçüncü kralların hökmranlığı ərzində (1820-ci illər) xristianlığın təqibi gücləndi. Fransızlar Tonkin deltasına gözlərini dikmişdilər, buraya Qırmızı çay axırdı, onunla asanlıqlaYunnana keçmək olardı. 1882-1883-cü illərdə fransızların Tonkini işğal etməsinə və Vyetnama (Annam adı altında) Fransanın protektoratı statusunu elan etməsinə qarşı Tsin Tonkinin şimal sərhədində ordusunu artırdı. Bu vaxt məsələnin dinc həlli üçün paralel cəhdlər edilsə də, onlar uğursuzluqla nəticələndi və hər iki ölkə müharibəyə hazırlıq görməyə başladı. 1884-cü ildə fransız hərb gəmiləri Fuuçouda hücum edib, Çin donanmasını və oradakı tərsanəni darmadağın etdi. Ancaq sonra fransız hərbi-dəniz qüvvələri və ordusu pat vəziyyətinə düşdü və 1885-ci ildə barışıq əldə edildi.

1868-ci ildəki Meyci bərpasının (Yaponiyada siyasi dəyişikliklər dövrü, syoqunatın ləğv edilib, imperatorun – mikadonun real hakimiyyətinin bərpa edilməsi dövrü) başlanmasından üç il sonra Çinlə Yaponiya arasında kommersiya müqaviləsi imzalandı. 1872-ci ildə Meyci hökuməti Ryukyu kralına vassil çar titulu verdi və sonrakı ili adanın xarici işlərinə nəzarəti ələ keçirdi. Tayvan tayfa adamları tərəfindən törədilən ryukyuluların gəmi qəzasındakı qırğınına cavab zərbəsi kimi Tokio hökuməti Tayvana cəza ekspedisiyası göndərdi. Bu vaxt yaponlar məsələni müzakirə etmək üçün Pekinə elçi göndərdi və Pekin Yaponiyaya dəyən zərərin ödənilməsi ilə razılaşdı.

Koreyada (Çoson) oğlan uşağı olan çar 1864-cü ildə taxt-tacdan devrildi. 1866-cı ildə orada xristianların bütün millət səviyyəsində təqib edilməsi başlandı və orada fransızlar və amerikanlar dəf edildilər. Bu asan iş olmasa da, Tsin məsələyə müdaxilə etmədi.

Meyci bərpasından sonra Yaponiya çoxlu cəhdlər etdi ki, Koreya ilə yeni və birbaşa əlaqələrə girsin, lakin bu cəhdlərin hamısı əbəs idi. Yapon elçiləri Qərb dəbində olan paltarda Koreyaya gəldilər, bu isə koreyalılar üçün qəbul edilən deyildi. 1875-ci ildə yapon elçisi Pusanda danışıqlara başladı, lakin söhbət uzanırdı. Yaponiya səbirsiz qaydada hərbi gəmilərini Koreyaya göndərdi. 1876-cı ildə imzalanan müqaviləyə görə Koreyanın müstəqil və Yaponiya ilə bərabər bir mövqedəki dövlət olması etiraf edildi. Bu vaxtdan etibarən Tsin Koreyaya öz təsirini artırmağa çalışırdı, Koreyanın Birləşmiş Ştatlar üçün açılmasına kömək etdi və Çin meylli koreyalıların modernləşdirmək cəhdlərini dəstəkləyirdi. Lakin Koreyada olan güclü konservatizm

və ksenofaobiya qiyamın başlanmasına səbəb oldu. 1882-ci ildə qiyam başçısı kraliça Mini və onun əyanlarını sürgün etdi və yapon diplomatik missiyasının binasını yandırdı. Tsin Koreyaya ordu göndərib, qiyam başçısını həbs etdi və kralın Yaponiya ilə müqavilə bağlamasını təkid etdi. Beləliklə, suverenlik üstündə Tsinin iddiası bir daha özünü göstərdi.

1895-ci ilin fevralında Yaponiyaya gələn çinli elçi aprelin 17-də Şimonoseki sülh müqaviləsini imzaladı, sənədin başlıca mövzusu Koreyanın müstəqilliyinin etiraf edilməsi idi.

Rusiyanın, Almaniya və Fransanın Yaponiyaya birgə müdaxiləsindən bilavasitə sonra, 1896-cı ildə Rusiya Yaponiyaya qarşı Çinlə məxfi müttəfiqlik müqaviləsi imzaladı. Bu sazişə əsasən Rusiya Şimali Mancuriyadan keçən Çin Şərqi Dəmir yolunu tikmək hüququnu əldə etdi. 1897-ci ildə almanlar Çiao-çou körfəzini tutdu ki, əyalətdə iki dəmir yolunu tikmək hüququnun onlara verməyə Çini məcbur etsin. 1898-ci ilin martında Rusiya Port Arturu işğal etdi və əlavə iki limanı icarəyə götürməyi əldə etdi, həm də onları Çin Şərqi Dəmir yolu ilə birləşdirən dəmir yolunun tikintisini də öz üzərinə götürmək hüququna yiyələndi. Çin məcbur edildi ki, Yantszı vadisinin Britaniyanın təsiri altında olmasını tanısın. İmkandan vaxt itirmədən yararlanan Yaponiya Fukien əyalətini öz təsiri altına keçirdi. Fransa isə Kuan-çou körfəzini icarəyə götürdü və üç cənubi-qərbi əyaləti öz təsir zonasına çevirdi. Beləliklə, Çin parçalanmaq həddində idi.

Özünü möhkəmləndirmək hərəkatının tərəfdarları hər bir institutsional və ya ideoloji dəyişikliyi faydasız olan kimi qiymətləndirirdilər. Lakin 1885-ci ildən sonra bəzi aşağı dərəcəli məmurlar və komprador intellektuallar institutsional islahatları və parlamentin yaradılmasını vurğulamağa başladılar. Həm də onlar Pekin sarayına və yüksək məmurlara islahatın ümumilikdə vaicibliyinin Çin klassiklərinə əsaslandığını sübut etməli idilər.

Görkəmli islahat lideri və ideoloqu Kan Yu-vey (1858-1925-ci illər) islahatçılığı klassiklər üzərində qurmuşdu. Tarixdə dəyişikliyin vacib olduğunu göstərmək üçün Konfutsi və Buddizm kanonlarından istifadə edilmişdi, bunlara müvafiq olaraq islahat zəruri idi. Digər mühüm islahatlar isə insan haqlarını və müstəqilliyi vurğulayırdı, onlar sonralar Qərb fəlsəfəsinin təsiri altında insan haqları məsələsinə və millətçiliyə tərəf dönmüşdülər.

1895-ci ilin aprelində davam edən müharibədə yaponların qələbəsinin qaçılmaz olduğu meydana çıxdıqda Kan institutsional islahatı müdafiə etməyə başladı. O və digər islahatçılar milli özünü möhkəmləndirməni öyrənmək cəmiyyətləri yaratdılar. 1898-ci ilin aprelində Pekində himayə edən dövlət, millət və milli din şüarı altında

Milli Himayə Cəmiyyəti quruldu. Kan imperator Kuan-hsüyə (1875-1908-ci illərdə hökmranlıq etmişdi) əsaslı islahatlar keçirmək məqsədilə qalib gəldi və axırıncı tələsik radikal islahatlara başladı. Bu, 100 gün davam etdi. İslahat hərəkatı heç bir praktiki nəticə əmələ gətirmədi. Nəticədə mühafizəkarlar reaksiya vermək üçün provokasiya edildilər. 21 sentyabrda imperator həbs nəzarəti altına salındı və dul imperatriçə inzibatçılığı ələ keçirdi. O, islahat hərəkatına son qoydu. İslahatçılar isə tam mühafizəkar olan dul imperatriçəni hakimiyyətdən uzaqlaşdırmaq üçün qəsd hazırlamışdılar və onun üstü açıldıqda, mühafizəkarlar bundan istifadə edib, əslində sarayda çevriliş etdilər.

1896-1898-ci illərin böhranı Şandunda əcnəbilər əleyhinə olan iğtişaşa səbəb oldu. Mömin və Harmonik Yumruqlar adlanan qrup səhnəyə çıxdı, onlar sirrli boks sənətinin heç də kövrək bir iş olmadığına inanırdılar. Qrupa başçılıq işi ümumən Ağ Lotos cəmiyyətinin əlində idi, bu isə Taypin müharibəsi illərində yaradılmışdı. Boksçular (onlar Qərbdə belə adlanırdılar) almanların Şandunda irəliləməsindən qalxan güclü anti-əcnəbi hissi dalğasında öz üzvlərinin sayını artırmışdılar. Bura üzvlər əsasən kəndlilər sırasından gəlirdi. Üstəlik, Boksçuların genişlənməsi Şimali Çindəki təbii fəlakətlə də sıx bağlı idi. 1895-ci ildən sonra Huan Honun demək olar ki, hər il daşması, 1899-1900-cu illərdə Şimali Çinə quraqlığın hücumu nəhəng sayda aclıq çəkən adamlar ordusu yaratmışdı.

1899-cu ildə meydana çıxan Boksçuların bir hissəsi «Tsini və əcnəbiləri dayandırmağa dəstək» şüarı altında saraya girmək imkanı qazanmaq üçün hərəkət etdilər. Nəticədə, 1900-cu ilin mayında Tsin hökuməti öz siyasətini dəyişdi və Boksçulara gizlincə dəstək verdi.

Boksçular tərəfindən xarici ölkə missiyalarının mühasirəsi 20 iyunda başlanmışdı, bir gün sonra imperatriçə əyalət qubernatorlarının düşmənçilikdə iştirak etməsi bəhanəsi ilə müharibə elan etdi.

İki min adamdan ibarət beynəlxalq kömək Tientsindən Pekinə yollandı, lakin yolda müqavimət göstərilən Boksçular geri qayıtmağa məcbur oldular. Əcnəbi hakimiyyətlər bu dəfə 19 min nəfərlik qoşun göndərdilər. Qoşun Pekinə girib, 15 avqustda şəhəri tutdu. İmperatriçə və imperator Siana qaçdılar.

Antixristian mübarizənin sıralarından inkişaf edən Boksçu irəliləyişi sadəlövh, ancaq qəddar olmaqla əcnəbilərə məxsus olan hər şeyi məhv edirdi. Adamlar inanmışdı ki, onların bədbəxtliklərinin əsas mənbəyi məhz əcnəbilərdir. İğtişaş vətənpərvərlik və milli çinli hərəkatının bir sıra cəhətlərinə malik idi. Digər bucaqdan baxdıqda isə Boksçular fanatizmə yuvarlanmışdılar və çox sayda kiçik liderlərə

nəzarət etməyə qadir olan bir qərargaha malik deyildilər. Xalqı daha səmərəli təşkil etmək barədə də intellektualların elə bir düşüncəsi də yox idi.

1899-cu ildə kommersiyada Açıq Qapı siyasətini elan edən Birləşmiş Ştatlar 1900-cü ilin iyulunda öz siyasətinin ikinci bəyanatını verdi. Bu bəyanata görə Çinin ərazi bütövlüyü və inzibati varlığı saxlanırılırdı. Birləşmiş Ştatlar qərbi Sakit okean zonasında yeni ərazi əldə etməklə, Çinin ərazi varlığını digər böyük dövlətlərdən qorumaqla, Çində öz kommersiya maraqlarını himayə etmişdi. 1900-cü ilin oktyabrında bağlanan ingilis-alman sazişi Yaponiya və Rusiyanın can atdığı sonrakı ərazi parçalanmalarının qarşısını almaqla yanaşı, onun meydana gəlməsində mühüm rol oynamışdı. Dövlətlərin qarşılıqlı olaraq bir-birini böyük iştaha cəhdlərindən saxlaması Çinin parçalanmasının qarşısını aldı.

Narazılığın son həlli 1901-ci ilin sentyabrında imzalandı. 450 milyon tayel-lyan (həmin dövrdəki Çin pul vahidi) məbləğindəki təzminat Çin tərəfindən 39 il ərzində ödənilməli idi. Həm də razılaşma tələb edirdi ki, dənizlərdəki fortlara daimi mühafizəçilər qoyulsun və onlar Pekinin nəzarətindən çıxarılsın. Bu müstəqil Çinin mövcudluğunu sadəcə bir yalana çevirirdi. Üstəlik, cənub əyalətləri böhran ərzində faktiki olaraq müstəqil idi. Bu hadisələr Çinin nüfuzunun süqutu demək idi.

Konfutsi ortodoksiyası müstəvisi ilə əlaqəsi olmayan kommoner Sun Yatsen Havay adalarındakı və Honkonqdakı Qərb üslublu məktəblərdə oxumuşdu. Tezliklə o, yenidən Havaya yollandı və orada anti-Mancu qardaşlığını yaratdı, onun adı Bərpa Olunan Çin cəmiyyəti idi. Honkonqa qayıtdıqdan sonra dostları ilə birlikdə ona oxşar cəmiyyət yaratdı. 1895-ci ildə Kantonu tutmaq üçün uğursuz cəhddən sonra əvvəlcə İngiltərəyə, sonra isə Yaponiyaya getdi, axırıncı ölkədə xeyli dəstək qazandı. Tokio inqilabçıların əsl əməliyyat bazasına çevrildi. Kan da Yaponiyaya qaçmışdı.

Dənizin arxasında yaşayan çinlilərdən toplanan fondlar üstündə rəqabət aparan iki cəbhə ölkənin özündəki gizli cəmiyyətə diqqətini artırdı. İslahatçılar güclü Qardaşlar və Yaşlılar adlı gizli cəmiyyətlə Yantszı vadsisndə birləşməyə çalışırdılar. Erkən 1900-cü ildə bərpa olunan Çin cəmiyyətinin inqilabçıları Qardaşlar və Yaşlılarla ittifaq formalaşdırdılar, bu, Bərpa Olunan Han assosiasiyası adlandı. Yeni orqan Sunu öz lideri kimi təklif etdi. Bu qərar onu həm də ilk dövrlər üçün Bərpa olunan Çin cəmiyyətinin lideri etdi.

Millətçilər və inqilabçılar Yaponiyadakı çinli tələbələr arasında daha çox həvəsi ilə seçilən və çox sayda olan tərəfdarlara malik idilər. 1896-cı ildə Yaponiyaya 13 tələbə göndərilmişdi. 1905-1906-cı illərdə bu rəqəm 8 min nəfərə çatdı. Bu tələbələrdən çoxu təbliğatla məşğul olmağa başladı və inqilabi səbəbin yaranması üçün bilavasitə hərəkətə keçdi. 1903-cü ildə inqilabçı və millətçi təşkilatlar anrti-

Mancu bəyanatı olan «İnqilabi ordu» traktatını nəşr etdirdilər və onun 1 milyon nüsxəsi buraxıldı. Sun Yantsen artıq diqqəti mədəni olmayan gizli cəmiyyət üzvlərinin səfərbər edilməsinə verirdi. O, yüksək dərəcəli siyasi filosof olmasa da, bir sıra nəzəri əsərlər yazdı. Onun cavabının nəticəsi xalqın üç prinsipi – millətçilik, demokratiya və sosializm oldu. Bunlar 1903-cü ildə meydana gələnin prototipi idi. Amerika və Avropaya iki illik səfərindən Sun Yatsen 1905-ci ilin yayında Yaponiyaya döndü. Fəallar Tokioda ona qoşuldular ki, Birləşmiş Liqa adlanan yeni təşkilat yaratsınlar. Sunun liderliyi altında intellektuallar öz əhəmiyyətlərini xeyli yüksəltdilər.

Sunun Liqadakı liderliyi heç də mübahisəsiz deyildi. Onun xarici dövlətlər tərəfindən dəstəklənməsinin Çin inqilabı üçün vacib olduğunu anlaması, gənc intellektualların antiimperialist meylinə mane olurdu. Yalnız mübarizlərin yarısı xalqın həyat şəraitini yaxşılaşdırmağı və ya sosializm prinsiplərini ürəkdən qəbul edirdi, ondan üçdə biri isə xalq prinsiplərinə rəğbətlə yanaşırdı.

İdeoloji cəhətdən Liqa tezliklə harmoniyasızlıq şəraitinə düşdü. Nüfuzlu nəzəriyyəçilərdən bir hissəsi xalq prinsipini inkar etdi, bəziləri anarxizmə yuvarlandı. Beləliklə, anrti-Manculuq, Liqada yalnız ümumi bir ad kimi qaldı.

Rusiya-Yaponiya müharibəsində (1904-1905-ci illər) Yaponiyanın qələbəsi Çində konstituionalizm harayını qaldırdı. 1906-cı ildə saray konstitusiyanı qəbul etməyi qərara aldı. İmperatriçə Tzu-Hsi öldükdə, Hsüan-te adlı oğlan öz atasının regentliyi altında taxt-taca gətirildi və o, 1908-1912-ci illərdə hökmranlıq etdi. 1911-ci ildə saray iki dəmir yolunu milliləşdirdi. Qoşunların bir hissəsini Hupehdən Szeçyana köçürdü. Bəzi qoşunlar Hupehdə qiyam qaldırdılar və oktyabrın 10-da paytaxt şəhər olan U-hanı işğal etdilər və bu, indi də Çin inqilabının xatirə günü hesab edilir.

1911-ci il inqilabı Birləşmiş Liqa tərəfindən deyil, Hupeh ordu hissələri tərəfindən başlanmışdı. İnqilab aşağı dərəcəli zabitlərin və inqilabi qoşunların qətiyyəti, Mancu və Çin qulluqçularının qorxaqlığı hesabına uğurlu olmuşdu. Bir günün içərisində qiyamçılar cəbbəxananı və qubernatorun baş idarəsini tutdular və əyalət paytaxtını ələ keçirdilər. Onlar Hupeh əyaləti məclisini inandırıb, razı saldılar ki, Çin respublikasının qurulduğunu elan etsinlər. Məclisin sədri mülki hökumətin başçısı seçildi.

Bu mühüm qələbədən sonra bir sıra tarixi tendensiyalar Tsin sülaləsinin yıxılmasına gətirib çıxardı.

Çin-yapon müharibəsində Huay ordusu süqut etdikdən sonra Tsin hökuməti yeni Qərb üslublu ordu yaratmaq uğrunda mübarizə apardı. Lakin 1911-ci il inqilabı

başlananda keçmiş qubernator, general Yuan Şih-kayı öz yeni ordusuna komandanlıq etməyə çağırdı. İlin sonunda Yuan emissarları ilə inqilabçı nümayəndələr arasında başlanan sülh danışıqlarında razılaşıldı ki, Tsin istefa verməli və yeni respublikanın prezidenti vəzifəsinə Yuanın təyin edilməsi rəsmi qaydada Milli Məclis tərəfindən həll edilməlidir. Lakin məsələnin belə qoyuluşu Yuan tərəfindən rədd edildi, güman ki, o, ümid edirmiş ki, istirahətə gedən Mancu monarxı tərəfindən təyin ediləcəkdir. Lakin hadisələr onun əleyhinə işlədi və prezidentlik Sun Yantsenə verildi. O, Milli Məclis tərəfindən respublikanın müvəqqəti prezidenti təyin edildi. 1912-ci ilin fevralında Tsin sarayı taxt-tacdan əl çəkməsi barədə dekreti elan etdi. Beləliklə, Tsin sülaləsinin 296 illik hökmranlığına heç bir varis-filan olmadan son qoyuldu.

Tsin sülaləsi XVIII əsrin ortalarından Daxili Asiya xalqları ilə xoş münasibətlər qurmuş və bu, görünməmiş sosial stabilliyə və iqtisadi tərəqqiyə yol açmışdı. Kommersiya və sənaye proqressi Çin cəmiyyətini monetar iqtisadiyyata cəlb etdi. Bu şəraitdə qulluqçular, xırda torpaq sahibləri və mülkədarlar ümumi əhalini daha ağır şəkildə istismar etməyə başladılar. Məmurların mənəviyyatı da sülh və inkişaf illərində pozulmağa başladı. Nəticə XVIII əsrin sonunda iğtişaşların meydana gəlməsi oldu.

Tsinin Qərblə müharibələrdəki məğlubiyyətləri də sülalənin gücsüzlüyündən xəbər verirdi. Çin bu vaxt həm də sənayeləşmə yoluna düşürdü. Tsinin sərhəd sistemi və onun qonşu xalqlarla münasibətləri XIX əsr ərzində tədricən tənəzzülə uğrayırdı və onun üstündə gedən mübarizədə Yaponiya tərəfindən Tsin məğlub oldu. Bundan sonra Çinin imperialist dövlətlər tərəfindən parçalanması təhlükəsi meydana çıxdı.

Bu situasiya inqilabi işi yanacaqla təmin edirdi. Ancaq Tsini nə inqilabçılar, nə də kəndli liderləri devirdi. Bunda hərbi siyasətbaz Yuan şih-kayın hiyləgərliyi və xırda torpaq sahiblərinin rejimə loyallıqdan geri çəkilməsi mühüm rol oynadı. Artıq kütlələrin həyatını necə stabilləşdirmək probleminin həlli Çin Respublikası liderlərinin üzərində qaldı.

XX əsrin birinci yarısında Çində köhnə qaydanın tədricən pozulması və yeni cəmiyyətə hazırlığın qarışıqlığı baş verdi. Baxmayaraq ki, inqilab respublika yaratmışdı, ancaq Çinin demokratiyaya faktiki olaraq heç bir hazırlığı yox idi. Yeni hökumətdə həmçinin hakimiyyət qollarının bölünməsi barədə heç bir razılıq yox idi.

İlk illərdə rəqabət 1913-cü ilin fevralında parlamentə (həmçinin Milli Məclis adlanırdı) seçkilərlə başlandı. Millətçi partiya (Qomindan) köhnə inqilabçılardan düzəlməklə, yerlərin komanda çoxluğunu tutmaqla qalib gəldi. Parlament daimi konstitusiya əmələ gətirməli idi. Qomindanın seçkilərdəki qələbəsinin başlıca təşkilatçısı Sun Çiao-yen icra hakimiyyətinin prezidentdən daha çox parlament

qarşısında cavabdeh olması fikrini dəstəkləyirdi. 20 mart 1913-cü ildə həmin Sun qətlə yetirildi. Qatilin etirafı və sonrakı şəraitin əmələ gətirdiyi sübut möhkəm qaydada Baş nazirin və güman ki, Yuanın özünün bu işdə əlinin olduğunu göstərdi.

Paralment Yuanın borc almaq cəhdlərinə kömək etməyə çalışdı, apreldə Yuan xarici banklar konsorsiumu ilə danışıqları başa çatdırdı və 125 milyon ABŞ dolları məbləğində borc aldı. O, sonra üç millətçi hərbi qubernatoru vəzifədən götürdü. Yayda inqilabi liderlər Yuana qarşı, sonralar İkinci İnqilab kimi tanınan qiyam təşkil etdilər, lakin onun hərbi ardıcılları tezliklə qiyamı yatırtdılar. İnqilabın başlanmasının ikinci ildönümündə parlament tərəfindən prezident seçilən Yuan oktyabrın 10-da and içdi. Onun hökumətini xarici dövlətlərin əksəriyyəti tanıdı. İcra hakimiyyəti parlament tərəfindən təşkil edildikdə Yuan Qomindanın üzvlərini bir az əvvəl baş vermiş qiyamda iştirakda günahlandırdı. 1914-cü ilin yanvarında parlamenti buraxdı və konstitusiyanı hazırlamaq üçün yeni orqan təyin etdi. Prezidentlik diktatorluğa çevrildi və tezliklə məlum oldu ki, Yuan özü taxt-tacda olmaq şərtilə imperial sistemi bərpa etməyi planlaşdırır.

Birinci Dünya müharibəsinin 1914-cü ilin avqustunda başlanması ilə Yaponiya Müttəfiqlərə (Antantaya) qoşuldu və Şandunda almanlarla çinlilərin birgə dəmir yolunu tutdu. Çinə müdaxilə etməyə isə icazə verilmədi.

1915-ci ilin yanvarında Yaponiya hökuməti gizlicə 21 tələbini Yuana təqdim etdi. Yaponiya Çini özündən asılı etmək istəyirdi. Yuan ağıllı qaydada danışıqlara əl atdı ki, Çinin güzəştlərini məhdudlaşdırmağa çalışsın. Lakin onun xaricdən dəstəyi yox idi, avropalıların başı müharibəyə qarışmışdı, Yaponiyanı dayandırmaq üçün heç bir imkan yox idi. Birləşmiş Ştatlar müdaxilə etmək istəmirdi. Yuanın siyasi əleyhdarlarının əksəriyyəti Yaponiyanın tələblərinə onun şəxsi münasibətini dəstəkləyirdilər. Mayda Yaponiya Yuana 48 saatlıq ultimatum verməklə, onu məcbur etmək istəyirdi ki, irəli sürülən şərtləri qəbul etsin.

Yaponiya Mancuriyada geniş xüsusi imtiyazlar və güzəştlər aldı, Şandunda Almaniyadan aldıqlarını daha da möhkəmləndirdi. Mədənlər və metallurgiya məsələsi birgə Çin-Yaponiya kompaniyasına çevrildi. Çin vəd etdi ki, başqa dövlətlərin hansısa bir limana və ya sahil boyundakı adaya girməsinə icazə verməyəcəkdir. Çin heç bir başqa xalqa Yaponiyanın müstəmləkəsi olan Tayvan yaxınlığındakı əyalətdə – Fukien sahilində tərsanə və dəniz bazası tikməyə imkan verməyəcəkdir.

Çətin xarici siyasət problemini həll etdikdən sonra Yuan öz taxt-tacı barədəki planına qayıtdı. Yapon hökuməti bu hərəkətə qarşı «məsləhət verməyə» başladı və Yuan planına əks olanlar buna qoşulmaqla öz müttəfiqliyini təklif etdi. Üstəlik, Qomindanın və Proqressiv partiyanın liderlərindən də müxalifət gəldi. Sun Yatsenin

iki ardıcılı monarxiya əleyhinə hərəkətə başladı. Hərbi qiyamlar baş verdi. İnqilabçı generallar Yuandan öz planını ləğv etməyi tələb etdilər. O, bunu etməyəndə Yunnan ordusu Szeçuana və Kunasiyə müdaxilə etdi. Yapon hökuməti Sunu və Yunnan liderlərini fondlarla, silah və sursatla təmin etdi. Mart ayından üsyan ciddi ölçülər aldı və ictimai rəy güclü qaydada Yuana qarşı çevrildi.

Yuanın birbaşa tabeliyində olan iki general, onlardan biri Tuan idi, əleyhdarlara qoşuldu. Onlara kömək üçün müraciət etdikdə, hər ikisi özünü xəstəliyə vurdu. Martın 22-də geniş dönüş başlandıqda, Yuan yeni imperiyanın ləğv edilməsini elan etdi. Ona müxalif olanlar isə tələb etdilər ki, prezidentlikdən də əl çəksin. Üsyan genişlənməkdə davam edirdi, daha çox sayda hərbi lider öz əyalətlərini müstəqil elan edirdilər. Nəticə Yuanın istirahətə yollanması kimi bir uğura çevrilməli idi. Lakin prezident ciddi xəstə idi və 6 iyunda 56 yaşında öldü.

Yuanın dörd ili Çin üçün ciddi nəticələrə səbəb oldu. Ölkənin xarici borcu xeyli artmışdı, borcların siyasi məqsədlər üçün alınması qaydası qoyulmuşdu. Ölkə rəqabət aparan parçalanmış hərbi satrapiyalapa çevrilmişdi, bu müharibə ağalığının başlanğıcı idi. Çin adda respublika olsa da, onun yalnız hərbi gücə əsaslanmaqla idarə edilməsi bir siyasi reallıq idi. 1912-ci ildə parlament Tuanı baş nazir təyin etdi.

1917-ci ilin fevralında amerikan hökuməti Almaniya ilə münasibətləri sərtləşdirdi və Çin də daxil olmaqla neytral dövlətləri eyni qaydada hərəkət etməyə dəvət etdi. Bu, Çin hökuməti ilə münasibətdə böhrana səbəb oldu. Sun Yatsen Şanxayda sübut edirdi ki, müharibəyə daxil olmaq Çinə heç bir fayda verməyəcəkdir, üstəlik, Yaponiyadan təhlükə meydana gələcəkdir. Ağır təzyiq altında parlament Almaniya ilə sərt diplomatik münasibətlərin qəbul edilməsinə səs verdi. Birləşmiş Ştatlar apreldə I Dünya müharibəsinə girəndə, Tuan istəyirdi ki, Çin də bunu etsin, lakin prezident yenə də buna əks çıxdı.

Parlament fraksiyaları və ictimai rəy daha pis qaydada parçalandı, general Çan Hsünün tələbi ilə parlament buraxıldı. Sonrakı günü Çan öz ordusu ilə (Sulla və Qay Yuli Sezar Romaya girən kimi) Pekinə girdi ki, Tsin sülaləsini bərpa etməyə yaxın bir iş qursun. O andaca hərbi qubernatorlardan və generallardan Çanı və onun çevrilişini məhkum edən teleqram axını daxil olmağa başladı. Vitse-prezident general Li Yuan-hui prezidentliyi öz üzərinə götürmüşdü və bərpa dekretini imzalamaqdan imtina etdi, Tuana tapşırdı ki, respublikanı bərpa etmək üçün ordunu paytaxta gətirsin. Li xahiş etdi ki, vitse-prezident Fen böhran müddətində prezident səlahiyyətlərini öz üzərinə götürsün və özü isə yapon elçiliyində sığınacaq tapdı. Tuan iyunun 14-də Pekini işğal etdi. Çan sığınacaq tapmaq üçün Elçilər məhəlləsində qaldı. Beləliklə, imperial sistemi bərpa etməyin ikinci cəhdi də uğursuz qaydada başa çatdı.

Fen fəaliyyətdə olan prezident kimi Pekinə gəldi, öz fərdi mühafizəçiləri kimi buraya divizion gətirdi. Paytaxtda ordunun dəstəklədiyi iki qüdrətli rəqibin hər biri Fenin və Tuanın başçılığı altında iki güclü fraksiya yaratdılar. Tuan Çin bəyanatı vasitəsilə Almaniyaya müharibə elan etdi, bu hadisə 1917-ci ilin avqustunda baş verdi.

Bu vaxt, iyunda Sun Yatsen Çin hərbi-dəniz qüvvələrinin bir hissəsinin və parlamentin yüz üzvünün dəstəyi ilə Kantonda rəqib bir hökumət yaratmağa cəhd etdi. 31 avqustda Kantondakı parlament qanadı hərbi hökumət qurdu və Sunu baş komandan seçdi. Ancaq real qüvvə hərbçilərin əlində idi, onlar yalnız nominal olaraq Sunu dəstəkləyirdilər. Cənub hökuməti Almaniyaya müharibə elan etdi və Müttəfiqlərin onu legitim hökumət kimi tanımalarına uğursuz qaydada çalışdı. Konstitusiyanı himayə edən ordu Pekin hökumətinə qarşı cəza kampaniyasına başladı. Tuan cənub müxalifətini qüvvə ilə susdurmağa cəhd etdi, bu vaxt Fen isə məsələnin dinc qaydada həllinin tərəfdarı idi. Tuan vəzifədən getdi, öz qüvvəsini və Feni hərbi fəaliyyətə cəlb olunmağa məcbur etdi. Sun Kantonu tərk edib Şanxaya qayıtdı. Onun cənubda hökumət qurmaq cəhdi uğursuz olsa da, bu, Cənubla Şimal arasındakı parçalanmanı xeyli ləngitdi.

Məhdud qaydadakı iştirakına baxmayaraq, Çin müharibəyə girməkdən bir qədər fayda götürdü, alman və Avstriya konsessiyalarını ələ keçirdi və Boksçu kompensiyasının ödənilməmiş hissəsini düşmənininki olduğuna görə ləğv etdi. Bu, ona həmçinin Sülh Konqressində iştirak etmək üçün yer verdi. Yaponiya isə ancaq Çində ələ keçirdiklərini genişləndirdi. Tuan Fenin istefasından sonra Yaponiyaya Şandunda, Mancuriyada və Monqolustanda dəmir yolu xətti çəkməyə konsessasiya vermişdi. Bu, Yaponiyaya 90 milyon dollarlıq borcun əvəzi idi. 1917-ci ilin noyabrında Birləşmiş Ştatlar Yaponiya ilə münasibətdə çətinliklərin üstünə Lansinq-İşin sazişi ilə girməyi də əlavə etdi, bu, «Yaponiyanın Çindəki xüsusi maraqlarının əraziyə bənzər» olduğunu əsas götürürdü. Belə saziş Yaponiyanı müharibədən əldə etdiyi faydaları yoxa çıxarmaq təsiri bağışlayırdı.

Çin respublikasının ilk illəri ərzində mühüm iqtisadi və sosial dəyişikliklər baş verdi. 1918-ci ildən sənayedəki işçi qüvvəsinin sayı 1.750 min nəfər kimi qiymətləndirilirdi. Müasir tipli Çin banklarının sayı artdı və onlar öz kapitallarını çoxaltdılar.

Yeni ziyalılar ordusu meydana gəldi. Tsinin son illərində təhsil islahatları və sona çatan hökumət imtahanları ərzində minlərlə gənc adama elmləri – mühəndisliyi, tibbi, qanunu, iqtisadiyyat elmini, müəllimliyi öyrənməyə imkan vermişdi. Digərləri Avropaya və Birləşmiş Ştatlara yollanırdılar. Onlar vətənə qayıtdıqda mühüm

vəzifələr tutur və cəmiyyətdə modernizasiya qüvvələrinə çevrilirdilər. Onların yazıları və öyrəndikləri tələbələrin gəlməkdə olan nəsli üçün güclü təsir rolunu oynadı.

1915-1916-cı illərdə Çində 130 minə yaxın yeni üslublu məktəblərdə 4 milyona yaxın şagird və 200 minə yaxın müəllim var idi. Bu, əsasən şəhər fenomeni idi, kənd həyatı isə buna çətinliklə nail ola bilərdi. Respublikanın birinci onilliyində intellektual inqilab baş verdi. Yeni ziyalıların çoxu Çin mədəniyyətinin və milli etikanın bütün cəhətlərinə tənqidi qaydada yanaşmaqla, onları dəstəkləyirdilər. Onlar Çin institutlarında daha dərin islahatlar aparılmasına can atırdılar.

Milli inqilabın başlanğıc dövrləri

Bu yeni inqilaba Milli Partiya (Qomindan) və Kommunist Partiyası (Kunqçantan və ya ÇKP) başçılıq edirdi. Qomindan öz başlanğıcını Mancuya qarşı olan əvvəlki Birləşmiş partiyadan götürmüşdü. Sun Yatsenin 1914-cü ildə yaratdığı və ölkədə olan partiyanın, 1929-cu ildə vətənpərvərliyin yüksəlməsi ilə onun yaradıcılarının və veteranlarının kiçik qrupunun köməyi ilə fəaliyyəti yenidən canlandırılmışdı. Sunun ardıcılları arasında sosializm ideyaları populyar idi.

Sun Kantona 1920-ci ildə gəldi və onu yeni Cənub rejiminin prezidenti seçdilər. Bu rejim özünün Çinin legitim hökuməti olduğunu iddia edirdi. 1922-ci ilin yazında Sun Mancuriya hərb xadimi ilə ittifaqda Pekinə nəzarət edən dəstəyə qarşı Şimal kampaniyasını başlamağa cəhd etdi. Vaxtilə Kantondan Kuansi militaristlərini qovan general Çen Çiu-minin əlaltılarından biri Sunu Kantondakı prezident iqamətgahından 1922-ci ilin iyununda qovdu. Sun Cənub hərbi-dəniz qüvvələrində sığınacaq tapdı və yalnız 1923-cı ilin fevralında Kantona qayıda bildi. Burada o, baza yaratdı və partiyanı yenidən qurdu.

Çin Kommunist Partiyası birbaşa «4 May» hərəkatından böyümüşdü. Onun liderləri və ilkin üzvləri professorlar və tələbələr idi. Onlar bir inama gəlmişdilər ki, Çin sosial inqilaba möhtacdır və model kimi isə Sovet Rusiyasını görürdülər. Yaponiyadakı və Fransadakı çinli tələbələr əvvəllər sosialist təlimlərini və Karl Marksın ideyalarını öyrənmişdilər. Lakin 1917-ci il Rusiya inqilabı bu marağı təzələmişdi. 1920-ci ilin martına Sovet Rusiyasının inqilabı xarici siyasətinin bəzi tədbirləri Çinə də gəlib çatdı. Onlardan biri çar Rusiyasının Çindəki xərclərinə görə əldə etdiyi bütün hüquqlardan imtina edilməsi və Rusiyaya məxsus olan Mancuriyadakı Çin Şərq Dəmir yolunun heç bir kompensasiya almadan Çinin özünə

qaytarılması idi. Baxmayaraq ki. Sovet hökuməti sonralar bu vədini inkar etdi və dəmir yola nəzarəti ələ keçirməyə cəhd etdi, həmin birinci Karaxan manifesti, çinli vətənpərvərlər arasında böyük təsir gücünə sahib olmuşdu.

Rusiya 1919-cu ildə beynəlmiləl Kommunist təşkilatı olan Kommunist İnternasionalını – Kommunterni yaratdı və sonrakı ili öz nümayəndəsini Çinə göndərdi. Li Ta-çao Pekində, Çen Tu-hsiu isə Şanxayda Sosialist Gənclər Liqası təşkil etdilər, bu, Kommunist Partiyası üçün plan rolunu oynayırdı. 1921-ci ilin yazında partiyanın Çinin müxtəlif şəhərlərində və Yaponiyada 50-yə yaxın üzvü var idi. Linin protejesi olan Mao Tszedun Çanşada belə qrupların birində fəaliyyətə başladı. Partiyanın I qurultayında Çen Tu-hsiu partiyanın başçısı seçildi.

ÇKP sonrakı iki ili özünə üzvlər toplamaqla, marksizmin təbliği ilə yanaşı, həmçinin xarici imperializmə və Çin militarizminə qarşı yönələn milli inqilaba ehtiyac olduğunu, dəmir yolu və fabrik fəhlələri arasında isə yeni həmkarlar ittifaqları təşkil etməyi təbliğ edirdi. Kominternin Marinq adlanan nümayəndəsi olan holland kommunisti Milli İnqilabi Hərəkatda Qomindanı və ÇKP-ni bir yerə gətirmək üçün vasitəçi rolunu oynayırdı. Bir neçə gənc təcrübə keçmək üçün Rusiyaya göndərildi. Onların arasında gələcək baş nazir Çjou Enlay da var idi. 1923-cü ildə partiyanın artıq 300 üzvü var idi. Köməkçi Sosialist Gənclər Liqasında isə üzvlərin sayı 3 minlə 4 min arasında idi.

ÇKP-nin III qurultayında Kominternin təzyiqi ilə kommunistlər Qomindanla birləşdilər və bu birliyi Milli İnqilabi hərəkatın mərkəzi etdilər. Sun çoxpartiyalı ittifaqı rədd etsə də, kommunistlərin özünün partiyasına daxil olmalarına razılıq verdi. Liderlər də daxil olmaqla artıq bəziləri Qomindana birləşmişdi. Kommunistlər digər partiyaya fərdlər kimi daxil olmalı idilər. ÇKP ayrıca varlığını qoruyub saxlamaq qərarına gəldi.

Rusiya liderləri köhnə bolşevik Mixail Borodini özlərinin Sun Yatsenə məsləhətçisi kimi seçib göndərdilər. Marinq və Voytinski isə ÇKP-nin məsləhətçiləri idilər, partiyanın qərargahı Şanxayda idi. Üç adam – Lev Karaxan Pekində, Borodin Kantonda, Voytinski isə Şanxayda olmaqla, Çini «dünya inqilabının» antiimperialist cəbhəsinə gətirmək cəhdini bilavasitə həyata keçirməklə məşğul idi. Hücum hədəfi ilk növbədə Böyük Britaniyanın, Yaponiyanın və Birləşmiş Ştatların Çindəki mövqeləri idi. Həmin dövlətlər də müharibədən sonra Çinlə yeni əlaqələr qurmağa doğru hərəkət edirdilər. Vaşinqton Konqressində (noyabr 1921- fevral 1922-ci illər) səkkiz dövlət Çinin suverenliyinə, müstəqilliyinə, ərazi və inzibati varlığına hörmət etmək barədə razılığa gəldi. Onlar istəyirdilər ki, Çinə öz stabil hökumətini inkişaf etdirmək imkan verilsin. Bütün millətlərlə bu dövlətin kommersiya və sənaye əlaqələri üçün imkan

yaradılsın və həm də Çindəki şəraitlərdən fayda götürmək üçün müstəsna imtiyazlar axtarmaqdan vaz keçilsin. Yaponiya Şandundakı keçmiş alman mülkiyyətinin qaytarılmasına razılıq versə də, əyalətdə öz imtiyazlarını saxladı.

Respublika Çini ilk illər ərzində rəqib hərbi rejimlər tərəfindən parçalanırdı. Cənub Pekinin nəzarətindən çıxdı. Güclü Pekin ordusu iki böyük fraksiyaya bölündü.

Qomindanın Kantonda 1924-cü ilin yanvarında birinci Milli Qurultayı keçirildi. Borodin Kantona gələn kimi təxirə salmadan Suna məsləhət gördü ki, partiyanı yenidən qursun. O, nizamnamə hazırladı və partiya proqramının layihəsini cızdı, bu, milli siyasətin əsası olmalı idi. Qurultay nümayəndələri proqramı və yeni nizamnaməni qəbul etdi. Proqram geniş sosial islahatlar barədəki məqsədləri və Çinin beynəlxalq statusuna yenidən fundamental əlavələri elan etdi. Onun tonu millətçilik ruhunda idi, Çinin düşmənlərini isə imperializmin və militarizmin timsalında tanıyırdı.

Nizamnamə Rusiya Kommunist Partiyasından götürülmüş model əsasında mərkəzləşmiş təşkilat kimi təsvir olunurdu, hakimiyyət kiçik, seçilmiş qrupun əlində cəmlənirdi, coğrafi idarələrin aşağı iyerarxiyasına yuxarıdan istiqamətlənən İcraiyyə Komitəsi nəzarət edirdi. Üzvlər sərt intizama tabe olmalı və sıx özəklərdə təşkil olunmalı idilər. Onlar həmkarlar ittifaqları ilə yanaşı digər təşkilatlara nüfuz etməli və onların üzərində nəzarəti ələ keçirməli idilər. Sun partiyanın lideri oldu. Qurultay İcraiyyə Komitəsini və Mərkəzi Nəzarət Komitəsini seçdi, onlar partiyanın işlərini idarə etməli idilər və Sunun qərarının kommunistlər tərəfindən qəbul edilməsi üçün onu təsdiq etməli idilər. Baxmayaraq ki, Qomindanın özünün üzərində kommunistlərin hegemonluğunun yaranacağından qorxduqlarından partiya veteranlarının bir çoxu buna müxalif çıxmışdı. Bir neçə kommunist, Li Ti-çao da daxil olmaqla Icraiyyə Komitəsinə seçildi.

1924-cü il ərzində Sun kolleqaları ilə birlikdə Qomindanın milli miqyasda təsirinin artmasına nail olmaq sahəsində bir sıra uğurlar qazandı. Sun noyabrda dəvətlə Şimala yola düşdü. Pekinə gəlməmişdən əvvəl o, özünün ciddi xəstə olduğunu hiss etdi, onda qaraciyərin sağalmaz xərçəng xəstəliyi var idi. Sun Yatsen 12 mart 1925-ci ildə Pekində vəfat etdi. Onun vəfatından sonra Qomindanda daxili münaqişələr dövrü başlandı və bu münaqişələr Rusiyanın köməyi ilə möhkəm qaydada çoxalırdı. Münaqişənin başlıca səbəbi kommunistlərin təsiri altında partiyanın radikallaşması idi. Onlar həmkarlar ittifaqları və kəndli assosiasiyaları təşkil edir, sinfi mübarizəyə və antiimperializm hərəkatına təkan verirdilər.

Mayın 30-da vətənpərvər tələbələr Şanxayda antiimperialist nümayişi təşkil etdilər və xarici polislə toqquşdular. Britaniya kapitanı öz stansiyasına hücum

ehtimalına inandığından polisə əmr etdi ki, kütləyə atəş açsın. Tələbələr daxil olmaqla 12 çinli öldürüldü. Bu, milli etiraz dalğası əmələ gətirdi və Şanxaydakı ümumi tətilə yol açdı. İyunun 23-də fransız və Britaniya dənizçiləri çinli kadetlərlə atəş mübadiləsi apardılar. 52 çinli öldürüldü, onlardan çoxu mülki adamlar idi. Ən azı 117 nəfər isə yaralanmışdı. Bu tətillərlə, Britaniya, Fransa və Yaponiya əleyhinə boykotla nəticələndi. Lakin sonralar yalnız britaniyalılara qarşı olmaqla boykot bir qədər daraldı. Tətilə və boykota kommunistlər rəhbərlik edirdi, 16 ay ərzində davam etməklə tətil Honkonqun ticarətinə mənfi təsir göstərdi. Bu hadisələr nəticəsində Qomindan üzvlərinin sayı 200 minə çatdı. ÇKP də həmçinin fayda götürməmiş qalmadı, onun üzvlərinin sayı 1925-ci ilin mayındakı 1.000 nəfərdən ilin sonuna 10.000 nəfərə çatdı.

İki partiya millətçi siyasəti istiqamətləndirmək, kütləvi təşkilatlara nəzarət etmək və özlərinə üzvlər cəlb etmək üstündə rəqabət aparırdılar. Rusların məşqçiliyi altında Kommunist partiyası Qomindandan ayrılmağa cəhd edirdi, özündən mühafizəkar üzvləri qovurdu və daha çox radikal kursa tərəf dönürdü. 1925-ci ilin avqustunda Kantondakı Qomindan mühafizəkarları sol meyli dayandırmağa cəhd etdilər. Qomindanın Rusiya istiqamətli ən möhkəm tərəfdarlarından biri olan Liao Çun-kay qətlə yetirildi. Şimaldakı Qomindanın veteranlar qrupu Borodinin və kommunistlərin qovulmasına göstəriş verdilər, onlar Şanxayda özlərinin rəqib Qomindan qərargahlarını yaratdılar.

Milli İnqilabi ordunun yeni komandanı Çan Kayşi kommunistləri cilovlamaq üçün addım atdı və bir neçə rus zabitini, özünə qarşı Uan Çinq-ueylə birlikdə qəsd hazırladıqlarına inandığından ordudan tərxis etdi. Kommunistlərə artıq mərkəzi qərargahlarda yüksək vəzifə tutmağa icazə verilmirdi və Uan Fransaya istirahətə yollandı. Çan özünün baş hərbi müşaviri olmuş Qızıl Ordu generalı V.K.Blyuxerin (gələcək Sovet İttifaqı Marşalı olmaqla 1938-ci ildə güllələnmişdi) geri qaytarılmasını tələb etdi. O, Çanla 1924-cü və 1925-ci illərdə işləmişdi və Milli İnqilabi ordunun formalaşmasında iştirak etmişdi. Blyuxer mayda Kantona qayıtdı və Şimal ekspedisiyası planlarının dəyişdirilməsinə kömək etdi, bu yürüş iyunda başladı və Çan bu vaxt baş komandan kimi çıxış etdi.

İki ayın içərisində Milli İnqilabi ordu Hunan və Hupeh üzərində nəzarəti əldə etdi. 1927-ci ilin yazında inqilabi qüvvələr Nankinə və Şanxaya hücuma hazırlaşırdı, lakin siyasi şərait qeyri-stabil idi. Hunan və Hupehdə kəndli üsyanları mülkədarlara qarşı zorakılıqla əlamətdar olmaqla baş vermişdi. Sənaye və kommersiya mərkəzləri olan Yantszı vadisində və şəhərlərdə tətillər dalğası ilə biznes az qala iflic vəziyyətinə düşmüşdü. Kommunistlər və Qomindanın solçuları bu sosial inqilaba başçılıq

edirdilər. Britaniya hökuməti Şanxaydakı mühüm mövqelərini himayə etmək üçün ekspedisiya göndərməyə hazır idi. Əcnəbilər və çinlilərin yüksək siniflərindən olanların çoxu millətçilərin nəzarətində olan əyalətlərdən qaçırdılar. Şimal orduları cənublulara qarşı ittifaq yaratmağa başlamışdılar.

1927-ci ilin yanvarında ÇKP Mərkəzi Komitəsinin qəbul etdiyi qətnamədə partiyaya qarşı əksinqilabi dalğanın başa düşüldüyü göstərildi. Onlar Qomindanın daxilindəki koalisiyadan və onun imperialist dövlətləri ilə ittifaq bağlamasının mümkün olmasından qorxurdular. Mərkəzi rəhbərlik Qomindanın rəhbərliyinə hər cür dəstək verməyi qərara aldıqda, ÇXP daxilində bəziləri, xüsusən Mao Tszedun bununla razılaşmadı. Onlar inanırdılar ki, kütləvi inqilab öz xətti ilə getməyə həvəsləndirilməlidir.

Mühafizəkar Qomindan liderləri, bəzi ordu komandanları və Şanxaydakı çinli olan biznes liderləri Çana məsləhət gördülər ki, kommunistləri qovsun və Şanxay ümumi həmkarlar ittifaqını əzsin. Aprelin 12-13-də banditlər və qoşunlar qan axıtmaqla ümumi həmkarlar ittifaqını əzdilər və çox sayda kommunistləri həbs etdilər. Buna bənzər hadisələr Kantonda, Nankində və başqa şəhərlərdə də baş verdi. Qomindan mühafizəkarları bu vaxt Nankində rəqib millətçi hökumət qurdular.

ÇKP üsyana qalxdı. Dekabrda kommunist liderlərininKantonda başladıqları üsyan Kanton Kommunası kimi (1871-ci ilin Paris Kommunasını xatırladaraq) tanınır. Onlar qan axıtmaqla və qarətçiliklə şəhəri işğal etdilər. Lakin bu bunt tezliklə, həm də çoxsayda olan qətllərlə yatırıldı.

1928-ci il oktyabrın 10-da millətçilər rəsmi olaraq paytaxtı Nankində olmaqla Çin Respublikasının yenidən təşkil edilmiş Milli Hökumətini qurdular. Yeni hökumət hərbi separatizm kimi çox ciddi problemlə üzləşdi. Hökumət qərbi Çin kimi geniş ərazidə və hətta müstəqil rejimlərin hökmranlığı altında olan şərqi Çin regionlarında hakimiyyətə malik deyildi. Millətçilər çox çalışdılar ki, müasir hökumət, aydın monetar və bank sistemi yaratsın və vergiləri yaxşılaşdırsın. Bu hökumət ilk bir neçə ildə hakimiyyətdə olanda Çinin suverenliyinin təşkil edilməsində müəyyən uğur qazandı. Bir neçə konsessiya ərazisi Çinin nəzarətinə qaytarıldı.

Mancuriya Çinin nəhəng və varlı zonası idi, burada Yaponiya geniş iqtisadi imtiyazlara malik idi, cənubi Mancuriya dəmir yolu vasitəsilə bu zonanın iqtisadiyyatının çox hissəsinə nəzarət edirdi. Yaponiya üçün Mancuriya həyati strateji və iqtisadi əhəmiyyətə malik idi. Yaponların çoxu belə bir düşüncəyə malik idi ki, Yaponiya Qərbin əleyhinə Asiyaya rəhbərlik etməlidir. Yaponiya hökuməti addımbaaddım Mancuriyanın işğalına və Mancu-qo kimi tanınan rejimin yaradılmasına girişdi. Bu həyati zonanı tutmaqda Yaponiyanın qarşısını almağa Çin

qadir deyildi. 1932-ci illər ərzində Yaponiya Mancuriya sərhədindəki ərazilərin çoxunu tutdu.

Bu vaxt kommunistlər mərkəzi Çində 15 kənd bazası yaratdılar və 7 noyabr 1931-ci ildə onlar Sovet hökuməti qurdular. Yaponların Mancuriyanı işğal etməsi və 1932-ci ildə Şanxayda müharibənin lokallaşdırılması millətçilərin diqqətini yayındırdı və kommunistlərə genişlənmək və konsolidasiya olunmaq üçün qısa bir imkan verdi. Millətçilər tezlikilə Qızıl Orduları öz bazalarını tərk etməyə və geri çəkilməyə məcbur etdilər. Sonrakı kommunist liderləri, Mao Tszedun, Çju De, Çjou Enlay, Lü Şaotsi və Lin Byao də daxil olmaqla, qərbi Çinə getməli oldular. Onlar öz yolları boyu vuruşurdular. 1936-cı ilin ortalarında Qızıl Ordular, onların qalıqları şimali Şensidəki yoxsullaşmış zonada toplaşdılar, sonralar bura Yenan regionu kimi tanındı.

Çan Kayşinin ordularından çox sayda adam kommunistlərin «çinlilər çinlilərə qarşı vuruşmayacaqdır» şüarına rəğbətlə yanaşırdı, onlar Yaponiya ilə vuruşmağı seçirdilər. Bu hiss Mancuriya ordusunda xüsusilə güclü idi. 1936-cı ilin dekabrında Çan Kayşi Siana qaçdı ki, antikommunist kampaniyasını təzələsin.

İki Çin parityası bir-birinə tərəf yönəlirdi və əlaqə yaratmaq üçün gizli danışıqlar başlandı. Hər biri bu danışıqlarda güzəştə gedirdi. Bu, Çin-yapon müharibəsi başlanandan sonra da, 1937-ci ilin sentyabrına qədər davam etdi. Milli hökumət Sun Yatsenlə birlikdə xalqın üç prinsipi uğrunda vuruşmaq barədə ÇKP-nin vədlərini dərc etdi. Bundan məqsəd Çindəki Sovet hökumətini ləğv etmək və kommunist qoşunlarını hökumətin komandanlığı altına keçirmək idi.

Çin-yapon müharibəsi

7 iyun 1937-ci ildə Pekin yaxınlığında yaponlar və çinlilər arasında kiçik toqquşma baş verdi və bu, nəticədə iki milləti müharibəyə cəlb etdi. İyulun sonlarında yeni vuruş başlandı. Yaponlar tezliklə Pekini (millətçilər onu Peypin adlandırırdılar) tutdular. Avqustun 13-də Şanxayda qızğın döyüş getdi. Bu vaxtdan etibarən iki millətin prestiji riskə məruz qaldı və onlar artıq müharibədə üz-üzə dayanmışdılar.

Çinlilər xarici düşmənə qarşı birləşdilər. Çinin nizami ordusu 1,7 milyon nəfərdən ibarət idi, 0,5 milyonluq da ehtiyat var idi. Yaponiyanın hərbi-dəniz və hərbi-hava qüvvələrinin üstünlüyü şübhə doğurmurdu. Yapon ordusunun başlıca narahatlığı Sovet İttifaqından olsa da, bu vaxt hərbi-dəniz qüvvələri üçün başlıca qayğı Birləşmiş Ştatlar idi. Ona görə də Yaponiya Çindəki kampaniyaya bütün gücünü qoy bilməmişdi.

Elan olunmamış müharibənin birinci ilində Yaponiya çinlilərin inadkar müqavimətinə baxmayaraq bir-birinin ardınca qələbələr qazanırdı. Dekabrın sonunda Şanxay və Nankin tutuldu. Lakin Çin müdaxiləçilərə müqavimət göstərmək barədə qətiyyətini bütün dünyaya nümayiş etdirdi. Bu isə xarici dəstək almaq üçün hökumətdən ötəri vacib əhəmiyyətə malik idi. Sovet İttifaqı silah, sursat, hərbi məsləhətçilər və sovet təyyarəçiləri ilə yüzlərlə təyyarə göndərdi. Yapon qüvvələri mühüm qələbələr çalmaqda davam edirdi. 1938-ci ilin ortalarında yaponlar dəmir yol xəttlərinə və şimali Çindəki əsas şəhərlərə nəzarət edirdilər.

Müharibənin birinci fazasında Milli hökumət özünün müasir ordularının ən yaxşılarını, hərbi-hava qüvvələrini və cəbbəxanalarını, Çinin müasir sənayesini və dəmir yollarının əksəriyyətini, əsas vergi resurslarını və bütün limanlarını itirdi. Bu limanlara isə hərbi sursat və mülki təchizat malları idxal edilə bilərdi. Çin müqavimətini davam etdirdikcə, Yaponiyanın işğal etdiyi ölkənin şərq ərazilərinə nəzarəti xeyli çətinləşməli idi.

Müharibənin ikinci səhnəsi ərzində (1939-1943-cü illər) döyüş xətti azacıq dəyişildi. Yaponiya Azad Çini asılılığa salmaq üçün ərazini bombalamağa cəhd etdi. Hava hücumlarından minlərlə mülki adam həlak olurdu. 1940-cı ildə Nankində Uan Çinq-ueyin başçılığı altında rəqib hökumət yarandı. Yüz minlərlə adam Çinin qərbinə miqrasiya etdi ki, mübarizəni davam etdirsin. Hökumət dağılmış orduları yenidən qurdu və xaricdən sursat almağa cəhd etdi. 1938-1940-cı illərdə Sovet İttifaqı hərbi kömək üçün kreditləri 250 milyon dollara genişləndirdi, bu vaxt Birləşmiş Ştatlar, Böyük Britaniya və Fransa, mülki mallar satın almaq və valyutanı stabilləşdirmək üçün Çinə 263,5 milyon dollar pul verdi. 1940-cı ilin sentyabrında Yaponiya şimali Hind-Çin üzərində nəzarəti əldə etdi və həmin rayonda Çinin təchizat xəttini bağladı. Almaniya 1941-ci ilin iyununda Sovet İttifaqına hücum etdikdə SSRİ-nin Çinə göstərdiyi əksər hərbi yardım faktiki olaraq kəsildi. Birləşmiş Ştatlar isə Çinə 100 döyüş təyyarəsi satmışdı.

Müharibə ÇKP-yə əks-təsir göstərdi. Kommunist liderlər onillik müharibədən sonra salamat qalmışdılar. Onlar kəndli əhalini səfərbər etməyə və partizan müharibəsinə başlamağa öyrənmişdilər. 1937-ci ildə ÇKP-nin üzvlərinin sayı 70 minə çatmışdı və pis silahlanmış Qızıl Ordunun 100 min əsgəri var idi. Kommunistlərin şimali-qərbdəki bazaları üç əyalətin bir hissəsini örtmüşdü. Onlar qoşunlarının qalıqlarını birləşdirmiş və qida ehtiyatı, yeni döyüşçü cəlb etmək və kiçik yapon qarnizonlarına hücum edən partizan birliklərinə sığınacaq vermək üçün əhalini təşkil edirdilər. Başqa tədbirləri də həyata keçirməklə ÇKP həm də özünü yenidən xeyli canlandırırdı. Kommunistlərlə millətçilər arasında düşmən əraziləri üzərində nəzarət

üstündə onların hərbi qüvvələrinin rəqabəti bir sıra toqquşmalar əmələ gətirdi. Kommunistlər həm də millətçilərin ərazilərində təbliğat və gizli təşkilatlanma yolu ilə öz siyasi təsirlərini genişləndirməyə çalışırdılar. Hər ki tərəf Yaponiyaya qarşı müharibə aparsa da, onlardan hər biri məhz özünün qəti faydası naminə vuruşurdu.

Hökumət qüvvələri 6 yanvar 1941-ci ildə Yantszının cənubundakı bazaya hücum edib, sayca artıq olan kommunistləri məğlub etdilər, 2 min nəfər əsir götürüldü. Hər iki tərəf ağır itki verdi, təzələnən vətəndaş müharibəsi təhlükəsi Çinin mülki liderlərinin geniş yayılan etirazına səbəb oldu. Nə Qomindan, nə də Kommunist partiyaçı 1941-ci ildə münaqişəni açıq vətəndaş müharibəsinə çevirməyə hazır deyildi.

Amerika Birləşmiş Ştatlarına məlum oldu ki, Çindəki müharibə başa çatdıqdan sonra Yaponiya cənubda Britaniya Malayyasına və Niderland İndiyalarına (İndoneziyaya) irəliləməyə ümid edir, əvvəlcə isə cənubi Hindi-Çini və Tailandı işğal etməyi planlaşdırır. Yaponlar belə bir cəhəti nəzərə almırdılar ki, bu, Britaniya və Birləşmiş Ştatlarla müharibə riski yaradacaqdır. İyulda Birləşmiş Ştatlar Çinə böyük miqdarda silah və sursat göndərdi. Millətçi ordu yaponlarla vuruşmaq üçün pis silahlanmışdı. 1941-ci ilin dekabrından Birləşmiş Ştatlar Çinə hərbi missiya göndərdi, 30 diviziyanı silahlandırmağı öz üzərinə götürdü. Yaponların 7 dekabr 1941-ci ildə Pyorl-Harboru (ABŞ-ın Havay adalarındakı hərbi bazasını) bombalaması Birləşmiş Ştatları Çinin müttəfiqi etdi. Böyük Britaniya da öz müstəmləkə ərazilərinə hücum edildikdə, Sakit okean müharibəsinə qoşuldu. Dekabrın 25-də Honkonq yaponlar tərəfindən işğal edildikdə, Çin kənar dünya ilə hava əlaqəsini itirdi. 1942-ci ilin mayın sonundan yaponlar Birmanın əksər hissəsində britaniyalıları, hindliləri, birmalıları və Çin müdafiəçilərini məğlub etməklə, bu ərazini əlində saxladı. Bu vaxt Çin, demək olar ki, bütünlüklə blokadaya alınmışdı.

Çinin Birləşmiş Ştatlar və Böyük Britaniya ilə ittifaqı dərin münaqişə ilə əlamətdar oldu. Böyük Britaniya özünün başlıca düşməni olan Almaniyanın məğlubiyyətinə ən yüksək qaydada prioritetlilik verirdi. Çin həmçinin Amerikanın strateji planlaşdırılmasında aşağı mövqeyə malik idi. Prezident Çana münasibətdə Britaniya baş naziri Uinston Çörçillin və ABŞ prezidenti Franklin D.Ruzveltin fundamental qaydadakı fərqli baxışları və həmin ölkələrin milli maraqlarının bir-birinə uyğun gəlməməsi və çox sayda olan əksliklər dövlətlər arasındakı ümumi münasibətlərə güclü surətdə təsir edirdi, partiyalar arasında da anlaşılmazlığın və şübhələrin əmələ gəlməsinə aparıb çıxarırdı.

1943-cü ilin noyabrında Qahirə konfransında Çan Çörçill və Ruzveltlə ilk dəfə görüşdü. Qahirə Bəyanatı Mancuriya, Tayvan və Peskadora adalarını Çinə qaytarmağı və Koreyanı azad etməyi vəd edirdi.

Üç müttəfiq «Yaponiyanın qeyd-şərtsiz təslim edilməsi» barədə öhdəlik götürdü. SSRİ Almaniyanın məğlubiyyətindən sonra Yaponiyaya qarşı müharibəyə girəcəkdi. Lakin Çin-amerikan əlaqələri getdikcə soyuq şəkil almağa başladı.

1944-cü ildə Çin böhranda idi. Yaponiya Sakit okeanda artıq təzyiqlə üzləşmişdi. Buna ikiqat cavab vermək üçün, birincisi, Birmadan Hindistandakı Assama hücum etmək və ikincisi, Çindəki dəmir yolu sistemini işğal etməklə, Şərqi Çindəki ABŞ-ın istifadə etdiyi hava məkanını tutmaq istəyirdi.

Çin orduları bir neçə yüz min adamdan ibarət olsa da, səmərəli müqavimət göstərməyə qadir deyildi. Bu vaxt həm də Çin hökuməti Birləşmiş Ştatlarla əlaqələrində böhrana cəlb edilmişdi. Çan faktiki olaraq öz qərargahının başçısı kimi fəaliyyət göstərən amerikan generalına məhəl qoymurdu. Onun xahişi ilə general geri çağırıldıqda, Ruzveltlə Çanın əlaqələri artıq heç də səmimi deyildi. Çin bürokratiyasında və ordu qüvvələrində korrupsiya yayılmışdı.

1943-cü və 1944-cü illərdə Kommunist orduları sürətlə böyüyürdü. Kommunistlər demokratiyaya sədaqətli olmalarını açıqca etiraf edirdilər və müharibə cəhdində Milli Hökumətlə əlaqələrini davam etdirirdilər. Şimali və mərkəzi Çində kommunistlərin nəzarətində olan ərazilər yüzlərlə mil genişlənmişdi. Kommunistlər bütün əhalini düşmənə qarşı səfərbər etməyə çalışırdılar. Partiya üzvləri yerli hökumətlərdə fəal iştirak edirdilər. Onlar kəndlilərə istehsalı artırmaqda kömək edirdilər. Yaponiyaya qarşı birgə mübarizə üçün kommunist təşkilatları islahatçı iqtisadi siyasətlərə üstünlük verməyə meyl edirdi. 1945-ci ildəki Yenandakı ÇKP-nin VII qurultayında partiya 900 min nəfərlik ordu yaratmaq vəzifəsini qoydu. Bu iddia bir qədər mübahisəli idi, lakin təşkilatın kommunist sisteminin böyük gücü və geniş coğrafi ərazidə yayılması bir fakt olaraq qalırdı.

1944-cü ilin mayından sentyabrına qədər hökumət və ÇKP nümayəndələri Sianda sülh danışıqları apardılar. Başlıca nəticə Kommunist ordularının yerləşməsi, ölçüsü və komandanlığı, mülki hüquqlar problemləri və ÇKP-in leqallaşması və millətçi zonalarda onun fəaliyyət göstərməsi oldu. Nəzərdə tutulurdu ki, ilk illərdə koalisiya hökuməti qurulsun. Lakin razılıq əldə edilmədi. Çan Çinlə SSRİ arasında münasibətlərin yaxşılaşması məsələsinə görə və Kommunist probleminin həll edilməsində amerikanlardan kömək göstərmələrini xahiş etdi.

1944-cü ilin noyabrında Ruzveltin şəxsi nümayəndəsi Yenanda Mao Tszedunla görüşdü. Lakin iki tərəfin mövqeləri barışmadı və 1945-ci ilin martında danışıqlar

kəsildi. Çindəki tərəflərin biri digərinə inanmırdı. Qomindan siyasi ağalığını davam etdirmək istəyirdi, ÇKP isə öz ordularının müstəqilliyi məsələsi üzərində israr edirdi.

Sakit okean müharibəsi 14 avqust 1945-ci ildə başa çatdı, yaponlar rəsmi olaraq 2 sentyabrda qeyd-şərtsiz təslim aktını imzaladılar. Çin sevinirdi və prezident Çanın nüfuzu çox yüksək idi. Ölkə hələ də yenidən birləşmənin və yenidənqurmanın nəhəng ölçüdəki çətin problemləri ilə üzləşdi və bu vaxt həm də gələcək vətəndaş müharibəsinin qaranlıq perspektivi dumanına bürünmüşdü.

Vətəndaş müharibəsi

Yaponiyanın təslim olmasından dörd ildən bir az sonra ÇKP və Xalq Azadlıq Ordusu Çinin materik ərazisini tutdu və 1 oktyabr 1949-cu ildə paytaxtı Pekin olmaqla Çin Xalq Respublikası quruldu. Təməl fakt ondan ibarət idi ki, inqilab bünövrəsi üzərində kommunist hərbi zəfəri meydana gəlmişdi. Bu proses üç fazada gedə bilərdi: 1) 1945-ci ilin avqustundan 1946-cı ilin sonunadək millətçilər və kommunistlər yaponların tutduqları ərazilərdə üstünlük qazanmaq, öz qüvvələrini qurmaq uğrunda yarışırdılar; 2) 1947-ci il ərzində və 1948-ci ilin birinci yarısında millətçilərin ilkin uğurundan sonra strateji tarazlıq kommunistlərin xeyrinə döndü; 3) kommunistlər 1948 və 1949-cü illərin sonrakı hissələrində tarmaredici qələbələr qazandılar.

Yaponiyanın təslim olmasının qaçılmaz olduğu bilindikdən az sonra kommunist ordularının komandanı general Çju De 11 avqustda (1945-ci il) öz adamlarına əmr etdi ki, yaponların tutduqları ərazilərə girib, yapon ordularını özlərinə təslim etsinlər. Çan isə əmr etmişdi ki, onlar olduqları yerdə qalsınlar. Birləşmiş Ştatlar başlıca şərq şəhərləri olan Pekini, Şanxayı və müharibədən əvvəlki paytaxt olan Nankini işğal etməklə Çin hökumətinə köməklik göstərdi. Sovet ordusu isə Cənubi Mancuriyanı tutmuşdu. Amerika generalı Duqlas Makartur Çindəki bütün yapon qüvvələrinin təslim olması barədə əmr verdi, onlar bu vaxt silahlarını Milli Hökumət qüvvələrinə təhvil verməli idilər. Yaponlar bu əmrə tabe oldular.

Mancuriya 40 milyon əhalisi olan geniş ərazi idi, burada ağır sənaye mərkəzləşmişdi və Çin dəmir yolları oradan keçirdi. Bura həm də mineral sərvətlərlə zəngin idi. Sovet İttifaqı Yaponiyanın təslimindən sonrakı 90 gün ərzində öz işğalçı ordularını çıxartmalı və Çinə öz regionu kimi qaytarmağı vəd etmişdi. Lakin Kommunist ordusu millətçi qoşunların ora girməsinə imkan vermədi. 1945-ci ilin sonundan kommunist qüvvələri ətraf əyalətlərə yayıldılar. Milli hökumət isə cənubda,

qərbdə və aşağı Yantszı vadisinin varlı əyalətlərində öz hakimiyyətini yenidən qurdu. Onlar həm də Tayvan üzərində mülki nəzarəti əldə etdilər.

1946-cı ilin yanvarında razılaşdırıldı ki, Çan və Mao düşmənçiliyi dayandırmaq barədə göstəriş verəcəklər. Dörd əsas partiya Siyasi Məşvərət Şurası yaratdı, prezident Çan onun zəmanətlərini yerinə yetirməyə söz verdi. Hərbi məsələlər üzrə belə razılığa gəlindi ki, hökumət və kommunist qüvvələri bir il ərzində müvafiq olaraq 90 və 18 diviziyaya azaldılacaqdır, həm də ordular siyasətə müdaxilə etməyəcəkdir.

1946-cı ilin əvvəlləri barışığın yüksək nöqtəsi oldu. Kommunistlər Mancuriyada Millətçilərin hərbi nəzarətinin genişlənməsinin qarşısını almağa cəhd edirdilər. Onlar, Birləşmiş Ştatlar Milli hökumətə hərbi və maliyyə yardımı etdiyindən, bu ölkəyə qarşı düşmənçilik münasibəti bəsləyirdilər.

1946-cı ilin ikinci yarısında hökumət qüvvələri Şimali Çində və Mancuriyada 165 şəhəri düşməndən aldı. Milli Məclis 15 noyabrda Sun Yatsenin xalqın üç prinsipini yenidən təsdiqləyən konstitusiya qəbul etdi. Milli Hökumət ciddi iqtisadi problemlərlə mübarizə aparırdı. İnflyasiya idxala tələbatı artırırdı, ixraca isə mane olurdu.

Kommunistlər isə öz zonalarında, əsasən kənd yerlərində ümumi xalq üçün spartalılara məxsus həyat tərzini həyata keçirirdilər. Kommunist qoşunları müharibə illərində çox saydakı yollarla kütlələrin rəğbətini qazanmağa çalışmışdı. Bu isə heç də kiçik məsələ deyildi. 1947-ci ilin iyulunda Millətçilər Mancuriyadakı ərazilərin yarısını itirdilər. Həmin ili strateji təşəbbüs kommunistlərin Xalq Azadlıq Ordusuna keçdi. İlin sonunda 2,7 milyon nəfərlik hökumət qüvvələri 1,65 milyonluq kommunistlərlə üz-üzə gəldi. Millətçilər geniş səpələnmişdilər və müdafiə olunurdular. Noyabrda Mao Tzsedun şimalda kommunist paytaxtı qurmaqla Şimali Çində kommunist mövqelərini konsolidasiya etdi. Dekabrda o, bəyan etdi ki, çinlilərin xalq inqilabi müharibəsi indi dönüş nöqtəsinə gəlib çatmışdır.

Kommunistlərin uğurunun bir səbəbi də kəndli Çinində sosial inqilab idi. ÇKP birləşmiş cəbhə dövrünün çoxsinifli ittifaqı tərəfindən bu vaxt sərbəstləşmişdi. Ənənəvi kənd sosial strukturuna həlledici hücum başlandı. Kəndlilər mülkədarlara və Qomindan tərəfdarlarına qarşı mübarizəyə həvəsləndirilirdi, onları cəzalandırır, bəzən hətta öldürürdülər.

1948-ci il dönüş nöqtəsi oldu. Mərkəzi Çində kommunist orduları əsas döyüşlərdə qalib gəlib, bir sıra mühüm şəhərləri tutdular. Şimali Çində də uğur qazanılırdı. Mancuriyada hökumətin ən yaxşı orduları darmadağın edildi. Lin Byaonun kolonnaları Milli qüvvələri məğlub etdi. Millətçilərin itkinlərinin, əsir düşənlərinin və ya yaralananlarının sayı 400 min nəfər idi. 1949-cu ilin yanvarında isə

65 günlük döyüşdə millətçilərin itkisi 500 min nəfər adam və onların silah, sursatı oldu. Paytaxt Nankin tezliklə müdafiəsiz qaldı. Pekin yanvarın 23-də təslim oldu və Çinin tarixi paytaxtı və mədəniyyət mərkəzi dinc həyata döndü.

1948-ci ilin ikinci yarısında kommunist orduları Mancuriya və Yantszı çayına qədər şimali-şərqi Çində nəzarəti əldə etdi. 1949-cu ildə böyük siyasi dəyişikliklər baş verdi. Yanvarda Çan Kayşı müvəqqəti olaraq istefa verdi, vəzifə general vitse-prezidentə keçdi. Axırıncı Mao Tszedunla sülh danışıqları aparmağa cəhd etdi, lakin bu danışıqlar özünün ümidsiz olduğunu sübut etdi. Millətçilər təslim olmağa hazırlaşmışdılar, onlar hələ də Çinin yarısından çoxunu idarə etmək iddiasında idilər. Uğur davam etdikcə kommunist qüvvələri bir-birinin ardınca Nankini, Hankounu və Şanxayı tutdular. Millətçilər axırıncı ümidlərini şimala və qərbə bağlamışdılar. Millətçilərin uzun müddət bastionu olan Sian da təslim oldu. 1949-cu ilin ikinci yarısında kommunist orduları şimalın və qərbin əyalətlərini ələ keçirdilər. İlin sonunda millətçilərin əlində yalnız Haynan və Tayvan adaları qalmışdı. Məğlub olan millətçi hökumət özünü Tayvanda yenidən qurdu. Çan hələ ilin əvvəlində buraya geri çəkilmişdi. Oktyabrın 1-də materik ərazisinin əksəriyyəti Xalq Azadlıq Ordusunun əlində idi. Mao Pekində Çin Xalq Respublikasının qurulmasın elan etdi.

Həm Qomindan, həm də Çin Kommunist Partiyası Çinin spesifik problemlərini həll etməyə çalışırdı. Çində Qərb imperializmi mifi meydana gəldi. İqtisadi imperializm mifi həmin dövrdəki Çin vətənpərvərliyinin köhnə inamı, özünəməxsus parolu idi.

Çin şəraitinin diaqnozları zaman keçdikcə dəyişirdi. Bir problemin həlli onun alt qatındakı digərlərini aşkara çıxarırdı. İnqilabçılar Mancu konstitusiyionalizmini ləğv etdilər.

Hətta Sun Yatsen inanırdı ki, imperializmin onillikləri ərzində Çinin əhalisi 90 milyon nəfər azalmışdır. «4 May» Hərəkatı genişlənən Çin siyasi ictimaiyyətində imkanların yeni dərəcələrini nümayiş etdirdi. 1927-ci ildəki kəndli üsyanı Mao Tszedunun diqqətini cəlb etdi, bundan Çin Kommunist Partiyası ilə Çinin kənd zonalarının uzun müddətli və geniş birliyi meydana gəldi.

Siyasi ideyalardakı və siyasi birliklərdəki bu dəyişikliklər müasir sosial və iqtisadi dəyişikliklərlə müşayiət olunurdu və onların təsirinə məruz qalırdı. Çin həyatının bütün ideoloji və siyasi cəhətlərində dəyişiklik addımı xüsusilə təəccüblü olurdu.

Bunu xatırlamaq əhəmiyyətlidir ki, Çin və Yaponiya bütöv düşüncədə müstəmləkəyə çevrilən digər Asiya xalqlarına bənzəmədən, öz yazı dilini saxlayır, onu maddiləşdirir və müasir ideyaları onda ifadə edirdi.

Çinlilərin dilindəki «siyasət»lə «inzibatçılıq», «iradə» ilə «niyyət» və ya «liberalizm»lə «lisenziya» sözləri arasındakı fərqləri müəyyən etmək çətindir. Marksizm də daxil olmaqla Qərb sosializm nəzəriyyələrinin çinləşdirilməsi onların konfutsiçiliyi ifadə etməyə qadir olan dilə tərcümə edilməsinin özündən başlandı.

Çin ənənəsinin mərkəzi paradoksu onda idi ki, Çin hökuməti totalitar olanda, hökumət həyatın, demək olar ki, hər bir sahəsinə müdaxilə edəndə, Çin cəmiyyəti bu vaxt, əksinə, muxtar ailələr və nəsillər hesabına özünü idarə etməyə əsaslanırdı, kəndlərdə və yerli icmalarda qruplaşıb yüksək dərəcədə olan bir muxtariyyətdən istifadə edirdi. Bu paradokslar həm də özünü belə bir faktda ifadə edirdi ki, çinlilər başqa xalqlarla üz-üzə gəldikdə, bir millət kimi güclü şüura malik olurdu.

Sun Yatsen ideyaları siyasətə cəlb olunduqda yüksək dərəcədə iki mənalı olurdu. Onun sözlərinə görə millətin davam edən mövcudluğu şübhə altında idi: «Əgər Yaponiya... zərbə vursa, istənilən gün... Çini məhv edə bilər. Birləşmiş Ştatlar hücum etdikdən sonra Çini bir ay içində məhv edəcəkdir, İngiltərə... ən uzağı iki aya Çini yer üzündən siləcəkdir. Fransa da... İngiltərə kimi Çini iki ay ərzində məhv edə bilər».

Maoist ideyaların inkişafı

Çan Kayşinin siyasi ideyaları bütünlüklə «Çinin taleyi» (1943-cü il) əsərində ifadə edilmişdir. Çanın şəraiti Sun Yatseninkindən fərqli idi. Birincisi, Yaponiyanın təhlükəsi ilə üz-üzə gəldikdə milli birliyin bəzi ölçülərinə nail olunmuşdu. İkincisi isə, millətçilər artıq kommunistlərlə ittifaqda deyildilər. Çan Kayşiyə görə Çinin bədbəxtlikləri qeyri-bərabər müqavilələrlə başlandı. «Çinin iqtisadi və siyasi hakimiyyəti bütünlüklə əcnəbilərin əlinə düşdü və dövlətin həyatverici qanı kəsildi».

Mao Tszedun partiya rəhbərliyindəki xarakterik siyasi ideyaları qeyri-stabil və qarışıq şəraitə təsadüf etdi. 1926-cı ildə özünün «Çin cəmiyyəti siniflərinin analizi» essesində Mao soruşurdu: «Sənin düşmənlərin kimdir? Sənin dostların kimdir?» Təməl səbəb ondan ibarətdir ki, Çindəki bütün əvvəlki inqilabi mübarizlərin belə az şeyə nail olması, real düşüncələrə hücum etmək üçün real dostların birləşməsində onların uğursuzluğu olmuşdu». Digər bütün siniflər prinsipial müttəfiqlər idi. Mao proletariatın liderliyinin əhəmiyyətinə məhəl qoymurdu. O, təkcə potensial kəndli üsyanının gücü barədə təkid etmirdi, həm də onun səmərəliliyini qeyd edirdi. Mao təkid edirdi ki, siyasi hakimiyyətin ələ keçirilməsi fundamental əhəmiyyətə malikdir.

Kommunist siyasi təsirinin yayılması heç də asan məsələ deyildi. Kommunistlərin başçılıq etdiyi zonalar tədricən böyüyürdü. Kommunistlərin təsirinin

inkişafının açarı torpaq islahatı üzərində mərkəzləşmiş sosial siyasət idi. Çində böyük torpaq islahatı kommunistlər hakimiyyətə gələndən sonra, 1947-ci illə 1953-cü il arasında başlandı.

Maonun praqmatik tədbirləri onun iki – «Praktika barədə» (1937-ci il) və «Ziddiyyət barədə» (1937-ci il) esselərində öz ifadəsini tapmışdır. Onlarda spesifik və praktiki problemlər vurğulanırdı. «Praktika barədə» əsəri mücərrəd intellektual doqmaya hücum etməyə kömək edirdi. «Ziddiyyət barədə» əsərində isə Çin şəraitlərinin Sovet şəraitlərindən fərqli olduğunu qəbul edə bilməyənlərə hücum olunurdu. Maonun və onun qüvvələrinin mübarizə tarixində 1930-cu ildə cənubdan qaçıb, Kiansi sovet zonasında özlərinə baş baza yaratması xüsusi yer tutur. Ancaq bu baza kasıb və geridə qalmış idi. Bu dağlıq ərazidə təcrübə aparmaq da çətin idi.

Maonun siyasi ideyaları onun «Yeni demokratiya barədə» əsərində (1940-cı il) cəmlənmişdi, burada Yaponiyanın məğlubiyyətindən sonra Çn üçün siyasi və iqtisadi təşkilatlanma təklif edilirdi. Mao «qeyri-antoqonist ziddiyyətlər»in ruhunu qiymətləndirdiyindən, kənd təsərrüfatını və biznesi 1957-ci ildə uğurlu qaydada sosialistləşdirdikdən sonra inkişaf etdirməli idi. 1942-ci ildə isə o, «yaxşı qoşunlar və sadə inzibatçılıq» adlı yeni şüarını irəli sürmüşdü.

Çində kommunistlərin qələbəsi inqilabçıları hakimiyyətə gətirməklə, ölkənin fundamental dəyişikliklərə məruz qoydu. Çin Xalq Respublikası yaranmamışdan bir ay əvvəl yeni liderlər elan etdilər ki, onların ilk bir neçə addımı modernizasiyaya xidmət edəcəkdir. Uduzanların əhval-ruhiyyəsi, bu vaxt onlar döyüşdən sonra Tayvan adasına qaçmışdılar, qaliblərin əhval-ruhiyyəsi ilə kəskin kontrast təşkil edirdi. Millətçi qüvvələrin qalıqları 8 dekabr 1949-cu ildən sonra Tayvandakı Taybeydə rəsmi olaraq fəaliyyət göstərirdi.

Kommunist partiyası Xalq Respublikası elan edəndə çinlilərin əksəriyyəti başa düşdü ki, yeni liderlər sənayeləşmə ilə məşğul olacaqdır. Kommunist siyasi sisteminin ən başlıca məqsədi Çini böyük dövlət statusuna qaldırmaq idi. Ona görə də kommunist siyasətinin «cazibə mərkəzi» kənd yerindən şəhərə dəyişildi. Lakin Mao israr edirdi ki, kəndli mübarizəsində ərimiş inqilabi baxış partiyanı idarə etməkdə davam edəcəkdir.

Sədr Mao Tszedun 1949-cu ildəki bir sıra çıxışlarında bəyan etdi ki, onun məqsədi sosialist cəmiyyəti və müəyyən şəraitlərdə kommunizm dünyası yaratmaqdır.

İlk dövrlərdə iqtisadi və sosial proqramlar stabilliyi bərpa etdi və müharibədən əvvəlki istehsal səviyyəsi və planlar faktiki olaraq, bütün sahələrdə hərəkətə gətirildi. 1950-ci ilin oktyabrında Xalq Azadlıq Ordusunun qoşunları Çin Xalq Könüllüləri adlanmaqla Koreya müharibəsinə girib, Birləşmiş Millətlər Təşkilatının qüvvələrinə

qarşı vuruşdular. 1953-cü ilin iyulunda müharibə başa çatanda Çin döyüş diviziyalarının təqribən üçdə ikisi Koreyada xidmət edirdi. Digər problemlərə gəldikdə, tibetliləri güc vasitəsi ilə tabe etmək üçün 1959-cu ildə orada üsyan provakasiyası yaradıldı.

1949-1952-ci illərdəki dövr Çində sovet təsirinin dəyişilməsi ilə əlamətdar oldu. 1949-cu ilin dekabrında Mao Moskvaya səfər etdi və 1950-ci ilin fevralında Dostluq, Müttəfiqlik və Qarşılıqlı kömək barədə müqavilə imzalandı. Bir neçə il sonra isə çinlilər Moskvanı adekvat kömək göstərməməkdə ittiham etdilər və BMT qüvvələri ilə Koreyadakı müharibədə Sovetlər onları tək qoydular. Çinə kömək sahəsində Sovetlərin buna hazır olması məsələsinə də artıq şübhə toxumu səpilmişdi.

Çin iqtisadiyyatının qabarması və çəkilməsi

1953-1957-ci illərdəki birinci beşillik planla Çinin sürətli sənayeləşməsi başlandı. Torpaq islahatı da artıq həyata keçirilirdi. 1953-cü ildən kooperativlər adlanan kiçik kollektivlər yaranmağa başladı. Torpaq kəndlilər arasında bölünürdü. İrəli çıxmış formalardan biri Sovet kolxozu modelində idi. Sosializm sürətli qaydada kənd təsərrüfatının kollektivləşməsinə, sənayenin və kommersiyanın milliləşdirilməsinə nail olurdu.

Ziyalılığa qarşı siyasət də birinci növbədə dəyişildi. 1949-cu ildən sonra, xüsusən Koreya müharibəsinin ilk illəri ərzində Mərkəzi Komitə müəllimlərə və alimlərə yenidən təhsil vermək kimi böyük kampaniyaya başladı. Partiya liderləri intellektualların yolunu açıq şəkildə müzakirə edirdi və bu xətti qəbul etdi ki, «Qoy yüz gül çiçək açsın, yüz fikir məktəbi mübarizə aparsın».

Mao ziyalılara partiyanı və hökuməti tənqid etməyə həvəsləndirməklə, onların arasındakı təhlükəli elementlərə tələ qururdu. Liderlərin qiymətləndirmədiyi tənqidə öz reaksiyasını səmərələşdirmək üçün alternativ baxışı tələ metaforası kimi istifadə edirdi.

Çinin xarici siyasəti, 1953-cü illə 1957-ci il arasındakı uğurlar və daxili siyasət proqramı böyük etibar qazanırdı. Koreya müharibəsinin sonundan Çin iqtisadiyyatı özünün uzun müddətli transformasiyasına başladı və hərbi qüvvələr daha yararlı olmaq üçün yenidən təşkil edildi. Bu dəyişikliklər xarici, xüsusən Sovet sənayeləşmə modeli əsasında gedirdi. Xarici siyasətin əsl açarı daxili inkişaf olduğundan və Koreya müharibəsi ərzində bir sıra mühüm dərslər mənimsənildiyindən Pekinin xarici işlərə yönələn hərbi və izolyanist siyasəti zəifləməyə başladı. 1954-cü ildəki Hind-Çin konfransında Çin barışdırıcı rol tutdu və öz xarici əlaqələrini normallaşdırmağa

çalışdı. Baş nazir Çjou Enlay 1955-ci ilin aprelində İndoneziyanın Bandunq şəhərində keçirilən Asiya-Afrika ölkələri konfransında Çinin daha aktiv olan diplomatik rolunu rəmzləndirirdi. Onun «hamı ilə birlik» şüarı dinc yanaşı yaşamaq xəttinə uyğun idi. Bu «Bandunq xətti» onunla xarakterizə olunurdu ki, Çjou dedikdə ki, Bandunq nümayəndələrinin hökumətləri, Birləşmiş Ştatlar da daxil olmaqla bütün ölkələrlə normal əlaqələrə nail olmağa tam hazırdırlar, bu sözlər bütün dünyanın geniş diqqətinə səbəb oldu. Bu təşəbbüsün nəticəsi kimi Çinlə Amerika Birləşmiş Ştatları arasında səfirliklər açmaq barədə Cenevrədə danışıqlar başlandı.

1956-cı ildə Sovet İttifaqı Kommunist Partiyasının XX qurultayında partiya Mərkəzi Komitəsinin birinci katibi Nikita Xruşşov destalinləşmə siyasətini elan etdi, Stalinin şəxsiyyətinə pərəstişini və 30-cü illərdə aparılan geniş repressiyaları şiddətli tənqidə məruz qoydu. Çinlilər bir daha Sovet İttifaqına tərəf meyl etmək barədəki niyyətlərini elan etdilər. Pekin 1957-ci ildə nüvə silahlarını istehsal etmək üçün Moskvanın onu informasiya və materiallarla təmin edəcəyi barədə vədini ala bildi.

Yeni siyasət 1957-ci ilin noyabrında Maonun Moskva səfəri vaxtı «Şərq küləyi Qərb küləyinə üstün gəlir» bəyanatının arxasınca gedə bilərdi. Bu, hərbi mübarizəyə qayıtmaq mənasını verirdi.

1958-ci ildə Çində «üç qırmızı bayraq» siyasəti elan edildi – bunların xətti sosializmin qurulması, Böyük Sıçrayış və kənd adamlarının kommunasının yaradılması idi. Sovet inkişaf strategiyasına artan dözümsüzlük meydana çıxdı, çünki güman edilirdi ki, Sovetlərin iqtisadi və hərbi köməyi nəticədə Çinin müstəqilliyinin eroziyasına gətirib çıxara bilər. Məsələ belə qoyulurdu: ya modernləşmə Qərb yolu ilə Çini sosializmə aparacaqdır, ya da ölkə nəsə unikal bir çinli olana çevriləcəkdir.

Kampaniyalarda kütlənin iştirakı proqramların öyrənilməsi, «sinfi düşməni» məlum etmək üçün «acı danışma» iclasları artıq Çin mənzərəsinin bir xüsusiyyəti olmaqla, Böyük Sıçrayış etmək illəri ərzində aparıcı həyat yoluna çevrilmişdi. Ölkə liderliyi yenidən öz inamını kəndlilərə arxalanmağa keçirdi və kənd təsərrüfatının inkişafına prioritetlilik verildi. Mao şəhərdə inqilabi dəyərlərin eroziyasına daim fəal müqavimət göstərməyə başladı. Kənd adamlarının kommunası nəzərdə tutulan səmərəli sosial dəyişikliklər üçün alətə çevrildi. 1959-1960-cı illərdə 1000 şəhər kommunası yaradıldı, kommuna hərəkatı mahiyyətcə kənd qaydalarına əsaslanırdı. Kommunalar ilk öncə yaradıldıqda köhnə dəbli kommersiyanı və sosial nümunələri ləğv edəcəkdi.

1961-1965-ci illər artıq əvvəlki üç ilə bənzəmirdi. Reallıq göstərirdi ki, Çinin hərbçilərin və təhlükəsizlik orqanı işçilərinin rolu artmışdır. Partiyaya qəbul qaydaları sərtləşmişdi. Bu vaxt ordu yeni müdafiə naziri Lin Byaonun başçılığı altında öz

sıralarında dissidentlərə qarşı «təmizləmə» hərəkatına başladı. Mao «ikinci xətti» hərəkətə gətirdi, bu, «partiyanın və dövlətin istiqamətlənməsi, siyasət məsələlərinə diqqəti artırmaq" idi. «Birinci xətt» inzibatçılığı 1959-cu ildə Çin Xalq Respublikasının sədrliyini ələ keçirmiş Lü Şaotsiyə qarşı idi.

Mədəni inqilab ərzində edilən açıqlamalar həmçinin nəzərdə tuturdu ki, Maoya və onun proqramlarına müxalifət böyümüşdür. Hərəkat tezliklə kənd yerlərində ağalıq edirdi və partiya sıralarını təmizləmək cəhdlərində böyük effektə malik oldu. Maonun ideyalarını öyrənməyə ehtiyac olduğu barədə və inqilabi mübarizənin şərəfinə çağırış vurğulanırdı. Pekinin başlıca hədəfi Moskva idi. 1962-ci ildəki Kubadakı Sovet-amerikan böhranı Çin-Hindistan mübarizəsi ilə üst-üstə düşdü və bu, çinliləri inandırdı ki, Sovetlər «təslimçilərdir». Pekinlə Moskva arasında polemika gücləndi. Çinlilər «özünə güvənməyə» keçdilər. Çin ordusu çinlilərin siyasi həyatında hətta daha böyük bir yer tutdu.

Mədəni islahatlar adı altında mədəni inqilab 1966-cı ildə başlandı. Mayın 7-də Mao mədəni və təhsil işlərində ordunun məsuliyyət daşıdığını məlum qaydada bildirdi və millət üçün ordunun «böyük məktəb» olduğu barədəki ideyanı irəli sürdü.

Avqustun 5-də Mao özünün «Qərargahı bombalamaq» şüarını elan etdi. Mərkəzi Komitənin daxilində Mao və Lin Byao dəstək qazanmağa başladılar. Lü Şaotsi və başqaları tənqidə tabe oldular və Maoya loyallıq bəyanatı verməklə tövbə etdilər.

1968-ci ilin oktyabrından sonra Mao inqilabiliklə üzləşməyin sonu kimi yeni fazanın başlanması siqnalını verdi. Çin xarici işlər naziri Birləşmiş Ştatlarla dinc yanaşı yaşamağa əsaslanan müqavilə bağlamağı təklif etdi. Sovet İttifaqı ilə isə 1969-cu ildə sərhəd münaqişəsi kimi kiçik Ussuri insidenti baş verdi.

Yeni partiya nizamnaməsində Mao lider kimi adlandı, Lin Byao isə ikinci şəxs olmaqla varis kimi seçildi. Maonun şəxsiyyətinə pərəstiş «kiçik qırmızı kitablar» atmosferində qızışdırıldı, onun şərəfinə kütləvi miqyasda cürbəcür təbliğat vasitələri buraxıldı. Lakin Maonun siyasi nailiyyəti birinci növbədə onun şəxsiyyətinə və xarizmatik hakimiyyətinə əsaslanırdı. Linin yerini tutmaq üçün isə baş nazir Çjou Enlay sonrakı nömrə mövqeyinə keçdi.

1971-ci ilin iyulunda Birləşmiş Ştatlarla pinq-ponq (stolüstü tennis) diplomatiyasında ən dramatik hadisə baş verdi. Prezident Riçard Nikson 1972-ci ilin fevralında Pekinə səkkiz günlük səfər etdi. Nikson və baş nazir Çjou Enlay mədəni əlaqələr və ticarət sahəsində dəyişikliklər baş verməsinə aparan sazişin imzalacağını və qarşılıqlı əlaqələrin müəyyən şəraitlərdə normallaşdırılacağını elan etdilər. Mao Niksonu qəbul etdi.

Tayvanda millətçi hökumət və Böyük Sıçrayış

İkinci Dünya müharibəsi başa çatdıqdan sonra bir-birinin yanında iki Çin dövləti mövcud idi. Çan Kayşinin Millətçi hökuməti cənubi və mərkəzi Çində olmaqla, amerikanlar tərəfindən dəstəklənirdi. Mao Tszedunun başçılıq etdiyi Kommunistlər isə Şimali Çində möhkəm baza yaratmışdılar. Onların Xalq Azadlıq ordusunun bir milyona yaxın əsgəri var idi.

1946-cı ildə koalisiya hökuməti yaratmaq cəhdləri uğursuz olduqda, millətçilərlə kommunistlər arasında tam miqyaslı müharibə başlandı. Kənd yerlərində milyonlarla kəndlini kommunistlərin torpaq vermək barədəki vədləri cəlb edirdi və çoxları Mao hökumətinə qoşulurdu. 1948-ci ildən Xalq Azadlıq Ordusu (XAO) Pekini mühasirəyə aldı. Sonrakı ilin yazında kommunistlər Yantszı çayını keçib, Şanxayı işğal etdilər. Sonrakı iki ay ərzində Çin hökuməti özünün 2 milyon nəfərlik tərəfdarları ilə Çinin materik ərazisinin sahilindən kənardakı Tayvan adasına qaçdılar. 1 oktyabr 1949-cu ildə Mao Səma sülhü qapısının (Tyananmen meydanının) tribunasına qalxıb, meydanda onun qarşısında toplaşmış minlərdə adama qələbə bəyanatını çatdırdı. O dedi ki, Çin xalqı ayağa qalxmışdır və heç kəs bir daha onu alçaltmağa qadir olmayacaqdır.

Yeni qələbələr çalmış Kommunist Partiyası, onun sədri Maonun liderliyi altında sosialist cəmiyyəti qurmaq barədə uzun müddətli bir məqsədə malik idi. 1955-ci ildə Çin hökuməti bütün özəl fermer torpaqlarını kollektivləşdirdi və sənayenin və kommersiyanın əksəriyyətini milliləşdirdi. Kollektiv təsərrüfatlar ərzaq istehsalını artırmaqda uğursuzluğa uğradıqda, Mao 1958-ci ildə Böyük Sıçrayış kimi tanınan daha radikal proqrama başladı. Ənənəvi kənd təsərrüfatları geniş «Xalq Kommunalarında» birləşdilər. Onların hər biri 30 min adamdan ibarət idi. Mao ümid edirdi ki, bu proqram xalqı XX əsrin sonundan əvvəl iqtisadi yüksəlişi sürətləndirmək naminə kütləvi cəhdə və kommunizmin- sinifsiz cəmiyyətin final səhnəsinə çatmaq üçün səfərbər edəcəkdir. Lakin Böyük Sıçrayış etmək əslində bədbəxtliyə çevrildi. Pis iqlim və yeni sistemə kəndlilərin nifrəti birləşib, ərzaq istehsalını aşağı saldı. Bu uğursuzluqlara baxmayaraq, Mao tam sinifsiz cəmiyyət barədəki öz arzusunu tərk etməyə hələ də hazır deyildi və 1966-cı ildə Çinin kommunizmə yeni güclü yürüşünə start verdi.

Prezident Lindon Conson 1965-ci ildə Cənubi Vyetnama Birləşmiş Ştatların qoşunlarını göndərdi ki, cənubi-şərqi Asiyada kommunizmin ekspensiyasının qarşısını almağa cəhd etsin. Birləşmiş Ştatların başlıca marağı artıq Sovet İttifaqı

deyil, kommunist Çini idi. 1960-cı ilin ortalarından Sovet İttifaqının rəsmiləri belə baxış nümayiş etdirdilər ki, mahiyyətcə mühafizəkar dövlət kimi SSRİ sərhədlərini genişləndirməkdən daha çox öz geniş imperiyasını himayə etmək barədə düşünür. Mao Tszedunun bütöv sinifsiz cəmiyyət yaratmaq barədəki cəhdinə isə çox böyük diqqət verilirdi. Böyük Sıçrayış siyasətinin uğursuzluğa uğramasına baxmayaraq, o, bu vaxt daha böyük dramatik məcburiyyətlə Çinin kommunizmə doğru hərəkətinə başladı.

Mao inanmışdı ki, yalnız daimi inqilabi qızğınlıq atmosferində çinlilər keçmişi geridə qoyacaq və kommunizmin son səhnəsinə çatacaqdır. Buna müvafiq olaraq, 1966-cı ildə o, Qırmızı Qvardiyaçıların – xunveybinlərin cilovunu buraxdı, kommunist partiyasının bəxti gətirməyən üzvlərindən və narazı gənclərdən inqilabi birliklər yaratdı. Onlar küçələrə tökülüşüb, Çin cəmiyyətini, kapitalist yolunu tutmaqda günahkar olan elementlərin natəmizliyindən təmizləmək istəyirdilər. Məktəblər, universitetlər, fabriklər və hətta hökumət üzvləri – nazirlər Qırmızı Qvardiyaçıların yoxlamasına tabe olmalı idilər. Bu Böyük Proletar Mədəni İnqilabı (hərfi mənada Çin dilindəki adı «proletar mədəniyyəti yaratmaq üçün böyük inqilab» kimi tərcümə olunurdu) 1966-cı ildən 1976-cı ilə kimi on il ərzində davam etdi. Qırmızı Qvardiyaçılar millətin diqqətini ona cəlb edirdilər ki, «dörd köhnə» ad altındakı- köhnə ideyalar, köhnə mədəniyyət, köhnə qaydalar və köhnə adətlər ləğv edilsin. Onlar məbədləri dağıdır, əcnəbi yazıçıların kitablarını yandırırdılar. Onlar küçə adlarını cırıb atır və onların yerinə inqilabi adlar qoyurdular. Mao təlimindən uzaqlaşmaqda şübhələnən adamlara hücumlar edilirdi. Belə ittiham olunanlar ictimai mitinqlərdə alçaldılır, onlar öz «cinayətlərini» etiraf etməyə məcbur edilirdilər. Xunveybinlər professorları, böyük dövlət xadimlərini diz üstə çökdürüb, onların başına, inkvizitorların istintaq apardıqları adamların başına uzun konusvari papaq geyindirdikləri kimi, ağ kolpak qoyurdular, onlara hər cür təhqir yağdırırdılar. Həmin canfəşanlığın bir nəticəsi kimi də ziyalılar kənd təsərrüfatı əməyi ilə məşğul olmağa göndərilirdilər.

Mao başa düşdü ki, daimi inqilabi həvəs əhval-ruhiyyəsini dəstəkləmək heç də asan iş deyildir. Partiya üzvləri də daxil olmaqla əsas qruplar və çox sayda hərbi zabitlər «daimi inqilab» barədə Maonun arzusuna tərəfdar çıxmışdılar. Xalq hərəkata qarşı çıxmağa başladı və 1976-cı ilin 9 sentyabrında Mao öldükdə, praktiki qaydada düşünən islahatçılar hakimiyyəti radikalların əlindən aldılar və Çin problemlərinə daha ratsional münasibət bəsləməyə keçdilər. Maodan bir neçə ay əvvəl- həmin ilin 8 yanvarında Çjou Enlay da həyatdan getmişdi. Maonun -“böyük sükançının” və

özünün adlandırdığı kimi “qoca Buddanın” vəfatı xəbərini xalq böyük hüznlə qarşıladı.

Maonun Çin inqilabına başçılıq etdiyi tarixin maraqlı səhifələri vardır. Çin Qızıl Ordusu qoşunlarını Qomindan ordusunun mühasirəsindən çıxarmaq üçün o, 1934-1935–ci illərdə şimal əyaləti olan Şensiyə «Böyük Yürüşü» təşkil etmiş və orada kommunist dayaq mərkəzi yaratmışdı. Bu yürüşün yolu 2 min km məsafədə olmaqla, şimali Çindən keçirdi. «Böyük Yürüş» dağ silsilələrindən və səhradan keçməklə bir il davam etmişdi.

Maonun ölümündən sonra yeni mühüm hadisələr baş verdi. Böyük sıçrayış da, mədəni inqilab ideyaları da artıq arxada qalmışdı. Çin xalqı gələcəyə yeni qapı açmağı bacardı. Xalqa xas olan daxili müqavimət qüvvəsi mədəni inqilabın milli xarakterə ağır təsir göstərməsinə imkan vermədi. Düzdür, xunveybinlər onlara deyilənləri təkrar edirdilər, onlar əllərində kiçik sitat kitabçasını yelləyərək deyirdilər ki, əgər Günəş gündüz işıq saçırsa, Maonun əsərləri əbədi işıq buraxır. Lakin bu, xalqın psixologiyasına ciddi xətər toxundura bilmədi. Bu, sadəcə rəhbərə ritual təzimi praktikası idi. Ona görə də Çinin öz xarakteri ölmədi. Bəzilərinin fikrinə görə, mədəni inqilabın yeganə müsbət cəhəti ondan ibarət oldu ki, insanlar həm də sərbəst qaydada düşünmək və hansısa bir dərəcədə fikrini azad ifadə etmək imkanı qazandılar. Ümumi psixozun təsiri ilə yanaşı adamlar qadağalar qandalının qırıldığını güman edib, yuxarıdan gələn göstərişə boyun əyməklə yanaşı, sərbəst fərdi fikrə gəlməyi də öyrəndilər.

1970-ci illərdə Çin-amerikan əlaqələri yaxşılaşmaqda davam etdi, 1979-cu ildə iki ölkə arasında diplomatik əlaqələr quruldu. Bu dövrdən Çin və Birləşmiş Ştatlar «strateji münasibətin» qapısını döydülər və bununla Asiyada Sovet müdaxiləsinə qarşı mübarizələrini əlaqələrdirməyə başladılar.

Çinlə SSRİ arasındakı münasibətlər ideoloji və siyasi çəkişmələr atmosferində gedirdi. Çin hətta sərhədlər barədə 1858-ci il müqaviləsini ləğv etməyi qərara aldı və 1903-cü ildə Rusiyaya keçmiş bütün ərazilərin geri qaytarılmasını tələb etdi. Danışıqlar heç bir nəticə vermədi. Nəhayət, SSRİ də öz növbəsində 1964-cü ildə Sovet-Çin sərhədlərini dəyişikliyə məruz qalmayacağını bəyan etdi. Sərhədlər üstündəki mübahisə artıq üç il ərzində davam edən ideoloji mübarizəni daha da kəskinləşdirdi. Çəkişmə sonralar da «böyük proletar mədəni inqilabı» illərində də davam etdi. Maoist rəhbərlik sinfi mübarizəni kəskinləşməsi tezisindən çıxış edərək, bunu «sosialist tərəqqisi» kampaniyası kimi aparırdı və Sov. İKP-nin Qərblə dinc yanaşı yaşamaq barədə irəli sürdüyü xətti rədd edərək, onu «təftişçilik» kimi ittiham edirdi.

«Dördlər bandası» və islahatçılar

Maonun ölümündən sonra hakimiyyəti qəsb etməyə çalışan və «dördlər bandası» adlanan qrup partiya rəhbərliyindən uzaqlaşdırıldı v onlara qarşı cinayət işi başlandı. İş 1981-ci ilin yanvarında başa çatdı. Maonun dul qadını Tszyan Tsin və keçmiş baş nazir Çjan Çjunçjao ölüm cəzasına məhkum edildi, iki nəfərə isə azadlıqdan məhrum edilmə cəzalsı verildi. Təşəbbüsü «böyük proletar mədəni inqilabı»nın əleyhdarları ələ keçirdilər.

1981-ci ildə keçirilən ÇKP MK plenumu öz qərarında Mao Tszedunun və onun ideyalarının tarixi roluna, həm də xalq respublikasının nailiyyətlərinə qiymət verdi. Qərarda Mao Tszedunun ləyaqətləri və nöqsanları qiymətləndirildi, göstərildi ki, "mədəni inqilab" vaxtı onun böyük səhvlərinə baxmayaraq, Çin inqilabına onun töhfəsi daha böyükdür. Səhvlər isə inqilabın görkəmli rəhbərinə məxsus idi. Qərarda deyilirdi ki, Mao Tszedun "böyük marksist, böyük proletar inqilabçısı, strateqi və nəzəriyyəçisi" idi.

Partiyanın praqmatik qanadı sənayeləşməyə üstünlük verdi. «Dördlər bandası» üzərində proses başa çatdıqdan sonra hakimiyyət uğrunda mübarizənin yeni mərhələsi başlandı. Xua Qofen partiyanın sədri vəzifəsindən azad edildi. Hakimiyyətə Den Syaopin tərəfdarları gəldi, onun təşəbbüsü ilə dərin sosial və iqtisadi islahatlar prosesi başlandı. Onun məqsədi ölkənin modernləşdirilməsi və Qərblə daha dərin əlaqələrin qurulması idi.

1984-cü ildə Çinlə Böyük Britaniya arasında imzalanan birgə bəyənata görə 1997-ci ildə İngiltərə Syanqanı (Honkonq) Çinə qaytardı. Çində sosializm sistemi mövcud olduğu halda Syanqan yarım əsr ərzində kapitalist sistemində yaşamağı davam etdirəcəkdir. "Bir dövlət, iki quruluş" ideyası Çinin birləşməsi üçün nəhəng əhəmiyyətə malik olduğunu və həyati əhəmiyyət daşıdığını nümayiş etdirdi. Den Syaopinin 1986-cı ildə dediyi "Materikdə sosializm olacaq, bu vaxt Tayvanda da kapitalizm qalacaqdır" sözlər həmin ada barədə də oxşar mülayim siyasət aparılacağını vəd edirdi.

1992-ci ildə ÇXP-nin XIV qurultayında Den Syaopin kursuna sədaqət təsdiq edildi. Den Syaopin Çini fövqəl dövlət kimi bərpa etməyə cəhd edirdi, daim ABŞ-ın birqütblü hegemonluğunun əleyhinə çıxış edirdi. Bu 88 yaşlı siyasətçinin özü qurultayın işində iştirak etmirdi, lakin Siyasi Büroda əsas vəzifələrə ona sədaqətli olan adamlar seçildilər. Partiyanın sədri vəzifəsini yenidən Tszyan Tszemin tutdu o, 1989-cu ildən həmin vəzifədə idi. ÇXR Dövlət Şurasının sədri vəzifəsinə Li Pen seçildi.

Qurultayın qətnaməsində sosializmin Çin modelinin inkişafında Den Syaopinin töhfəsi qeyd edildi, qurultay iqtisadi islahatlar kursunu təsdiq etdi. Ancaq siyasi həyatın demokratikləşdirilməsi problemi qurultayda müzakirə edilmədi.

Təkcə onu göstərmək kifayətdir ki, 1980-ci ildə Den Syaopin iqtisadiyyata mərkəzi nəzarəti zəiflətməyə başladıqda Çində adambaşına düşən ÜDM paritet alıcılıq qabiliyyətinə görə hesablandıqda 193 dollar idi. Bu gün həmin göstərici təqribən 7 min ABŞ dollarına bərabərdir və ya 36 dəfə çoxdur. Bu mənzərə həmin böyük islahatçının başladığı düzgün siyasətin nəhəng həyatiliyini sübut edir.

Xu Zintaodan sonra partiya rəhbərliyinə gələn Si Tsinpin ölkə üçün böyük təhlükəyə çevrilən korrupsiyaya qarşı kəskin mübarizə aparılması vəzifəsini irəli sürdü. Onun «pələnglərə və milçəklərə zərbə vur» şüarı bu mübarizədə yüksək vəzifəlilərə heç bir güzəşt edilməyəcəyindən xəbər verir. Reallıq bu vəzifənin ardıcıllıqla həyata keçirildiyini təsdiq etdi. Ölkənin Dövlət Təhlükəsizliyi Komitəsinin sədri, o, həm də Siyasi Büronun tərkibinə daxil idi, həbs edildi və ona qarşı cinayət işi qaldırıldı. Onun protejesi və qanunsuz işlərdə daim himayə etdiyi bir milyarder ölüm cəzasına məhkum edildi. Ondan əvvəl bir böyük partiya xadiminin aparvadi da həmçinin ölüm cəzasına, özü isə azadlıqdan məhrum edilmə cəzasına məhkum edilmişdi.

Çində fond birjasının uçqunu

Nailiyyətlərdən söhbət gedirsə, bu heç də o demək deyildir ki, Çin iqtisadiyyatı bütünlüklə problemlərdən xalidir və ancaq hamar yolla irəliləyir. Bu, əslində belə deyildir. Çin dünyanı bürüyən 2008-ci il böhranından kənarda qalsa da, 2015-ci ilin yayında gözləmədiyi ağır çətinliklərlə, maliyyə sisteminə dağıdıcı təsir göstərən bir vəziyyətlə üzləşməli oldu. İyulun 7-də fond birjalarının uçqunu baş verdi. Çində bazar artıq iyun ayında titrəməyə başlamışdı, burulğanlığı əvvəllər də müəyyən dərəcədə yaşamışdı. Lakin həmin gün Şanxay və Şençjen birjalarında 173 şirkət qiymətli kağızlarının ticarətini dayandırdı. ÇXR fond birjalarının kəskin uçqununa görə həmin şirkətlər öz səhmlərinə qiymət qoyulmasını kəsdilər. Səhmlərin qiymətlərinin son 20 ildə ən iri miqyasda düşməsi baş verdi.

Kəskin uçqun marjinal (ən yüksək həddə) ticarətin aparılmasının və ya qiymətli kağızların satın alınması üçün borc almaqdan istifadə edilməsinin nəticəsi idi. Bu «iqtisadi qovuq» təhlükəsi yaratdı. Beləliklə, şirkətlərin ÇXR fond birjalarında qiymətləndirilən qiymətli kağızları öz dəyərlərinin çox hissəsini itirdi. Ziyanın ümumi məbləği 3 trilyon ABŞ dollarına bərabər oldu. 7 iyundan başlayaraq Şanxay və

Şençjen birjalarının dövriyyələri üçdə bir həcmində aşağı düşdü və bu, ÇXR-də 1992-ci ildən sonra ən böyük azalma idi. Bu birjalarda isə 940 müəssisə öz qiymətli kağızlarını yerləşdirmişdi.

Çin fond bazarının uçqunu bütün dünyada birjadakı qiymətlərin 6-8 % aşağı düşməsinə səbəb oldu. ABŞ-da Dou-Cons indeksi 589 punkt və ya 3,6 % aşağı düşdü. Asiya birjaları görünməmiş həyəcanlı vəziyyət yaşamağa başladı. Çində 8 iyul 2015-ci ildə milli indeks 8 % endi. «8» rəqəmi Çində uğuru rəmzləndirir, belə ki, bəzi dialektlərdə bu, «çiçəklənmə» sözü mənasını verir. Təsadüfi deyil ki, Çində Beynəlxalq Olimpiya oyunları üç «8» rəqəmi ilə - 08.08.2008-ci ildə başlanmışdı. Lakin neqativ «8-lik» (2015-ci il iyulun 8-i) əslində tam əks mənanı bildirirdi. Həmin ayda investorlar öz səhmlərinin üçdə birini, ölkə iqtisadiyyatı isə 3 trilyon ABŞ dolları itirdi. Bu fond birjalarının ən güclü şəkildə aşağı düşməsi idi. Çinin uçub aşağı enən indeksi özünün arxasınca bütün qonşu Asiya ölkələrini də çəkib apardı.

İyul ayında baş verən Çin birjası qovuğunun dağılması təkrarən ay yarımdan sonra, 24 avqustda baş verdi. Ona görə də KİV-lər bunu «qara bazar ertəsi» adlandırdılar. Birja 8,5 % aşağı düşməklə bağlandı, bunu isə həqiqətən uçqun adlandırmaq olar. Amerikada Dou-Cons indeksi 6,8 %-ə qədər aşağı düşdü. Hələlik öz səhmlərini aşağı qiymətə satmaqdan imtina edib, saxlayan birja oyunçuları daha ağır vəziyyətə düşdülər.

Lakin fond birjalarının bu uçqunu panika üçün səbəb rolunu oynamır. Hökumət ciddi tədbirlər görməyə başladı. Bu vəziyyəti yüngülləşdirmək, fond bazarında stabillik yaratmaq üçün 140 milyard ABŞ dolları məbləğində pul xərclədi. Lakin bu, Çinin gələcəyi barədə həyəcanı bütünlüklə aradan qaldıra bilməz. Ölkədə artım tempi yavaşıyacaq, investisiyalar daha sürətlə azalacaqdır.

Ancaq hökumətin istehsalın artım sürətini stimullaşdırmaq üçün kifayət qədər vasitələri vardır. Dövlət şirkətləri öz səhmlərini geri satın aldı. Çin Mərkəzi Bankı əsas faiz tarifini 25 bazis punktu məbləğində aşağı saldı. Pekinin «People`s Daily» qəzetinin yazdığı kimi, «bizdə fond birjalarında stabilliyi saxlamaq üçün şərt, imkan və əminlik vardır». Sentyabrın 1-də Çində 200 nəfər birjada panika yayanların həbs edilməsi bu ümidləri doğrulur.

Onlar öz təqsirlərini etiraf etmişlər. Bu, digər fırıldaqçılar üçün də yaxşı siqnaldır. Çox istərdik ki, bu nikbinlik Çinin iqtisadiyyatının gur inkişafını yenə də müşayiət etsin, problemlərin uğurlu həllinə köməklik göstərsin.

Çində fond birjalarının uçqunu klassik biabırçı təcrübədən kənara çıxmır. Səhmlərin qiymətlərinin şişirdilməsi, əsasən onun gələcəkdə böyük fayda gətirməsi ümidləri ilə bağlı olduğuna görə baş verir. Şirkətlər boş vəd verdiklərindən səhmlər

yüksək qiymətə və qısa müddətdə satılırdı. Lakin bu ümidlərin doğrulacağına yaranan şübhələr həmin səhmlərin qiymətlərinin xeyli aşağı düşməsinə səbəb olur və bu, uçqun simptomu əmələ gətirir. Xalq da tez varlanmaq naminə şirkətlərin vədlərinə aldanıb, real qiyməti aşağı olan, lakin çox baha satılan səhmləri almağa başlayırdılar. Çində savadsız və ya azsavadlı adamlar səhm sahiblərinə çevrildilər. Bəzi məlumatlara görə, uçqun nəticəsində 200 min səhm sahibi ziyan çəkdi. Tarixi təcrübə də göstərir ki, şirkətlər səhmlərin qiymətini qovuq kimi şişirtdikdə, bu «sabun qovuğu» hökmən partlayır və səhmlərin qiyməti kəskin surətdə aşağı düşməyə başlayır.

Belə faktlar tarixdə əvvəllər də mövcud olmuşdur, lakin onlar Çindəkindən bir qədər fərqli idi. Bunun ilk nümunələrinə XVIII əsr Avropasında rast gəlinmişdir. İspan irsi uğrunda müharibəyə son qoyan 1713-cü ildəki Utrext sülhündən sonra Fransa və İngiltərə maliyyə böhranı ilə üzləşdi. Hər iki ölkədə şişmiş borcu ödəmək üçün yol tapmaq lazım idi. Britaniya hökuməti bank və kreditlər vasitəsilə öz resurslarını artırmışdı. Bütün Qərbi Avropanın özəl şəxsləri öz topladıqları vəsaitdən sahibkarlıq üçün pul - ssuda verməyə qayğı göstərirdilər, öz kapitallarının işləməsini istəyirdilər. Bütün bu situasiyadan kənarda İngiltərədə «Cənub dənizi qovuğu», Fransada isə «Missisipi qovuğu» baş qaldırdı. Hər iki «qovuq» 1720-ci ildə başladı və uzun müddət ərzində təsir gücünə malik oldu. Səhm sahibləri öz paylarını satın alırdılar, böyük miqdarda nağd pulu borc kimi girov hesabına bankdan götürürdülər. Bank öz əməliyyatları üzərində açıq inhisardan istifadə edirdi. “Cənub dənizi kompaniyası” müxtəlif kommersiya imtiyazlarından istifadə edirdi.

Toplanmış pul ticarət və kənd təsərrüfatı torpaqlarından çıxarılırdı, böyük gəlir əldə etmək ümidi ilə səhm kimi bu şirkətlərə qoyulurdu.

Fransada 1717-ci ildə “Missisipi kompaniyası” yarandı, bir il sonra Şimali Amerikadakı Luiziana ilə ticarətdə (Fransaya mənsub olan bu ərazini təqribən bir əsr sonra Napoleon Tomas Ceffersonun prezidentliyi dövründə ABŞ-a satmışdı) inhisarı ələ keçirdi və tezliklə Asiyadakı və Afrikadakı iri kompaniyaları həmin şirkət özünə absorbsiya etdi. Bütün müstəmləkə ticarətində açıq inhisara malik oldu, özəl şəxslərə birja səhmləri satırdı. Hamı da bu səhmləri həvəslə alırdı. Onların qiyməti çox yüksək idi. Kompaniya isə hələ realizə olunmamış layihələrə əsaslanırdı.

Səhm sahibləri öz pulları üçün qorxmağa və bu vaxt özlərindəki səhmləri satmağa başladılar. Bazar kəskin surətdə dağıldı. Çoxları öz həyat əmanətlərinin əldən çıxdığını başa düşdü. Digərləri girov qoyduqları mülkləri itirdilər. İnflyasiyaya uğramış qiymətlərin partlayışı ilə yalnız o adamlar uduzmamışdı ki, onlar səhmləri spekulyasiya isitməsindən əvvəl, xeyli ucuz qiymətə almışdılar.

İngiltərədə də “Cənub dənizi kompaniyası”nın səhmləri yüksək qiymətə satılmışdı. Öz səhmlərin qiyməti qısa müddətdə 10 dəfədən çox qalxdı. Saxta layihələrə görə kompaniyalar təşkil edilir və onların səhmləri ən yüksək qiymətə satılırdı. Sonra qorxuya düşən səhm sahibləri onu satmağa başladılar. Beləliklə, adamların çoxu başa düşdü ki, yığdıqları pul və onlara çatan irsi mülkiyyət girov qoyulduğuna görə yoxa çıxmışdır.

Hər iki ölkədə böyük qəzəb meydana gəldi. Hər iki hökumət bu biabırçılıqda iştirak etmişdi. Çində isə hökumət «səhm qovuğunda» İngiltərə və Fransadan fərqli olaraq bilavasitə iştirak etməmişdi. Britaniya bu böhrandan daha yaxşı qaydada sağala bildi. Fransada bu fırıldağın müəllifi olan Lonun yaratdığı bank ləğv edildi. İngiltərədə gələcəkdə bu hadisənin təkrar edilməməsi üçün parlament «Qovuq Aktı»nı qəbul etdi, həm də İngiltərədə borc danılmadı və hökumət öz obliqasiyalarını ödədi. Fransada isə hökumət etibardan düşdü.

Digər böyük bir iqtisadi böhran olan Böyük Depressiya 1929-cu ildə başlanmışdı. 1920-ci illər, ümumiyyətlə, bütün dünyada kənd təsərrüfatının xroniki depressiya dövrü idi, fermerlər öz borclarını qaytara bilmirdilər. Avropada buğda zəmiləri I Dünya müharibəsi dövründə baş dəfə azalmışdı. Buğdanın dünya qiyməti qalxırdı. Lakin fermerlər qoyduqları girovu geri ala bilmirdilər. Müharibədən sonra Avropada traktorların istifadəsi ilə kənd təsərrüfatının mexanikləşdirilməsi və digər proqressiv vasitələr hesabına məhsuldarlıq beş dəfə artdı. Buğda istehsalının izafi bolluğu yüksəldi. Lakin tələbat ona müvafiq olaraq artmırdı. Xalq heç də artıq miqdarda çörək almaq istəmirdi. Buğdanın qiyməti xeyli aşağı düşdü, bu vaxt bu ərzaq məhsulu 400 il əvvəldə olduğundan aşağı qiymətə satılırdı. Digər kənd təsərrüfatı bitkiləri istehsalı da tənəzzülə uğradı. Şəkərin qiyməti də çox aşağı düşdü.

Bu, 1929-cu il Böyük Depressiyasına səbəb oldu. Sənaye depressiyaya uğrayanda şəhər əhalisi ərzağa sərf etdiyi xərcləri azaltmağa başladı və bu vəziyyət fermerləri daha da yoxsullaşdırdı.

Böyük Depressiya 1929-cu ilin oktyabrında Nyu-York Fond Birjasının dağılması ilə başlandı. Burada qiymətlər izafi spekulyasiya hesabına fantastik yüksəkliklərə qalxmışdı. Sadə adamlar da çox pul qazanmağa cəhd edirdilər, borc götürülmüş pula səhmlər alırdılar. Onlar öz imkanlarından 5-10 dəfə çox səhmlər alırdılar, xəyalən bu borcu ödəyəcəklərini düşünürdülər. Onlar banklardan borc pul götürürdülər. Bu birja qiymətlərini qaldırırdı və adamlar bəxtlərini kağıza bağlayırdılar. Belə satış fond birjasında qabarma dalğası yaratdı. Lakin səhmlərin qiymətlərini məhvedici şəklindəki aşağı düşməsi başlandı. Bir ayda səhm qiymətləri 40% düşdü. 1929-cu ildən 1932-ci ilədək səhmləri Nyu-York Fond birjasında satılan

50 iri sənaye şirkətlinin orta dəyəri 252-dən 61-ə düşdü. Həmin üç ildə 5 min amerikan bankı öz qapılarını ağladı.

Böhran maliyyədən sənayeyə, Birləşmiş Ştatlardan isə dünyanın qalan hissəsinə yayıldı. Amerikan kapitalının müharibədən sonrakı gur ixracı başa çatdı. Öz gəlirləri aşağı düşdüyündən amerikanlar xarici malları almağı dayandırdılar. Şirkətlər və adamlar hər yerdə onlara olan borcu ala bilmirdilər və fabrik-zavodlar öz məhsullarını ya sata bilmir, ya da bütünlüklə bağlanırdı.

Dünya istehsalı üç ildə 38% aşağı düşdü, dünya beynəlxalq ticarəti 2\3-yə qədər azaldı. Birləşmiş Ştatlarda milli gəlir 85 milyard dollardan 37 milyard dollara düşdü. İşsizlik artdı. 1932-ci ildə dünyada 30 milyon işsiz var idi. Adamlar həyatının əsas hissəsini işdən kənarda keçirirdi. Milyonlarla adam dolanışığından məhrum olmuşdu, çoxları ailələrini xeyriyyə vəsaitləri və maddi yardımlar hesabına saxlayırdı. Ölkələr öz iqtisadiyyatlarını himayə etməyə keçdilər, öz valyutalarını devalvasiya edirdilər. Ticarət hətta barterə yaxın olan qaydada keçirilirdi. İxrac və idxal hökumətin lisenziyasına tabe edilir, bütövlükdə xarici ticarət mərkəzləşmiş qaydada planlaşdırılmalı və idarə edilməli idi. Bu, SSRİ qaydasına yaxınlaşırdı. İqtisadi millətçilik güclənirdi.

Tarixi nümunələr, əlbəttə ki, Çində baş verən fond birjası uçqunundan daha geniş miqyası əhatə edirdi, ona görə də ciddi iqtisadi və sosial böhrana səbəb olmuşdu. Çində isə fond birjalarının çökməsi heç də ümumi böhrandan xəbər vermir və prosesin davamına mane törədilsə, ölkə və xalq nisbətən az ziyanla həmin vəziyyətdən çıxa biləcəkdir. ÇXR-in potensialı bu qorxulu çağırışa uğurla cavab vermək ümidi yaradır və düzgün iqtisadi və maliyyə siyasəti problemin böyüməsinə və onun ziyan vurmasının artmasına çox güman ki, imkan verməyəcəkdir.

Müasir Çin möcüzələr ölkəsidir

Çin xalqı özünün qədim sivilizasiyası, zəngin tarixi ilə fəxr edə bilər. Xalqı birləşdirən mədəniyyət fenomeni hələ bizim eradan əvvəl 221-ci ildə əvvəlki dövlətlərdən yaranan vahid mərkəzləşmiş imperiyanın ərazisinin min illər boyu qorunub saxlanmasında mühüm rol oynamışdır. İmperiya hərbi qələbələr hesabına meydana gəlmiş, sonralar çox sayda uğursuzluğa və uğura düçar olsa da, tarix boyu çölün köçəri xalqlarının, ondan çox şeyi əxz etmiş yaponların və Qərb ölkələrinin

genişmiqyaslı işğallarına və müstəmləkə meylləri ilə üz-üzə gəlsə də, nəticə etibarilə öz böyük ərazisini qoruyub saxlaya bilmişdir. 1949-cu ildən həmin ərazidə Çin Xalq Respublikası özünün əvvəlləri heç də asan olmayan, üç onillik ərzində ona ağır zərbə vuran sosial və iqtisadi eksperimentlərə son qoya bilmiş, sosializmin və kapitalizmin elementlərinin tətbiqindən fayda götürməklə, Den Syapinin ifadə etdiyi "pişiyin rənginin necə olması vacib deyildir, təki o siçan tutsun" prinsipini həyata keçirməklə böyük iqtisadi və sosial yüksəliş dövrünə qədəm qoymuşdur. 1987-ci ildə o, bu metaforanı dilə gətirərkən əlavə etmişdi ki, "Real həyatda heç də hər şey sinfi mübarizə deyildir." Onun böyük məqsədi güdməklə söylədiyi bu məşhur kəlmə, altında praqmatik iqtisadi islahatların həyata keçirildiyi qeyri-rəsmi devizə çevrildi. Bugünkü bol bəhrələr Çinin iqtisadi islahatlar banisinin uzaqgörənliyinin canlı sübutu oldu.

Çinin səmasından siyasi kataklizmi andıran həmin böyük sıçrayışın və mədəni inqilabın qara buludu çəkilmiş, ölkə stabilliklə müşayiət olunan iqtisadi zirvələrə qalxmaq yolunu tutmuşdur. Çinin son otuz ildəki iqtisadi inkişaf səviyyəsi Böyük Çin Səddini andırır, dünyada Səddin tayı-bərabəri olmadığı kimi, ölkədəki ardıcıl həqiqi proqress dövrünün də müasir dünyada oxşar miqyasda bənzəri yoxdur. XX əsrin 60-cı illərində müharibənin dəhşətlərini arxada qoyub, böyük iqtisadi yüksəlişə malik olan Gündoğan ölkədə baş verənləri «Yapon möcüzəsi» adlandırırdılar. Çinin ən azı XXI əsrin başlanğıcında əldə etdiyi möhtəşəm nailiyyətlər heç də az möcüzə xarakteri daşımır.

Çin öz əhalisini ərzaqla təmin etməklə yanaşı, yenə də kənd təsərrüfatı məhsullarının ixracından xeyli fayda götürür. Çinin sənaye inkişafı isə heyrət və təəccüb doğurmaya bilməz. Bir əsrdən də az əvvəl sənaye istehsalı cəhətdən çox geridə qalan Çin indi demək olar ki, bütün dünyaya sənaye maşınları ixrac edir və onların böyük əksəriyyəti ən müasir texnologiyalara əsaslanır. ÇXR ixrac həcminə görə dünyada birinci yeri tutur, ixrac dövlətin valyuta gəlirinin 80 faizini verir. İndi Çin əsl dünya fabrikidir. İxrac malları istehsal edən sahələrdə 20 milyon adam çalışır. Ölkə sənayesinin və kənd təsərrüfatının ümumi daxili məhsulunun 20 faizi ölkədən kənara satılır. İxrac nomenklaturası 50 min addan ibarətdir. ÇXR dünyanın 182 ölkəsi və rayonları ilə ticari-iqtisadi əlaqələr saxlayır. Onun əsas ticarət partnyorları inkişaf etmiş Yaponiya, ABŞ, Qərbi Avropa dövlətləridir, xarici ticarət dövriyyəsinin 55 faizi bu dövlətlərin üzərinə düşür. Rəqabətə ən davamlı məhsullar kimi paltar, ayaqqabı və oyuncaqlar qalmaqdadır, ancaq elektronika, velosiped, mototsiklet, avtomobillər, nəqliyyat və inşaat maşınqayırması məhsullarının ixracı daha fəal surətdə inkişaf edir.

Artıq 2005-ci ildən Çin yüksək texnoloji avadanlıqların ixracının həcminə görə bütünlüklə inamla liderlik edir.

ÇXR-n toxuculuq sənayesi dünyada birinci yeri tutur, ona görə də çox sayda ölkələrdə onun məhsullarına rast gəlmək mümkündür. Toxuculuq sənayesi sintetik parçalardan paltar hazırlamaq üzrə ixtisaslaşmışdır.

1980-ci illərin ortalarından ölkə əhalisinin ərzaqla təmin edilməsinə nail olunmuşdur. Bu gün meyvələr, balıq, dəniz məhsulları, həmçinin pambıq əsasən MDB ölkələrinə ixrac edilir. Çin üzüm plantasiyalarının sahəsinə görə Fransanı ötüb keçərək, İspaniyadan sonra dünya reytinqində ikinci yeri tutmuşdur.

2012-ci ildə Çinin idxal və ixracının həcmi 3 trilyon 886,76 milyard ABŞ dolları təşkil edərək, əvvəlki illə müqayisədə 6,2% artmışdır. Ondan ixracın həcmi 2 trilyon 48.93 milyard dollar olmaqla, 7,9% artmışdı. İdxalın həcmi 1.817,83 milyard olmaqla 4,3% çoxalmışdır. Xarici ticarətdə Çin müsbət saldoya malikdir.

Coşqun iqtisadi yüksəliş ÇXR-i enerji resurslarının idxalında daha böyük asılılqda qoyur. Dünya neft bazarında Çinin payı 8%-ə bərabərdir və 2000-ci illə müqayisədə neft məhsullarına tələbat 30% artmışdır. Çinin istifadə etdiyi neftin 1\3-dən çoxu idxalın payına düşür. 2002-ci ildə ölkənin özündə 168 milyon ton neft istehsal edildiyi halda, istehlak həcmi 245 milyon ton olmuşdu. Çinin öz neft yataqlarında bu səvətin hasilatına və ya daha səmərəli istehsal üsullarının tətbiqinə görə xərclər nəzərə alındıqda idxal edilən neft daha ucuz başa gəlir.

Çin dünya iqtisadiyyatının yeni arxitekturasını yaradır. 2013-cü ildə inflyasiya 2,6% təşkil etmişdi. Şəhərlərdə 13 milyondan çox yeni iş yerləri yaradılmışdı. Şəhər və kənd sakinlərinin təmiz gəlirlərinin artımı müvafiq olaraq 7% və 9,3%-ə yüksəlmişdi. İlbəil Çin qlobal iqtisadi proseslərə inteqrasiya olunur və bu gün bir sıra göstəricilərə görə Çinlə müqayisə oluna bilən iri dövlət tapmaq çətindir. Hətta ABŞ da çox böyük sürətlə inkişaf edən Çin iqtisadiyyatı ilə müqayisə oluna bilmir. Çin texnologiya sferasının da yüksək sürətlə inkişafını təmin edir və qeydə alınmış patentlərin miqdarına görə ABŞ-ı xeyli qabaqlayır. Çində istehsal edilmiş mallar faktiki olaraq dünya bazarını doldurmuşdur. Ölkədə xidmət sferasına da ciddi fikir verilir. 2013-cü ildə Çinin ÜDM-nun strukturasında xidmətlərin payı 46,1% təşkil etməklə ilk dəfə olaraq sənaye bölməsinin payını ötüb keçmişdir. Çin iqtisadiyyatının uğurları onun islahatlara və innovasiyalara istiqamətlənməsi ilə izah olunur. Onlar isə bütövlükdə dünya iqtisadiyyatının yenidən qurulması üçün vacib şərtdir.

Çin dövlətinin maliyyə sahəsindəki cəsarətli təşəbbüslərindən biri öz valyutası olan yuanın universal pul vahidi statusuna nail olmasına təqdim etməsidir. Rusiya ilə bağlanmış müqaviləyə görə bu ölkədən satın alınan qaza olan xərclər Çin yuanı

vasitəsilə ödəniləcəkdir. Beləliklə, Çin valyutası tezliklə hətta o tam konvertləşdirilmiş olmasa belə, qlobal ehtiyat valyutaya çevrilə bilər.

Çin iqtisadiyyatı son üç onillikdə daim böyüyür. Proqnozlara görə, 2040-cı ilə Çin ABŞ-dan 3 dəfə iri iqtisadiyyata malik ola bilər. ABŞ-ın isə hələlik birincilik mövqeyi möhkəmdir və indi də davam etməkdədir. XXI əsrin əvvəllərində artıq Çin dünya sənaye fövqəldövlətinə çevrilmişdir. Çin həm də son illərdə kosmik tədqiqatlar ölkəsi kimi qəbul olunur. XX əsrin əvvəllərində isə rikşadan istifadə edən bir ölkə bu gün dünyanın ən iri avtomobil istehsalçısı sayılır. Heç bir elmi, texniki nailiyyət Çindən yan keçmir. Bu ölkədə 500 milyondan artıq internet istifadəçisi vardır.

Çini daha böyük proqress gözləyir, ona görə də dövlət rəhbərliyi başlanğıcını Şi Huandidən götürən mühüm ənənələri davam etdirərək daha böyük proyektlərə imza atır. Çin Avrasiyanın içərilərinə nəzarət etməyə qadir olan bir iddiaçı kimi çıxış edir. Düzdür, hazırda Pekin daha çox Afrikaya və Latın Amerikasına nüfuz edir, Afrikanın infrastruktura layihələrinə xeyli vəsait qoyur. Lakin onun əsas maraq dairəsi, bu acıqca elan olunmasa da, Avrasiyadır. Çin hərbi ekspansiyadan çox uzaqdır, lakin iqtisadi ekspansiyanı öz məqsədlərinə çatmağın mühüm vasitəsi hesab edir. Çinlilər Rusiyanın pis məskunlaşdırılmış Uzaq Şərqində və Sibirində həvəslə işləməklə, həmin ərazilərdə öz koloniyalarını yaradırlar. Rusiyanın neft və qaz şirkətləri getdikcə Çinin daha çox asılılığına düşürlər. Pekin bilir ki, hazırda pula, kreditə və yeni bazara çox ehtiyacı olan Rusiyaya öz şərtlərini diqtə edə bilər.

Rusiya Çinə 115 min hektarlıq kənd təsərrüfatı torpaqlarını icarəyə verməyə hazırlaşır. Bu, strateji əməkdaşlığı möhkəmləndirməklə yanaşı, dünya ərzaq böhranının həlli üçün də daha bir yol ola bilər. Çin Ukrayna ilə dəyəri 3 milyard dollar olan iri torpaq sahəsini icarəyə götürmək barədə danışıqlar aparmışdı, Ukraynada 2014-cü ildən etibarən baş verən hadisələr bu prosesə müəyyən maneçilik törətmişdir.

Pekin canfəşanlıqla İpək Yolunu bərpa etməyə çalışır, buna Avrasiyadan keçən fəvqəl magistral kimi baxır. Doğrudan da, İpək Yolu qitənin içərilərindən keçməklə Çini onun müxtəlif hissələri ilə etibarlı qaydada, o cümlədən Avropa ilə, Yaxın Şərqlə, Cənubi-Şərqi Asiya və Cənubi Asiya ilə birləşdirə bilər. Onu maliyyələşdirməkdən ötəri Çin yeni maliyyə institutları yaradır, məsələn,Asiya İnfrastruktura İnvestisiyaları Bankı və İpək Yolu Fondu. 2015-ci ilin martında Çində yeni köhnə yol adlanan İpək Yolunun çəkilməsinə dair beynəlxalq konfrans keçirilmiş, ÇXR sədri Si Tszipin bütün ölkələri bu işə qoşulmağa dəvət etmişdi.

ÇXR həm də yeni Asiya infrastrukturlarına investisiyalar bankını öz rəhbərliyi altında yaratmaqla, əslində dünyada yeni iri beynəlxalq maliyyə qurumunun meydana

gəlməsinə nail olur. 57 ölkə, həm də 20-yə yaxın beynəlxalq təşkilat bu yeni banka qoşulmuşdur. Həmin ölkələrin arasında Rusiya, Türkiyə, hətta Çinlə mürəkkəb münasibətlərinə görə, ağıla gəlməyən Tayvan da vardır. Bu bankın yaranmasının əsasında Çinin "bir zolaq, bir yol" ideyası durur. Bu qitə və dəniz İpək Yolları barədə köhnə ideyaların yeni keyfiyyətdə və nəhəng miqyasda həyata keçirilməsi cəhdidir. AİİB adlanan Asiyadakı yeni bank köhnə Asiya inkişaf bankının inhisarını dağıdacaqdır, onun isə iri partniyorları ABŞ və Yaponiyadır. Həm də Beynəlxalq Valyuta Fonduna və Dünya Bankına alternativ olmaqla, ABŞ-ın dünya ağalığını şübhə altına salacaqdır.

Yeni bankın layihələrinin əksəriyyəti həqiqətən beynəlxalq xarakter daşıyır və onlar digər dövlətlərin iştirakı və nəzarəti ilə həyata keçiriləcəkdir. AİİB-in yaradılması həm də dünya iqtisadiyyatı qaydalarındakı dəyişiklikləri əks etdirir. Ona Yaponiyadan başqa ABŞ-ın bütün müttəfiqləri qoşulmuşdur. Bankın başlanğıc kapitalı 100 milyard dollardır, onun yarısını Çin qoyacaqdır. İnfrastruktura layihələrinə isə on il ərzində Asiya ölkələri hər il 1 trilyon dollar sərf etməlidir. Çin bu işdə əsas rolu oynayacaqdır, çünki zəruri maliyyə imkanlarına malikdir. Həm də tarixdə heç bir ölkə bugünki Çin kimi belə çox və belə sürətli qaydada tikinti işləri aparmamışdır, bu da onun qazandığı böyük təcrübədən xəbər verir.

Layihənin iqtisadi aspekti isə geopolitika ilə sıx bağlıdır – bank Çinin regionda siyasi çəkisini xeyli artıracaqdır. Müasir dövrün siysi və iqtisadi çağırışı da məhz bundadır. AİİB-in 2015-ci ilin axırlarında fəaliyyətə başlayacağı nəzərdə tutulur.

Çinin bu təşəbbüsü dünya iqtisadiyyatında dollardan uzaqlaşmağa mühüm töhfə verəcəkdir, yuanın və digər milli valyutaların dolların yerinə istifadə imkanlarını xeyli artıracaqdır. Çinin işləyib hazırladığı bu sistem dolların ağalığına zərbə vurmaqla, dövlətlərin xarici ticarətində daha stabil iqtisadi baza təklif edir. ABŞ-ın hətta ən yaxın müttəfiqləri və ticarət partnyorları üçün də bu təşəbbüs cəzbedici kimi görünür. Axı dollar yalnız elementar qaydada pulu çap etmək yolu ilə dünya valyutası statusunda qalmaqda davam edir və onun ehtiyat valyuta olması real olaraq heç nə ilə möhkəmlənmir. Hazırda Çinin xeyli dövlət və özəl şirkətləri beynəlxalq sövdələşmələrdə dollar əvəzinə yuandan istifadə edirlər. Sentyabrın əvvəllərində Çin paytaxtındakı iki dövlətin rəhbərlərinin görüşündə Pekin və Moskva dolların dünyada amaerikan ağalığının aləti kimi istifadə edilməsinə son qoymağı qərara aldılar. Qərb jurnalistləri bunu istənilən qorxulu hərbi hərəkətlər sırasına daxil olan əsl müharibə elan etmək kimi qiymətləndirdilər. XX əsr Amerika əsri idisə, göründüyü kimi XXI əsr yəqin ki, Çİn əsri olacaqdır.

Vaxtilə Çingiz xan hərbi gücün vasitəsi ilə İpək Yolunda ticarəti xeyli asanlaşdırdığı və faydalı etdiyi kimi, axı imperiyada gömrük məsələləri kiçik dövlətlərin çoxluğuna nisbətən daha əziyyətsiz və vahid qayda əsasında aparılır, həm də tacirlərin və malların təhlükəsizliyi təmin edilir, indi bu işi Çinin maliyyə imkanları görəcəkdir və yeni İpək Yolu müasir insfrastruktura imkanları müqabilində daha sürətli və səmərəli işləməyə qadir olacaqdır.

Çinin yeni ideyası heç də fantaziya xarakteri daşımır, reallığa əsaslanmaqla yanaşı, müəyyən tarixi təcrübədən ilhamlanır. Bu təcrübələr bəlkə də müəyyən qlobal hadisələrə görə başa çatmasa da, ideya öz cazibədarlığını heç də itirməmişdir. Bu ideyanın ən son nümunəsi kimi bir əsr əvvələ nəzər salmaq yaxşı olardı.

1904-cü ildə geosiyasətin banisi olan ingilis coğrafiyaçısı ser Helford Makkinder «Kolumb erasının» – başqa sözlə, qərb dəniz dövlətinin ağalığının başa çatması və quru yol dövləti epoxasının meydana gəlməsi barədə məşhur sözünü dilə gətirmişdi. Yeni epoxada Avrasiyanın içəriləri dünya ağalığına açar rolunu oynayacaqdır. Bu ox regionu müasir mərkəzi və şimali Avrasiyanı tutan Rusiya imperiyasının ərazisi ilə üst-üstə düşürdü. Makkinder bu fikrini «Tarixin coğrafi oxu» əsərində ifadə edir. O, Avrasiya nəzəriyyəsini təsvir edərək, onu «dəniz ətrafı»nın (başqa sözlə, digər qitələrin) tabeçilyi şəklində olması vasitəsilə geopolitik bir hakimiyyətin təbii yeri adlandırmışdır. Ona görə də indi, bəlkə də, Makkinderin qabaqcadan görməsini silib yoxa çıxarmaq hələ tezdir. Çünki qitənin içərilərinə nəzarət etməyə yeni iddiaçı – Çin meydana çıxmışdır və Rusiya artıq onunla müqayisədə uduzur. Çinin strategiyası çox və ya az dərəcədə bu Britaniya coğrafiyaçısının nəzəriyyəsinə uyğun gəlir. Çin İpək Yolunu dirçəltdikdə başlıca rolu artıq dəvə karvanları deyil, dəmir yollarında hərəkət edən çox sürətli qatarlar oynayacaqdır. Çin öz dəmir yolları şəbəkəsini sürətlə genişləndirəcəkdir. Yüksək sürətli xəttlərin çəkilməsində Çin dünya liderinə çevrilməklə, qonşu dövlətlərin ərazilərində də bu işi davam etdirə bilər. Hələlik Mərkəzi Asiya bu nəhəng planın həyata keçirilməsində başlıca məqsəd rolunu oynayır.

Yəqin ki, başqa dövlətlərin ərazilərində təkcə dəmir yol şəbəkəsi deyil, həmçinin avtomobil yolları, boru nəqliyyatı və infrastrukturanın digər elementləri tikiləcəkdir. İpək Yolunun başqa mümkün ola biləcək bir qanadı Çindən şimalda olan istiqamətə yönələcəkdir. Nəzərdə tutulan yüksək sürətli dəmir yolunun bir hissəsi 7 min km uzunluğunda olmaqla Moskva ilə Pekini birləşdirəcəkdir, bu isə iki şəhər arasındakı yola sərf edilən səfər vaxtını 6 və ya hətta daha çox sutkadan 33 saata endirəcəkdir. İpək Yolunda sadəcə addımlamaqla olduqca yavaş hərəkət edən dəvə karvanlarını çox sürətlə gedən müasir elektrovozların çəkdiyi qatarlar əvəz edəcəkdir.

Əgər çinlilər öz dəmir yolu irəliləmələrində uğur qazansalar, onlar nəticədə Makkinderin «Transkontinental dəmir yollar quru ərazinin dövlətinin də vəziyyətini dəyişəcəkdir və onlar Avrasiyanın bağlı içərisində olan kimi heç yerdə belə böyük səmərəliliklə işləməyəcəkdir» kimi sözlərdə ifadə olunan ideyasının düzgünlüyünü də sübut edəcəklər. Dəmir yollarının dəniz yolları ilə müqayisədə üstünlüyünü vurğulamaqla, Makkinder qeyd edirdi ki, «qitə dəmir yolu vaqonu ixrac üçün işləyən fabrikdən bilavasitə idxalçının əmtəə anbarınadək hərəkət edə bilər». Müasir iqtisadi dildə bu tikişsiz nəqliyyat sistemi adlanır. Çin də, göründüyü kimi, Avrasiya nəqliyyat şəbəkəsinin məntəqəsi olmaq istəyir. Mühüm cəhət odur ki, Avrasiya qitə şəbəkəsi əsas etibarilə ABŞ üçün əlçatmaz olacaqdır, axırıncının hərbi-dəniz qüvvələri qlobal dəniz yollarına nəzarəti həyata keçirir, bu da əsasən dənizlə həyata keçirilən Çin ticarətinin ehtimal edilən kimi blokadaya alınmasına görə narahatçılıq törədir. Axı lord Palmerston XIX əsrin ortalarında Böyük Britaniyanın baş naziri kimi bir Mərakeş və Britaniya təbəəsi olan yəhudinin maddi marağına görə Yunanıstanı cəzalandırmaq üçün ölkənin başlıca limanı olan Pireyi blokadaya almışdı. ABŞ da öz hərbi gücünə bel bağlayıb Çinə qarşı hansısa uydurulmuş bir səbəbə görə belə cəza tədbirini tətbiq edə bilər.

Mərkəzi Çində olan transkontinental dəmir yolu şəbəkəsini okean yolları tamamlaya bilər, onlar Çin limanlarını uzaq Avrasiya sahilləri ilə birləşdirə bilər. Onların arasında ən mühüm olanı cənubi-şərqi Asiyanın dənizlərindən və Hind okeanından keçən Dəniz İpək Yoludur. Yaxın vaxtlardaTailandın cənub hissəsindən keçən Tay kanalının tikintisinə başlana bilər. Onun maliyyələşdirilməsi Çin tərəfindən həyata keçirləcəkdir və nəticədə Dəniz İpək Yolu Çinə dost olan Kamboca, Tailand və Birma kimi ölkələrin ərazilərinə yaxınlaşacaqdır. Əslində elə bil ki, Asiyanın şərqində yeni Panama kanalı meydana gələcəkdir və axırıncı Atlantik okeanla Sakit Okean arasındakı məsafəni min kilometrlərlə qısaldan kimi, Tay kanalı da oxşar funksiyanı həyata keçirəcəkdir. Belə olan şəraitdə amerikan hərbi-dəniz qüvvələrinin Malakka boğazına nəzarətinin əhəmiyyəti da azalacaqdır.

Çin həmçinin Şimal dəniz yoluna da maraq göstərir, bu, Rusiyanın nəzarət etdiyi Arktika akvatoriyasından keçir və o yoldan istifadə də həyata keçirildikdə Moskva Çinin daha yaxın «strateji partnyoruna» çevriləcəkdir.

Çinin Avrasiya konsepsiyasında iqtisadi düşüncələr geostrateji maraqlarla çulğlaşmışdır. İqtisadi nöqteyi-nəzərdən Çin onun rəhbərliyi altında olan nəhəng inteqrasiya olunmuş ərazinin yaranmasından fayda əldə edəcəkdir. Strateji nöqteyi-nəzərdən Çin təsirinin nəzarətində olan bu zona xeyli dərəcədə çin-amerikan münasibətlərində ciddi böhran baş verdikdə, düşmənçilik müdaxiləsi üçün heç də

kövrək olmayacaqdır. Birləşmiş Ştatlar Çin geoiqtisadi imperiyasının dəniz kənarlarına zərbə vurmaq gücündə olan ən qüdrətli hərbi-dəniz qüvvələrinə malikdir. Lakin Vaşinqton praktiki olaraq Avrasiyanın içərilərində Çinin quru hissəsinə zərbə vurmaq qabiliyyətində olmayacaqdır.

Özünün əvvəlki Avrasiya ambitsiyalarına baxmayaraq, Moskva Pekinin böyük layihəsinin yolu üzərində dayanmayacaqdır. İndiki şəraitdə Rusiya Qərblə pis münasibətlərini yaşadığına görə Çinə yaxınlaşmaqdan başqa elə bir çıxış yoluna malik deyildir. Rusiyanın yaşadığı iqtisadi böhranda Çin çətin vəziyyətdə olan bu ölkəyə kömək etməyə hazırdır. Rusiya mütəxəssisləri də etiraf edirlər ki, yeni İpək Yolu, təkcə gələcək iqtisadi faydası ilə deyil, həm də iqtisadi- siyasi düşüncədə Avrasiyada gələcək böyük qitə dövləti üçün «yüksəliş bazası» yaratmaq ümidləri ilə bağlıdır. Çinlə Rusiya arasındakı partnyorluq Avrasiyanın formasını dəyişməklə, onda yeni tarazlıq yaradacaqdır. Bu vaxt, əlbəttə ki, onun cazibə mərkəzi Moskvadan Pekinə keçəcəkdir.

Əgər Rusiyanın bəxti gətirərsə, onda o, nəticədə Çin «Kanadasına»- təbii sərvətlərin nəhəng anbarına çevriləcəkdir. Onları Moskva cənub qonşusuna ötürəcəkdir, bu vaxt həm də suverenliyinin müəyyən dərəcəsinin qoruyub saxlayacaqdır. Lakin ssenarinin pis variantına müvafiq olaraq Rusiyanın Çin imperiyası daxilində vassala çevrilmək qorxusu vardır. Çin isə uzun tarixində öz vassalları ilə necə davranmaq təcrübəsinə malik olmuşdu və belə variant da onun üçün hansısa çətinliyə səbəb olmayacaqdır.

1904-cü ildə Makkinder Rusiyanın Çin torpağına çevrilməsi imkanını nəzərdə tuturdu və bu təhlükəni görürdü. Çünki həmin hadisə bütün dünyada sülh üçün sarı təhlükə kimi meydana çıxardı. Sadəcə olaraq ona görə ki, bu halda dəniz sərhədlərini də böyük qitənin ehtiyatlarına əlavə edəcəkdi. Britaniya coğrafiyaçısı təkcə yaponlara görə səhvə yol vermişdi. O düşünürdü ki, onlar çinliləri təşkil edə bilərlər. Lakin o, bu vaxt mövcud şəraitlərdən çıxış edirdi, güclü yaponları və zəif, məğlub edilmiş çinliləri nəzərə alırdı. Bu gün artıq o dövrlər arxada qalmışdır. Tokio yalnız Moskva ilə Pekin arasında ittifaqın yaranmasının qarşısını almağa çalışır. Bir əsrlik məsafə Çinlə Yaponiyanın qüvvələri arasındakı nisbəti də əsaslı surətdə dəyişmişdir. Yuxarıda qeyd olunan ittifaq Yaponiyanı güclü düşmən bloku ilə üz-üzə qoya bilərdi.

Tarixə üç Avrasiya imperiyası məlumdur. Birinci imperiya monqolların XIII və XIV əsrlərdəki işğalları nəticəsində yaranmışdı və onun ərazisi Yapon dənizindən və Cənubi-Çin dənizindən Aralıq dənizinə qədər uzanırdı. 33 milyon kvadrat km. əraziyə malik olmaqla o tarixdəki ən böyük qitə imperiyası idi, lakin vahid tamlıq kimi uzun müddət yaşaya bilmədi. Həm Çin, həm də Rusiya həmin dövrdə bu köçərilərin

imperiyasının hissələri idi, onlar Daxili Monqolustan ərazisində yerləşən Karakorum şəhərindən, sonralar isə Xanbalıqdan idarə olunurdu. Daha sonra meydana Bizans və Rusiya imperiyaları çıxdı.

İndi Çinin növbəsi gəlmişdir, o, özünün «Avrasiya imperiyası» versiyasını əmələ gətirməyə cəhd edəcəkdir. Monqol və ya Rusiya dövlətlərindən fərqli olaraq, çinlilər hərbi gücdən deyil, yalnız iqtisadi gücdən istifadə edəcəklər. Ona görə də bu gün həmin yeni imperiyanın necə olacağını demək çətindir, lakin dumanın arxasından siluet artıq gözə dəyir.

Çinin rəhbərliyi altında Avrasiyanın inteqrasiyası sahəsində Pekinin cəhdləri Vaşinqtonda çoxları tərəfindən ciddi çağırış, hətta təhlükə kimi qiymətləndirilir. Çin iqtisadi ekspansiyanı həyata keçirə bilər. Lakin onun yaxın gələcəkdə hərbi ekspansiyaya əl atacağı ehtimalı sıfıra bərabərdir. Çünki Çin öz tarixi boyu belə cəhdlərdən uzaq olmuşdur. Başqalarından fərqli olaraq, çinlilərə revanşizm hissləri də yaddır. Çin ağır keçmişindən son onilliklərdə xoş gələcəyə addımlamaq üçün olduqca uğurlu gedişlər etmişdir.. Bu uğurlar onu təkcə Asiyada deyil, qlobal səviyyədə də inkişaf zirvəsinə istiqamətlənən lokomotivə çevirə bilir. Dünyanın sayca ən böyük xalqının iqtisadi və sosial sahədəki zəfərləri başqa xalqlarda da yalnız sevinc hissləri yaratmalıdır. Çin həm də qarşıya çıxan problemlərin, çətinliklərin, rəqabətin və bazar iqtisadiyyatının yeni çağırışlarına cavab vermək, onları ağır haqq vermədən dəf etməyi bacarmalıdır. Bu isə o qədər də asan məsələ deyildir. Onun uğurlarına digər ölkələr və xalqlar da qısqanclıqla yanaşmamalıdır. Çünki bu, dünyanı silkələməyə sərf olunmayacaqdır. Əksinə, planetin əhalisinin hər beşincisini daha xoşbəxt və ləyaqətli həyata cəlb etməklə, bütövlükdə bəşəriyyətin də inkişafına təkan verəcəkdir. Buna görə isə yalnız fərəh hissləri keçirmək lazımdır.

SON

Telman Orucov

Ləyaqətlər və qüsurlar tarixin sınmayan güzgüsündə

“Özümə gəldikdə mən elmdə məskun olanlardan biri deyiləm. Mən keçmişi sadəcə sevənlərdən və onu ciddi-cəhdlə tədqiq edənlərdən biriyəm”.

Konfutsi

İnsan xarakteri mürəkkəb olduğu kimi, həm də ziddiyyətlidir. Axı bəşər övladının daxilində o, həm ali yaradana bənzədiyindən ilahi ruh, həm də ondan əsaslı surətdə fərqləndiyindən və öz növünə aid olanların arasında dolaşdığından şeytan ruhu gizlənir. Bu qütblərin hansının qalib və ya üstün olmasından isə xarakterin və mənəviyyatın əsas cəhətləri və perspektivləri meydana gəlir. Onlar nisbi şəkildə iki yerə bölünməklə nəcibliyi əks etdirən ləyaqət xüsusiyyətlərini və əsasən şəri təcəssüm etdirən qüsurları əmələ gətirir. Çox az sayda adamlar sırf nəciblik rəmzlərinə çevrilirlər, çünki belələri özlərinin həyat prinsiplərində eqoistik başlanğıclardan əsasən uzaqlaşaraq, daha çox məhz şəxsiyyəti yüksəldən xüsusiyyətlərə üstünlük verirlər. Onlar təbiət etibarilə əsl möminlik dərəcəsinə yüksəlirlər, özlərini ali hisslərə tabe etməklə, başqaları üçün xoş olan əməllərə həsr edirlər. Buna nail olmaq üçün qüsurlardan yayınmağa, onların arası kəsilməyən təzyiqindən azad olmağa çalışırlar. Altruistlər isə tam yad, özgə adamların xeyrinə təmənnasız qayğı göstərməklə, başqaları naminə öz şəxsi mənafelərini qurban verməyə hazır olurlar. Təəssüf ki, onları “ağ qarğa” hesab edənlər də vardır.

Nəciblik səylərini dağıtmağa, azaltmağa çalışan obyektiv təsir qüvvələri heç də az deyildir. İnsanı əhatə edən sosial mühitin təsiri, həyatın onu sınağa çəkmək vasitələri, adi məişət qayğıları ləyaqətləri məhv etmək qəsdində olan bu dağıdıcı qüvvələrə daxildir. Axı insan heç də sırf ruh məxluqu deyildir, bioloji növ kimi o, yaşamaq, həyatını qoruyub saxlamaq üçün müəyyən qida təminatına möhtacdır, yaşayış vasitələrinə malik olmalıdır. Ona görə də ölümdən qorxmaq və yaşamaq arzusu insanın başlıca mənəvi dəyərlərinə çevrilir, əsl aparıcı dəyərlər isə unudulur.

Kamil insanın ən böyük və vacib olan ehtiyaclarından biri başa düşülməsi, ona məxsus olan mənəvi dünyanın addımbaşı inkar edilməməsidir. Axı qüsurlar okeanının quduz dalğaları daim nəcibliyi batırıb, məhv etməyə çalışır. Belə dalğalar, böyük şair Ovidının təşbihindən istifadə etsək, asimana qədər yüksəlir. Ləyaqət daşıyıcılarını anlamayanlar heç də öz mərhəmətsizliklərinin fərqinə varmırlar, özünə bənzəməyənlərə bir qayda olaraq yuxarıdan aşağı, həm də ələ salmaq, təhqir etmək prizmasından baxmaqla, hətta onları dəli hesab etməklə, bəzən hələ möhkəmlənməmiş, bərkiməmiş iradələrin əyilməsinə, sınıb dağılmasına nail olurlar. Ona görə də ləyaqət günəşinin altına sığınanlardan bəziləri həyatın və əzici ətraf mühitin irəli sürdüyü çətinliklərə davam gətirə bilməyib, qüsurları gəzdirənlərin çox

saylı və mənfur ordusunun sıralarına daxil olmaqla, öz həyat kredolarına ağır zərbə vurmuş olurlar. Jan Jak Russonun dediyi kimi, "Yaradanın əlindən hər şey yaxşı çıxır, insanın əlində isə hər şey cırlaşır." Pislər nədənsə güclü təsir gücünə malik olur. Burada, yəqin ki, mühit də öz işini görür.

İlk dəfə böyük Çin mütəfəkkiri Konfutsi (bizim eradan əvvəl 551-479-cu illər) ləyaqətə aid olan məsələlər barədə öz mülahizələrini irəli sürmüşdü. O, qarşılıqlı münasibət, loyallıq, mərdlik, müdriklik və etibara layiq olmaq kimi yaxşı xüsusiyyətlərlə yanaşı, fövqəl adamın malik olduğu ləyaqətləri yen-in genişlənməsi kimi qiymətləndirir. Onun konsepsiyasının başlıca açarı çinlinin xarakteri olan yen idi, bu da müxtəlif qaydada ləyaqət, məhəbbət, alicənablıq və ya insana canıyanma kimi tərcümə olunur. Konfutsi yen-i, bütün ləyaqətlərdən fərqlənən fövqəl ləyaqət adlandırırdı. *Yen*-in nə olduğunu şagirdləri Konfutsidən soruşduqda, filosofun qısa cavabı belə olmuşdu: "Adamları sev!" *Yen* adamları sevinc hissi ilə sevməkdir və bu hissin insan ürəyinin ən dərin guşəsindən gəlməsidir.

Yen bütün adamlarda anadangəlmədir və bu mahiyyət yozumunu qidalandırmaq və tərbiyə etməklə insanpərvərliyi daha dolğun etmək olar. Inkişaf edən ləyaqət insan həyatının ümumi missiyasıdır. Təsadüfi deyildir ki, çinlilərin təbabət dinində "iflic"ə bərabər olan ifadə, hərfi mənada "yen-in olmaması və ya çatışmaması" kimi işlənir. *Yen* həyatını yaşamaq heç də hansısa bir xüsusi maddi mükafat tələb etmir. Konfutsi özünün yen konsepsiyasını izah edərkən ləyaqəti (*te*) və möminliyi (*yi*) vurğulayır. Bu keyfiyyətlərin tərbiyə olunması fövqəl adamla aşağı adam arasındakı fərqli əlamətləri üzə çıxarır. Böyük Çin filosofu deyirdi: "Fövqəl adam ləyaqətlə, aşağı adam isə torpaqla maraqlanır". Həmçinin əlavə edir ki, "fövqəl adam nəyin haqq olduğunu, aşağı adam isə nəyin faydalı olduğunu başa düşür". Fövqəl adam incəsənət və təbiət komponentlərini özündə harmoniyalı bir qaydada birləşdirir. "Fövqəl adam heç vaxt qayğı və qorxu hiss etmir" və "daim sakit və yüngül şəraitdə olur". Əksinə, aşağı adam daim təşviş keçirir və onun könlü narahat hisslərlə doludur.

Fövqəl adamın inkişafı Konfutsinin öz şəxsi nümunəsində daha yaxşı gözə çarpır. Dul qadın olan anasının himayəsi və rəhbərliyi altında Konfutsi özünə təhsil verən bir adama çevrildi. O, yazırdı: "15 yaşında mənim ürəyim öyrənməyə həsr olundu,… 70 yaşında isə mən öz könül arzumun arxasınca düz olandan yayınmadan gedə bilirdim". Onun təlimləri də öz fərdi xüsusiyyətlərinə oxşar qaydada təbii, insanpərvər və sadə idi.

Konfutsiçilikdə dünyəvi zövq daha çox nəzərə çarpırdı. Ümumiyyətlə, qədim Çində insan münasibətlərinə daha çox diqqət verilirdi. İlahi qüvvəyə deyil, daha çox

əcdadlara sitayiş edilirdi. Ərəb mütəfəkkiri Əbdrrəhman ibn Xaldun (1332-1406-cı illər) da qeyd edirdi ki, insan özünü digər adamlarla ünsiyyətdə realizə edir. İnsana cəmiyyət çərçivəsində öz əlaqələrini qaydaya salmaqda ağıl kömək edir, onun formalaşması isə müşahidə, ümumiləşdirmə və təcrübə vasitəsi ilə baş verir. Özünün təbliğ etdiyi qaydadan kənara çıxmayan Konfutsinin şəxsiyyəti də insanpərvərlikdən ilhamlanmaqla, bütünlüklə ləyaqət komponentlərinə uyğun gəlirdi.

Bir çin tarixçisi b.e.ə. I əsrdə Konfutsi barədə çox sərrast sözlər söyləmişdi: "Çoxlu çarlar, imperatorlar və tarixdəki böyük insanlar olmuşdur ki, onlar sağ olanda şöhrət və şərəf qazanmış, öz ölümlərindən sonra isə heç nəyə çevrilmişlər. Konfutsi isə pambıq xalatda gəzən adi adam olsa da, sayı on rəqəmindən çox olan nəsillər üçün alimlərin müəllimi kimi tanınırdı".

Qədim yunan sofist filosofları da ləyaqətin öyrənilməsini tədqiq edərkən qeyd edirdilər ki, "ləyaqət" (yunanca "*arete*") professional müəllim tərəfindən öyrədilməlidir." "*Arete*"-nin nə məna verdiyini isə ilk dəfə Homer dilə gətirmişdi, lakin qeyd etmək lazımdır ki, tam əks olan bir mənada. Ənənəvi olaraq deyilirdi ki, ləyaqət əxlaqa malik olan nümayəndələrdə – insanda olduğu kimi, bir sıra "insan olmayan" canlı obyektlərə də məxsusdur. Bunlara atları, qoyunları, insan gözlərini aid edirdilər. Ona görə də bəzi alimlər bu ifadəni "ali" kimi tərcümə edirdilər. Spartalılar bunu döyüşdəki cəsarət göstərməklə məhdudlaşdırır, yunanlar isə xüsusən atlyot qabiliyyətini, sifətin və ya bədənin gözəlliyini, var-dövləti, kübar ailəsində doğulmağı, natiqlik və ya müğənnilik qabiliyyətini buna aid edirdilər. Ləyaqət elə bir qabiliyyət hesab olunurdu ki, müəyyən qaydada istedadı olan və pulunu ödəyən hər bir şagird ona yiyələnə bilərdi. İctimai həyat üçün belə uğurlu öyrənmə bütün adamlar üçün zəruri şərt hesab olunurdu.

Təməl xristian etikasında bütpərəst dünyadan götürülmüş dörd təbii ləyaqətlə yanaşı, bu siyahıya üç ilahiyyat tipli ləyaqət də əlavə olunurdu. Axırıncılar isə Allahın xüsusi vergisi kimi qiymətləndirilirdi. Ləyaqət "həyatı rahat yaşamaqdan ötəri və əxlaq prinsipləri ilə davranmaq" kimi nəzərdə tutulurdu. Bunlara isə yeddi dəhşətli günah əks çıxır, onlar birlikdə insan davranışının bütün dərəcələrini əhatə edir. Kardinal (latınca "başlıca", başqa sözlə "mahiyyətcə" deməkdir) ləyaqətlərə ehtiyatlılıq, mülayimlik (iddiasızlıq), mərdlik və ədalət daxil idi.

Xristianlıq bunlara inanc, ümid və məhəbbət kimi dini ləyaqətləri də əlavə etdi. Bu təsnifləşdirmə birbaşa apostol Paveldən gəlmişdi. Lakin o, məhəbbəti bu üçlüyün arasında fərqləndirirdi və onun tacı hesab edirdi. "Beləliklə, bu üçlüyə – inanca, ümidə və məhəbbətə əməl edilməlidir, lakin onlardan ən böyüyü məhəbbətdir". Xristian təliminə müvafiq olaraq, ilahiyyat ləyaqətlərin başlanğıcını heç də təbii

insandan götürmür. Onlar Xristos vasitəsilə Allahdan gəlmiş və sonra insanlar tərəfindən həyata keçirilmişdir. Xristian etikasında məhəbbət və ya mərhəmətlilik isə bütpərəst filosoflardan gəlir. Davranışın hər bir məsələsi öz xüsusi şəraitinin işığında həll edilməlidir və bu elə prinsipdir ki, məhəbbətin arxasınca getməlidir. Bu da bir daha göstərir ki, məhəbbət yeganə ali ləyaqət olaraq qalır. Xristian etikası bu müddəasında Konfutsi təlimi ilə birbaşa uzlaşır, axı Çin mütəfəkkiri də adamları sevməyi, onlara məhəbbət bəsləməyi ön plana çəkirdi.

Qüsurlara gəldikdə, bu məfhum etikaya aid olan kimi, həm də personajı xarakterizə edir. Qüsur etik anlayış kimi əxlaqi və mənəvi nöqsandır, insanın mənfi mənəvi keyfiyyətidir. Etika isə mənəviyyatı, əxlaqı öyrənən fəlsəfi fənndir. Etika çox vaxt insan təbiəti barədə elm kimi başa düşülür. Personaj kimi isə "qüsur" Orta əsrlərin və Renessans dram əsərlərinin qəhrəmanları olub, insanın nəfsini saxlamamağının alleqoriyasıdır.

Ləyaqət, tarixi şəxsiyyətləri heyranlıqla əhatə edir

Ləyaqət, istər Konfutsi konsepsiyası prizmasından, istərsə də xristianlıq nöqteyi-nəzərindən baxdıqda, istənilən insanı yüksəldir, hakimiyyətdə olanlara münasibətdə isə, onlara çox hallarda loyallıq, bəzən isə hətta məhəbbət bəxş edir. Axı ingilis tarixçisi lord Aktonun dediyi kimi: "Hakimiyyət adamları pozur, mütləq hakimiyyət isə mütləq dərəcədə pozur". Mütləqiyyət monarxiyalarında və totalitar dövlətlərdə isə mütləq hakimiyyət hakim kəsilir. Digər quruluşlarda da ona keçmək o qədər də çətin olmur. Lakin bu heç də o demək deyildir ki, bu prinsip bütün hakimiyyətdə olanlara şamil edilməlidir. Elə nümunələr vardır ki, hakimiyyət burada daha çox ləyaqət təzahürü səhnəsinə çevrilir. Əlbəttə, onun pozucu təsirinə müqavimət göstərmək də asan məsələ deyildir, onu tapdalamağı, ona qalib gəlməyi bacaranlar isə xüsusi hörmətə nail olmağa haqqı olan insanlardır. Xalqı idarə etmək, hakimiyyəti qoruyub saxlamaq heç də asan məsələ deyildir, axı daxildən sarsıntı törətmək istəyənlərlə yanaşı, xaricdən olan təsirlər və təzyiqlər də az əhəmiyyət daşımır. Bir ailəni idarə etmək çətin olduğu kimi, yüz minlərlə, milyonlarla ailə timsalı olan dövlətin idarəçiliyini əldə saxlamaq bəlkə də mütənasib miqyasda olan çətinliklərlə əlaqədardır.

Böyük italyan filosofu Nikkolo Makiavelli (1469-1527-ci illər) özünün məşhur "Hökmdar" əsərində yazırdı ki, "Belə ki, hökmdarı sevməyin və ondan qorxmağın hansının yaxşı olduğu barədəki mübahisəyə qayıdaraq deyirəm ki, hökmdarı adamlar öz fərdi mülahizələrinə görə sevirlər, ancaq ondan hökmdarın öz mülahizəsinə görə

qorxurlar, ona görə də müdrik hökmdar hansısa bir başqasından deyil, özündən asılı olana üstünlük verməlidir; mühüm cəhət isə odur ki, heç bir halda öz təbəələrinin nifrətinə tuş gəlməyəsən”.

Ən qədim hökmdarların da əksəriyyəti hələ Makiavelli reseptindən çox-çox əvvəl xalqın məhəbbəti kimi ötəri dayağa malik olmaqdansa, çünki xalqın təbiəti dəyişkəndir, yaşıl ot küləyin təsiri ilə müxtəlif tərəflərə əyildiyi kimi, şəraitdən asılı olaraq öz mövqeyini və münasibətini asanlıqla dəyişir, daha möhkəm dayaq kimi qorxuya üstünlük verirdi. Qorxu elə bir silahdır ki, istənilən vaxt təbəələrə yara vurmağı bacarır və bir çox xalqlar bu zədədən, xəstəlikdən uzun müddət sağala bilmir.

Lakin müəyyən ölçüdə müdrikliyə və mərhəmətliliyə malik olanlar onsuz da nəhayətsiz olan hakimiyyətlərindən quduzcasına istifadə imkanlarını bütünlüklə inkar etməklə, bunun cavabı kimi xalqın hörmətini, ürəkdən gələn ehtiramını qazanırlar. Qədim dövrlərdə nə güclü təbliğat maşını, nə onun şüuraltına təsir göstərən vasitələri, nə də Göbbels kimi yalan bütünə sitayiş edən informasiya nazirləri yox idi ki, adamların şüuruna həmlə etməklə, zorla Hitlerə bənzəyənlərə bu saxta məhəbbət hissini təlqin etsinlər. Ona görə də xalq özünə bəslənən münasibətə, hökmdarın davranışına daha düzgün qiymət verməyi bacarırdı, əsasən səhvə yol vermirdi, tarixçilər isə söykəndikləri əsaslara uyğun olaraq, bunun həqiqət olduğunu yazırdılar.

Ayrı-ayrı dövlətlərin, imperiyaların başçıları arasında belə nadir nümunələri tapmaq mümkündür. Onlardan bəziləri heç tarixi deyil, əslində əfsanəvi şəxsiyyətlərdir, lakin belə çarlar xalqın yaddaşına məhz öz müsbət obrazlarını həkk edə bilmişlər. Min illər keçsə də, onlar müdrik və ədalətli idarəetmə üsulları ilə heyranlıq obyekti kimi qalmaqda davam edirlər.

Romul, Numa Pompili və Böyük Kir

B.e.ə. 753-cü ildə Apennin yarımadasında, Tibr çayının sahilində Romul Roma şəhərini salmaqla, yeni bir sivilizasiyanın yaranmasına start verdi. Çünki xeyli müddət ərzində şöhrəti solan Yunanıstanın yerini tədricən Romanın böyüklüyü tutmalı idi. Antik dünyanın gələcək paytaxtı onun adı ilə adlansa da, Romul heç də müdrik, sülhsevər çar kimi tanınmadı. İlk əvvəllərdə doğma qardaşını öldürən bu adam öz qonşuları olan tayfalarla da çoxlu müharibələr aparırdı. Hətta cavan şəhərin gənc sakinlərinin ailə qurmaq problemini də hiyləgərlik hesabına həll etmişdi. O, qonşuluqda yaşayan sabinliləri bayramlarına qonaq dəvət etməklə, şənliyin qızğın vaxtında onların cavan qızlarını götürüb qaçırılmasına nail olmuş, yaranan düşmənçilik yalnız sabinli qızların ağıllılıqları hesabına xeyli müddət sonra həll

edilmişdi. Onun 38 il davam edən çarlığı təbiətin müdaxiləsi ilə başa çatdıqdan sonra, çar kürsüsünə namizəd məsələsi sabinli Numa Pompilinin üzərində dayandı. Bu müdrik və təvazökar insan çox etiraz etsə də, axırda təklifə razılıq verməli oldu.

Numanın dövründə müharibələrə son qoyuldu, bunun əlaməti kimi şəhərdəki Yanus məbədinin qapıları həmişə bağlı saxlanırdı. Bu, hələlik yarım əsrlik tarixi olan dövlətin xeyli möhkəmlənməsinə səbəb olmuşdu. Romalılar və sabinlilər arasında ayrı-seçkiliyə son qoymaq üçün o, əhalini məşğuliyyət növlərinə görə gildiyalara, sexlərə böldü. Torpaqları kasıblara payladı, bununla o, həm yoxsulluğun, həm də cinayətkarlığın kökünü kəsmək istəyirdi, axı yoxsulluq daim cinayətkarlığı qidalandırır. Numa həm də əkinçi əməyinə yüksək qiymət verirdi. Bir qayda olaraq əkinçi əməyi adamlara vətəni müdafiə etmək hissləri aşılayırdı. Sonralar Böyük Katon bu fikri təsdiq edərək deyirdi ki, ən yaxşı döyüşçülər məhz əkinçilər arasından çıxır. 43 il ərzində çarlıq edən Numa Pompilinin adamlara sarsılmaz mənəvi dəyərlər təlqin etməsi və sülhsevərliyi ilə xatirələrdə yaşamaqda davam etdi.

B.e.ə.559-530-cu illərdə Persiya çarı olmuş Böyük Kir geniş ərazisi olan bir imperiya yaratmışdı. Əvvəlcə Kiçik Asiyadakı yunan şəhər-dövlətlərini, İran yüksəkliyinin şərq sərhədlərini işğal etdikdən sonra b.e.ə. 539-cu ildə Mesopotamiyaya daxil olaraq Babili işğal etmişdi. Onun Babilistanla davranışı əsl təmkinlilik və müdriklik nümayiş idi. Bu ərazi Persiya satrapı tərəfindən idarə edilən əyalətə çevrilsə də, əvvəlki hökumət qulluqçularının çoxu öz vəzifələrini saxladılar. O, bu ölkə sakinlərinin loyallığını qazanmışdı. Bir qədər əvvəl sürgün olunmaq qaydasında Babilə gətirilmiş yəhudilərə Yerusəlimə qayıtmağa və orada Solomon Məbədini bərpa etməyə icazə verən edikt imzaladı.

Müasirlərinin düşüncəsində Kir özünün adlandığı "Böyük" epitetinə layiq idi. Yunan tarixçisi Herodot yazır ki, persiyalılar ona "ata" kimi, "alicənab və onları hər cür mallarla təmin edən hökmdar" kimi baxırdılar. Həqiqətən də, Kir öz dövrü üçün qeyri-adi hökmdar idi, imperiyasının ərazi işğallarında və onun təşkilində xeyli müdriklik və mərhəmətlilik nümayiş etdirirdi. İşğal etdiyi ilk dövlət olan Lidiyanın paytaxtı Sardını tutarkən, qədim dünyada varlılığı ilə məşhur olan məğrur çar Krezi edam vaxtı, tonqalda yandırılanda əvf etmişdi. Əvvəlki Assuriya hökmdarlarından fərqli olaraq, o, mərhəmətli çar nüfuzu qazanmışdı. Midiyalılar, babilistanlılar və yəhudilər onu öz qanuni hökmdarları kimi qəbul edirdilər. Bir sıra xalqlar onu böyük lider və sülh yaradan kimi təsvir edirdilər. Yəhudi peyğəmbəri onu Allahın özünün yağ sürtdüyü bir çar kimi qiymətləndirirdi və Allahın bu sözlərini misal gətirirdi: "Mən Kir haqqında danışan Sahibəm (Allah adətən özünü belə adlandırırdı- müəllif). O, mənim çobanımdır və mənə xoş olan hər şeyi edəcəkdir". Yəhudilərin Allahının

yadelli, lakin onun xalqını zülmdən xilas edən hökmdara belə yüksək qiymət verməsi təsadüfi deyildi, əslində daha çox qədim yəhudilərin minnətdarlıq hissi ilə dolu olan real rəyini əks etdirirdi.

Kir öz saraylarının tikintisində çox sayda xalqların təcrübəsindən istifadə etməklə də qədim sivilizasiyalara həqiqi hörmətlə yanaşdığını göstərirdi. O, inanırdı ki, qədim və hörmət bəslənən ənənələrə və institutlara malik olan xalqlardan "yeni imperiya" yaratmışdır. Təsadüfi deyildir ki, mifik qəhrəmanlara və böyük şəxsiyyətlərə hörmətlə yanaşan Böyük Aleksandr Persiya imperiyasının banisi Böyük Kirin öz makedoniyalıları tərəfindən dağıdılmış sərdabəsini ona hörmət əlaməti olaraq bərpa etmişdi, bu vaxt Persiya imperatorunun həlak olmasından iki əsrə bərabər bir vaxt keçmişdi.

Qədim yunanlarda və romalılarda ləyaqət nümunələri

Qədim yunanlara görə insan nəcib məxluq, özünü aparmağı bacaran, həyatdan və ölümdən dəhşətə gəlməyən, qorxmaz, həm də özünün və hissiyyatının ağası olmalı idi. Yunanlar ideal mülayimlik və "qızıl orta vəziyyət" dayaqları üzərində yaşamağı üstün tuturdular. Onlar qaydanı, tarazlığı, simmetriyanı, mərhəmətliliyi və nəzarəti qiymətləndirirdilər. Yunan filosofları yunanların özlərini realizə etmələri naminə yaratdıqları miflərin toruna tənqidi yanaşırdılar. Əsatirlərə görə qüdrətli məxluqlar olan allahlar dağlar üstündə, uzaq yerlərdə yaşayırdılar, aşağıda isə Yer səthi və ya ölümlə nəticələnən həyatı qucağında saxlayan dünya var idi.

Yunan dilində "yaxşı" "aristoy" kimi tələffüz olunurdu, buradan da "aristokratiya" ifadəsi yaranmışdır. Homerin anlamında təbii aristokrat istənilən adi adamdan həm əqli, həm də fiziki xüsusiyyətlərinə görə bir baş yuxarıda dururdu. Aristokratlar cəmiyyətdəki imtiyazlı vəziyyətlərini guya ilahi mənşəyə mənsub olmaları ilə əlaqələndirirdilər. Ona görə də Homer onları bəzən "ilahiləşmiş" və ya "allaha bənzərlər" adlandırırdı.

Yunan polislərində (şəhər-dövlətlərində) yeni dəyərlər sisteminin əsas parametrləri yunan idrak rasionalizmindən, insan şəxsiyyətinin qiymətini dərk etməkdən, təbiətlə mübarizədə insanın fəallığını, cəsarətini və qabiliyyətini şərəfləndirməkdən, vətəndaşla polisin qırılmaz əlaqəsi hissindən, azadlığı ən yüksək kateqoriya kimi anlamaqdan ibarət idi. Bu dövrdə meydana gələn qədim yunan mədəniyyəti də dərin orijinallığı ilə seçilirdi. Yunanların allahları da insana yaxın idi,

onlar insana öz zəif cəhətində kömək etməli idilər. Başqa dinlərdə isə adamların allaha xidmət etməsi bir borc sayılırdı..

Spartanın özündə də hər kəs ləyaqətə məhəbbət bəsləyirdi, qüsurları isə (onların düşüncəsində mövcud olan növlərə) nifrət edirdilər. Qanunverici Likurq öz ölkəsində əcnəbilərin qüsurları öyrədən müəllimlərə çevrilə biləcəyindən qorxub, onları Spartadan qovurdu. O, tövsiyə edirdi ki, onun doğma şəhəri yoluxucu xəstəliklərdən daha çox, məhz belə pis xəstəliklərdən qorunmalıdır.

Spartalılar daim döyüşə hazır olmaq üçün öz fiziki sağlamlıqlarına ciddi fikir verir, çox məşq edirdilər. Bu həm də mənəvi sağlamlığa da müəyyən təsir göstərirdi. Onlarda vətənpərvərlik hissi yüksək olduğundan bir-birlərinə qarşı qısqanclıq hiss etmirdilər. Pedaret adlı bir lakedemonlu 300-lər Şurasının üzvlüyünə düşmək istəyirdi, lakin namizədliyi rədd olunmuşdu. Evinə qayıdanda sevinirdi ki, nə yaxşı ki, ondan daha ləyaqətli olan 300 adam vardır.

Spartada döyüşdə qələbə ali sevinc mənbəyi hesab olunurdu, ən ağır dərdin də üzərindən xətt çəkirdi. Bir spartalı qadın beş oğlunu müharibəyə yola salmışdı və döyüş səhnəsindən xəbər gözləyirdi. Bir hilot gəlib çıxanda, qadın səbrsizliklə vuruş meydanında nə baş verdiyini sorşdu. “Sənin beş oğlunun hamısı həlak oldu.” Qadın hirsləndi: “Mənfur qul! Məgər mən səndən bunumu soruşuram?” Bu vaxt hilot cavab verdi: “Biz qalib gəldik.” Bunu eşidən qadın məbədə yollanıb, ən böyük arzusu həyata keçdiyinə görə allahlara öz minnətdarlığını bildirdi. Onun üçün Vətəninin düşmən üzərindəki qələbəsi oğlanlarının həyatından da əziz idi.

Afina qanunvericisi Solon isə hər cür dəbdəbələrə və qeyri-məhsuldar xərclərə qarşı mübarizəni gücləndirmək məqsədilə bahalı dəfn mərasimlərini, çox miqdarda məqsədsiz mal-qara qurbanını, dəbdəbəli sərdabələr tikməyi qadağan etmişdi.

Afina vətəndaşı ondan alına bilinməyən siyasi hüquqlar məcmuuna malik idi. Bu şəhər-dövlətdə vətəndaşın əxlaqi dəyərləri, vətənpərvərlik hissi xüsusi yer tuturdu. Qədim Afinanın görkəmli xadimləri arasında şəhərə “qızıl dövr” bəxş etmiş Perikl (b.e.ə. 495- 429-cu illər) xüsusi ilə seçilir. Perikl b.e.ə. 443-429-cu illərdə strateq seçilmiş, demokratik qruplaşmanı rəhbəri kimi bir sıra qanunvericilik aktlarına müəlliflik etmişdi. Bu tədbirlər Afina demokratiyasının çiçəklənməsinə şərait yaratmışdı. O, Parfenon məbədinin, Odeon teatrının tikintisinin təşəbbüskarı olmuşdu. Perikl həm də əla natiq idi, böyük tarixçi Fukididin zəhməti hesabına onun peloponneslilərlə döyüşdə həlak olmuş afinalıların dəfn mərasimindəki məşhur nitqi bizim dövrümüzə gəlib çatmışdır. Bu çıxışında Perikl afinalıların həyatının bir sıra cəhətlərinə böyük iftixar hissi ilə toxunur. O, qeyd edirdi ki, “Öz həyatımızda zülmün nə olduğunu tanımadığımızdan, biz ictimai həyatda qanunsuzluqlardan dəhşətə

gəlməyi bacarırıq”. Deməli, Afinada demokratiya qanunun alililiyinə əsaslanırdı. O, öz xalqının zəhmətsevərliyindən cuşə gələrək qeyd edir ki, “Biz kasıblığımızı da etiraf etməkdən utanmırıq, ondan zəhmət vasitəsilə qurtulmamağa görə utanmaq lazımdır”. Şəhər-dövlətin öz imkanları hesabına güclənməsini də razılıqla yada salır: “Biz öz gücümüzlə müasirlərimiz və övladlarımız üçün heyrət mövzusu olacağıq”. O, hər şeyi peyğəmbərcəsinə düzgün görməyi bacarırdı. Həlak olanların tabutlarını göstərərək Perikl deyir ki, “Mənə belə gəlir ki, kişi igidliyindən ötəri birinci əlamət və axırıncı təsdiq məhz belə sonluq olur. Çünki nöqsanları olan insan vətən uğrunda müharibədə onları namusla tarazlayır; burada xeyir vasitəsilə şər silinir, ümumi fayda isə hər kəsin ayrılıqda vurduğu ziyanı kölgədə qoyur”. Həlak olanları ehtiramla yad edərək, qeyd edir ki, “Onların hər biri özləri üçün köhnəlməyən tərif və ən şanlı qəbir qazandılar – özü də indi uyuduqları qəbirləri deyil, ən başlıcası o qəbiri ki, onda onun şöhrəti yaddaşlardan silinmədən qalacaqdır – bu gələcək nəslin sözü və işidir. Məşhur adamlara qəbir – bütün Yer üzüdür”.

Periklin həmin sözlərini birbaşa onun özünə də aid etmək olar. İki min beş yüz ildən sonra da bəşəriyyətin böyük bir hissəsi onun adını azalmayan bir məhəbbətlə yad edir, çünki o, təkcə qəbiri ilə deyil, əməlləri və ideyaları ilə bütün Yer üzünə, bəşəriyyətə məxsusdur.

Perikl həlak olanlar barədə, onların həyatına və ölümünə sitayiş qaydasında deyir ki, “Axı bu da bir xoşbəxtlikdir ki, xoş həyata xoş da ölüm uyğun gəlir”. Həlak olan gənclər Afina üçün yaşamış və onun yolunda da həyatlarını qurban vermişdilər.

Koloritli, maraqlı şəxsiyyətlərlə zəngin olan Qədim Roma iki böyük siyasətçisi və sərkərdəsi ilə öyünürdü. Onlardan biri b.e.ə. V əsrin ortalarında konsul və diktator olmuş (axırıncı vəzifə digər adəti diktatorlardan tam fərqli olmaqla, çətin hərbi şərait mövcud olduqda, qısa müddətə – 6 aylığa orduya komandanlıq etmək üçün verilirdi) Kvinkti Tsinsinnat idi. O, igidliyinə və vətəndaşlıq borcuna sədaqətinə görə ən məşhur şəxsiyyətlər qalereyasına daxil olmuşdu. O, Vatikandakı dörd yügerlik (müasir ölçüdə 1 hektarlıq) sahəsini kotanla becərməklə məşğul olanda, müharibə başlanan kimi romalılar onu diktator seçirdi. Müharibəni zəfərlə başa vurduqdan sonra Tsinsinnat könüllü olaraq diktatorluqdan imtina edib, atasından qalmış həmin torpaq sahəsini yenidən becərməyə qayıdırdı. Amerikanlar ona ehtiram əlaməti olaraq şərqdəki şəhərlərindən birinə Tsinisinnati adını vermişlər.

Bu böyük insanın təvazökarlıq ənənəsinə tarixin sonrakı dövrlərində də rast gəlmək mümkündür. Roma imperatoru Diokletian bizim eranın 305-ci ilində könüllü olaraq vəzifəsindən istirahətə yollanmış, tərəvəz becərməklə məşğul olmuşdu. O,

becərdiyi kələmi iftixar hissi ilə nümayiş etdirərək, öz sonrakı fəaliyyətinin heç də az sevinc gətirməyən bir iş olduğunu bildirmişdi.

B.e.ə. IV əsrin əvvəllərində hərbi tribun vəzifəsi ali hakimiyyətə yiyələndikdə, onu icra edən Mark Furi Kamill də böyük şöhrətə yiyələnmişdi. Romalılar Etruriyanın ən gözəl şəhəri sayılan Veyiyə qarşı müharibənin onuncu ilində Kamilli diktator seçdilər və o, yeraltı lağım qazmaq yolu ilə uzun dövr ərzində mühasirədə olan şəhəri tuta bildi. Faleriya şəhərini mühasirədə saxlayanda isə qeyri-adi bir hadisə baş verdi. Bir müəllim öz şəhərinə xəyanət edərək, dərs dediyi uşaqları gəzmək bəhanəsi ilə şəhər qapısından çıxarıb, Kamillə girov kimi təhvil vermək istəyəndə, sərkərdə müəllimi cəzalandırıb, uşaqları geri, valideynlərinin yanına qaytardı. O, bildirdi ki, müharibə şərdir. Onu ədalətsizliyin və zorakılığın köməyi ilə aparırlar, lakin namuslu adamlar üçün müharibədə də bəzi qanunlar vardır. Qələbənin faydası alçaqlıq və cinayət yolu ilə əldə edilirsə, ona can atmaq olmaz. Bu sözləri o, həmin alicənablıq hisslərini ətrafındakılara da təlqin etmək üçün deyirdi. Şəhər sakinləri uşaqlarını salamat gördükdə və hadisədən hali olduqda Kamilli özlərinin xilaskarı adlandırdılar və elçiləri vasitəsilə ona bildirdilər ki, təslim olurlar. Kamill qan axıtmadan zəfər çaldı və həm də şəhəri qarət etməyə, oradan qənimət götürməyə icazə vermədi.

Kamill iki dəfə Romanı – əvvəlcə qallardan, sonra isə qaragüruhun anarxiyası təhlükəsindən – xilas edəndə böyük cəsarət və iradə nümayiş etdirmişdi. Romalılar şəhəri qallara təhvil vermək barədə danışıqlar aparanda, özünü yetirən Kamill bir diktator kimi düşmən tərəfin nümayəndələrinə çıxıb getməyi əmr etdi. Sonra qallara döyüşdə qalib gəlib, Romanı biabırçı işğaldan xilas etdi.

Bir qədər sonra qaragüruh xalqda vahimə yaradıb, Forumda iğtişaşlar törədəndə, yenidən hərbi tribun seçilən Kamill onların azğınlaşmış başçısı Mark Manlini məhkəməyə verdirdi və o, təqsirkar elan edilərək, edam qaydasında Kapitolidəki qayadan atıldı. Vaxtilə o, bu təpə qallardan müdafiə olunanda böyük xidmətlər göstərmişdi.

Beləliklə, Kamill iki dəfə Romanı məhvedici təhlükədən xilas etmişdi, bu xidmətlərinə görə o, “Romanın ikinci əsasını qoyan” titulunu almışdı. Quduz Manlilərə isə müasir həyatda da rast gəlinmişdir.

Hindistan çarı Aşoka və Şərq sivilizasiyalarında təhsilə, elmə qayğı

B.e.ə. 268-232-ci illərdə Hindistanda, Maqadxa imperiyasında Maurya sülaləsindən olan Aşoka çarlıq etmişdi. Onun dövləti demək olar ki, bütün Hindistan ərazisini və müasir Əfqanıstanın bir hissəsini tuturdu. Aşoka xeyli döyüşlərdən sonra müharibəyə

nifrət etməklə, ondan birdəfəlik imtina etmişdi. Aşoka deyirdi ki, yeganə həqiqi qələbə öz üzərindəki qələbədir və drahmanın köməyi ilə adamların ürəyini fəth etməkdir. Stalin isə qaliblər haqqında başqa fikir yürüdərək, 1944-cü ilin noyabrında Fransız Milli Azadlıq Komitəsinin lideri general Şarl de Qolla Moskvada görüşəndə, ona demişdi ki, bütün səylərdən asılı olmayaraq, axırıncı qalib ölümdür.

Aşoka üçün drahma xeyirxah işlər görmək, cəmiyyəti yüksəltmək idi. Drahma terminində adətən insanın davranış qaydası və onun həyatının mömin obrazı başa düşülürdü. Dar mənada isə bu, buddist təliminin mənasını, doktrinanın özünü ifadə edə bilərdi.

Aşokanın hökmranlığı dövründə Hindistanın dörd böyük universitet şəhərinə Çindən və Qərbi Asiyadan tələblər gəlirdi. Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, Şərqdə universitetlər yarandıqdan min ildən də çox olan bir müddətdən sonra Avropada belə təhsil ocaqları yaranmağa başlamışdı.İlk Çin universitetinin əsası b. e. ə. 124-cü ildə qoyulmuşdu. Bizim eranın 200-cü ilində isə burada 3 min tələbə yeddi il ərzində ali təhsil alırdı.

Erkən orta əsrlərdə (VII-XI əsrlərdə) elmin inkişafında aparıcı rolu Şərq oynayırdı. Hələ bundan da əvvəl Şərqi Roma imperiyasının imperatoru, məşhur Yustinian Kodeksinin meydana gəlməsinin təşəbbüsçüsü, Konstantinopolda möhtəşəm Aya Sofiyanı tikdirmiş I Yustinian (483-565-ci illər) 527-ci ildə Afinada fəlsəfi məktəbləri bağlayanda yunan alimləri Şərqə yollanmış, burada qədim yunan filosoflarının əsərlərini suriyalıların dilinə tərcümə etmişdilər. Sonralar yunan fəlsəfəsi tədricən islam həyatına daxil olmuşdu. Yalnız Səlib yürüşlərindən sonra, Şərqin ənənələrinin təsiri altında Avropada elm canlanmağa başlamışdı. Avropalılarda elmə və fəlsəfəyə maraq yarananda artıq Şərqdə elmlər öz çiçəklənmə dövrünü yaşayırdı.

Xəlifə Mamun (813-833-cü illərdə taxt-tacda olmuşdu) 832-ci ildə Bağdadda “Beytül hikmə”ni- “Müdriklik evi”ni yaratmışdı, onun zəngin əlyazmalar kitabxanası və rəsədxanası var idi. İslam sivilizasiyası özünün, ərəb sözündən istifadə etsək, zenitində olmaqla, dünyanın ən böyük sivilizasiyalarından biri idi və Qərbi bütünlüklə kölgədə qoyurdu. XI əsrdə Avropa sivilizasiyası ərəb sivilizasiyasının mədəni sərvətləri ilə təmasa girdi- elmi traktatlar ərəb dilindən Avropa dillərinə tərcümə edildi, bura Platonun, Aristotelin, Yevklidin, Arximedin, Ptolomeyin əsərləri daxil idi.

Avropanın Bolonya, Paris,Oksford, Monpelye kimi universitetləri təqribən XII əsrdə meydana gəlmişdi. 1155-ci ildə Müqəddəs Roma imperiyasının imperatoru, həm də İtaliya kralı olan I Fridrix Barbarossa Bolonya universiteti üçün imtiyazları təsdiq etmişdi.

Aşokaya gəldikdə isə, onun dövründə ölkədə həm də çox sayda buddizm monastırları yarandı. Aşokanın öz nümunəsi ilə adamlar arasında vegetarianlığın populyarlığına nail olundu. Hindistanın XX əsrin birinci yarısındakı görkəmli lideri Mahatma Qandi də ömrünün əksər hissəsində vegetarian olmuşdu. Lakin sonralar öz ölkəsinin qızmar istisində bunun bədənin müqavimət qüvvəsini zəiflətdiyini əsas gətirərək, ona riayətdən və bu pəhrizin təbliğindən uzaqlaşmışdı. Qandi bunu həm də bir sosial aspekt hesab edirdi.

Aşoka 37 il hökmranlıq etdikdən sonra öldü. Ölümündən bir az əvvəl o, buddist rahibinə çevrilmişdi. O, deyirdi ki, "bütün adamlar mənim uşaqlarımdır".

Onun ediktlərində drahmanın başlıca prinsipləri olan zorakılıq etməmək, bütün sektalara və rəylərə dözümlülük, valideynlərə qulaq asmaq, din xadimlərinə hörmət, dosta qarşı alicənablıq göstərmək təsbit edilirdi. İngilis yazıçısı Herbert Uells onun haqqında belə yazırdı: "Tarixin səhifələrindəki on minlərlə monarxların arasında Aşokanın adı, demək olar ki, tənha ulduz kimi işıq saçır. Volqadan Yaponiyayadək hər yerdə onun adı şərəflə əhatə olunmuşdur. Çin, Tibet, hətta onun təlimindən uzaqlaşan Hindistan onun böyüklüyü barədəki rəvayətləri unutmur. Onun xatirəsinə ehtiramla qoruyub saxlayan adamlar, kimdənsə eşitdikləri Konstantin və Böyük Karl barədə nəsə bilənlərdən sayca xeyli çoxdur." Ancaq Hindistanda hinduizm dini yayıldıqca, vətəni sayılan və oradan Çinə, Yaponiyaya yayılan buddizm burada öz təsirini itirməyə başlamışdı.

Spartak və "nəcib imperatorlar"

Qədim Romada b.e.ə. 74-71-ci illərdə qul üsyanına başçılıq edən Spartak özünün böyük igidlikdən xəbər verən mübarizəsində heç nəyə nail olmasa da, tarixdə görünməmiş şöhrət qazandı. Spartakın yandırdığı azadlıq məşəli bir sıra xalqların və milyonlarla insanların qəlblərinə işıq salıb, onları mübarizəyə çağırdı. Spartak frakiyalı qul olmaqla Kapuya şəhərindəki qladiator məktəbində qılıncla döyüş müəllimi idi və digər qullarla birgə hazırladığı qəsdin üstü açıldıqda, onlar qaçıb Vezuvi dağında özlərinə dayaq yeri düzəltmişdilər. Az müddətdə Spartakın ordusu 70 min quldan ibarət oldu və üsyan Cənubi İtaliyanı bütünlüklə bürüdü. Qul ordusu bir-birinin ardınca döyüşlərdə qələbə çalırdı. Lakin sonra ordu parçalandı.

Spartak İtaliyanı tərk etmək üçün Şimala getsə də, oradakı təbii çətinlikləri də nəzərə alıb, geri qayıtmağı qərara aldı. Onun ordusunda artıq 120 min adam var idi. Cənuba gəlib çıxan Spartak ordusu Krassın qurduğu tələyə salındı. Son böyük döyüş b.e.ə. 71-ci ildə Apuliyada getdi və bu qızğın vuruşda Spartakın ordusu məğlub oldu.

Əsir götürülən 6 min qul Kapuyadan Romaya gedən Appi yolu boyu çarmıxa çəkildi. Spartakın özü döyüşdə həlak olsa da, romalılar onun meyidini tapa bilmədi. O, qəhrəman olsa da, əvvəldən də böyük uğura ümid edə bilməzdi. Romanın qüdrəti qarşısında qul üsyanı zəif bir cəhddən o qədər uzağa getmirdi. Lakin tarixdə onun qalibi olan Krass elə bir şöhrətə sahib ola bilmədi, b.e.ə. 53-cü ildə isə parfiyalılarla vuruşda həlak oldu. Teatrda qədim yunan faciəsinin tamaşası göstərilərkən, onun kəsilmiş başı düşmənləri tərəfindən qələbə müjdəsi kimi səhnədə dığırlandırıldı. Spartak isə özünə ölməzlik haləsi, əbədi şöhrət qazandı.

Bizim eranın I əsrinin sonundan Qədim Romada beş imperatorun hakimiyyət illərini əhatə edən "nəcib imperatorlar" dövrü gəlir. Onlardan Trayan və Mark Avreli daha görkəmli şəxsiyyətlər hesab olunurlar. Bir çox tarixçilərə görə Pax Romana-ya ("Roma sülhünə") bir əlamət kimi I əsrin sonu, II əsrin üç rübü ərzindəki imperiyanın inkişafı aiddir, bunlar Roma idarəçiliyinin başlıca faydalarından ibarət olmaqla, həmin "nəcib imperatorların" fəaliyyəti ilə bağlıdır. Bu hökmdarlar idarə edən siniflərə hörmətlə yanaşır, senatla əməkdaşlıq edir, edamlara əsasən son qoyur, imperiyada sülhü bərqərar edir və daxili siyasətdə çox hallarda imperiyaya xeyirli olanları dəstəkləyirdilər. Mütləq monarx olmalarına baxmayaraq, onlar öz tolerantlıqları və diplomatiyaları ilə fərqlənirdilər.

96-cı ildə hakimiyyətə gələn Nerva özünün qoca yaşda olduğunu nəzərə alıb, Kapitoliyə çıxaraq, qışqıra-qışqıra dedi: "Mənim ən yaxşı uğurum Roma senatına, xalqına və özümə xidmət etməkdir. Bununla yanaşı, mən Mark Ulpi Trayanı özümə oğulluğa götürürəm". Onun özünün oğlu yox idi. Trayan 98-117-ci illərdə imperatorluq etmişdi. O, bacarıqlı bir adam olmaqla, ordu tərəfindən də yaxşı qəbul edilmişdi. Ən başlıcası isə o idi ki, özünə və başqalarına qarşı tələbkar idi. O, İspaniyada bir qədim Roma nəslində dünyaya gəlmişdi və İtaliyadan kənarda doğulmuş ilk imperator idi.

Trayan Romaya qayıdıb, senatda imperator səlahiyyətlərini qəbul etmək əvəzinə, bir ilə yaxın müddətdə Reyn və Dunay çaylarının üstündə qaldı, Dakiyaya müdaxilə etmək kampaniyasına hazırlıq gördü. Şəhərlərin adətən yeni seçilmiş imperatora göndərdikləri qızılı İtaliyaya və əyalətlərə bağışladı. Onun ilk böyük işlərindən biri o vaxtlar hüquqi ittihamçı kimi çıxış edən çuğulçuların azğınlığına, soyğunçuluğuna son qoyması idi. Bu çuğulçulara müttəhimdən müsadirə edilən var-dövlətin bir hissəsi çatdığından, onlar saxta ittihamlara daha maraqla girişirdilər. Trayan onların hamısını yığdırıb, tələsik qayırılmış, sınıq-salxaq bir gəmiyə oturdub, dənizin quduz dalğalarının amansız sərəncamına buraxdı. Roma əhalisi son dövrlərin ən böyük qarətçilərindən bu yolla xilas olundu.

Trayan İtaliya şəhərlərindəki kasıb ailələrin uşaqlarına yardım göstərilməsi sahəsindəki yeniliyin- ictimai fondların (*alimenta*-nın) yaradılması ideyasını irəli sürdü. Bu yeniliyi onun dostu Kiçik Plini ölkənin şimalındakı Komo şəhərində özəl qaydada öz yerliləri üçün həyata keçirmiş və Trayan da bu təşəbbüsü bəyənməklə, bütün ölkədə tətbiq etmək qərarına gəlmişdi. O, çox sayda binalar tikdirdi və bu, onun populyarlığını artırdı. Romanı əzəmətli tikililərlə gözəlləşdirdi. İtaliyanın magistral yollar şəbəkəsinə qayğı ilə yanaşmaqla Via Traiana adlanan yeni yol çəkdirdi və bu, qədim Appi yolunun yerini tutdu. Körpülər tikilir, şəhərin su təchizatı yaxşılaşdırılır, istifadəsiz torpaqlar dövriyyəyə qatılır, limanlar yaradılırdı. Romada yeni Forum ucalanda şəhərə yeni akvedukla su gətirildi. Ümumiyyətlə, Trayanın dövründə yaxın təpələrdən Romaya 11 akvedukla gətirilən su şəhərin tələbatını artıqlamasilə ödəyirdi. Şəhərdəki meydanda Trayan sütunu yüksəlirdi, sonralar onun binövrəsi Trayanın cəsədinin külünü qəbul etdi.

161-ci ildə isə MarkAvraeli öz sələfi, ilahiləhdirilmiş Antonini imperator kimi əvəz etdi. O, mərhum imperatorun arvadının qardaşı oğlu olmaqla, Romanın ən görkəmli ailələrinin bir necəsi ilə bağlı idi. Çox gənc yaşında varis elan edilsə də, yalnız 40 yaşı olanda hakimiyyətə gəlmişdi. Bacarıqlı, mərd və ciddi düşünən bir adam olmaqla o, Stoik fəlsəfi məktəbinin etik filosofu olan Epiktetin "söhbətlərini" həvəslə öyrənmişdi və bu fəlsəfədə özünün ruhi qidasını tapmışdı. Roma tarixində ilk və yəqin ki, yeganə dəfə Platonun arzuladığı bir hadisə baş vermişdi, hakimiyyətə filosof, mütəfəkkir gəlmişdi. Mark Avrelini "taxt-tacda olan" filosof adlandırırdılar.

Mark imperator səlahiyyətlərinə yiyələndikdə onun götürmə qardaşı da həm-imperator oldu və Roma imperiyası öz tarixində bu vaxt ilk dəfə olaraq iki qoşa imperatora malik idi.

Mark Avreliyə dövlət işində ən yaxın olan sahə hüququn təkmilləşməsi idi. Bir sıra tədbirlər və hüquqa aid qərarlar qəbul etmişdi, onlar mülki qanunlarda olan çətinlikləri və qeyri-normallıqları yoluna qoyurdu. Az hörmət olunan zümrələrin – qulların, dul qadınların, mədəndə çalışan adamların hüquqları yaxşılaşdırıldı və varislik sahəsində qan qohumluğu tanınmaqla, onun əsasında irəli sürülən iddialara baxılması qaydası təsbit edildi. Bunlar cəmiyyətin quruluşunun radikal şəkildə dəyişdirilməsindən daha çox, onun yaxşılaşmasına xidmət edirdi. Onun dövründə qulların ardıcıl olaraq təqib edilməsinə yol verilmirdi. Filosof imperator dövlətin beynəlxalq əlaqələrinə də ciddi qayğı göstərirdi. Çinlə birbaşa əlaqələr yaradılmasına cəhd etmiş və iki ölkə arasında elçiliklər mübadiləsi baş vermişdi. Ümumiyyətlə, 19 il ərzində Romanın imperatoru olan Mark Avreli Qərbin bir çox sonrakı nəsilləri üçün Roma imperiyasının qızıl dövrünü rəmzləndirir.

Mark Avreli bir filosof kimi əsasən Stotsizmin təsirinə məruz qalmışdı və özünün əlli cildlik "Düşüncələr" əsərində stoik borcu idealını bir dini konsepsiya kimi təsvir edir. O, deyirdi ki, mən bir Antonin kimi Roma vətəndaşıyam, ancaq bir insan kimi dünya vətəndaşıyam. Qədim yunanlar bunu "kosmopolit" kimi ifadə edirdilər. Onun bir nəsihətinin qiymətini zaman da aşağı sala bilmir, o yazırdı: "Əgər nə haqq deyilsə, onu etmə, əgər nə düz deyilsə, onu danışma."

Dövləti idarə etmək elmi və Mahatma Qandi

Dövlətin idarə edilməsi, yuxarıdakı misallardan da göründüyü kimi, heç də fəxri titulu daşımaq deyildir, bu mürəkkəb iş böyük ağıl, güclü iradə və ağır zəhmət tələb edir. Rus filosofu N. Q. Çernışevskinin dediyi kimi: "Tarix yolu Neva prospektinin səkisi deyildir." Dövləti idarə edənlər isə ən azı tarix cığırı yaradırlar.

Günəş Kral adlanan Fransa kralı XIV Lui 1661-ci ildən dövlətin idarə edilməsini öz əlinə götürdüyünü elan etdikdə, bunu onun öz doğma anası da inanmamaq əlaməti kimi istehzalı gülüşlə qarşılamışdı. Lakin XIV Lui vəzifəsinin icrasına elan etdiyindən də daha ciddi qaydada yanaşaraq, dövlət işləri ilə şəxsən özü, həm də çox dəqiqliklə məşğul olmuşdu. Öz ölümünə qədər olan 54 il ərzində hər gün 8 saat özünü bilavasitə dövlət işlərinə həsr etmişdi. Onun diqqətindən ən xırda detallar belə yayınmırdı. O, hətta dözülməz ağrı ilə müşayiət olunan (o vaxtlar anesteziya vasitəsi yox idi, həkimlər də müalicə etməkdən daha çox xəstələri öldürməklə məşğul olurdular) ağır cərrahiyyə əməliyyatından az sonra, axşam Dövlət Şurasının iclasına başçılıq etmişdi.

Dövlət işlərilə belə vurğunluqla məşğul olmasına görə, özünü dövlətdən ayrı hesab etmədiyindən demişdi: "L`etat c`est moi!"- "Dövlət – mənəm!" Bəzi tarixçilər bunu dövlətə sədaqətlə xidmət etməyini əsas götürərək, nəsihət şəklində söylədiyi kimi izah edirlər. "XIV Lui epoxası" ifadəsinin müəllifi, böyük fransız filosofu Volter onun hökmranlığını məşhur Roma imperatoru Avqustla müqayisə etmişdi. Onların hər ikisi həm güclü, həm də zəif cəhətlərə malik idi. Onun ən böyük qüsuru müharibələrə çox meyl etməsi idi. Ölüm yatağında olarkən özü etiraf etmişdi ki, "Mən müharibəni çox sevirdim". Tətbiq etdiyi şirniklendirmək vasitələri ilə kübarları tabe edə bilmədiyindən, təkcə 11 vətəndaş müharibəsinə start vermişdi. Aramsız müharibələr axırda Fransanı taqətdən salmışdı.

XIV Lui həyatının sonunda, XV Lui adı altında gələcək kral olacaq beş yaşlı nəticəsinə nəsihət verərək, ona özünün buraxdığı səhvləri təkrar etməməyi, qonşuları ilə sülh şəraitində yaşamağı məsləhət görmüşdü. Onun ən böyük səhvlərindən biri

həm də insan gücündən kənarda olan bir yükü- dövlətin bütün idarəetmə maşınını öz şəxsində mərkəzləşdirməsi idi.

Ləyaqətlilik standart, etalon kimi götürüldükdə, sadalanan liderlərin bir çoxu heç də onun bütün tələblərinə cavab verə bilmir, onlar müəyyən qüsurlardan da xali deyildilər. Fransa kralı XİV Lui və Prussiya kralı II Fridrix müharibəyə şərəf çələngi mənbəyi kimi baxdıqlarından öz ölkələrini belə pis siyasətin, sərt qaydada deyilsə, qurbanlarına çevirirdilər.Günəş Kraldan bir əsr sonra hakimiyyətə gələn həmin Böyük Fridrix öz sələfindən fərqli baxış nümayiş etdirərək, kralda "dövlətin birinci nökərini" görürdü.

Habsburqlar sülaləsindən olan, 1780-1790-cı illərdə Avstriya kralı olmuş II İosif isə öz fikrini belə ifadə etmişdi: "Mən öz ölkəmdə qanun vermək fəlsəfəsini yaratmış, onun məntiqi tətbiqi Avstriyanı dəyişdirəcəkdir". O, həqiqətən də nəcib tədbirlərə əl atırdı, təhkimçiliyi ləğv etmişdi və hamının qanun qarşısında bərabərlik prinsipini elan etmişdi. On illik hakimiyyəti dövründə II İosif Avstriyanı dəyişikliyə məruz qoymaq cəhdində 6 min dekret və 11 min qanun imzalamışdı. Ancaq özünün daim uğursuz olması düşüncəsi onun öz qəbir daşı üçün yazdığı epitafiyadan da açıq görünür: "Burada, etdiyi hər şeydə uğursuz olan II İosif uyuyur". Bu sözlərdə həm də uzağa gedən bir həqiqət var idi. Taxt-tacdakı varisləri də onun islahat cəhdlərinin çoxunu məhv etdilər.

İosifdən fərqli olaraq, bəziləri taeyin onları sınağa çəkəcəyini, məğrurluqlarına görə heç ağıllarına da gətirmirdilər. Belələri meydana çıxan siqnallara da məhəl qoymurdular. Napoleon Bonapart 18 bryumer çevrilişindən (1799-cu ilin noyabrında baş vermişdi) sonra Sen-Klu qəsrində lovğalıqla demişdi: "Mənim arxamca Qələbə ilahəsi və Uğur ilahəsi addımlayır." Bu sözləri deyəndən sonra onun ürəyi getmişdi. Lakin o, bu ibrətamiz hadisədən də nəticə çıxarmadı. Rusiya yürüşündə və Vaterloo döyüşündə artıq onu Məğlubiyyət ilahəsi, Müqəddəs Yelena adasında isə məhvedici Bədbəxtlik ilahəsi izləyirdi.

XX əsrin ən böyük mübarizlərindən və ən nəcib şəxsiyyətlərindən biri olan Mahatma Qandi (1869-1948-ci illər) Hindistanın atası hesab edilir. Mohandas Kramçand Qandiyə xalq tərəfindən "Mahatma" və ya "Böyük Könül" adı verilmişdi. İlk dəfə onun haqqında bu titulu Rabindranat Taqor hələ 1915-ci ildə işlətmişdi. Bütün liderlərdən onu fərqləndirən, Britaniya ağalığına qarşı mübarizəsində yeni, Satyaqraha adlanan, bu, hərfi mənada "həqiqətdə səbat göstərmək" demək idi və zorakı olmayan bir taktikanı seçməsi idi. Onun zorakılıq etməmək fəlsəfəsi (Catyaqraha) dinc dəyişiklilər tərəfdarlarının hərəkatına böyük təsir göstərdi.

O, Londonda hüquqşünas təhsili almış, Cənubi Afrikadakı Natalda ağlar tərəfidən pis münasibət bəslənən hind immiqrantlarının mənafeyini müdafiə etmişdi. Burada Satyaqraha adlanan passiv müqavimət bir sıra siyasi uğurlar gətirmişdi. 1914-cü ildə Hindistana qayıdıb, beş il sonra Britaniya hökumətinə qarşı Satyaqraha hərəkatını təşkil etmişdi, yerli sənətləri, istehsalı və siysi müstəqilliyin (suarac) əldə edilməsini təbliğ edirdi. Onun siyasəti Britaniya mallarının ümumi boykotu və Mopla qiyamı ilə nəticələndi. 1925-ci ildə Hindistan Milli Konqressinin sədri seçildi. Bundan əvvəl iki il məhbəsdə yatmışdı. Sonra yenidən həbs olundu. 1931-ci ildə sülh bağladı və Londondakı Dəyirmi Masa konfransında iştirak etdi. 1932-ci ildə "toxunulmazlara" qarşı olduqca pis münasibətə etiraz edərək, aclığa başladı və onların xeyrinə müqavilə bağlanmasına nail oldu. Britaniyanın geri çəkilməsini tələb etdiyinə görə 1942-ci ildə bir daha həbs edldi. Müstəqil Hindistan dövlətinin yaradılması üçün danışıqlar apardı.

Hindistanın müstəqillik qazanması təntənələrində iştirak etmədi, bunun əvəzinə o, Kəlküttəyə yollanıb, hinduistlərlə müsəlmanlar arasındakı qanlı münaqişəni yatırmağa calışdı. Ölüm təhlükəsi altında olsa da buna nail ola bildi.1948-ci ilin əvvəlində axırıncı aclıq aksiyasına başladı və bu öz həyatını qurban vermək aksiysı cəmiyyətə xeyli təsir göstərdi, əks qütbdə olanlar kompromissə getməklə, Dehlidə millətlərarası münaqişə dayandırıldı. Həmin il yanvarın 30-da Qandi bir hinduist fanatik tərəfindən qətlə yetirildi. O, təkcə mübarizə dühası deyildi, həm də qeyri-adi bir humanist idi, öz mübarizəsində şərə zorakılıqla müqavimət göstəməməyi təbliğ edirdi.

Hindistanın baş naziri Cəvahirləl Nehru xalqa böyük liderin ölüm xəbərini radio ilə çatdıranda demişdi: "Bizim həyatımızın işığı söndü. Hər yeri qaranlıq bürüdü. Bizim sevimli rəhbərimiz Bapu ("ata" deməkdir- müəllif), necə ki, biz onu adlandırırdıq, artıq aramızda yoxdur.... İşıq sönmüşdür mən dedim, lakin bu səhvdir.. Çünki bizim ölkədə parlayan işıq heç də adi işıq deyildi."

Bu zahirən kiçik adamın ideyalarının və ideallarının gücü, onlara pərəstişə görə elə böyükdür ki, qatilin güllələri onları məhv etməyə qadir deyildir. Qandi bütün bəşəriyyətin vicdanının ruporuna çevrildi. O, təkcə Hindistanda parlayan olmayıb, haqqı sevənlərin ürəyinə şüa salan bir işıq idi. Onun şəxsiyyətinə düha nişanı vurulduğunu çoxları etiraf edir, həm də onu da qeyd edirdilər ki, dahi adamlardan adətən yaxşı siyasətçi çıxmır, nadir istisna isə məhz Qandi idi. Bu fiziki cəhətdən zəif bir insanda polad kimi möhkəm, qaya kimi sarsılmaz olan nəsə bir şey var idi. Onu zorakılığa əl atmamaq apostolu sayırdılar. Albert Eynşteyn Qandinin 70 illik yubileyi münasibətilə söylədiyi nitqində demişdi ki: "Bəlkə də gələcək nəsillər sadəcə olaraq inanmayacaqlar ki, adi candan və qandan olan belə bir adam bu günahla dolu torpaq üzərində addımlamışdır."

Onlar cəmiyyətin bəzəyidir

Ləyaqətli şəxslər, ümumiyyətlə, cəmiyyətin, sotsiumun bəzəyinə çevrilir, ləyaqət nümayiş etdirən hökmdarlar isə onun üzvlərini əxlaqına, mənəviyyatına da ciddi təsir göstərməmiş qalmırlar. Onlar özlərindən əvvəlki və miras qalmış boğunuq, üfunətli havanı, nəcib əmələri və davranışları ilə təmizləməyə müvəffəq olurlar. Bu isə cəmiyyətə bütünlükdə şəfqətli təsir göstərir. Ona görə də onlar haqqında ağız dolusu danışmaq lazımdır ki, nəinki unudulmasınlar, həm də nəcib nümunələri ibrət götürmək mənbəyinə çevrilsin.

Belə bir əhvalat mövcuddur ki, bir dəfə iki dost sözləşdikdə, biri o birinə sillə vurdu. Bir az sonra acıqları bir qədər soyuyanda, onlar dənizdə çimməyə yollandılar. Alçaldılmış dost suya girməmişdən əvvəl qum üzərində nəsə yazırdı, onu incidən bu yazıda əvvəlki pis hərəkətinin nəql edildiyini gördü. Dənizdə birdən sillə dəyən özünü pis hiss etməyə və batmağa başladı. Dostu böyük çətinliklə onu sahilə çıxara bildi. Bir qədər sonra özünə gələn bu adam indi də daşın üstünə nəsə yazmağa başladı və dostu maraqlananda gördü ki, indi də özünün xilas edilməsini ifadə edir. Əvvəlki yazının nəyə görə qumda, sonrakının daşda yazıldığı ilə maraqlandıqda, yazıların müəllifi dedi ki, kim nə vaxtsa bizim xətrimizə dəyirsə, onu qumda yazmalıyıq ki, küləklər bu yazını silə bilsin. Lakin kimsə nə vaxt yaxşılıq etmişdirsə, biz onu daşda nəqş etməliyik ki, heç bir külək həmin yazını silə bilməsin.

Doğrudan da nəciblərə belə layiq olduqları münasibət göstərilməlidir ki, başqaları da onların mənəvi zənginliyindən hali olsun və nümunə götürsün.

Böyük italyan filosofu, “Cinayətlər və cəzalar haqqında” məşhur əsərin müəllifi, ilk dəfə cəzanın cinayətə müvafiq olması ideyasını irəli sürən markiz Çezare Bekkariya (1738-1794-cü illər) yaxşı demişdi: “Əgər mən bir həyatı xilas etmək aləti olmağı bacarsam, onun xeyir-duası və göz yaşları, hətta bu gün bəşəriyyətin nifrəti müqabilində belə, mənə kifayət dərəcədə bir təsəlli olardı”. Bəzən yüzlərlə, minlərlə adama xoşbəxtlik bəxş edən, onların həyatını məhrumiyyətlərdən xilas edən nəcib adamlar üçün təsəlli payı daha böyükdür, ölçüyə sığmazdır. Yaxşı insan öz ətrafına, onu əhatə edənlərə işıq, hərarət hədiyyəsi verir, bunlar onun özünə qayıtmasa da, başqalarına çatır, onlara imdad əlini uzadır, deməli, birinci başlanğıcdan meydana çıxan xeyirxahlıq yerdə qalmır, hökmən öz davamını tapır. Ona görə də xeyirxahlıq, insanlara sevgi, nəciblik yüksək qiymətləndirilməlidir, belə mükafatda isə yaxşılığın müəllifinin obrazı, az qala müqəddəslərə mənsub olan bir halə şəklində canlanmaqla, həm də gələcək nəsillərə çağırış vasitəsinə çevriləcəkdir.

Qəddarlıq ən nifrətəlayiq qüsurdur

Qüsurlar insan xarakterinin nöqsanlı cəhətləri olmaqla, onun sahibini etibarsız edir, şəxsiyyət kimi tanınan adama isə ciddi ziyan vurmamış ötüşmür. Qüsurlardan bəziləri onun daşıyıcısının əsəbinin, ümumilikdə sağlamlığının əleyhinə işlədiyi halda, əksəriyyəti isə bilavasitə əhatə edənlərə xətər toxundurur. Onu görə də belə adamlara yönələn nifrət, kin uzun müddət nəinki sıradan çıxmır, heç zəifləmir də. Qəddarlıq adlanan qüsur adətən başqasına istiqamətlənir, istənilən hədəf seçildikdə ona ağır zərbə vurmaqla da kifayətlənyməyib, bəzən həmin hədəfin məhvinə də səbəb olur.

Qəddarlıq həm də möhkəm qorxu mühiti yaradır, hər kəs bu eybəcər zərbənin onu haqlayacağından qorxub, qəddarlıq mənbəyindən çəkinməyə, könüllü surətdə, əlbəttə ki, əlacsızlıqdan ona dözməyə, çarə qalmayanda isə tabe olmağa başlayır. Stalin depressiyası dünyanın ən böyük ölkəsinin bütün ərazisinə xof toxumu səpmişdi. Acı təcrübə göstərir ki, böyük səlahiyyət sahibləri qəddar olduqda, bu cəmiyyətə ağır yaralar vurur, təqib və repressiyalar, guya qanın adından törədilən qətllər baş alıb gedir.

Tarix adlanan bəşər yaddaşı ləyaqətli hökmdarlardan yüz, bəlkə də min dəfələrlə çox olan qəddar çarlara, krallara, imperatorlara, şahlara, sultanlara, inqilab rəhbərlərinə malik olmuşdur. Bir qayda olaraq onlar qətllərdən, iri miqyaslı qırğınlardan həzz alır, insanlara əzab, işgəncə və dərd payı verməkdə öz taxt-taclarının və ya vəzifə kürsülərinin qorunub saxlanmasının, guya əbədiləşməsinin ən səmərəli vasitəsi hesab edirlər. Canavar əgər xəstə, zəif heyvanları yeməklə fauna üçün sanitar rolunu oynayırsa, qəddar hökmdar əslində qurbanlarının tərkibinə o qədər də əhəmiyyət vermir. Bəziləri isə cəmiyyətin nəcib adamlarının qəsdinə durur, özləri üçün onları təhlükə mənbəyi hesab etdiklərindən, bu sıranı zəiflətmək üçün istənilən vasitəyə əl atmaqdan da çəkinmirlər. XVI əsrdə Varfolomey gecəsi qırğınından (1572-ci ilin avqustunda baş vermişdi) sonra, huqenotların ölkəni kütləvi surətdə tərk etməsi ilə Fransaya ağır iqtisadi zərbə vurulmuşdu. Kral XIV Luinin kübarlara vurduğu başqa zərbə öz ziyanlı izini sonralar daha dəhşətli şəkildə göstərmiş, Fransa ilk ən böyük dağıdıcı inqilabla üzləşmişdi. İngiltərə inqilabının başçısı Oliver Kromvel irland şəhəri Droqhedanın qarnizonlarını qırğına məruz qoymaqla, şəhəri bütünlüklə qan gölünə döndərmişdi.

Qəddarlıq ən təsirli vasitə hesab edildiyindən tabe etmək alətinə çevrilməklə eybəcər ənənənin meydana gəlməsinə səbəb olur. Ona görə də qəddarlar

“panteolunda” uyuyanların sayı-hesabı yoxdur. Qəddar heç vaxt öz əməllərindən nəinki xəcalət çəkmir, əksinə, bu insanlıqdan kənar olan əllaməlikləri barədə daim iftixarla danışır, öz biabırçı “igidlikləri” barədə söhbət açmaqdan da həzz alır. Onların iyrənc etirafları bu əməllər barədə daha geniş və “maraqlı” mənzərə yaradır, çünki başqalarının hekayətlərində bəzən mühüm detallar unudula, həm də şişirtmələrə və ya hansısa qərəzliliyə yol verilə bilər.

Tarixçilər də belələri haqqında bol məlumatlar verirlər. Axı adətən onların yazılarında sadə insanların güzəranı, ehtiyacları, çətinlikləri, bədbəxt taleləri barədə çox az söhbət açılır, bəzən cəmiyyətin bu qalın plastı, ən böyük təbəqəsi, ümumiyyətlə, tədqiqatçıların diqqətini cəlb etmir. Lakin taxt-tac sahiblərinin məişətindəki və ya sağlamlığındakı, xarakterindəki problemlərlə yanaşı, arvadlarının, məşuqələrinin, kraliçaların isə məşuqlarının özlərini necə aparması, şıltaqlıqları ən yağlı boyalarla təsvir edilir. Onları qınamaq da düzgün olmazdı, axı hökmdarlar özləri ilə yanaşı, həm də ölkəni, xalqı, təbəələrini təmsil edən baş qəhrəman qiyafəsində səhnəyə çıxırlar, onlar öz davranışları ilə cəmiyyətdəki mənəvi mühitin hansı hərarətdə olmasını müəyyən etməklə kifayətlənməyib, həm də cəmiyyət üzvlərinə güclü təsir göstərir, pis nümunələri ilə güclü deformasiyaların meydana gəlməsinə səbəb olurlar. Həm də onlar xalqı, ölkəni tez-tez müharibələrə, sarsıntılara cəlb etməklə daim diqqət mərkəzində olurlar. Hökmdarın sevdiyi bir qadına yiyələnməsi üçün və printsə malik olmaq naminə arvadını boşaması da siyasi əhəmiyyət kəsb edən bir məsələyə çevrilir, arvadlarını qətlə yetirmək isə onun heybətliliyindən qorxu hissini daha da artırır. Böyük Karlın, VIII Henrinin və Napoleonun arvadlarını boşaması və yeni izdivacları əslində həm də böyük siyasi hadisə xarakteri daşıyırdı. İngilis kralının timsalında isə, onun sevdiyi Anna Boleynlə evlənməsi üçün birinci arvadını boşaması İngiltərə kilsəsinin Roma Papası ilə münasibətlərinin tamamilə kəsilməsi, ölkənin katolik məzhəbindən uzaqlaşmaqla protestantlığa keçməsi hesabına geniş dini münaqişənin meydana gəlməsinə səbəb olmuşdu.

Milyonlarla sadə adamın nikaha girməsi və ya nikahını pozması isə heç toyuq hinindəki qədər də səs-küy yaratmırdı. İngiltərə limanlarında isə dənizçilərin bir günlük nikahı adi qaydaya çevrilmişdi. Ona görə də tarix salnamələrində hökmdarların pozğun əxlaqlarının anatomiyası, əslində patologiyası da geniş təsvir mövzusu rolunu oynayırdı.

Qədim Roma tarixçiləri Tatsit və Svetoni bu antik dövlətin imperatorlarının dözülməz qüsurlarını qələmə almaqla, Tatsitin özünün dediyi kimi “*Sine ira et studio*” – “qəzəbsiz və qərəzsiz,” yəni təhrifə yol vermədən hadisələrin sadəcə olaraq təsviri kimi bir vəzifəni həyata keçirirlər. Tatsit inanırdı ki, tarix əxlaqi niyyətə malikdir:

“Bu, mənə belə görünür ki, tarixçinin başlıca vəzifəsi buna əmin olmaqdır ki, o, ləyaqəti çatdırır və gələcəkdə məhkum ediləcəyindən qorxuya görə şər əməllərə və sözlərə qarşı çıxır”.

Onsuz da onların qələmə aldıqları həmin dövrdə və xeyli sonralar də xalqa məlum idi, axı hökmdarın istər nəcib, istərsə də çox sayda olan eybəcər əməli və ya əxlaq nümunələri dillərə düşür, tarixçilərin isə xidməti ondan ibarətdir ki, onlar bu həqiqətlərin sonrakı nəsillərə çatdırılması kimi bir xeyirxah işi görürlər. Qəddarlıq bu imperatorların, müasir dillə desək, elə bil ki, DNK-larına (DNT-lərinə) yazılmışdır. Məgər tarixçilər qələmə almasaydılar da, Kaliqulanın, Neronun, Kommodun, Karakallanın, Eloqabalın qəddarlıqları və dözülməz əxlaq pozğunluqları bir sirr olaraq qalacaqdımı? Roma əhalisinin əksəriyyəti bundan hali idi və onların şahidi olmaq qismətini yaşamışdılar. Hökmdarların həyatı nə qədər qalın divarlar arxasında gizlədilsə də, onların barəsində söhbətlərin dolaşmasını qadağan etmək mümkün olmur, kütlənin hamısını isə həbs etmək, qalalara saldırmaq, qətlə yetirmək olduqca müşkül məsələdir.

Hökmdarın süqutundan və ya ölümündən sonra onun barəsindəki söhbətlər təfərrüatlara yiyələnməklə genişlənir, bəzən hətta bir qədər şişirdilmiş qaydada gedir. Axı insanlar hətta eybəcərliyi də qövsü-qüzeh rəngarəngliyində müşahidə etməyə meyl edir, öz baxışlarını nəsillərdən nəsillərə ötürürlər.

Yazıçılar da tarixin daha böyük maraq obyektinə çevrilməsi üçün öz dühalarını, istedadlarını əsirgəmirlər. Uilyam Şekspirin pyesləri vasitəsilə Qədim Roma və İngiltərə tarixinin, təsvirində dəqiqliyi təəccüb doğuran xeyli səhifələrinə bələd olmaq imkanı tapırsan. Valter Skott ingilis sarayının xəyanətlə dolu olan həyatını təsvir edir. Aleksandr Dyuma (ata), Viktor Hüqo və Lev Tolstoyun əsərlərində tarixin dəhşət dolu səhnələri istedadlı rəssam ustalığı ilə göstərilir. Onların yaratdıqları nəhəng panoramalara hansısa rəngin qatı və ya zəif olduğu da xələl gətirə bilmir.

İnsan dünyaya gələndən xatarkterində ləyaqətlər kimi qüsurları da daşımağa başlayır və onlar getdikcə inkişaf edir və ya zəifləyir. Min illər keçsə də, həyat, cəmiyyətlər, mühit dəyişsə də, bədbəxtlikdən qüsurlar nəinki yoxa çıxmır, əksinə, daha çox şəkillər alır və şaxələnir. Sivilizasiyalanmış insanın mənfi məziyyətləri cəmiyyətin özü kimi yaxşı və pis tərəflərə dəyişməsindən asılı olmayaraq, getdikcə inkişaf edir, yeni formalarda meydana çıxır. İnsanın mənəviyyatına mədəniyyət, yaradıcı şəxsiyyətlər təsir göstərsələr də, onun vicdanına çoxlu çağırışlar və müraciətlər edilsə də, həyatın özü daha güclü təsir göstərməkdə davam etdiyindən çoxlarının daxili aləmində elə bir müsbət dəyişiklik əmələ gəlmir. Bədbəxtlikdən, sivilizasiyalanmış dəyərlər sıradan çıxmağa başlayır. Daha pis cəhət orasındadır ki, ən

iyrənc qüsurlar daha da böyüyür, şişir, eybəcərliyi ilə rəmzə çevrilərək, tarixin səhifələrini işğal etməyə başlayır.

Qəddarlıq, adamları əzaba düçar etmək vasitələri də zənginləşirdi. Misir piramidaları nəhəng tikililər olmaqla ən faydasız obyektlər hesab olunur, çünki ağlasığmaz zəhmət sərfi, daha doğrusu israfı hesabına başa gələn bu ehramlar faraonun cəsədini qoruyan sərdabə rolunu oynamalı idi. Onları əsasən mövsümi işçilər tikirdilər. Yay aylarında Nil çayı daşanda əkinçilər özlərinin kənd təsərrüfatı iqtisadiyyatına ziyan vurmadan bu tikintilərdə çalışırdılar. 25 milyon ton ağırlığındakı daş blokların daşınmasından və ucaldılmasından əmələ gələn bir neçə nəhəng piramidanın tikintisinə bir əsrə qədər vaxt lazım gəlirdi. İnşaatçıların əksəriyyəti öz zəhmətlərinin nəticəsini görmürdü. Guya bu piramidalarda uyuyanlar həmin sərdabələrdən əbədi həyata qalxa bilərdilər, axı onlar allah hesab olunurdular. Əgər faraonlar əbədi bir şərəfdə səyahət etsəydilər, guya yer üzərindəki həyat da çiçəklənəcəkdi.

Qədim dünya ümumiyyətlə, insanın gözləri qarşısında qəddarlıqlar səhnəsi, qırğınlar mənzərəsi kimi canlanır.

Köhnə Babilistan imperiyasının banisi və heç şübhəsiz, ən böyük amorit hökmdarı olan Hammurabi (b.e.ə. 1792-1750-ci illərdə çarlıq etmişdi) öz qəddarlığını məğrurluqla bəyan edirdi: “Mən yuxarıda və aşağı ərazidə düşməni kökündən məhv etdim”. Həqiqətən də o, hökmranlıq etdiyi dövrdə öz ölkəsinin ərazisini müharibələr, məkrli ittifaqlar və asılılığa salan müqavilələr vasitəsilə doqquz dəfə böyütmüşdü. Lakin Hammurabi tarixə öz işğallarına görə deyil, daha çox dünyada ilk və böyük hüquqşünaslıq sənədi olan qanunlar toplusuna – “Hammurabi kodeksi”nə görə daxil olmuş və bütün dövrlər üçün məşhurluğa qovuşmuşdu. Napoleonun da dühasının irsi kimi qələbələrinin izi deyil, məhz “Mülki kodeksi” qalmışdır və bu sənəd çox sayda dövlətlərin qanunlarının binövrəsi rolunu oynamışdır. Hammurabi özünün bu məşhur işini “*dinat misarim*” – “ədalətli qaydanın verdiktləri” adlandırmışdı, özü isə daim məhz “ədalətli çar” adlanmağını arzu edirdi.

B.e.ə. 1225-ci ildə Assuriya çarı Tikultu-Minutra Babili tutub, öz salnaməçilərinə göstəriş verdi ki, bu barədə belə məlumat versinlər: “Mən Babilistan çarını əsir götürdüm və onun məğrur boynu ilə ayaqyolu oturacağı kimi davrandım. Beləliklə, mən bütün Şumerin və Akkadın ağası oldum və öz səltənətimin sərhədini Aşağı dənizin üstündə qoydum”.

İsrail çarı David (b.e.ə. 1000-970-ci illərdə hökmranlıq etmişdi) bir neçə işğalından sonra təslim edilmiş xalqlarla olduqca sərt davranmışdı. Bibliyada “Semyuelin ikinci kitabı”nda deyilir ki: “Sonra David Moabitləri məğlub etdi. O, əsirləri torpağın üstünə

uzandırdı və hər üçündən ikisini ölümə məhkum etdi. Beləliklə Moabitlər onun təbəəsi oldular və ona vergi verirdilər.” Həmin kitabdakı “Davidin qələbə şərqisi” fəslində isə onun öz dilindən deyilir ki, “Mən onları (düşmənləri- müəllif) tarmar etdim və onlar toza çevrildilər, / Mən onları palçıq kimi tapdaladım.”

B.e.ə. 883-859-cu illərdə Assuriyada çarlıq etmiş Aşşurnasirpal Şimali Mesopotamiyanı, Şimali Suriyanı və Finikiyanı işğal etmişdi. Məğlub etdiyi düşmənlərini lovğalıqla belə xatırlayır: “Mən onların döyüşçü qruplarından 3000-ni silahla doğradım… Onlardan götürdüyüm çox sayda əsirləri odda yandırdım. Çoxlarını diri ələ keçirdim, onlardan çoxunun əllərini biləkdən kəsdim, digərlərinin burunlarını, qulaqlarını və barmaqlarını kəsdim, çox sayda əsgərlərin gözlərini çıxartdım… Onların cavan kişilərini və qadınlarını ölüncəyə qədər odda yandırdım”.

Üç əsr keçməmiş İsrail çarı Davidin öz ölkəsi yadellilərin işğalına məruz qaldı. B.e.ə. VIII əsrin sonunda Assuriya çarı Sennaxerib Yerusəlimi mühasirəyə aldı.
Sennaxerib (b.e.ə. 704-681-ci illərdə hökmranlıq etmişdi) Yerusəlimin b. e. ə. 701-ci ildə baş verən mühasirəsini belə qeyd edir: “Yəhudilər mənim zülmümə tabe olmadıqda, onların güclü şəhərlərindən 46-nı mühasirəyə aldım… Mən onlardan 200.150 adamı, cavanları və qocaları, kişiləri və qadınları ölkədən kənara qovdum, həmçinin saysız-hesabsız atlarını, qatırlarını, eşşəklərini, dəvələrini qənimət götürdüm. Özümü Yerusəlimdə saray iqamətgahında qəfəsdə olan quş kimi əsir etdim. Onları (şəhərləri – müəllif) ilə torpaq işləri ilə mühasirəyə aldım ki, öz şəhər qapılarını tərk edənlər cana doysunlar”.

Yalnız hücum edən qoşun arasında baş verən qorxulu epidemiya ona böyük ziyan vurduqda, Sennaxerib şəhəri tutmaq məqsədindən vaz keçdi. Yəhudilərin şişirtməsinə görə, guya 185 min assuriyalı döyüşçü xəstəlikdən qırılmışdı. Necə olsa da, yəhudilərin lənəti öz işini görməkdə davam etdi və b.e.ə. 681-ci ildə Sennaxerib Minutra allahının məbədində öz oğlanları tərəfindən qətlə yetirildi.

B.e.ə. 669-633-cü illərdə Assuriya çarı olmuş Aşşurbanipal isə işğal etdiyi Babillə necə davrandığını belə təsvir edir: “Mən (haqqımızda) böhtan danışanların dillərini boğazından çıxardım… Mən onları qəti olaraq məğlub etdim. Digərlərini diri-diri, himayəçi ilahələrimizin heykəllərini dağıtdıqları qaydada əzdim, necə ki, mənim babam Sennaxerib onları əzmişdi, – indi mən nəticədə onun ruhuna gecikmiş də olsa, dəfn qurbanı verirəm. Mən onların cəsədlərini kiçik parçalara bölüb, itlərə, donuzlara, … quzğunlara, göydə uçan quşlara, həmçinin dənizlərdəki balıqlara yedirtdim. Bunlardan sonra böyük allahlarımızın, mənim ağalarımın ürəklərini yenidən sakitləşdirdim. Taundan ölənlərin cəsədlərini itlər və donuzlar yeyib doyduqdan sonra, kənara uzaqlaşdırdım. Onlar, həm də dəhşətli aclıqdan həyatlarını

itirənlər Babilin küçələrində hərəkətə mane olurdu, Babilin sarayları cəsədlə dolmuşdu”.

Assuriya imperiyası tarixdə bəşəriyyət üçün lənət simvolu sayılan ilk imperiya idi. Assuriyalılar əsirləri qullara çevirirdilər. İşğal edilmiş ərazilərdə adamlar müqaviləni pozduqda, hətta ən xırda xətalara görə ən sərt cəzalara məruz qalırdılar. Orta əsrlər Yaponiyasında da dəhşətli amansızlıq hökm sürürdü, ölüm hökmündən başqa bir cəza yox idi. Cəzanı çəkmək üçün məhbəslər də yox idi. Dustaqxanalar yalnız ölüm cəzasını gözləyənləri saxlamağa xidmət edirdi. Assuriyadakı həmin cəzalara isə oğlunu qurban vermək və ya bir girvənkə yun yemək və çox miqdarda su içmək daxil idi. Axırıncı cəza sonra əzablı ölümlə nəticələnirdi.

Assuriyanı tarix səhnəsində varis kimi əvəz edən Yeni Babilistan hökmdarları da qəddarlıq prinsipindən, qan tökmə rasionundan uzaqlaşmırdılar. Ən məşhur hökmdar olan II Nabuhadonosor b.e.ə. 604-cu ildə hökmranlığa başlamamışdan əvvəl misirliləri qəddarlıqla müşayiət olunan qanlı müharibədə tar-mar etdikdə, atasının ölüm xəbərini eşidib Babilə qayıdaraq, taxt-taca sahib olmuşdu. O, 597-ci ilin martında Yerusəlimin işğal etdi və çarları ilə birlikdə 3 min nəfər yəhudi Babilistana sürgün edildi. Səkkiz il sonra İudeya qiyam qaldırdıqda Yerusəlim 18 ay mühasirədə qalıb, nəticədə təslim oldu və bütünlüklə dağıdıldı. Minlərlə yəhudi “Babilistan əsirliyinə” göndərildi. İki min altı yüz il sonra belə, yəhudilər “Babil” kəlməsini yalnız böyük nifrət və qəzəblə dillərinə gətirirlər. Çar David duşmənlərini məhv etməklə öyünürdü, ancaq onun ölkəsinin və xalqının başına dəfələrlə daha dəhşətli bəlalar gəldi. O, oğlu Solomon kimi müdrik olmasa da, taleyin üzünün dönməsi ehtimalının mövcudluğunu yaddan çıxarmamalı idi.

Bir neçə əsr sonra böyük və gözəl Karfagen şəhərini romalılar b.e.ə. 146-cı ildə işğal edib yandırmaqla, eyni adlı dövlətin varlığına da son qoydular. Qalib Roma sərkərdəsi Kiçik Stsipion Emilian məhz belə bir dəhşətin Romanı da haqlayacağını uzaqgörənliklə hiss etmişdi. O, şəhərin viran qoyulmasının dəhşətli səhnəsini müşahidə etdikdə göz yaşları axıtmış və düşmənin taleyinə açıqca ağlamışdı. Bu mənzərə bir vaxtlar məğrur şəhər olan Troyanın, assuriyalıların, midiyalıların, böyük Persiya imperiyasının talelərini yada salırdı. Tarixçi Appianın yazdığına görə, Stsipion təsirlənib Homerin “İliada”sından Troyanın bütünlüklə məhv olması barədəki sətirlərini söylədi. Onun müəllimi və dostu olan görkəmli tarixçi Polibi bu sözlərlə nəyə işarə etdiyini soruşduqda, o, tərəddüd göstərmədən öz şəhərinin adını çəkdi, insan işlərinin dəyişkən olduğunu güman etdiyindən, Romanın taleyinə görə qorxduğunu söylədi.

David isə taleyin daim onun xalqına himayə göstərəcəyini güman etdiyindən, onun mümkün dolanbaclarına göz yummuşdu. Babilistan əsarəti qədim yəhudiləri dəhşətli sınağa çəkmişdi. Peyğəmbər Yeromiya Yerusəlimin işğal edilməsinin və dağıdılmasının şahidi olmuşdu. Bibliyanın "Ağılar" kitabında şəhərin bədbəxtliyinə bəslənən kədər və hüzn, onun acı dərdləri tükürpədən cizgilərlə təsvir edilir: "Müharibədə həlak olmaq sonra ölməkdən yaxşı idi, çünki adamlar aclıqdan yavaş-yavaş ölürdü, onları saxlamaq üçün heç bir qida yox idi. Xalqımın üstünə gələn bədbəxtlik dəhşət doğurur; sevən analar qida əvəzinə öz uşaqlarını isti suda qaynadıb yeyirdilər".

"Babil əsirliyi" dövrü həm də yəhudi dininin- iudaizmin və onun sərt qanunlarının formalaşması üçün həlledici əhəmiyyətə malik oldu. Bu din yad xalqların əhatəsində yəhudilərdə vahid bir xalqa məxsusluq hissini qoruyub saxlamağa kömək etdi. B. e. ə. 445-ci ildə müqəddəs mətnlər olan Tora tərtib olundu, bu toplu iudaizm ardıcıllarının bütün həyatını tənzim edən göstərişlərdən ibarət idi.

Bizim eranın 70-ci ilində isə Roma imperatoru Vespasianın sərkərdə oğlu, gələcək imperator Tit yəhudi üsyanını rəhmsizcəsinə yatırdıqda, bu vaxt Yerusəlimdəki çar İrodun tikdirdiyi Məbəd yandı və bir daha bərpa olunmadı, ondan yadigar kimi yalnız "Ağlama divarı" adlanan Qərb divarı qalır.

Palestina romalılar tərəfindən imperiyaya anneksiya edildi və yəhudilər tədricən Roma imperiyasının digər hissələrinə yayıldılar. Əsrlər ərzində yəhudilərin bir ölkədən başqasına keçməsi və ya diaspora bu əzabkeş xalqın mövcudluğunun mərkəzi faktına çevrildi. Davidin düşmənlərinə qarşı amansızlığı daha böyük miqyasda öz xalqına qarşı tətbiq edildi. XV əsrin sonunda sefard yəhudilər kütləvi şəkildə İspaniyadan qovulduqda, onlara daha çox sığınacaq verənlərdən biri Osmanlı imperiyası oldu. XX əsrin 30-cu və 40-cü illərində isə antisemitizm Hitler diktaturası dövründə genosid siyasətinə və praktikasəna çevrildi. Yəhudilərə qarşı aparılan Holokost tarixin ən dəhşətli epizoduna çevrildi, 6 milyona qədər yəhudi öz həyalarını natsistlərin ölüm düşərgələrində, həmçinin aclıqdan və xəstəliklərdən qurban verməli oldu.

Böyük Aleksandrın (b.e.ə. 356-323-cü illər) böyük qələbələri ilə yanaşı heç də az əhəmiyyət daşımayan xidməti yunan sivilizasiyasının xilas etməsi idi. Çünki o, b.e.ə. 334-cü ildə Asiyaya yürüşünü başlayanda Ellada zəifləmiş, Persiya güclənmişdi. Lakin Aleksandr şöhrətpərəst olduğu kimi, həm də qəddar idi. Avropada vuruşarkən qonşu Fivanı təslim etdikdə və viran qoyduqda, kiçik bir istisna nəzərə alınmasa, şəhərin sakinlərini qul olmağa satmışdı. Bununla o, digər yunan dövlətlərini qorxutmaq istəyirdi. Asiya işğalları vaxtı isə, b.e.ə. 332-ci ildə Finikiya şəhəri olan

Tiri altı ay mühasirədə saxladıqdan sonra, donanması olmadığından adadakı şəhəri tuta bilmirdi, şəhərlə materiki birləşdirmək üçün bənd zolağı çəkdi. Böyük qurbanlar verən şəhər təslim olmağa məcbur oldu. Aleksandr sakinləri qul olmağa satdı, bəziləri isə çarmıxa çəkdirildi. O, Persiyadakı gözəl Persepolis sarayını yandırıb, xaraba qoydu ki, Afinanın perslər tərəfindən yandırılmasının qisasını alır.

O, öz dostlarına və silahdaşlarına qarşı da qəddarlıq edirdi. Marakanda qalasındakı ziyafətdə uşaqlıq dostu Klit yerli perslərin yanında, Makedoniya qoşun rəislərini lağa qoyan mahnılar oxunması ilə onlara istehza edilməsindən hiddətlənib, Aleksandrla sözləşdi. O, Kliti qorxaqlıqda ittiham etdikdə, dostu Qranik döyüşündə onu ölümdən xilas etdiyi hadisəni yada saldı. Qəzəblənən Aleksandr mühafizəçisinin nizəsini qapıb, uzun illər dostluq etdiyi və həqiqi xilaskarı olan bir adamı qətlə yetirdi. Sonra o, sərkərdə Parmenionu, oğlu Filotu edam etdikdən sonra onun qisas alacağından qorxub qətlə yetirtdirdi.

Tsin Şi Huan-di b.e.ə. 221-ci ildə Çinin birləşməsinə və mərkəzi dövlət yaranmasına nail olanda "hökmdar" mənasını verən "van" titulundan imtina edib, ilk dəfə "huan-di" – imperator adına yiyələndi. Bundan əvvəl kiçik dövlətə başçılıq edəndə isə o, İn Çjen kimi tanınırdı. İmperator olduqdan sonra isə yüksək hakimiyyətin və qüdrətin yeganə mənbəyi hesab olunurdu. Şi Huan-di ifadəsindəki şi – "birinci" mənasını verməklə onun ilk imperatorluğuna işarə idi, di – "Qütb ulduzu" demək idi, huan-di isə "parlayan qütb ulduzu" ifadəsi olmaqla, həm də imperator mənasını verirdi. Deməli, Yer üzərindəki hökmdar səma cismi ilə eyni qaydada adlanırdı. Tsin isə sülaləsinin adı idi. O, sərhəd boyu mövcud olan divarların, məşhur Çin səddinin birləşdirilməsi və möhkəmləndirilməsi işinə sayı yüz minlərlə ölçülən işçi qüvvəsi cəlb etmişdi. Bu tikintilərdə on minlərlə adam ailəsindən uzaqlarda həyatını itirirdi. Ümumiyyətlə, o, nəhəng layihələr pərəstişkarı idi. Çinin bütün ərazisindən keçən kanal çəkdirmək istəyirdi, lakin bu layihə həyata keçmədi.

Şi Huan-dinin hökmdarlığı dövründə adamlar təqiblər vasitəsilə nəhəng tikinti işlərinə cəlb edilirdi, onların çoxu da tikinti yerinə gələndə yollarda ölürdü, bir hissəsi isə qaçmaqla canını qurtarmaq istəyirdi. Belə bir hadisə 1849-cu ildə Kaliforniyada qızıl tapıldıqdan sonra əmələ gələn ağlasığmaz "qızıl həyəcanı" vaxtı da baş vermişdi. Ölkənin hər tərəfindən bir andaca varlanmağa can atanlar evlərini, işlərini atıb, dəli kimi bura tələsirdilər. Hakimlər mühakimələrini yarımçıq qoyub, məmurlar iş yerlərini tərk edib bu macərada iştirak etməyə yollanırdılar. Çoxları yollarda xəstəliklərdən ölürdü, əksəriyyətinin isə Kaliforniyada arzularının puç olması və ümidlərinin dağılması ilə həyatın acı davamı gözləyirdi. Çoxları qızıl tamaq əvəzinə,

bütün var-dövlətlərini, nəhayət, həyatlarını itirməli olurdular. Çindən fərqli olaraq adamlar buna məcbur edilmirdilər, özləri könüllü surətdə bu ağılsızlığa gedirdilər.

İmperator Şi Huan-diyə gəldikdə, o, qəddarlığını tez-tez işə salırdı, onun siyasətini tənqid etdiyinə görə yüzlərlə ziyalı öldürülmüşdü. Hüquqa həsr olunanlardan savayı başqa mövzularda olan bütün kitablar, hətta bağçılığa və bitki ilə müalicə dərmanlarından bəhs edənlər də ictimai dövriyyədən təcrid edilirdi. Səbəb isə ondan ibarət idi ki, imperator bu bitkiləri təhlükəli və qaydanı pozan hesab edirdi. O, Konfutsinin kitablarını yandırtmışdı. Qay Yuli Sezar b. e. ə. 48-ci ildə Aleksandriyada hərbi tələ qurmaq məqsədilə öz gəmilərini yandırdıqda, yanğın məşhur Aleksandriya kitabxanasına da keçib, onu məhv etmişdi. 639-cu ildə xəlifə Ömər Misiri işğal edərkən Quranda yazılanların vahid və hərtərəfli elm olduğunu əsas götürərək, Aleksandriya kitabxanasını yandırmağı əmr etmişdi.1258-ci ildə isə Çingiz xanın nəvəsi olan monqol sərkərdəsi Hulaqu Bağdadı tutduqda şəhəri qarət edib, Müdriklik evini dağıtmış, onun zəngin kitabxanasının bütün kitablarını Dəclə çayına atdırmışdı. Qəzəbi soyumayan monqol xanı xəlifə ilə birlikdə şəhərin 800 mn sakinini öldürtmüşdü. Yəqin ki, Hitler də 1938-ci ildə Nyurnberqdə kitab tonqallarına yol açanda bu ideyanın köhnə müəllifinin bədnam irsinə əsaslanmışdı.

Karfagen sərkərdəsi Hannibal (b.e.ə. 247-183-cü illər) cəsur olduğu qədər, həm də qəddar idi. İspaniyada Romanın himayəsində olan Saquntu zəbt etdikdə, o, bütün şəhər sakinlərinin öldürülməsini əmr etmişdi.

Pont çarı VI Mitridat Yevpator (b.e.ə. 132-63-cü illər) Romaya qarşı intiqam hissinə görə Kiçik Asiya şəhərlərində yaşayan bütün romalıların bir gün ərzində qırılmasına göstəriş vermiş və həmin gün 150 min adam qətlə yetirilmişdi.

B.e.ə. 82-ci ildə Roma sərkərdəsi Sulla ona qarşı guya haqsızlıq edildiyinə görə ordusu ilə birlikdə, qanun isə buna icazə vermirdi, Romaya daxil olub, şəhəri tutdu və paytaxtda görünməmiş terror başlandı. “Terror” latın dilində “dəhşət” deməkdir. Romanı bu vaxt əsl dəhşət bürüdü. Əgər quldarla qul arasındakı antaqonizmə görə qul ağasının potensial düşməni hesab olunurdusa, Sulla şübhələndiyi adamların hamısını öz gözündə düşmən kimi görürdü. O, cəzalandırmaq istədiyi adamların siyahısını tutdururdu. Proskriptsiya adlanan bu siyahıya düşənlər qanundan kənar elən edilməklə qətlə yetirilirdi, həm də bu eybəcər tədbir təkcə Romada deyil, İtaliyanın digər şəhərlərində də tətbiq olunurdu. Humanistlik edib, özünü xilas etmək istəyənlərə evində sığınacaq verənləri də ölümlə cəzalandırırdı. Bu vaxt qardaş qardaşı, oğul atanı, ata oğulu bu siyahılara saldırmağa can atırdı ki, onların mülkiyyətinə sahib olsun.Yalnız arvadlar ərlərinə qarşı öz sədaqətlərini qoruyub saxlamaqla, belə cinayətə nisbətən az gedirdilər. Bu adamları qətlə yetirənlərə hətta mükafat verilirdi,

çoxları pulunun, sərvətinin qurbanı olurdu. Sulla bir şəhərdə yaşayan 12 min adamın hamısını bir yerə yığdırıb onları qırmağı əmr etmişdi.

Sulla istədiyi adama – gözəl qadınlara, müğənnilərə, mimik aktyorlara bütöv xalqların torpaqlarını və şəhərlərin bütün gəlirlərini bağışlayırdı. Başqalarının arvadlarını yaxın adamlarına bəxşiş kimi verirdi. O, 40 senatoru və 1600 atlını (onlar yuxarı sinflərə mənsub olanlar idilər) ölüm cəzasına məhkum etmişdi. Onun apardığı müharibələrdə isə ölkənin 100 min nəfərdən artıq ümid verən vətəndaşı həlak olmuşdu. O, Roma tarixində ilk dəfə olaraq dövlət terrorunu həyata keçirmişdi. Sulla lənətinə gəlmiş Roma bu ağır xəstəlikdən sonralar da dəfələrlə əziyyət çəkməli oldu. Onun təcrübəsi bir daha göstərdi ki, despotiyanın fəsadları sağalmaz olur.

Qay Yuli Sezar b.e.ə. 49-cu ilin yanvarında Sulla qaydasında ordusu ilə Rubikon çayını keçməklə, Qalliyadan Roma ərazisinə ayaq basdıqda, özünə məxsus qaydada: "Alea jacta est" – "Püşk atılmışdır" sözlərini söyləmişdi. O, yaxşı başa düşürdü ki, bu hərəkəti ilə Romada vətəndaş müharibəsinə start verir, çünki o, öz dövlətinin qanunlarını tapdalamaqla bu addımı atmışdı. Vətəndaş müharibəsi isə bütün müharibələr içərisində ən iyrəncidir, çünki qardaş qardaşı öldürməli olur, hamı üçün vahid olan vətən iki cəbhəyə bölünür. Bu dəfə də vətəndaş müharibəsi Romaya ağır başa gəldi. Çünki müharibədə adətən qanunlar susursa, vətəndaş müharibəsində əks tərəfə münasibətdə ümumiyyətlə heç bir qanun yada düşmür.

Sezar artıq çar olmaq fikrinə düşmüşdü, onun bütün xüsusiyyətlərinə yiyələnmişdi, təkcə formal qaydada elan olunması qalırdı. B.e.ə. 44-cü ildə ömürlük diktator elan edilən Sezara qarşı sui-qəsd baş tutdu və o, senatda öldürüldü, cəsədi Pompeyin büstünün kürsüsünün yanına düşdü.

Sezarın qətli gözlənilənin tam əksi olan bir nəticəyə gətirib çıxardı, yeni vətəndaş müharibəsinin başlanması üçün siqnal rolunu oynadı və Sezar tərəfdarları Yunanıstandakı Filippi döyüşündə sui-qəsdin təşkilatçıları olan respublikaçılar ordusuna qalib gəldilər. Romada meydana gələn ikinci triumviratın törətdiyi qırğının qurbanlarının sayı isə hesaba gəlmirdi. Tarixçilər 300 senatorun və 20 min atlının öldürüldüyunu xəbər verirlər. Ona görə də Tsisteronun Sezarın qətli barədə az sonra söylədiyi sözlər çox müdrik olmaqla, həqiqəti əks etdirirdi: "Mart idiləri" (Sezarın öldürüldüyü 15 mart günü- müəllif) ilə özünə təskinlik vermək axmaqlıqdır, axı biz kişi igidliyi ilə yanaşı, ağıl barədə isə əsl uşaqlıq göstərdik. Ağac kəsilmişdi, lakin kökündən çıxarılmamışdı, ona görə də bilmirik ki, o hansı zoğlar verəcəkdir". Onun sözləri gerçəkliyə çevrilməklə təsdiqini tapdı, çoxlu qurbanlarla yanaşı, böyük filosofun özünün də həyatına qətl vasitəsilə son qoyuldu.

Avqustdan sonra gələn Roma imperatorları isə böyük dövlətin başçılarından daha çox əcaib klounları xatırladıb, karikatura effekti yaratmaqla yanaşı, elə bil ki, qəddarlıqda bir-birləri ilə yarışa girmişdilər. Roma imperatoru Tiberi (b.e.ə. 42 - b.e. 37-ci illər) ömrünün son illərində Kapridə əylənmək üçün adamları qayadan dənizə atdırır, orada qayıqda keşik çəkənlər onları avarla vurub öldürürdülər. O, öz varisi olacaq gələcək imperator Kaliqula (b.e.12-21-ci illəri) haqqında isə demişdi ki, "Mən Romanın döşündə gürzə bəslənmişəm". Tezliklə Kaliqulanın qəddarlığı da üzə çıxdı, öz qardaşını edam etdirdi. Osmanlı imperatorları da kişi cinsindən olan öz yaxınları barədə belə iyrənc irsi davam etdirirdilər. Kaliqula bəzi senatorları öz arabasının dalınca uzun məsafələrə qaçmağa məcbur edirdi. Onun vəhşiliyi hədd tanımırdı. Vəhşi heyvanlara verilən ət bahalaşanda (qladiator döyüşləri üçün çox sayda yırtıcı heyvan saxlanırdı), o, cinayətkarları diri-diri onların qabağına atdırırdı. Hörmətli adamları qəfəsə saldırıb, heyvan kimi əllərinin və ayaqlarının üstündə dayanmağa məcbur edirdi. O, Homerin poemalarını məhv etməklə tanımadığı Şi Huan-dini təqlid etmək istəyirdi. Onun ağılsız idarəçiliyi adamları boğaza yığdığından, 29 yaşında qətlə yetirilməklə həyatla vidalaşmalı oldu.

Kaliqula yalnız insanlara nifrət edirdi, heyvanları isə olduqca xoş münasibət bəsləyirdi. Atına mərmərdən tövlə, fil sümüyündən axur tikdirmişdi, öz ölümü mane olmasaydı atını konsul edəcəkdi (Roma respublikasında seçilən iki konsul dövlətin ən böyük icra hakimiyyəti idi).

Neron (37-68-ci illər) 17 yaşında imperator səlahiyyətlərinə yiyələndikdən sonra həyasızlığı, qəddarlığı ilə ad çıxarmağa başladı. Bu onun təbiətindən irəli gəlirdi. O, kimi istəsə edam etdirirdi, anasını özünü öldürməyə məcbur etmişdi, arvadlarını qətlə yetirirdi. Müəllimi, böyük filosof Senekanı, özünü intihar etməyə vadar etmişdi. 64-cü ildə Romanı açıq şəkildə yandırtdı, altı gün davam edən yanğının dəhşətli mənzərəsinə imperator tamaşa edib, həzz alırdı. Onu öldürəcəklərindən qorxub, 68-ci ildə əlacsızlıqdan qılıncı boğazına soxmaqla özünü öldürdü, bu vaxt onun 31 yaşı var idi.

Atasından və qardaşından sonra imperator olan Domitsian (51-96-cı illər) da çox tezliklə qəddarlığa və tamahkarlığa keçdi. Bir neçə konsulu və çox sayda senatoru ölümə göndərdi. Ona qarşı artan nifrət sui-qəsdlə nəticələndi və 15 illik hökmranlığından sonra onu öldürdülər. Bu dövrdə 12 Sezardan 7-si öz ömürlərini təbii qaydada deyil, zorakılıq nəticəsində başa vurmuşdu.

211-217-cu illərdə imperator olan Karakalla öz əli ilə kiçik qardaşını öldürmüşdü. Onun özünü də Şərqə yürüş vaxtı öldürdülər. Ümumiyyətlə, Avqustdan sonra və nəcib imperatorlar istisna olmaqla, bu vəzifəni tutanlar çox tez-tez dəyişirdi,

çünki bir qayda olaraq öldürülürdülər. Bu da imperiyanın zəifləməsinə gətirib çıxarırdı, dövlət eroziyaya uğrayırdı, parçalanır, tədricən dağılırdı.

III əsrdə yaşamış xristian icmasının yepiskopu, xristianları Nerondan başlayaraq təqib etməklə məşğul olan imperatordan biri olan Valerian tərəfindən 256-cı ildə edam edilmiş Kiprian öz biabırçı dövrünü amansızcasına məhkum etməklə təsvir edib, yazırdı ki : "Hər yerdə müharibədir, hərbi düşərgələrdir, qanlı dəhşətlərdir. Bütün dünya qarşılılıqlı qaydada tökülən qanlarla suvarılır və insan qətli yalnız ayrı-ayrı adamlar tərəfindən törədildikdə cinayət hesab olunur, əgər bu açıq şəkildə həyata keçirilirsə, igidlik adlanır. Xətalara görə cəzasızlıq cinayətin dəhşəti ilə təmin edilir. Cinayəti nəinki edirlər, həm də onu etməyi öyrədirlər. Cinayət qanunlar qarşısında baş verir, hüquqlar tapdalanır. Bir insan bədəninə, onun orqanlarının sayından çox cəza tətbiq edilir. Hakimlər hökmləri ilə alver edirlər. Kim ki, cinayətin qarşısını almalıdır, o, özü cinayət edir, günahsız müttəhimi məhv etmək üçün hakim özü də günahkara çevrilir. Qanun qarşısında heç bir qorxu yoxdur. Nə satıla bilirsə, o da qorxu törədir". Bu yeni dinin mübariz xadimi vaxtilə, özündən üç əsrdən çox əvvəl Milonun məhkəməsində müdafiəçi kimi çıxış edəndə "*O tempera, o mores!*" – "Ar olsun bizim dövrə və onun qaydalarına!" sözləri ilə hayqıran Tsitseron kimi öz yaşadığı mühiti ifşa etməklə, onun haqsızlıqlarına elə bil ki, ölüm hökmü oxuyur.

Qəddarlıq sağalmaz, bəlkə də xərçəng kimi ağır bir xəstəlikdir. Əksər hallarda bu insan təbiətindən irəli gəldiyi halda, itaət etmək və qəddar hökmdara pərəstiş qaydasındakı kölə münasibəti kimi münbit şərait də onun meydana gəlməsinə və metastaz qaydada genişlənməsinə səbəb olur. Qay Yuli Sezar Katilina qəsdi müzakirə edilərkən senatda çıxış etdikdə Afina tarixindən bir ibrətamiz misal gətirmişdi. Afinalılar üzərində qələbə çaldıqdan sonra makedoniyalılar onların dövlətinin başında otuz hökmdar qoydular. Onlar əvvəlcə hamının nifrətini qazanmış ən zərərli caniləri məhkəməsiz edam etdilər, xalq isə bu hadisələrə sevinir və onları bəyənirdi. Sonra hökmdarlar cəsarətlənib, fərq qoymadan, öz istəklərinə uyğun olaraq adamları öldürməyə başladılar, başqalarını isə qorxudub vahimədə saxladılar. Beləliklə bütün xalq köləliyə düçar oldu və özünün səfeh sevincinin belə ağır qaydada altını çəkdi.

Təbabət inkişaf etdikcə bir az əvvəl əlacı mümkün olmayan xəstəlikləri öz üsulları ilə müalicə etməyə müvəffəq olur. Siyasi və sosial məsələlərdə isə "təbabət" gücsüz olaraq qalır. Siam əkizlərini, çox mürəkkəb və çətin cərrahiyyə əməliyyatı vasitəsilə bir-birinə bağlı olan bu iki bədəni ayırmaq, aralamaq, həmin anadangəlmə patologiyanı nisbətən aradan qaldırmaq mümkün olduğu halda, qəddarlığı onun məxsus olduğu xarakterdən uzaqlaşdırmaq mümkün olmur, axı bu "Siam əkizləri" bir ürəkdən keçən eyni qan dövranı timsalındakı vahid şüura və xarakterə malikdir. Ona

görə də bu patologiyanı müalicə etmək müşkül məsələdir. Qəddarlar islah olunmurlar, onların bu dözülməz qüsurları yalnız təbiətin hökmü və ya hansısa bir hadisə nəticəsində fiziki cəsədləri ilə birlikdə dünyanı tərk etməli olur. Axı yırtıcı vəhşi heyvan da heç vaxt vegetariana çevrilmir. Qəddar şəxslər də fauna üçün deyil, cəmiyyət üçün təhlükəli yırtıcı rolunu oynayır.

Qəddarlar uğursuzluğa düçar olduqda hökmən paranoyyaya meyl edirlər. Onlar həzzlərdə çimməkdən də öz qəddarlıq ilhamlarını alırlar. Ona görə də eyş-işrət qəddarlığı alovlandıran yanacağa çevrilir, odu alovlandıran əlavə oksigen püskürdülməsi rolunu oynayır.

Qəddarlıq barədə çox sayda misallar gətirmək mümkündür. Lakin həmin faktlar da onun eybəcər sifətinə nəsə əlavə bir cizgi bəxş etməyəcəkdir. Digər tərəfdən, keçmiş ölmür, özünün xüsusiyyətlərini gələcək əsrlərə də ötürməyə çalışır.

Əxlaq pozğunluğu cəmiyyətin xəstəliyinə çevrilir

Tarixi araşdırmalarda keçmişin iyrənc izləri arasında əxlaq pozğunluğunun da ciddi qüsur olduğu aşkara çıxır, ona görə də qəddarlıq nümunələri kimi, o da mövcud olduğu cəmiyyətə ar, biabırçılıq xüsusiyyətləri bəxş edir. Bəzi qədim xalqlarda qanqarışdırıcı intim əlaqə yalnız yuxarı sinif arasında davam etsə də, aşağı siniflər arasında yayılmırdı. Qədim Misirdə faraonlar sülalənin qanının təmizliyini qorumaq üçün öz doğma bacıları ilə evlənirdilər. Bu təcrübə faraonlar yoxa çıxsa da, b.e.ə. I əsrə qədər davam etmişdi. Çünki VII Kleopatra (b.e.ə. 69-30-cu illər) Böyük Aleksandrın ordusunun sərkərdələrindən biri və o, öləndən sonra Misirdə çarlıq edən Ptolomeyin sülaləsinin davamçısı olsa da, özündən kiçik qardaşının arvadı olmalı idi. Sezarın müdaxiləsi ilə Kleopatra taxt-taca sahib olduqdan sonra qardaşı da öldürülməklə, bu məsələ öz "uğurlu" həllini tapmışdı. Kleopatra əvvəlcə Sezarın məşuqəsi, sonra isə Mark Antoninin arvadı olmuşdu.

Yəqin ki, bu qədim ənənənin təsiri altında Misirdə sevgililər bir-birinə "qardaş" və "bacı" kimi baxırdılar, baxmayaraq ki, qardaş-bacı nikahı ölkənin çar ailəsi ilə məhdudlaşırdı. Bibliyanın "Şərqilər şərqisi" kitabında da çar Solomon üzüm bağında vurulduğu sadə kəndin qızı Sulamitə başqa əzizləyici adlarla yanaşı, "bacı" deyə müraciət edir. Görünür, bu ənənə Misirin sərhədləri daxilində qapılıb qalmamışdı.

Yunanıstanda əsasən ordudan gələn təsirlər hesabına homoseksual əlaqələr adi hal sayılırdı, yaşlı döyüşçülərin öz himayələrində olan gənc döyüşçülərlə belə əlaqəyə girməsi çox geniş yayılmışdı. Böyük Aleksandrın da dostu Hefestionla yaxınlığı sirr deyildi, Roksanaya evlənəndən sonra da bu əlaqə davam edirdi və bu oğlanın vaxtsız

ölümünə Aleksandr öz şəxsi faciəsi kimi yanaşmışdı. Spartada isə qadınlar intim yaxınlıq məsələsində tam sərbəst idilər, gənc qızlar isə çılpaq şəkildə öz həmyaşıdları olan oğlanlarla birlikdə məşq edirdilər.

Qədim Romada b.e.ə. II əsrindən başlayaraq əxlaq pozğunluğu "geniş vüsət" aldı. Böyük Katon kimi əxlaq təmizliyi uğrunda mübarizə aparan fədailər bu məsələdə bütün günahları yunanların mənfi təsirində görürdülər. Mədəniyyətcə xeyli yuxarıda dayanan yunanlar öz sivilizasiya nemətlərini romalılara ixrac edirdilər və bu mübadilədə, qəribə də görünsə, əxlaqın möhkəmliyinə xələl gətirən cəhətlər də yer tutmamış deyildi. Roma respublikasında yüksək vəzifəli xadimlər siyasi ittifaqlar naminə bir-birinə hətta uyğun gəlməyən qohumluq, izdivac əlaqələrinə girirdilər, bundan fayda götürürdülər.Siyasətçilər, məsələn, Avqustun özü də bunu etmişdi, hətta başqasının arvadını boşatdırıb onunla evlənirdilər, ancaq bu əxlaqa zidd qayda nikah sferasından uzağa getmirdi.

İmperatorların dövründə isə əxlaqsızlıq vakxanaliyası başlandı və getdikcə daha biabırçı formalar kəsb etməyə başladı. Əvvəlki şəhvət macəralarına baxmayaraq, əxlaqın keşiyində dayanması ilə öyünən Avqustdan sonra imperator Tiberi qoca vaxtında Kapri adasında əxlaqsızlıq yuvası quraraq, cavan qızlarla və oğlanlarla kef edirdi. Kaliqula öz bacıları ilə, Neron öz anası ilə intsest – qanqarışdırıcı əlaqəyə girmişdi. Onlara qədər qan yaxınlığı əlaqələri və nikah yalnız qullara məxsus idi. Hər cür məhrumiyyətlərin acığına onlar bunun fərqinə varmırdılar və heç olmazsa bu sferadakı sərbəstliklərindən təsəlli tapırdılar.

İmperator Klavdinin arvadı Messalina təkcə pozğunluq rəmzi olaraq qalmırdı, dövlətin qüvvədə olan qaydalarına ağır zərbə vurmaqdan da çəkinmirdi. O, başqa bir fahişə qadınla bir sutka ərzində pozğunluq marafonunda yarışa girməklə kifayətlənməyib, imperator əri sağ ola-ola, yalnız şəhərdən kənarda olmağına görə, nümayişkaranə şəkildə Sili adlı qəşəng kübar oğlana ərə getmişdi. O, yəqin ki, imkan olsaydı heç qədim yunan mifologiyasındakı Kritə Minotavrı doğub bəxş edən Pasifayanın da biabırçı hərəkətinin təqlidindən çəkinməzdi. Küt Klavdi isə nə baş verdiyini anlamırdı, axı o, ağıldan zəif idi. Uşaq vaxtı onu çirkin hesab edən anası mübaliğəyə yol vermədən demişdi ki, təbiət onu yaratmağa başlasa da, bu işi başa çatdırmamışdı. Ona görə də səfeh imperator arvadı barədə bu xəbəri eşidəndə qorxuya düşərək, özünün hələ vəzifədə qalıb-qalmadığını da soruşmuşdu.

Ərinin razılığı olmadan Messalina öldürüldükdən sonra, gənc dul qadın olan Aqrippina oğlu Neronu hakimiyyətə gətirmək üçün öz doğma əmisi olan həmin imperatora ərə getməyə nail olmuşdu. Roma qanunları belə izdivacı qadağan etsə də, Aqrippinanın qurduğu tələ hesabına senatorlar iradəsiz Klavdini belə biabırçı nikaha

girməyə məcbur etmişdilər. Messalinanın açıq fahişəliyinə dözən imperator özü də cavan qardaşı qızının məlahətindən və saraya gəlib tez-tez onu guya qardaşı qızı kimi öpməsindən, şirniklendirməsindən yayına bilmirdi. Sonralar, yəqin ki, öz təzə arvadı Aqrippinanın iştirakı ilə Klavdi zəhərlənib öldürüldükdə, bu qadının planı baş tutdu və oğlu yeniyetmə Neron taxt-taca çıxdı.

Neronun qısa ömrü əsl əxlaq pozğunluğu müntəxəbatı hesab oluna bilərdi. O, qıza evləndiyi kimi, cavan oğlana da ərə getmişdi. Ümumiyyətlə o, zinakarlıqda heç bir hədd tanımırdı.

Mark Avreli kimi nəcib imperatorun və böyük filosofun oğlu olan Kommod (161-192-ci illər) taxt-taca çıxdıqdan sona hər cür əllaməliklərlə məşğul olurdu, öz bacısı ilə intim yaxınlıq edirdi. Qladiator döyüşlərində bilavasitə iştirak edirdi. O qədər həyasızlaşmışdı ki, Romanın adını dəyişib, şəhərə öz adını vermək istəyirdi.

14 yaşında imperator olan Eloqobal (204-222-ci illər) daha çox öz pozğunluğu ilə "şöhrət" tapmışdı. Bu səfeh yeniyetmə dövlətin pulunu israf edir, əxlaqsızlıq orgiyaları təşkil edirdi. Sələfi Neron kimi qeyri-ənənəvi cinsi oriyentasiyasına görə ən eybəcər pozğunluqdan həzz alırdı.

Bu həmin Roma idi ki, burada vaxtilə bir kübar qadının çarın oğlu tərəfindən zorlanmasına görə qiyam qalxmış, xalq qisas naminə təkcə çar Məğrur Tarkvinini və onun ailəsini şəhərdən qovmaqla kifayətlənməmiş, həm də monarxiyanı bütünlüklə ləğv etməklə etruskların ağalığına da (son üç Roma çarı etrusk idi) son qoymuşdu. Bu hadisə b.e.ə. 510-cu ildə baş vermişdi və bu vaxt Romada hakimiyyətin respublika forması qurulmuşdu. Zorlanan qadın Lukretsiya nə baş verdiyini atasına, ərinə və onların dostlarına söylədikdən sonra, digər ərli qadınlara qeyri-bakirəlik, namussuzluq nümunəsi olmaqdansa, özünü intihar etmək yolunu tutmuşdu. Namuslu bir qadın kimi, ləyaqətini itirmiş olmaqdansa, öz həyatına qəsd etməyi seçən Lukretsiya bir təmiz və cəsarətli qadın modelinə, simvoluna çevrildi. Əxlaqsızlığa yol verən çar oğlu Sekst isə atası ölkədən qovulduqdan sonra öz köhnə düşmənləri tərəfindən qətlə yetirildi. Çarın devrilməsi və yeni quruluşun yaranması ilə Respublika erası meydana gəldi və onun ömrü beş əsr davam etdi.

Roma respublikasında əxlaqsızlığa aparan xırda şlüzlərin də bağlanmasına fikir verilirdi, qadına qarşı ehtiras yaradan cəhətlər belə, diqqətdən yayınmırdı.

Qadınların zinətə, dəbdəbəyə marağını zəiflətmək üçün də bir sıra tədbirlər həyata keçirildi. İkinci Puniya müharibəsi dövründə (b.e.ə. 218-201-ci illər) romalılar Oppian qanununu qüvvəyə mindirdilər. Bu qanunun prinsiplərindən əsas məqsəd qadınların malik ola biləcəkləri bəzəklərin sayını məhdudlaşdırmaq və həm də onların paltarlarının sayını azaltmaq idi. Böyük Katon bu qanunun ləğv edilməsini tələb edən

və ona qarşı çıxan qadınlar barədə kəskin çıxışlar edirdi. O deyirdi ki, “Bizim əcdadlarımız heç bir qadına, hətta onun şəxsi işində də mühafizəsiz davranmağa icazə vermirdi. Onlar istəyirdilər ki, bunu da qadınlar atalarının, qardaşlarının, ərlərinin nəzarəti altında etsinlər”. Kişilərə müraciət edərək deyirdi ki, “Onlar sizinlə bərabər olmağa başlayanda sizdən üstün olacaqlar”, sonra davam edirdi: “Əgər qanun arvadının xərclərinə məhdudiyyət qoymağı kəsirsə, sən heç vaxt bunu bərpa edə bilməyəcəksən”.

İslam dininin beşiyi başında dayanan Məhəmməd peyğəmbər də sadə həyat tərzinə üstünlük verdiyi kimi, dəbdəbənin əleyhinə idi. Ona görə də İslamın ilk illərində müsəlmanlar arasında ipək paltar və qızıl bəzək şeylər yasaq sayılırdı.

Onu da qeyd etmək lazımdır ki, antik dövrlərdə insan bədəninə münasibət də az əhəmiyyət daşımırdı. Yunanların və romalıların çoxuna görə insan bədəni gözəllik, sevinc və həzz mənbəyi hesab olunurdu. Qədim yunan heykəllərində və rəngkarlığında qadın və kişi bədəninin mütənasibliyi, hər cinsin özünə məxsus cazibədar cizgiləri xüsusilə nəzərə çarpdırılırdı. İstər, “Miloşlu Venera”da və ya “Disk atan” heykəlində bədənin ilham mənbəyi olması aydın surətdə özünü büruzə verir.

Sonralar isə xristian dininin təsiri altında, əlbəttə, Renessansa qədər, bədənə münasibət xeyli dəyişikliyə məruz qaldı. Xristianların çoxu bədənə, ruhən Allaha birləşmək yolunda bir maneə kimi baxırdılar. Onlar elə bil ki, məşhur Orfeyin mahnısındakı “Bədən (*soma*) ruh üçün qəbirdir (*sema*-dır)” sözlərinin həyati refren kimi qəbul etmişdilər. Cinsi yaxınlıqdan imtina isə canın istəkləri üzərində qələbə hesab olunurdu və beləliklə, müqəddəsliyə yol açılırdı. Qədim yunanlarda isə əksinə, intim yaxınlıqdan imtina bir cəza növü hesab olunurdu. Yunan komediyasının atası Aristofanın (b.e.ə. 445-385-ci illər) “Lisistrata” pyesində Afina qadınları ərlərini müharibədən çəkindirmək üçün sülh bərpa edilənə qədər onlarla intim yaxınlıqdan imtina etməyə söz vermişdilər.

Eyş-işrət, əyləncə, kef ən möhkəm adamları da zəiflədir, onların ruhuna xətər toxundurmamış qalmır. Bu cəhət nəzərə alındıqda, bəlkə də erkən xristianların mövqeyinə o qədər də tənqidi yanaşmaq istəmirsən. İfrat rahatlığın, həzzlərə uymağın necə qorxulu olduğuna çoxlu misallar gətirmək olar. Hannibalın başçılığı altında Alp dağlarının sıldırım qayalarındakı aşırımları sərt iqlim şəraitində keçən Karfagen ordusunu nə ağır əziyyətlər, nə böyük məhrumiyyətlər, nə də hətta addımbaşı ölüm təhlükəsi belə əyə bilmədiyi halda, Kann qələbəsindən sonra Kapuyada qışı keçirərkən, bu dəfə görmədikləri və onlar üçün yad olmaqla, dəbdəbə xarakteri daşıyan həzzlə dolu günlər, bura qadınların iştirakı ilə olan məclislər də daxil idi, döyüşçülərin bədənini və ruhunu ciddi zəifləməyə məruz qoydu.

Qədim Romanın tarixi isə göstərdi ki, dövlət özünün qədim nəcib ənənələri, ləyaqətləri və dəyərləri ilə vidalaşdıqca, ən eybəcər hisslər və ehtiraslar adamların davranışına, həyat tərzinə hakim kəsilir. Acgözlük, tamahkarlıq, sərvət düşkünlüyü artıq təkcə adamların deyil, bütövlükdə cəmiyyətin və dövlətin tənəzzülünü sürətləndirirdi. Romaya öz övladları xəyanət edir, onun respublika adlanan başını kəsməklə cəsədinə təcavüz etmək istəyirdilər. Katilina adlı kübar, ona xidmət göstərən qandan, məkrdən, hiylədən istifadə edərək, özünün iyrənc taxt-tacını qurmaq istəyirdi. O, heç bir mənəvi, əxlaqi hədd tanımırdı, ləyaqəti müdafiə edənlərin hamısını məhv etməyə hazır idi. Respublika quruluşu məhv edildikdə onun bütün qanunları da toza dönməli idi. Ölkədə təvazökarlıq, təmkinlilik, mərdlik əvəzinə həyasızlıq, pulla adamları ələ alma, tamahkarlıq yayılmağa başladı. Respublika quruluşuna qəsd hazırlayan Katilina həyasızlıqla bəyan edirdi ki, "ətrafımdakı gurlayan alovu mən xarabalıqlar altında basdıracağam". Bu vaxt kasıb adamlar mənəvi cəhətdən pozulduqlarından ümumi xeyir haqqında deyil, öz gözlədikləri şeylər barədə düşünür, arzu etdikləri xoş gələcəyə ümid bəsləyirdilər. Onların çoxu özlərinə ziyan dəyməmək naminə hətta bütöv dövlətin dağılmasına üstünlük verirdilər.

Əxlaqın pozulması Romanı taqətdən salırdı, digər amillərlə birlikdə dövləti və cəmiyyəti məhvə sürükləyirdi. Qədim Romada əxlaq əcdadların adətlərinə, qaydalarına əsaslanırdı, onları bir etalon kimi qəbul edirdi. Roma dünya dövlətinə çevrildiyindən onda alçaq ehtiraslar daha qızğınlıqla cövlan etməyə başladı, acgözlük xüsusi miqyasa yiyələndi. Bu dövrdə iki ehtiras – hakimiyyət hərisliyi və tamahkarlıq çox güclü idi. Bu iki qüsur bütün bəlaların mənbəyinə çevrildi, ilkin səbəbləri oldu. Cəmiyyət uzun bir pozulma yolunu keçməli oldu.

Romanı pozan, dağıdan, məhvə sürükləyən hakimiyyət hərisliyi – *ambitio* və pul düşkünlüyü – *avaritia* cəmiyyətə meydan oxuyurdu. Onlardan pul hərisliyi hər cür cinayətlərin və zorakılığın baş alıb getməsinə səbəb oldu. Bizim eranın I əsrinin və II əsrin son onilliklərindən Romanın süqutuna qədər olan dövrün tarixi daha çox dəhşətli cinayətlərin, əxlaq pozğunluqlarının, harınlığın və eyş-işrətin biabırçı təsvirlərinin almanaxı idi.

İmperatorlar elə bil ki, quduz şəhvətdə və qəddarlıqda bir-biri ilə yarışa girmişdilər. Onların pozğunluğu bütün cəmiyyətə pozucu təsir göstərir, sotsiumun bütün hüceyrələrinə yayılırdı. "Nəcib imperatorlar"ın həyata keçirdiyi tədbirlər bu xəstəliyin şiddətini zəiflətsə də, onu sağalda bilmədi, sonra gələnlərin isə bir çoxu əvvəlki yola düşməklə iflas prosesini sürətləndirdilər. Eyş-işrətə qurşanma elə bil ki, nəsil artırmağı da yaddan çıxartdırmışdı. Romanın əhalisi sürətlə azalırdı, paytaxtı

müdafiə etmək də çətinləşmişdi, onu qorumağa cavanlar da çatmırdı. V əsrdə Roma əhalisi I əsrə nisbətən yarıbayarı azalmışdı. Ona görə də Romanı işğal etmək barbarlara elə bir çətinlik törətmədi.

Böyük ingilis şairi lord Corc Bayron Romanı xalqların Niobası adlandırırdı. Yunan mifologiyasında Fiva çarının arvadı olan Nioba çox övladı olması ilə öyünürdü. Yalnız iki uşağı olan Leto bunu özünə təhqir kimi qəbul etdi və onun övladları Apollon və Artemida buna görə oxla Niobanın 12 övladının hamısını öldürdülər. Bu ağır dərddən Nisoba daşa çevrildi. Roma da fəxr etdiyi hər şeyi, övladlarını, hətta öz varlığını da itirdi. Roma təkcə öz ərazilərini deyil, həm də özünün qiymətli ideyalarını, ruhunu itirdi. Müqəddəs Avqustin yaxşı demişdi ki, əgər Allahın yaratdığı məhv olursa, Romulun da yaratdığı məhv ola bilərdi. Ancaq ruh bədəndən ayrıldığı kimi, Romanın süqutundan min il sonra onun ruhu Renessans adı altında yenidən həyata qayıtdı. Antik dövrdən əxz edilməli olan irs isə bu ruhun böyüklüyünə dəlalət edən humanist ideyalar idi.

Xristianlıq hakim dinə çevrildikdən sonra ailə münasibətlərinin möhkəmliyinə ciddi fikir verməyə başladı. IV əsrdən başlayaraq tselibat – nikahsızlıq qaydası keşişlərin üzərinə də yayılırdı. Bundan əvvəl isə rahiblər buna ciddi riayət etmək nümunəsi göstərirdilər. Onlar qadınların şirnikləndirməsindən, ehtiras alovunun onları qarsacağından qorxub, səhralara, dağlara çəkilir, cəmiyyətdən uzaqlaşaraq mağaralarda yaşayır, əsasən asket (guşənişin) həyat tərzi keçirirdilər. Çünki bakirəlik ən yüksək standart kimi qəbul olunurdu. Müqəddəs Yeromi (375-420-ci illər) deyirdi ki, “Bakirəlik buğdadırsa, nikah arpadır, zinakarlıq isə inək peyinidir”. O vaxtdan ki, insan inək peyinini yemir, Yeromi onlara arpa çörəyi yeməyi müsaidə edirdi. Din xadiminin sözləri ona əsaslanır ki, iki ayaq üstə gəzən insanın qidası heç də heyvanlarınkından fərqlənmirdi, onlar zülal mənbəyi olan hər şeyi istehlak edirdilər.

Müqəddəs Avqustinin (354-430-cu illər) baxışları da həmçinin cinsi əlaqə arzularına görə xristian kilsəsinin nəzər-nöqtəsini formalaşdırmaqda mühüm əhəmiyyətə malik idi. Erkən xristianlardan çoxu tselibata və ya cinsi fəallıqdan tam uzaqlaşmağa riayət edirdi, bunu müqəddəsliyə çatmaq yolu hesab edirdi. Avqustin inanırdı ki, xristianlar yəqin ki, cinsi əlaqədən imtina edəcəklər, həmçinin belə bir fikri də nəzərə alırdı ki, xristianların çoxu buna qadir deyildir. Ona görə də nikah yaxşı alternativ hesab olunurdu, lakin belə anlamda ki, hətta nikahda da kişi ilə qadın arasında cinsi əlaqə yalnız bir məqsədə – uşaq dünyaya gətirməyə xidmət etməlidir. Tselibatın yüksək idealını qoruyub saxlamaq isə din xadimlərinin üzərində qalmalı idi.

Erkən kilsənin ataları qəbul edirdilər ki, tselibat və cinsi yaxınlıqdan imtina ideal vəziyyət olmaqla, nikahdan da yuxarıda durur. Nəticədə erkən kilsə tədricən din xadimlərinin tselibatına keçdi, baxmayaraq ki, erkən orta əsrlərdə bunu həyata keçirməyə məcbur etməyin qeyri-mümkünlüyü də özünü büruzə verirdi.

Erkən dini atalar həm də bunu vurğulayırdılar ki, tselibata riayət etmək üçün heç də bütün adamların öz intizamı çatmır. Beləliklə, nikah icazə verilənə çevrildi. Müqəddəs Pavel özünün korinflilərə ilk məktubunda qeyd etdiyi kimi: "Bu kişi üçün yaxşıdır ki, qadına toxunmasın. Buna baxmayaraq, zinakarlıqdan uzaqlaşmaq üçün qoy hər bir kişi öz arvadına malik olsun… Mən ancaq evlənməmişlərə və dul qalanlara deyirəm ki, onlar üçün yaxşıdır ki, hətta mənim kimi dözsünlər. Lakin əgər onlar bunu bacarmırlarsa, qoy onlar evlənsinlər; çünki (ehtirasda) yanmaqdansa, evlənmək yaxşıdır". Kilsə nikaha iki şərdən nisbətən kiçiyi kimi baxırdı. Bu insanın zəifliyinə güzəşt olmaqla, cütlük, cinsi əlaqə və uşaqların olması ehtiyacını ödəyirdi. Ümumən onunla razılaşırdı ki, nikah cinsi yaxınlıq hüququna güzəştə getməkdir. Axı din də bütün insanları təbiətin qanununa tabe olmaqdan uzaqlaşdıra bilməzdi. Təkcə növün artması üçün canlıların əksəriyyətinə xas olan cinsi əlaqə vacib şərt olduğundan, belə ağılsız qadağa bəşəriyyətin inkişafına, çoxalmasına mane olmaqla, onun fiziki cəhətdən sıradan çıxmasına səbəb ola bilərdi. Beləliklə, cinsi əlaqəyə nikah yolu ilə icazə verilirdi, lakin o müddətə ki, bu uşaq törətmək, əmələ gətirmək üçün istifadə edilsin, uşaq yaransın, deməli, həzzə xidmət etməsin.

Kilsənin səylərinə baxmayaraq, bəzi din xadimləri, hətta Roma Papaları da zinakarlıq subyektlərinə çevrilirdilər. 1492-ci ildə Papa seçilmiş VI Aleksandrın (dünyəvi adı Rodriqo Borcia idi, 1431-1503-cü illər) dörd uşağı var idi, qızı Lukretsiya ilə intsest yaxınlıqda olduğu güman edilir. Oğlu Çezare Borcia isə atasından geri qalmayıb, əxlaq pozğunluğunda və törətdiyi qətllərdə ad çıxarmışdı.

Son dövrlərdə isə istər katolik, istərsə də protestant ya pravoslav kilsəsini biabır edən cəhət – kilsə xadimlərinin pedofiliya cinayətlərində iştirak etməsi, azyaşlı qızları və oğlanları əxlaq pozğunluğuna cəlb etməsidir. İnternet də pedofiliyanın, pornoqrafiyanın təbliğatında və yayılmasında olduqca mənfi rol oynayır. Sosial şəbəkə beləliklə sosial bəlanın mənbəyi rolunda çıxış etmək kimi biabırçı bir vəzifəni öz üzərinə götürür.

Elə səhv bir fikir yaranmasın ki, qüsurlar yalnız uzaq keçmişə məxsus idi, sonrakı dövrlər onlarla vidalaşmağı bacarmışdır. Əsla belə deyildir, hətta bəzi xalqlar öz fərdi qüsurlarına malikdir. Jan Jak Russo XVIII əsrdə ona məlum olan iki xalq haqqında yazırdı ki, ingilislərdə məğrurluq xurafatı, fransızlarda isə şöhrət düşkünlüyü xurafatı vardır. Orta əsrlərdə Rusiyaya səfər edənlər bu xalqdan olanların bədəninin və

sifətinin gözəlliyini heyranlıqla qeyd edirdilər. Bu ölkəyə 921-ci ildə səyahət edən müsəlman ərəb Volqa çayının sahilində yaşayan ruslar barədə yazırdı ki, "Mən heç vaxt fiziki cəhətdən belə kamil olan xalq görməmişəm." Fransız markiz Astolf de Kyustin özünün ifşa xarakterli "Rusiya 1839-cu ildə", rusca tərcümədə "Nikolayevskaya Rossiya" adlanan kitabında həmin cəmiyyətin bütün xüsusiyyətlərini kəskin surətdə pisləsə də, rus qadınlarının çox gözəl olduğunu qeyd edir. Rus yazıçıları A. S. Qriboyedov, N. V. Qoqol, F. M. Dostoyevski və A. P. Çexov isə doğma ölkələrində cəmyyətə və xalqa xas olan qüsurları amansızcasına qamçılayırdılar. M.Y. Saltıkov-Şedrin yazırdı ki, "Əgər mən mürgüləsəm və 100 il sonra yuxudan ayılsam və məndən soruşsalar ki, Rusiyada nə baş verir, mən cavab verəcəyəm: içirlər və oğurlayırlar." Təəssüf ki, onun gələcək üçün öncəgörməsi düzgün çıxdı. Yazıçının ölümündən bir əsr sonra dağılan SSRİ-nin xarabalıqları üzərində Rusiyada rəhbərliyə gələn, daha çox sərxoşluğu ilə məşhurlaşan Boris Yeltsin ölkəni oğurluqdan da betər, əsl qarət və soyğunçuluq məkanına çevirdi. Onun vurduğu ağır yaradan Rusiyanın sağalması çətin olmaqla uzun çəkdi. Xəstəliyin bəzi təzahürləri hələ də özünü büruzə verir. Bu ölkədə alkoqolizmə qarşı aparılan mübarizə isə elə bir ciddi nəticə vermir.

Prezident Bladimir Putin Rusiyanı Yeltsin cəhənnəmindən çıxara bildi, ölkə tənəzzül sferasını tərk etməyə və iqtsadi qüdrətə yiyələnməyə başladı. Lakin ölkə rəhbərliyinin qonşuları barədəki izahı çətin olan hərəkətləri Rusiyanı ağrılı iqtisadi sanksiyalara məruz qoydu. Dünya bazarında neftin qiymətinin iki dəfədən də çox aşağı düşməsi Rusiyanı maliyyə böhranı ilə üzləşdirdi, iqtisadi vəziyyət də xeyli ağırlaşdı.

Meritokratiya və həqiqi demokratiya qüsurlara müəyyən sədd çəkə bilər

Eybəcərliklərin, qüsurların çoxu həm də dövlət quruluşunun tipindən irəli gəlirdi. Onlara şərait yaradan cəmiyyət bu qüsurlardan bumeranq zərbəsi alır, zəifləyir, dövlətin əvvəlki forması öz yerini daha mükəmməl olanlara verir. Belə dövlətlər xeyli dərəcədə stabil ola bilərlər, çünki yüksək zümrələr bir-birlərinə güzəştə getməklə, möhkəm dairə yaradırlar. Adamlar fərdi fayda axtarışında ümumi qaydanı, sabitliyi pozmamaq yolunu tuturlar. Bütün bunlar rituallarla, dinin təsiri və ideyalarla möhkəmlənir, onlar elitanın idarə etməsinin konkret formasına legitimlilik verir. Belə elit qruplar cəmiyyətdəki digər qruplardan daha yaxşı təşkil olunmuşdur. Xüsusən də qədim ölkələrin əsas əhali kütləsini təşkil edən aqrar cəmiyyətlərdəki dağınıq və kasıb

kəndlilər etiraz etmək gücünə malik olmurdular. Yeni tarix dövründə də kəndli qiyamları məğlubiyyətlə nəticələnirdi. Rusiya tarixindən göründüyü kimi Stepan Razinin 1670-1671-ci illərdəki və ya Yemelyan Puqaçovun 1773-1775-ci illərdəki Kəndli müharibələri adlanan üsyanları çar hökuməti tərəfindən asanlıqla yatırdılmış, onların rəhbərləri edam edilmişdilər. Axı onların silah əldə etmək üçün böyük imkanları yox idi, həm də zorakılığı tətbiq etmək sferasında yaxşı hazırlığa malik deyildilər.

Müasir dövlətlərdən əvvəlki və elit qrupların başçılıq etdiyi bu quruluşların oxşar tipləri əsrlər boyu yaşamaqda davam etmişdi. Onlar zamanın nəbzini tutmağı da bacarırdılar. Ona görə də ordunun yaradılmasında öz ümumi prinsiplərindən vaz keçib, bu işdə meritokratik (layiq olanların idarəçiliyi qaydasında) seçmək üsulundan istifadəyə meyl etdilər. Məhz çinlilər hələ bizim eradan əvvəl III əsrdə meritokratiyanı icad etmiş və vəzifələri tutmaq üçün dövlət imtahanları qaydasını tətbiq etməyə başlamışdılar.

Səmərəli idarəetmə prinsipi meritokratiya olan kimi, demokratiyanın prinsipi isə idarəetmədə xalqın iştirakıdır. Elə etmək olar ki, bu iki prinsip bir yerdə işləsin, lakin onların arasındakı gizli gərginlik qalacaqdır. Ancaq bu prinsiplərin arasında antaqonizm yoxdur və onlardan ağıllı qaydada vəhdət şəklində istifadə edilsə, onlar yaxşı şəkildə uzlaşa, çuğlaşa, bir-birinə nüfuz edə bilərlər. Ona görə də dövlət idarəçiliyində meritokratiya elementlərinin tədricən ayaq açmasına yalnız müsbət yanaşmaq lazımdır.

Əgər dövlətə loyallıq ailəyə, dinə, tayfaya loyallıqdan üstün tutulursa, bu, etimadın sosial kapitalının daha geniş radiusunu tələb edir.

Dövlət institutları çox vaxt tarixi irslərlə müəyyən olunur və ya xarici qüvvələr tərəfindən formalaşır. Ona görə də müasir dövlətlərdə keçmiş quruluşların relikt qalıqlarını, atavizm elementlərini tapmaq çətin deyildir, özü də bunlar həm müsbət, həm də mənfi xarakter daşıya bilər. Axı keçmişin bütünlüklə rədd etmək mümkün deyildir, onun kabusu addımbaşı özünü xatırlatmamış qalmır. Əgər keçmiş böyük mədəniyyət, ədəbiyyat və incəsənət yaratmışdırsa, ona necə qapıları bağlamaq, belə nəhəng irsə göz yummaq olar?!

İrqçilik, haqsız nifrət insanlığa qarşı cinayətdir

İrqçiliyin əsası bəşər irqlərinin fiziki və psixiki qeyri-bərabərliyi, cəmiyyətin tarixinə və mədəniyyətinə irqi fərqlərin təsir göstərməsi barədə olan qeyri-elmi konsepsiyaların məcmuudur. İrqçilik adamların binövrədən ali və aşağı irqlərə

bölündüyünü iddia edir, guya ki, əvvəlincilər sivilizasiyanın yeganə yaradıcıları olmaqla ağalıq etməlidir, axırıncılar isə yüksək mədəniyyəti nəinki yaratmağa, hətta onu mənimsəməyə qadir deyillər və istismara məruz qalmalıdırlar. XIX əsrin ortalarında fransız J.A.Qobino ariləri "yüksək irq" adlandırmışdı. Sonralar irqçilik sosial darvinizmlə çuğlaşdı.

Natsizmin rəsmi ideologiyasına çevrilən irqçilik dünyanı fəlakətə sürüklədi, tarixə Holokost kimi dəhşətli cinayəti bəxş etdi. XX əsrdə bir sıra ölkələrdə bu ideologiya irqi ayrı-seçkiliyə, seqreqasiyaya və aparteidə haqq qazandırmaq üçün istifadə edilirdi. Amerika Birləşmiş Ştatlarında quldarlığın bir əsr yarım əvvəl ləğv edilməsinə baxmayaraq, qara dərili vətəndaşlar hələ də bəzən ikinci sort adam kimi qəbul edilməklə, onlara qarşı heç bir əsas olmadan, apriori cinayətkar hesab olunduqlarına görə, yalnız nifrətdən qidalanan sərt tədbirlər görülür. Polis günahsız adamları dərisinin rənginin fərqinə görə atəşlə qətlə yetirməkdən də çəkinmir.

İrqçiliyin baş alıb getməsi üçün ayrı-ayrı xalqlara qarşı cürbəcür saxta ittihamlar irəli sürülür, onların ali irqdən xeyli aşağıda durması, hətta insan olmaması barədə gülünc fərziyyələr uydurulur. Natsist Almaniyasında hələ yəhudi qırğınlarına start verilməmişdən əvvəl, onlar insan olmayan (*Untermenchen*) adlanırdı və ziyanvericilərə, xəstəliklər yayan həşəratlara oxşadılırdı. Hitler bu ideoloji silahdan istənilən xalqa qarşı istifadə edirdi. Polşaya hücum edəndə polyakları heyvan adlandırmışdı, bütün slavyanları insan hesab etmirdi. Belə münasibət dehumanizasiya xarakteri daşımaqla, insanlığa, bəşəriyyətin digər üzvlərinə nifrət aşılamaq məqsədini güdürdü. Bütün zamanlarda və hər yerdə belə baxışlar zorakılığın və zülmün səbəbinə çevrilirdi. Adamlar bir-birlərini kütləvi qaydada dehumanizasiya edir, yad xalqı təhqiramiz adlarla adlandırmaq qaydasına keçirdilər. Bəzi siyasi xadimlər də bu mərəzdən kənarda qala bilmir. İsrailin baş naziri Benyamin Netanyahu 2014-cü ildə oğurlanmış üç yəhudi yeniyetməsinin qatillərini yırtıcı heyvanlar adlandırmışdı, əlbəttə ki, bu vaxt o, ərəbləri nəzərdə tuturdu. Lakin fələstinli oğlanı qisas naminə yandıran yəhudi ekstremistlər barədə isə belə təşbih işlətməmişdi. Axı vaxtilə Hitler onun bütöv millətinə oxşar təhqiramiz ad verirdi, indi dövr dəyişmişdir və nifrət edilən xalqı hər cür alçaldıcı adla adlandırmaq məqbul hesab edilə bilər. Təəssüf ki, nifrət qızışanda, dili də öz tabeliyinə sala bilir.

XIX əsrin əvvəllərində dövriyyəyə daxil olan "dehumanizasiya" termini digər adamları insan olmayan məxluqlar kimi qəbul edilməsini bildirirdi. Bunu əsas götürməklə vəhşicəsinə davrananlar öz qurbanlarını adətən insan hesab etmirlər. Natsistlər yəhudiləri nəinki ziyanverici (*vermin*) adlandırırdılar, bütövlükdə onlara insan qiyafəsində olan ziyanverici heyvanlar kimi baxırdılar. Afrikada məskunlaşan

ilkin avropalılar qula çevirdikləri qara dərili afrikalılar barədə deyirdilər ki, düzdür, zəncilər öz bədən quruluşlarına görə bir qədər insana bənzəsələr də, onlar heç də adam deyillər. "Onlar adam deyillər, onlar könüldən məhrumdurlar; onları heyvan hesab etmək lazımdır və onlara müvafiq qaydada münasibət bəslənilməlidir". Bu, Afrikanın Avropa mənşəli sakinlərinin düşüncələri idi.

Yəqin ki, onlar XIX əsrin ortalarında çapdan çıxan və hətta İngiltərədə 1 milyon tirajla yayılan amerikan qadın yazıçısı Harriet Biçer Stounun "Tom dayının koması" romanını oxusaydılar, yəqin ki, belə kobud və insafsız səhvə yol verməzdilər. Müəllif zəncilərin ifrat sədaqət hissini, hətta zülmə də qisas fikrindən uzaq olmaqla boyun əymələrini əsas götürərək, belə bir fikir irəli sürmüşdü ki, əgər Allah nə vaxtsa dünyaya rəhbərliyi bir xalqa etibar etmək istəsəydi, yəqin ki, ürəklərinin genişliyinə görə bu ali missiyanı məhz zəncilərə həvalə edərdi. Doğrudan da Cənubda yaşayan zəncilər ağ ağalarından əsasən zülm, ədalətsiz cəzalar gördükləri halda, ABŞ-dakı Vətəndaş müharibəsinin son dövrlərində malikanələrini tərk etmiş bu adamlara xəyanət etməyərək, qayıdanda hər şeyi əvvəlki tərzdə onlara təhvil vermişdilər. Harriet Stou öz geniş müşahidələrinə əsaslanaraq yuxarıdakı illyüziya xarakterli ideyasını qələmə almışdı. Yazıçı teatrda görüşdüyü prezident Abraham Linkolna quldarlığı ləğv etdiyinə görə təşəkkür etdikdə, ABŞ prezidenti onun bu sahədə xüsusi əməyi olduğunu qeyd etmişdi.

Hitlerin yaxın silahdaşı, ölüm düşərgələrinin təşkilinin təşəbbüskarı və idarə edəni olan Henrix Himmler yəhudiləri yırtıcı, acgöz və adam olmayan məxluq hesab edərək yazırdı ki, "İnsan görünüşü olan adamların heç də hamısı insan deyildir." Onun rəyinə görə, yəhudilər "əgər onları mənəvi və psixoloji şkala ilə ölçsək, heyvanların istənilən növündən aşağıdadırlar".

Afrikadakı müstəmləkəçi işğalçılar və natsist xadimlər bir-birinə çox yaxın təfəkkürə malik idilər. Guya ki, zəncilərin və yəhudilərin insan sifəti, insan olmayan özəyi gizlətmək məqsədini güdür. Təfəkkürün bu nümunəsi beləliklə məkanda və zamanda dəhşətli ardıcıllıqla öz əksini tapırdı, bir mədəniyyətdən digərinə, bir tarixi epoxadan sonrakına keçirdi.

İnsan olmayan (*subhumanity*) anlayışında insan həyatı yüksək dərəcədə qiymətli olduğu kimi xarakterizə edilsə də, belə qiymət tarakanın qiymətliliyi barədəki görüşlərə kəskin surətdə əks çıxır. Adamlarda adətən müəyyən mənəvi statusun olduğu etiraf edilir və onun tarakanlarda olması isə inkar edilir. Onlar insan tərəfindən ayaqları ilə əzilə bilər, lakin insanın özü ilə belə davranmaq olmaz. 1994-cü ildə Ruandada iki tayfa arasındakı müharibədə Hutu döyüşçüləri Tutsi tayfasından olan öz qonşularını tarakan (*inyenzi*) adlandırırdılar. Bu isə onların məhv edilməsini mümkün

olan bir işə, hətta məcburi vəzifəyə çevirirdi, nəticədə tutsilər əsl qırğına məruz qaldılar.

Mənəvi sərhədlərin yoxluğu şəraitində nəticədə adamların sosial həyati qeyri-mümkün olana çevrilirdi. İstənilən cəmiyyətdə əxlaqi imperativlər vardır. Elə bir insan cəmiyyəti yoxdur ki, orada onun üzvlərindən birinə alaq otu, parazit və ya heyvan kimi münasibət bəsləməyə icazə verilsin. Çünki bunun dalınca onun canına da qənim kəsilmək üçün "ov" başlanır. Donuzun, qoyunun boğazına kəsmək olar, ancaq bunu uşağa qarşı etmək ağlasığmaz bir işdir. Axı Bibliyada Allah da yalnız özünə olan sədaqəti sınamaq üçün Abrahamdan bunu tələb etdikdə, onun möminliyinə əmin olub, uşağın qurban kimi kəsilməsinə icazə verməmişdi. Min illər keçdikdən sonra uşağın ya başqa insanın həyatına qəsd etmək isə ən ağır cinayət hesab olunur.

Təəssüf ki, zorakılığa qarşı ambivalet (ikili) münasibət mövcuddur. İnsanlar əvvəlcədən digər adamlara qarşı olan zorakılığa müstəsna dərəcədə güclü qadağalar qoymalı idilər. O vaxt zorakılığın bu və ya başqa tərəfə qarşı törədilməsindən asılı olmayaraq, ona qiymət verilməsində fərqli yanaşmalara bütünlüklə son qoyulardı. Tam sağlam, düzgün tərbiyə olunmuş fərd, ruhi və fiziki stress keçirməyə qadir olan adam hətta döyüş səhnəsində belə, digər adamın öldürülməsinə münasibətdə də bu cür güclü bir daxili və adətən anlaşılmayan müqavimət hissinə malik olur. Müharibənin köməyi ilə genosid tətbiq edildikdə və ya gücsüz əhali əsarətə alındıqda belələri öz borcunu yerinə yetirməkdən imtina edərək, hətta atəş açmaq da istəmir.

Hansısa müstəmləkəçi xalq öz sərəncamına özgənin resurslarını ala bilər, bəlkə də bu, başqaları üçün qeyri-mümkündür, ancaq bu, heç olmazsa daha yumşaq yollarla baş tutmalıdır. Ona görə də qan axıdılması perspektivindən yaranan öz şəxsi dəhşətinə görə adamların bundan yayınmaları ilə yanaşı, belə perspektivin, ümumiyyətlə bütövlükdə belə cinayətlərin baş verməsinin qarşısını almaq üçün metodlar işlənib hazırlanmalıdır.

Ziyan vurmaq məqsədi güdülən adamlara qarşı adətən dehumanizasiya baş verir, mənəvi, əxlaqi məhdudiyyətlər sıxışdırılıb çıxarılır. Dehumanizasiya təkcə Hitler və Pol Pot kimi nadir eybəcər əjdahaların (monstrların) qisməti deyildir. Hitler bütün Avropanı, Pol Pot isə öz doğma ölkəsi Kambocanı qan dənizinə çevirməyə can atırdı və əsasən buna nail olmuşdular. Dehumanizasiya dəhşətli zorakılığın və qəddarlığın tətbiq edilməsinə yol aça bilər.

Təbabət sahəsindəki mütəxəssislərin birgə fəaliyyətləri nəticəsində bəşəriyyət bir vaxtlar onun üçün lənət sayılan xəstəliklərə qalib gəlməyi bacarmışdır. XX əsrdə 0,5 milyon adamın həyatına son qoyan çiçək xəstəliyinin kökü bu gün kəsilmişdir. Vərəm və ya taun xəstəliklərinin meydana çıxması halları hələ baş versə də, yaxşı məlumdur

ki, onların qabaqcadan qarşısını almaq və təhlükəsini aradan qaldırmaq artıq mümkündür. Bəlkə də nə vaxtsa insanlar öz resurslarına müvafiq olan istiqamətlərin əhəmiyyətini başa düşməklə dehumanizasiyanın da qarşısını almağı, onu dayandırmağı və ya bütünlüklə kökünü kəsməyi bacaracaqdır.

İrqçiliyin ilkin təzahürlərini ispanlar Meksikanı və Perunu işğal edəndə, ağlar, xüsusən ingilislər Şimali Amerikada məskunlaşdıqdan sonra onların yerli, tuzəm əhaliyə göstərdikləri qəddarlığın, vəhşiliyin timsalında görmək mümkündür. Ernando Kortesin başçılığı altında ispan ekspedisiysı 1519-cu ildə Meksikada sahilə çıxıb, indiki Mexikonun yerində olan atstek paytaxtı Tenoçtitlanı işğal edəndə, atstek hökmdarı Montesuma onun şəxsində , rəvayətə görə vaxtilə himayə etdiyi xalqı tərk etmiş ağ sifətli allahın qayıdıb gəldiyini güman edərək, ona qiymətli hədiyyələr verdi. Montesuma Kortesi inandırmağa çalışdı ki, o, şəhərə girməsin. Kortes isə Tenoçtitlanı tutub, Montesumanı girov götürdü. Atsteklər qiyam qaldırıb, işğalçıları şəhərdən qovdular. İspanlar dörd ay davam edən qızğın döyüşdən sonra paytaxtı yenidən tutdular və əhalini kütləvi surətdə qırmağa başladılar. Meyidlərin üfunəti şəhərin havasını korlamışdı, bundan Kortesin özü də xəstələnmişdi. Montesuma da ispanların vurduğu yaradan 1520-ci ildə ölmüşdü.

1531-ci ildə ispan konkistadoru Fransisko Pisarro Peruya qədəm basanda imperiyanı idarə edən Atahualpanı oğurlatdırdı. Peru hökmdarı müşavirlərinə xəbər göndərdi ki, ispanların tələb etdiyi girov məbləğini ödəsinlər. Lakin Pisarro onu azad etmədi və1532-ci ildə edam etdi. Həmin ili Kusko şəhərini işğal edib, oradan nəhəng həcmdə qızıl götürdü. Hətta perulular ispanların tələbi ilə çox yer tutmasın deyə, olduqca qiymətli qızıl bəzək şeylərini əridib, kütlə şəklində təhvil verirdilər.

Şimali Amerikada isə yerli əhali olan hindulara qarşı yeni məskunlaşan ingilislər əsl genosid həyata keçirirdilər, bərabər olmayan döyüşlərdə çox sayda hindu qırılırdı. Amerikanlar onların yaşadıqları əraziləri ələ keçirirdilər. 1776-cı ildən indiyə qədər Birləşmiş Ştatlar Şimali Amerikanın yerli əhalisinin təqribən 1,5 milyard akr torpağını onların əllərindən almışlar ki, bu da Böyük Britaniya ərazisindən 25 dəfə çoxdur. Amerika hindularının zorla torpaqlarından köçürülməsi “Göz yaşları yolu” adlanır. Hindulara qarşı müharibə onların kökünü kəsmək məqsədini güdürdü. İnqilabın elan etdiyi azadlıq və bərabərlik idealları onlara aid deyildi. 1800-cü ildə sonralar Birləşmiş Ştatlara məxsus olacaq ərazilərdə yerli amerikalı hindular əhalinin 15 faizini təşkil edirdi, 1900-cü ildə isə Şimali Amerika hinduları əhalinin təqribən 0,5 faizinə bərabər idi, beləliklə öz vətənlərində milli azlığa çevrilmişdilər. İndi onlar 3,8 milyon nəfər olmaqla, ABŞ əhalisinin 1 faizindən çoxunu təşkil edirlər.

İnsana nifrət özünü müxtəlif formalarda göstərir, onun ən iyrənc növlərinə də tarixdə rast gəlmək mümkündür. Kompraçikoslar (bu söz ispan dilində "uşaqları satın alanlar" deməkdir). İspaniyada, İngiltərədə və digər ölkələrdə XIII-XVII əsrlərdə uşaqları oğurlamaqla və ya satın almaqla, onları təlxək, akrobat və sairə şəklində satmaq üçün eybəcər hala salmaqla məşğul olurdular. Viktor Hüqonun "Güləyən adam" romanının qəhrəmanı Quinplen uşaq vaxtı kralın əmri ilə həmin adamlar tərəfindən belə eybəcərləşdirilmişdi. Onun ağzı qulağına qədər cırılmış olduğundan, daim, hətta ağlayanda da gülən kimi görünürdü. Yeganə yaxşı hal orasında idi ki, Quinplenə vurulmuş gözəl qız Deya Ursus kor olduğuna görə onun eybəcərliyindən hali deyildi. Quinplenin dəhşətli qılafının arxasında onun həssas, fədakar və sevən könlü gizlənirdi. Dahi Hüqo uşaqlara qarşı insanlığa zidd olan bu qəddarlığı özünə məxsus olan təsirli yaxmalarla, yüksək effektliliklə təsvir edir.

Kompraçikoslar çoxdan tarixin zibilliyinə təhvil verilmişdir. Lakin uşaqlara qarşı cinayətlər formasını dəyişməklə başqa şəkil alır. Bütün dünyanın hiddətinə səbəb olan pedofiliya genişlənərək, artıq biabırçı şəbəkələrin köməkliyi ilə yayılmağa başlamışdır.

Tarixə daxil olanlar köçəri quş deyildir

Tarixi şəxsiyyətlərə onların əməllərindən asılı olaraq hörmət bəslənilməklə yanaşı, çoxları nifrət obyektlərinə çevrilirlər. Əlbəttə, qəddarlıq simvolu olanlara tarix arealında daha çox rast gəlinir. Onlar qarşıya qoyduqları məqsədə çatmaq, nail olduqlarını qoruyub saxlamaq üçün bu sərt vasitəyə əl atırlar. İnqilablar isə bir qayda olaraq qanla qidalanır, qan tökmədən ötüşə bilmirsə, onların arasında İngiltərə Şanlı inqilabı yeganə istisna hesab edilməlidir, bu sosial kataklizmə başçılıq edənlər həmin güclü silaha barmaqarası baxa bilmirlər. Burada təəccüb doğuran bir şey də yoxdur, axı inqilab vasitəsilə həyatın bütöv məhvəri dəyişilməyə məruz qalır, qanla suvarılan torpaq isə zəhərli meyvələr yetişdirməyə qadirdir. Buna başcılıq edənlər heç də mələklərə çevrilə bilməzlər, onlar cəmiyyətdə köklü dəyişikliklər etmək missiyasını öz üzərlərinə götürmüşlər. Mələklər isə özləri dəyişmədikləri kimi, belə metamorfozlarda da iştirak edə bilməzlər. Digər tərəfdən mələklər məkandan və zamandan kənardadır, dinin, mistikanın məhsuludur.

İnqilaba başçılıq edənlər isə atlant Göy qübbəsini çiynində saxladığı kimi, insanlar qrupunun ona bəslədiyi və təzyiqi Göy qübbəsinin ağırlığından heç də az olmayan ümid kütləsini çiynində daşımaq üçün diqqəti heç də vasitələrin

mülayimliyinə deyil, yararlı olub-olmamasına yönəldir və ona görə də miqyasından asılı olmayaraq qan tökməkdən belə çəkinmirlər. Ona görə də heç bir siyasi xadim özünə mələk və ya göyərçin qiyafəsi seçmir, onu birinci növbədə yalnız qarşıya qoyulan məqsəd düşündürür. Quzğunlar qidalandıqları leşin iyləndiyinə fikir verməyən kimi, inqilab da öz hədəfinə qarşı mübarizədə istənilən vasitəyə haqq qazandırır. İnqilab rəhbəri o vaxt böyük şəxsiyyətə çevrilir ki, zamanın, şəraitlərin irəli sürdüyü çağırışa müvafiq qaydada cavab verməyi bacarır.

Axı o, müəyyən məkan və zaman çərçivəsində hərəkət etməyə məcburdur. Ona görə də onun fəaliyyətinə qiymət verərkən hadisələrin cərəyan etdiyi məkan və dövr konteksti hökmən nəzərə alınmalıdır. Konkret tarixi hadisədə fəaliyyət göstərən bir şəxsə mücərrəd ölçüdən, xeyli zaman məsafəsi güzgüsündəki əksə görə qiymət vermək düzgün deyildir. Çünki onun fəaliyyəti tam başqa paralellərdə gedir, həmin parametrlərə müvafiq olaraq da onun tarixə daxil olub-olmaması məsələsi həll edilir.

İnqilab və ya radikal islahat, sakitləşdirmək üçün atın yalını daramaq qaydasında, xalqın başını sığallamaq fürsəti deyildir, əksinə, onu cuşə gətirməklə mübarizəyə sövq etmək və yeni həyat yoluna salmaq imkanıdır. Təəssüf ki, bu məqsəd həyata keçirildikdə qan tökülməsi, təqiblər ən yararlı vasitəyə çevrilir. Fransız mütəfəkkiri Sebastyan Şamforun dediyi kimi, "İnsanları idarə etmək üçün baş lazımdır. Şahmat oyunu üçün təkcə yumşaq ürəklilik azdır."

Ona görə də tarixə daxil olmuş adamları sonrakı dövrlərin qaydalarına, dəyərlərinə, əhval-ruhiyyələrinə və ya əxlaq standartlarına görə tutduqları taxçadan – tarix səhnəsindən çıxarmaq, qovmaq, uzaqlaşdırmaq mümkün deyildir. Tarixdə öz yerini tutanlar heç də köçəri quş deyillər ki, asanlıqla öz yuvalarını – həmin məkanı tərk edib, instinktlərinin göstərdiyi istiqamətə üz tutsunlar. Onlar burada məskunlaşmışlar, nə ostrakizmə uğradıla, nə sürgün edilə bilərlər. Onlar məqsədlərinin diktə etdiyi əməllərdə bulunmuşlar, heç vaxt göyərçin damında qərar tutmaq fikrində olmamışdılar.

Böyük Britaniya qanunlarına görə ABŞ-ın bani- ataları – imperiyaya qarşı inqilabı həyata keçirən və yeni dövlət yaradan cəsarətli mübarizlər olsalar da, cinayətkar hesab olunurdular. Onlar Yeni Dünyadakı doğma koloniyalarını azad cəmiyyət, qədim ənənələr ruhundakı demokratik quruluş, respublika kimi görmək istəyirdilər. Böyük qurbanlar hesabına olsa da, buna nail oldular. Məgər dünyaya Birləşmiş Ştatlar kimi bir unikal demokratik dövləti bəxş etmiş bu insanlar (əlbəttə, ABŞ-ın xarici siyasətinə indi münasibət heç də birmənalı deyildir) təkcə öz ölkələrində deyil, bütün dünyada böyük ehtiram bəslənən tarixi şəxsiyyətlər deyilmi? Onlar Böyük Britaniya kralının tabeliyində olan 13 koloniyanın azadlığına nail

olmaqla, həm də başqalarına bənzəməyən yeni dövləti yaratmaq vəzifəsini həyata keçirdilər. Amerikadakı inqilab böyük təsir gücünə malik oldu, 23 il sonra – 1789-cu ildə Böyük Fransa inqilabının başlanması üçün detonator rolunu oynadı.

Birləşmiş Ştatlara heç məhəbbət hissi ilə yanaşmayanlar da yaxşı bilirlər ki,, bu dövlət Birinci və İkinci Dünya müharibələrinə girməsəydi (1941-ci ilin dekabrında yaponların Pyörl-Harbor hərbi-dəniz bazasına xaincəsinə hücumu və ağır zərbə vurması ABŞ-ı İkinci Dünya müharibəsinə girməyə sövq etmişdi), müvafiq olaraq Antantaya və Müttəfiqlərə hərbi və maddi yardım göstərməsəydi, qələbələrin taleyinin necə olacağı böyük sual altında ola bilərdi. Amerikadan xoşu gəlməyənlər də, XX əsrdə dünya iki dəhşətli sınaqla üzləşəndə bu dövlətin qələbəyə verdiyi böyük töhfəni kölgə altına salmağa cəhd etməməlidirlər. Hər iki qələbədə Amerikanın rolu danılmazdır. Lakin onu da qeyd etmək lazımdır ki, məhz iki dünya müharibəsi Amerika Birləşmiş Ştatlarını fövqəl dövlətə çevirmişdi. İkinci Dünya müharibəsindən sonra da Avropanın, xüsusən Qərbi Almaniyanın, həmçinin məğlub edilmiş Yaponiyanın iqtisadi, sosial və siyasi cəhətdən dirçəldilməsində Birləşmiş Ştatların böyük yardımı yalnız minnətdarlıq hissləri ilə yad edilməlidir.

Tarixi inkar etmək cəhdləri

SSRİ dağıldıqdan sonra, onun tarixinə, Oktyabr Inqilabinin rəhbər xadimlərinə ittiham dalğası xeyli genişlənmiş, tsunami timsallı tənqid və qaralama ölkə tarixinin böyük bir hissəsini inkar etmə səviyyəsinə çatmışdır. Hər cür tənqidin və ifşa rəngindəki ittihamların əsas hədəfi V.İ.Lenin, xüsusən SSRİ-yə 30 il ərzində rəhbərlik etmiş İ.V.Stalindir. Əlbəttə, onlar sadə adamlar deyildilər, siyasətin dahiləri səviyyəsinə qalxmışdılar. Radikallıq, bir inqilabçı kimi onların əsas silahı idi. Lev Trotski 1917-ci ilin yayında Lenini radikallığına görə Fransa inqilabının liderlərindən biri, Terrora başçılıq edən, “Satılmayan” ləqəbli Robespyerə bənzədərək, onun adı ilə “Maksimilian Lenin” adlandırırdı. Bolşeviklərin bir-birinə belə ləqəb verməsi isə nadir hal deyildi. Lenin Zinovyevi və Kamenyevi 1917-ci ildə Oktyabr inqilabına xəyanətlərinə görə fahişə, xeyli əvvəl isə Trotskini İncildə xəyanət simvolu kimi verilən, İisusu 30 gümüş pula romalılara satan apostol İuda İskariota bənzədərək, dəfələrlə “İuduşka” adlandırmışdı.

Leninin inqilabdan üç ay əvvəl silahlı üsyana çağırışı da nəinki başqaları, hətta öz partiyasının xeyli üzvləri tərəfindən heç də razılıqla qarşılanmırdı. Bu vaxt vəziyyət çox mürəkkəb idi, yalnız Lenin yaxın perspektivi görməklə, belə vasitəyə əl atmağı təklif edə bilərdi. O, dövrün nəbzini tutmağı bacarırdı. Çünki bir qədər əvvəl

onun özü də inqilabın qələbəsinin çox uzaqda olduğunu söyləmişdi. Oktyabr inqilabının ərəfəsində isə meyvənin artıq yetişdiyini hiss edən Lenin, Napoleon kimi onu qoparmağın vaxtı çatdığını çox ustalıqla müəyyən etmişdi. Müvəqqəti hökumət ölkəni idarə edə bilmirdi, Rusiya müharibədə də uğursuzluqlara düçar olurdu.

Lenin də səhv edə bilərdi, lakin vacib anlarda o, bir qayda olaraq səhv etmirdi. Prinsipial olmayan məsələlərdə isə onun səhvi baha başa gəlmirdi və o, öz səhvlərini etiraf etməyi bacarırdı. Petroqrad Sovetinin Leninin 50 ililyinə həsr olunmuş yığıncağında Stalin Leninin üç səhvini özünün etiraf etdiyini onun müsbət keyfiyyəti kimi qeyd etmişdi.

Lenin ona ünvanlanan istehzanı da cavabsız qoymurdu. 1917-ci ilin iyununda Ümumrusiya Sovetlər qurultayında hakimiyyəti ələ götürməyə qadir olan partiyanın olmadığını güman edənlərə cavab verərək və bolşevikləri nəzərdə tutaraq, "Vardır belə partiya!" kəlməsini qürurla dilə gətirməsi başqa partiyaların nümayəndələri tərəfindən gülüşlə qarşılanmışdı. Oktyabr inqilabının qələbəsinin timsalında Lenin bu gülüşə dörd ay sonra Homer qəhqəhəsi ilə cavab verə bildi. Menşevik Martov RSDFP-nin II qurultayında (1903-cü il) lağ şəklində ilk dəfə "leninizm" ifadəsini dilə gətirmişdi. Heç iki onillik keçməmiş leninizm böyük bir ərazidə hakim ideologiyaya çevrildi. Buxarin Lenini utopist, satqın adlandırmışdı. Lenin ideyalarını gerçəkləşdirə bilmişdi, həyatını həsr etdiyinə isə o, necə xəyanət edə bilərdi.

Əlbəttə, Leninin ölümündən sonra onun partiyaya və ölkəyə rəhbərlik irsini qəbul edən Stalinin ciddi-cəhdi ilə o, sitayiş obyektinə, bütə çevrildi, kanonlaşdırıldı, dünya proletariatının və millətin atası adlandırıldı. Lenin özü belə titullardan, epitetlərdən uzaq adam idi. SSRİ-nin süqutu ilə Leninə hücumlar daha da artdı, daşqın şəklini aldı. O, elə bir böyük miqyasa malik şəxsiyyətdir ki, onunla hər şey etmək olar, onu sevənlər də, ona sonralar düşmən kəsilənlər də bu görkəmli şəxsiyyətin çoxşaxəli fəaliyyətində çox şeyi tapa bilərlər. Şəxsi həyatına nüfuz etməyə çalışanlar İnessa Armandla intim yaxınlığını, hətta bu inqilabçı qadının ona çox oxşayan bir oğul doğmasını da göstərə bilərlər.

Təəssüf ki, ona yönələn tənqid bəzən əndazədən çıxır, ölçü hissini itirir. Onun qana susamasına erkən misallar tapmaq üçün hər şey öz rəngini dəyişir. Sibirdə, uzaq Şuşenskoye kəndində sürgündə olarkən dovşan ovlamağını da, bəziləri həddi aşıb, qaniçicilik nümunəsi kimi qələmə verirlər. Onda gərək onlar Avstriya imperatoru I Frants İosifin, onun varisi olmağa hazırlaşan prints Frants Ferdinandın, yaxud Böyük Britaniya kralı V Corcun ovçuluq hobbisi adı altında, öz ölkələrinin faunasına, saysız-hesabsız sayda maral, əlik və quş sürüsünü məhv etməklə ağır ziyan vurmalarından

hali olsaydılar, yəqin ki, ekologiya müdafiəçiləri kimi onların xatirəsi üzərində xüsusi beynəlxalq tribunal qurulmasını təklif edərdilər.

Frants Ferdinandın 1914-cü ilin yayındakı qətli Birinci Dünya müharibəsinin başlanması üçün bəhanə rolunu oynamış, I Frants İosif bu müharibənin başlanmasına start verməklə, milyonlarla insanın həyatını itirməsinin baiskarı olmuşdur.V Corc isə həmin müharibədə əks tərəfdə vuruşan dövlətin başçısı idi. Onlar başqa canlılara da qənim kəsilmişdilər. Avstriya imperatoru və onun baş tutmamış varisi ölkə faunasına ova olan həvəsləri ilə böyük ziyan vurmuşdular. Frants Ferdinand Hindistanda da pələng ovu ilə məşğul olmuşdu. Onun o qədər də uzun olmayan ömrü boyu 270 min vəhşi heyvan öldürdüyü bildirilir. 1910-1936-cı illərdə Böyük Britaniya kralı olmaqla V Corc quş ovunu özünün həyat tərzinə çevirmişdi. 1912-ci ildə təkcə bir ovda həftə ərzində minlərlə quş qırmışdı. Dostları ilə birlikdə Norfolk meşəsində 4 gündə 7 tüfənglə 10 min baş quşu məhv etmişdi. Bircə gündə özü 1000 qırqovul öldürmüşdü. O, meşə cüllütü və kəklik ovlamağı çox sevirdi, bu quşlar hətta onun ölümünə həsr edilən şeirdə də xüsusi vurğulanırdı. Leninin sürgündəki dovşan ovu belə nümunələrlə müqayisədə toz böyüklükdə görünür.

Leninin öz sağlığında da onu qəbul etməyənlər az deyildi və onlar bu böyük inqilab liderinə aşağılayıcıı qaydada baxırdılar. Etiraf etmək lazım gəlir ki, Lenin az sayda olan o şəxsiyyətlərdəndir ki, tarixin təkərini döndərməyə, onun hərəkət yolunu dəyişdirməyə müvəffəq olmuşdu. Digər böyük şəxsiyyətlər kimi onun da fəaliyyətinə verilən qiymət, istər bu, müsbət ya mənfi olsun, zamandan asılı olaraq dəyişir, hər bir dövr ona öz prizmasından, istəyindən və mənafeyindən birbaşa asılı olan qiyməti verir.

Təəssüf ki, sitayişdə fanatizm xüsusiyyətləri mövcud olduğu kimi, nifrət də bəzən sahildən kənara çıxır, məhkum edilən tarixi şəxsiyyətlər ədalətsiz olaraq istehza obyektinə, ən amansız hücumlar hədəfinə çevrilir, anafemaya məruz qalır. Bəzən hətta onları autofafeyə məhkum etmək çağırışları eşidilir, inkvizisiya yeretikləri – dönükləri tonqalda yandırmaq kimi bu dəhşətli cəza üsulundan istifadə edirdi. İnkvizisiya vaxtı həbs olunanlardan işgəncə yolu ilə alınan etiraflar məqsədə xidmət etdiyindən yararlı vasitə sayılırdı. Müasir siyasi inkvizitorlar da bəzən öz uydurma ittihamlarına şübhəli sübutlar da tapmaqla, haqqa xidmət etdikləri barədə ağılsız qənaətə gəlirlər.

Leninə nifrət bəsləyənlərin imkanı olsaydı, onun cəsədinə ingilislər Oliver Kromvelin cəsədi ilə davrandıqlarına bənzər bir divan tutardılar. İngilislər Kromvelin cəsədini qəbirdən çıxarıb, dar ağacından asdıqdan sonra, peyin topasının üstünə tullamışdılar. Əlbəttə, cəsədi külə də döndərmək olar, lakin böyük şəxsiyyətlərin

ideyaları, əməlləri hətta təhqiramiz qaydada qətranla boyansa da, onları cəzalandırmaq mümkün deyildir. Tarixi şəxsiyyətin nəhəngliyi onunla aparılan mübarizəni uğursuzluğa düçar edir, onun xatirəsi ilə iyrənc şəkildə davrananların özünü gülünc vəziyyətdə qoyur. Çünki onun dağ silsiləsini andıran fəaliyyətini ən qatı dumanla da gizlətmək olmur, inkar etmək cəhdi isə yalnız yüngül ağıldan xəbər verir.

Leninin ölümündən sonra Maksim Qorki yazmışdı: "Hətta onun düşmənləri cəbhəsindən olan bəziləri də vicdanlı qaydada etiraf edirlər ki, Leninin şəxsində dünya elə bir adamı itirdi ki, o, müasiri olan bütün böyük adamlar arasında özündə dahiliyi daha aydın təcəssüm etdirirdi". Bolşevizmə nifrəti ilə fərqlənən Uinston Çörçill isə Oktyabr inqilabının rəhbəri barədə ona məxsus olan ziddiyyəti belə ifadə etmişdi: "Leninin anadan olması ruslar üçün böyük bədbəxtlik olduğu kimi, onların növbəti bədbəxtliyi onun ölməsi idi". Hər iki böyük düha Lenin barədə öz müstəqil mövqelərindən çıxış etməklə yanaşı, həqiqətdən o qədər də uzaqlaşmayaraq, onun böyüklüynü etiraf edirlər.

SSRİ-də sosializmin qurulması kimi nəhəng bir işə rəhbərlik edən Stalinin ünvanına indi hər cür lənətlər yağdırılır. Repressiyaya məruz qalmış günahsız adamların, indi o vaxtlar cəzalandırılmışların hamısı fərqinə varmadan belə adlandırılır, gənc pöhrələrinin guya intiqam hissindən doğan nifrətini də bütünlüklə əsassız saymaq olmaz. 1930-cu illərdə qolçomaqlara qarşı mübarizə adı altında, həmçinin 1937-38-ci illərdəki ümumən repressiya və təqiblər görünməmiş miqyas almışdı. Repressiyanın ilk qurbanları kəndlilər olmuşdu, qolçomaqlığın bir sinif kimi ləğvinə başlanmışdı. 1929-cu ildə isə "Şaxtı işi" adı altında mühəndislərin təqibinə start verilmişdi. Sinfi düşmən və ya xalq düşməni adı altında milyonlarla insan həbsxanalara atılmış, çoxları güllələnmişdi. Onların əksəriyyəti bəlkə də quruluşu qəbul etmir, bəyənmirdi. Lakin onlar dövlətə elə bir ciddi ziyan vurmaq iqtidarında deyildilər. Hansısa poeziya nümunəsi adamları məhv edən bombaya çevrilə bilməzdi, lakin onların müəllifləri ölümə məhkum edilirdi.

Antistalinçilər öz nifrətlərində ölçü hissi bilmədiklərindən Stalini nəinki cinayətkar, hətta monstr, paranoik adlandırırlar. Stalinə yönələn ən böyük ittihamlardan biri Hitler Almaniyası ilə 1939-cu ilin avqustunda hücum etməmək barədə Paktın bağlanması idi. Buna general Şarl de Qoll daha ədalətli səbəb göstərərək qeyd etmişdi ki, Stalin aqressiyanın qurbanı olmaqdansa, aqressiyayın qazancına şərik çıxmağa üstünlük vermişdi. Axı bundan əvvəl Stalinin Qərbə, Fransa və İngiltərəyə Hitler Almaniyasına qarşı müttəfiqlik xahişi cavabsız qalmışdı.

Stalinə qarşı olan tənqidin böyük hissəsi obyektiv olduğu halda, nifrətdə qəzəbin yetişdirdiyi meyvələr də az deyildir. Onların arasında özünü liberal kimi göstərmək

istəyənlərlə, Qərb dairələrinə guya mövqeyini nişan verməyə çalışanlarla yanaşı, resentimentlər də az deyildir. Resentiment Nitsşenin irəli sürdüyü termin olmaqla, elə adamı nəzərdə tutur ki, o, düşmən obrazı yaratmağa çalışmaqla, öz uğursuzluğunun günahının, incikliyinin hirsini ondan çıxmaq istəyir. Resentiment – qul əxlaqıdır, bu qul ağa olmağı çox istəyir. Paxıl adamların, bəxtinin gətirməmıyindən hirslənmiş adamların əxlaqıdır. Belələri özündən çox yuxarıda duranlara daş atmaqda təsəlli tapır, həm də özünün qüsurlu əxlaqı hesabına bütün dünyanı əxlaqsızlıqda təqsirləndirməyə hazırdır. Təəssüf ki, onların qara yaxması təsirsiz qalmır, dəstədən geridə qalmaq istəməyənlər də tezliklə onlara qoşulur.Ona görə də keçmiş donosçulara çox oxşayan iftiraçı ifşaçılar ordusu yaranır.

Stalinə münasibətin diametral əksliyindən asılı olmayaraq, o, tarixdəki yerini tərk etmir, bəlkə də daha da möhkəmləndirir. Rəylərin belə fərqli olduğuna da təəccüblənməyə ehtiyac yoxdur. Axı təbiətdə vahid bədənə malik olan bir xalq mövcud olmadığı kimi, rəylər də yekdil ola bilməz.

Stalin qurucusu və rəhbəri olduğu dövlətə özünü bütün varlığı ilə həsr etmişdi. Dövlətə o, sakral münasibət bəsləyirdi, onun naminə hər şeyə getməyə hazır idi. Dövlətə düşmən hesab etdiklərindən başqa bəlkə də onun şəxsi düşməni yox idi. Öz paradiqmasına, vektorlarına və mənafelərinə görə isə bu quruluşdan narazi olanlar da az deyildi. Onlar isə düşmənçilk hisslərini Stalinə yönəldirdilər. Ona görə də onun düşmənləri çox idi. Lakin əhalinin böyük əksəriyyəti Stalini dəstəkləyirdi. Ona inanırdılar. Ölkəni böyütmək niyyətinə görə isə onu Böyük Pyotrun, Böyük Yekaterinanın ardıcılı saymaq olardı. Ölümünə yaxın o, artıq az qala dünyanın yarısına rəhbərlik edirdi.

Bütün şəylərə, həmlələrə baxmayaraq heç kəs Stalinin dünya səviyyəsindəki görkəmli siyasi xadim olduğunu inkar etmək qüdrətində deyildir. Heykəli uçurmaq, adı götürmək olar, lakin uzun tarixi bir dövrü, bütün nailiyyətləri və hətta cinayətləri ilə birlikdə ləğv etmək, yoxa çıxarmaq mümkün deyildir. Heç kəs Stalin dövrünün repressiyalarını inkar edə bilməz, lakin onun başçılığı altında sovet xalqının qazandığı nailiyyətləri də inkar etmək ədalətsizlikdir. Onun varisləri isə iki dəfə özlərini hərbi cəhətdən sınadıqda biabırçı uğursuzluğa düçar oldular, Xruşşov Kuba böhranında, Brejnev isə Əfqanıstana müdaxilə etdikdə. Hitlerin özünü məğlub edən, faşist Almaniysını fəlakət girdabına yuvarlayan Stalinin xidmətləri üzərindən xətt çəkmək isə yalnız səfehlərin ağlına gələ bilər.

Stalin yeni quruluşu yaratmaq uğrunda mübarizəyə rəhbərlik edirdi, onun isə doğulandan az sonra, elə beşikdə ölən Paris Kommunasının təcrübəsinin solğun izindən başqa heç bir prototipi yox di. O, tam yeni cəmiyyti yaraymağa girişmişdi,

lakin köhnəni kökündən uçurmaq, xarabalıq üstündə öz sarayını ucaltmaq fikrindən uzaq idi. Qısa müddət ərzində SSRİ-də nəhəng ağır sənaye yaradılmışdı, çoxlu şəhərlər salınmış, fabrik, zavodlar tikilmişdi. Ölkədə bir onillik ərzində savadsızlıq ləğv edilmiş, təhsildə, elmin və mədəniyyətin inkişafında əsl inqilab baş vermişdi. Bir amerikan tarixçisi öz kitabını SSRİ-dəki 1930-cu illərin görünməmiş sənaye inkişafına həsr etmiş, bunun tarixdə analoqunun olmadığını qeyd etmişdi. Həqiqətən də qısa müddətdə çox iri sənaye potensialı meydana gəlmişdi, məhz bu qüdrət, Böyük Vətən müharibəsində xeyli ərazi itkisinə baxmayaraq, döyüşən ordunu hərbi texnika, silah və sursatla aramsız təchiz etməyə imkan vermişdi.

Stalin İkinci Dünya müharibəsində Hitler Almaniyası üzərində qələbənin başlıca arxitektoru, müharibənin ilk il yarımlıq uğursuzluqlarına baxmayaraq ən səmərəli sərkərdələrindən biri olmuşdu. Çox vaxt SSRİ-yə öz müttəfiqi olsa da, mənfi münasibətini gizlətməyən Çörçill də Sovet ordusunun alman hərb maşınının bağırsaqlarını çıxarıb tökdüyünü xüsusi qeyd etmişdi. Stalin qələbədən istifadə etməyi, fayda götürməyi də bacarırdı, müharibədən sonra Avropada dünya sosializm cəbhəsinin yaradılmasına nail olmuşdu.

Hitler Almaniyası üzərindəki qələbə də daxil olmaqla Stalinin əməllər arxipelaqının ərazisi çöz geniş idi. Qələbədən, nailiyyətlərdən isə Stalin adətən öyünmürdü, illyuziyaya qapılmırdı. Bunu onun düşmənləri də qeyd edirdilər. 1943-1946-cı illərdə ABŞ-ın SSRİ- də səfiri işləmiş Avarell Harriman müharibədən sonra Stalindən soruşmuşdu ki, yəqin ki, Sizə xoşdur ki, vaxtilə almanlar Moskvanın yanında dayanmışdılar, indi isə Siz Berlini bölüşdürürsünüz? Və Stalin belə cavab vermişdi: “Çar Aleksandr isə Parisə gedib çatmışdı.”

Təəssüf ki, ona nifrət edənlər Stalin dövrünün böyük işlərini görmək istəmirlər, çirkli su ilə birlikdə təknədən uşağı da atmağı qəbahət saymırlar. Lakin nəhəng şəxsiyyətlər sarsılmaz qaya kimi onlara atılan daşdan elə bir ziyan çəkmir. Onları lənətləmək mümkündür, lakin əməllərinin bəhrəsini silib yoxa çıxarmaq cəhdi əbəs bir işə çevrilir.

Stalinə qarşı çıxanlar hündürlüyü və sıx çətiri heç də kiçik olmayan repressiya ağacının arxasındakı həyatın bütün sahələrində qazanılan iqtisadi və sosial proqress meşəsini görmək istəmir, tarixə münasibətdə qərəzlilikdən yaranan daltonizm xüsusiyyətləri nümayiş etdirirlər. Onlar Stalini aşağılamaq üçün istənilən vasitədən istifadə etməkdən də çəkinmirlər. Çox istəyirlər ki, Stalini eyiblər və qüsurlar daşıyıcısı kimi təqdim etsinlər. Onun fiziki qüsurları da diqqətdən yayınmır, ağlı, iradəsi, idarəetmə istedadı kənara atılaraq, sol əlinin çolaq olduğu, ayağının birində altı barmağının olduğu bir elmi kəşf, evrika timsalında vurğulanır. Çünki onun əqli

zəifliyi və ya xarici dövlətlərin liderləri ilə diplomatik danışıqlar apararkən uduzduğunu bildirən heç bir fakt tapa bilməmələri bir yana qalsın, hətta uydurma ittihamlara da əl ata bilmirlər. Çoxları Stalin kimi böyük şəxsiyyəti öz ölçüləri ilə ölçür, ona görə də tərifdə olan kimi tənqiddə də primitiv yanaşma tərzi aparıcı rol oynayır.

Yəqin ki, onlara xoş olardı ki, Stalin bir tarixi personaj kimi yalnız Leninin bərbəri tək xatırlansın. Axı həqiqətən də Lenin təqiblərdən qorunmaq üçün gizlənməkdən ötəri 1917-ci ilin iyulunda Petroqraddan Razlivə yollananda, tanınmamaq üçün Stalin onun bığını və saqqalını qırxmışdı, ona evində yaşadığı, gələcək qayınatası Sergey Alilluyevin paltarını geyindirmişdi. Çünki Stalinin əleyhdarları heç bir tarixi və hüququ sənəd olmadan, buna dəlil-sübut tapmaq üçün isə çox sayda uğursuz cəhdlər edilmişdi, qara yaxmaq məqsədilə onu çar gizli polisinin, jandarmın agenti olduğunu iddia edirdilər. Bəzi mülahizələrə görə bu iftiranı ilk dəfə Xruşşov və Mikoyan ortaya atmışlar. Böyük Aleksandrın müəlliminin ona öyrətdiyi: "Dişlə, ən azı çapıq qalacaqdır" prinsipi öz işini görür, adi yalan da buna susayanların qəlbini isitmək gücünə malikdir. Stalinin Tiflis bankını yarması da onun quldurluğu kimi qələmə verilir. Axı bu işdə onun heç bir şəxsi təmənnası olmamışdı, pullar qəpiyinə qədər İsveçrəyə, Leninə, partiyanın ehtyacları üçün göndərilmişdi. Stalin isə həmin vaxt əsl yarı ac həyat sürürdü.

Trotski Stalini "böyük qabiliyyətsiz" adlandırmışdı, görən belə fərasətsiz adam üç onillik ərzində az qala düşmən münasibəti olan bir əhatədə dünyanın ən böyük yeganə sosialist dövlətinə necə başçılıq etmişdi, dəhşətli müharibəni necə qalibiyyətlə başa çatdırmışdı. Yəqin Trotski macəraları ilə öyünüb, özünü hətta fövqəl şəxsiyyət hesab edə bilərdi. Əlbıttə o,heç də bəzi istedadlardan xali deyildi. Yəqin ki, Trotski (ilk dustaqlığına qədər o Lev Davidoviç Bronşteyn kimi tanınırdı) öz macəraları ilə müqayisədə başqa siyasi xadimi "qabiliyyətsiz" adlandıra bilərdi. Nədənsə ona dünyanın məşhur maliyyə maqnatları xüsusi himayə göstərirdilər. Rokfellerlər və Rotşildlər ailələrinin maddi köməyi ilə Amerikada yaşamış, Kanada dustaqxanasından azad edilmişdi. Maliyyə maqnatları bunu filantropluqlarına görə etmirdilər, axı adətən onları qazancdan savayı heç nə düşündürmür. Yəqin ki, Trotski vasitəsilə Rusiya barədə də onların müəyyən maraqları var imiş.

Trotski qəddarlıqda da başqalarından geri qalmırdı. Gənc Sovet Rusiyasının hərbi komissarı (naziri) kimi İnqilabi Hərbi Şuranın sədri olanda orduda qəddar tədbirləri ilə məşhurlaşmışdı. Qızıl Ordunun yaranmasında və Vətəndaş Müharibəsindəki 4 mühüm döyüşdə onun xidmətləri danılmazdır. Bununla yanaşı o, əsirlərlə yanaşı dezertirləri və hərbi intizamı pozanları güllələtdirir, ölüm düşərgələrinə saldırırdı.

Trotski QULAQ-ın əsasını qoyanlardan biridir. Lakin nədənsə heç kəs onun cinayətlərini yada salmır. Rus yazıçısı A.İ. Kuprin Trotski barədə yazırdı ki,: "Bu adam müstəsna dərəcədə azalmayan qəzəbdən ibarət idi və o, daim sönməyən qan yanğısından başqa heç nəyə susamırdı."

Əxlaqının təmizliyi ilə də o, heç cür öyünə bilməzdi. 1929-cu ildə SSRİ-dən sürgün edildikdən sonra İstanbul yaxınlığındakı adada, Fransada yaşadı, özünə sığınacaq tapmaq üçün təhlükəsiz yer axtarırdı. Böyük Meksika rəssamı Diyeqo Rivera ona dostu kimi kömək etmək üçün ölkə prezidenti olan Losaro Kadenasla yaxın münasibətinə görə ondan Trotskiyə Meksikada sığınacaq verilməsini xahiş edib, razılıq almışdı. 1937-ci ildə öz arvadı ilə Meksikaya gələn Trotski paytaxtda onun evində yaşamağa başlamışdı. Ona qarşı alicənablıq göstərmiş Riveraya xəyanət edərək, onun rəssam arvadı, saqqalına görə inqilabçını "keçi" adlandıran Frida Kalo ilə intim yaxınlığa girişmişdi və bu, ərlə - arvadın boşanmaları ilə nəticələnmişdi.

1956-cı ildə Nikita Xruşşov Sovet İttifaqı Kommunist Partiyasının XX qurultayındakı gizli məruzəsində Stalinin şəxsiyyətinə pərəstişi amansız tənqidə məruz qoymaqla, özünün də fəal iştirak etdiyi 1937-38-ci illərin repressiyasının bütün günahını artıq qəbirdə uyumaqla özünü müdafiə etmək imkanı olmayan, vaxtilə kölə kimi xidmət etdiyi bir adamın üstünə yıxdı. Hindular özləri öldürmədiklərinin skalpını çıxartmırlar, yalnız özləri qətlə yetirdiklərinin skalpına sahib olurlar. Xruşşov isə özünün Ukraynada öldürdüklərinin də skalpından imtina edərək, onları da Stalinin xatirəsinin üzərindən asdı.

Beş il sonra isə o, Hitler ordusu üzərində ilk böyük qələbə qazanıldığı, müharibədə dönüş nöqtəsi sayılan Stalinqrad döyüşü ilə məşhurlaşan bir şəhərin adını da dəyişdi. Stalinqradda sovet qoşunlarının qələbəsi sovet-alman cəbhəsində müharibənin gedişində əsaslı dönüşün başlanğıcı kimi məşhurlaşmışdı. Adını daşıyan döyüşdəki qələbəyə görə Stalinqrad əslində simvola çevrilmişdi. 6 iyun 1944-cü ildə Müttəfiq qoşunlarının nəhəng desantından sonra Normandiyadakı ilk böyük qələbə - burada almanlar bütün tanklarını itirmiş, 40 min alman əsgəri məhv edilmiş, 90 min isə əsir götürülmüşdü – Normandiya Stalinqradı adlandırılmışdı. Məhz qələbə simvolu kimi Stalinqrad adını yaşatmaq olardı, çünki həmin döyüşün şərəfi ilə Stalinə olan cılız nifrətin heç bir əlaqəsi yox idi. Necə olur ki, Parisdə Stalinqrad küçəsi qalır, SSRİ-də isə bu adın üzərinə tabu qoyulur. Amerikanın inqilabdan əvvəlki 13 koloniyasında Böyük Britaniya kraliçalarının, kralının və digər xadimlərinin şərəfinə coğrafi adlar və şəhər adları var idi: Virciniya (ingilislərin ilk məskunlaşdığı ərazi, sonra isə koloniya ingilis kraliçası I Elizabetin "Bakirə" ləqəbinə görə belə adlanırdı), Merilend (əri kral Uilyam Oranc ilə birlikdə İngiltərəni idarə edən kraliça Mariyanın

şərəfinə), Pennsilvania (Uilyam Penn1681-ci ildə Amerikadakı bu əraziyə qrant almış, kolonistləri gətirib orada məskunlaşdırmış, öz adı və "meşə" sözündən ibarət olan həmin koloniyanı yaratmışdı), Pittsburq (Böyük Uilyam Pitt iki il Böyük Britaniyanın faktiki baş naziri olmuş, Yeddiillik müharibıdə fransızları Hindistanda, Afrikada, Kanadada və dənizlərdə məğlub etmişdi) . Bu adlar inqilabdan sonra dəyişdirilmədi və indiyədək qalır. Amerikanlar ingilis ağalığına qarşı mübarizə aparsalar da, qəzəblərin adları dəyişdirmək yolu ilə söndürməyi məqbul hesab etmədilər.

Xruşşov barədə söhbət gedərkən Rusiyaya yarım il ərzində imperatorluq etmiş ağıldankəm III Pyotr yada düşür. Onun taxt-taca gəlmə ərəfəsində, 1761-ci ilin sonunda Yeddiillik müharibədə vuruşan Prussiyanın vəziyyəti çox ağır idi və kral II Fridrixi sonrakı ildə məhv olmaqdan yalnız tale xilas edə bilərdi. Bu da baş verdi. Onun xilası Rusiya imperatriçası Yelizavetanın 1762-ci ilin yanvarın 5-də ölməsi ilə gəldi. Bu vaxt Prussiyaya, Fridrixə sitayiş edən III Pyotr imperator oldu. O, müharibədən Rusiya ordularını geri çəkib, Fridrixə xidmət göstərmək məqsədilə rus ordusunun işğal etdiyi Prussiya ərazilərinin hamısını, heç bir təzminat almadın ona qaytardı. Mayın 5-də Fridrixlə sülh bağladı, onun vasitəçiliyi ilə Prussiya ilə onunla vuruşan İsveç arasında da 17 gün sonra sülh bağlandı. Prussiya kralı isə minnətdarlıq əlaməti olaraq onu öz dövlətinin hərbi zabiti rütbəsi ilə mükafatlandırdı. Rusiya yüksək dairələri bunu təhqir kimi qiymətləndirirdilər. Iyunda isə nəinki Fridrixlə ittifaqa girdi, həm də əvvəlki müttəfiqi olan avstriyalıların Sileziyadan qovulmasında onu köməklik göstərdi. Bunlar azmış kimi, III Pyotr 18 min rus əsgərini Fridrixin sərəncamına verdi.

Xruşşov öz ölkəsinə xəyanət etməmişdi, sadəcə olaraq, ölkəsinin tarixinə təcavüz etmişdi. Hitler Stalinqrad adını tarixdən silmək üçün avantyura xarakterli bir cəhd etsə də, şəhərə hücumda çoxlu qurbanlar versə də, buna nail ola bilməmişdi. Xruşşov isə bir qələm cızması ilə Hitlerin arzusunu həyata keçirmişdi və əgər o, qəbirdən çıxa bilsəydi, yəqin ki, Böyük Fridrixə təqlid şəklində, düşmənlərinin " 1 nömrəli kommunist" adlandırdığı Xruşşovu da hansısa bir alçaldıcı rütbə ilə mükafatlandırardı.

Xruşşovun böyük qüsurları ilə yanaşı müsbət işlərini də etiraf etmək lazımdır. Onun dövrü dövlətin vətəndaşa münasibətində "mülayimləşmə" illəri kimi qəbul edilir. Bu dövr ədəbiyyatda, incəsənətdə, kinoda müsbət dəyişikliklərə səbəb olmuşdu. KQB (Dövlət Təhlükəsizliyi Komitəsi) Olimpdən salınmış, lakin tam məhv edilmədiyindən sonralar özünü daha güclü qaydada bərpa edə bilmişdi. Ölkədə xof xeyli azalmışdı. Kəndlilər amansız vergidən azad edilmiş, onların kəndi tərk etməsinə icazə verilmiş, şəhərlərdə kütləvi mənzil tikintisinə başlanmışdı.

Lakin Xruşşov daha çox özünün səfeh siyasəti və davranışı ilə xatırlanır. O, dövləti idarə etməyi mindiyi atı çapmaq hesab etdiyindən voyuntarizmi, subyektivizmi ilə fərqlənirdi. Rusiyanı, əsasən soyuq iqliminə baxmayaraq, bütöv qarğıdalı tarlasına çevirmək istəyirdi, BMT Ali Məclisində çıxış edərkən, ayaqqabısını çıxarıb tribunaya döymüşdü, Kuba böhranında dünyanı az qala Üçüncü Dünya müharibəsinə sövq etmişdi. Xarici ölkələrə aylarla davam edən turist, əyləncə səfərinə çıxırdı. 1963-1964-cü illərin qışında müharibədən sonra ilk dəfə olaraq xalqı yenidən yarımaclıqla üzləşməyə gətirib çıxarmışdı.

Xruşşov hakimiyyətə gələndən azacıq sonra Krımı RSFSR ərazisindən çıxarıb, Ukraynaya bağışlamaqla, 60 il sonra Rusiya ilə Ukrayna arasında baş verən böyük münaqişənin əslində binövrəsini qoymuşdu.Onun bu "əliaçıqlığı" da səbəbsiz deyildi, özünün Ukraynaya rəhbərlik edərkən repressiyalara canfəşanlıqla rəvac verməsinin xatırlanmaması naminə ukraynalılara verilən rüşvət xarakteri daşıyırdı.

Xruşşovun ölkəyə başçılıq etdiyi dövrün ən iyrənc səhifələrindən biri Novoçerkassk etiraz nümayişini yatırtmaq üçün kütləni cüllələtməsi idi. Bu vaxt ölkəni ərzaq böhranı bürümüşdü, əhalinin ərzaq təchizatında fasilələr meydana gəlirdi. 1962-ci ilin mayında belə bir şəraitdə sonrakı ayın 1-dən ətin, ət məhsullarının, yağın qiymətinin az qala üçdə bir dəfə bahalanmasi barədə qərar verildi və həyasızcasına bunun "zəhmətkeşlərin xahişləri" əsasında edildiyi bildirildi.

1-2 iyun 1962-ci ildə Rostov vilayətindəki Novoçerkassk elektrovoz zavodunun fəhlələri və şəhərin digər sakinləri ağır sosial şəraitə görə tətil etdilər. Xruşşovun birbaşa göstərişi ilə nümayiş edən kütləyə atəş açılmaqla tətilə son qoyulduğundan, bu hadisə Novoçerkassk güllələnməsi adlanır. Rəsmi məlumata görə 26 tətilçi həlak olmuş, 87 nəfər isə yaralanmışdı. İyunun 1-dən 2-nə keçən gecə şəhərə tanklar və əsgərlər girmişdi. Məhz həmin əsgərlər şəhər icraiyyə komitəsinin binasının yanında nümayişçilərə atəş açdılar. Şəhər sakinləri ət əvəzinə bolluca güllə zərbəsi aldılar.

Xruşşov narazılıqları zor tətbiq etməklə yatırtmağın təcrübəli ustası kimi Mikoyanı digər rəhbər xadimlərlə birlikdə Novoçerkasska göndəmişdi. Təcrübə bu dəfə də onun köməyinə gəldi. Lakin sonralar o, günahı artıq həyatda olmayan Mərkəzi Komitə katibi Frol Kozlovun üstünə yıxmışdı. 1990-cı illərdə bu məsələ ilə əlaqədar Xruşşov, Mikoyan və Kozlov barəsində cinayət işi qaldırılmış, hər üçü artıq ölü olduğuna görə işə xitam verilmişdi.

Xruşşov isə həmin dəhşətli hadisəyə məhəl qoymayaraq, devrilənə qədər xalqı aclıqdan xilas etmək barədə yeni ideyalarından dəm vururdu, bunlardan biri qarğıdalının bütün ölkə ərazisində becərilməsi barədəki sərsəm fikir idi. O, güman

edirdi ki, xalqı ərzaq əvəzinə xülyalarla da qidalandırmaq olar. Eksperimentlər isə ölkəyə olduqca baha başa gəlirdi.

Əlbəttə, 1937-38-ci illərin repressiyayaları sovet xalqına daha ağır zərbə vurmuşdu. Yuxarı eşelondakı repressiyalar hakimiyyət uğrundakı mübarizənin əks-sədası olmaqla yanaşı, bütünlüklə əsassız da deyildi. Uinston Çörçill özünün "İkinci Dünya müharibəsi" adlı altıcildlik fundamental əsərində o vaxtlar SSRİ-də hərbi müxalifətin mövcudluğunu və Stalinin onu dəf etdiyini yazır. Çoxlu hərbi xadimlər məhv edildi, lakin müharibə ərəfəsində olan ölkə üçün hərbi müxalifətin heç də kiçik təhlükə olmadığı da böyük bir sirr deyildir. Hətta Stalindən narazı olan böyük rus sərkərdəsi G.M.Jukov da özünün "Düşüncələr və xatirələr" adlı dərin tədqiqat əsəri sayılan kitabında həmin illərdə generallara və marşallara qarşı olan repressiya məsələsinə toxunmur, arbitr rolunda çıxış etməmək üçün bu məsələnin üstündən keçir. O, bu hadisələrin canlı şahidi olmaqla, nə baş verdiyindən yaxşı hali idi. Lakin repressiyanın qurbanlarının nəslindən olanlar, bu ağır itkilərinə görə Stalini bağışlamaq fikrindən çox uzaqdırlar.

Stalin sağlığında ölümündən sonra ona necə çox sayda ittihamlar yağdırılacağını bilirdi. V. M. Molotov yazıçı Feliks Çuyevlə söhbətində bildirmişdi ki, "Yadıma düşür ki, Stalin özü müharibə dövründə demişdi: "Mən bilirəm, ölümümdən sonra mənim qəbrimin üstünə zibil topası tökəcəklər. Lakin zaman küləyi onu amansızcasına sovurub yoxa çıxaracaqdır." Yazıçı isə bunu "Molotovla yüz qırx söhbət" kitabında qələmə almışdır. Əcnəbi dövlət xadiminin "müasir avtomat təsəvvürünə uyğun gələn bəşər məxluqu hesab etdiyi " Molotov yəqin ki, öz obyektivliyinə bu dəfə də xilaf çıxmamışdı. Stalinin öncəgörməsi düz cıxsa da, ideyası tam həyata keçmədi, küləyin zibil qalağını yoxa çıxaracağı barədəki ümidi puç oldu. Qəbri üzərinə tökülən zibil topası, sağlığında Pamirdə öz adı ilə adlanan pik hündürlüyündə olduğundan, onu dağıtmaq üçün adi külək deyil, nəhəng siyasi və ya sosial kataklizm lazımdır, lakin onun hansısa bir vaxt mövcud olacağı ehtimalı da hələlik sıfra bərabərdir.

Stalinə ölkəsində yazılan odaların sayı- hesabı yox idi və bunlar da əsasən məddahlıqdan başqa bir şey deyildi. Lakin ona, əks cəbhədən olanlar da çox xoş sözlər ünvanlayırdılar. Çörçill Tehrandakı (noyabr 1943-cü il) və Yaltadakı (fevral 1945-ci il) konfranslar vaxtı verilən ziyafətlərdə onun haqqında çox tərifli sözlər söyləmişdi: "Mən səhər yuxudan qalxanda dua edirəm ki, Stalin yaşayır, salamatdır. Yalnız Stalin dünyanı xilas edə bilər." 1959-cu ildə Stalinin ölümündən altı il sonra, onun 80 illik yubileyi münasibətilə Britaniya parlamentində çıxış edərkən demişdi: "Rusiya üçün böyük xoşbəxtlik onda idi ki, ağır sınaq illərində ölkəyə dahi və...

sərkərdə Stalin başçılıq etmişdi. O, ən görkəmli şəxsiyyət idi.” Doğrudan da müharibə illərində o, təkcə sərkərdəlik etmirdi, həm də vuruşan və dəhşətlərlə üzləşən ölkəyə, xalqa rəhbərlik edirdi. Belə sınaq anında çoxları qorxudan titrəyir, qaçıb gizlənmək istəyir, yalnız böyük iradə sahibləri qartal kimi qanad açıb səmaya pərvazlanmaq cəsarəti tapır.

Repressiyalara tam əks mövqedə olanlar da yox deyildi. Hətta üç on illik keçəndən sonra həmin tufanın yenidən başlanacağına ümid bəsləyənlər də var idi. Onlar əsasən vaxtilə repressiya maşınında alət kimi çıxış edənlər idi, öz donosları ilə onun bəhrəsinin çoxalmasına kömək göstərmiş cılız məxluqlar idi. Məlum olmuşdur ki, təkcə Moskvadakı mərkəzi orqanlara çuğulçuların siqnalı şəklində 4 milyon ərizə daxil olmuşdu. Respublika, vilayət orqanlarına göndərilən böhtan dolu ərizələr də əlavə olunsa, bu rəqəm dəfələrlə arta bilər.

Əslində inkvizisiyaya xidmət edən bu adamlar sonralar nəinki məsuliyyətə cəlb olunmadı, bəziləri hətta daha da məşhurlaşdı. Onlar adi peşmançılıq hisslərindən də çox uzaq idilər. Repressiya illərində bu prosesə canfəşanləqla xidmət edən 20 min çekist vəzifədən sui-istifadə ittihamı ilə güllələndiyi halda, donosçular barədə elə bir gözə çarpan tədbir görülməmişdi. Çuğulçuların övladları məsələ sərt şəkil alanda, öz atalarının da məhz sistemin qurbanları olması barədəki xilas kəmərindən istifadə etməyə üstünlük verirlər. Bəzi donosçular isə keçmiş zəmanənin reliktləri olsalar da, çoxları kimi ilbiz qınına çəkilməyib, öz həyasız təbiətlərindən uzaqlaşmırdılar. Onların bir eybəcər nüsxəsi ilə təsadüfən rastlaşmışdım.

Cavan vaxtı Mil düzündəki əyalətdə rayon partiya komitəsinin ikinci katibi işləyərkən bir payız səhəri Araz çayının kənarındakı kəndə getmişdim. Kolxoz sədri ilə birlikdə pambıq qurutma meydançasına gəldik. Kolxozçular pambığı qarğıdan tikilmiş damdın çıxarıb qurutmaq üçün asfalt meydançaya sərirdilər. Onlarla görüşüb bir qədər söhbət etdik, maşına yaxınlaşanda bir kolxozçu sədrə nəsə söz demək istəyib, onu kənara çəkdi. Bu vaxt tanımadığım arıq bədənli bir qoca kişi yaxınlaşıb mənimlə ərkyana qaydada görüşdü. Sonra əlini kolxoz sədrinə tərəf uzadıb: “Gör nə xoruzlanır! Ancaq məndən qorxur. Çünki atasını 37-də balıqlara yem elətdirmişdim”. Qoca heç nə anlamadığımı görüb, əlavə etdi: “Atasını gedər-gəlməzə göndərdim, yazdım ki, İrana casusluq edir. Adi kolxozçu idi, ancaq qonşu kimi ondan xoşum gəlmirdi. Bu sədr o vaxt hələ anasının qarnında idi, dünyaya yetim kimi gəldi. Anası sonra başqa ərə getdi”.

Kolxoz sədri, sadə, təvazökar adam olmaqla, əksər həmkarlarından fərqlənirdi. Həm də körpəliyindən atasız olduğundan yetimlik də onun şüuruna öz fağırlıq ütüsünü çəkibmiş. Ona görə də qocaya bildirdim ki, sədrə böhtan atsan da xeyri

olmayacaq, artıq sənin düşündüyün zaman deyildir, indi mizantropların işi yaxşı getmir. Bu sözləri eşidən kimi o, sakitcə uzaqlaşıb getdi. Sonra həmin qoca kişi bu dəfə də kolxoz sədrinə şikayətlənirmiş ki, guya mən onu heyvan adlandırmışam. "Mizantrop" sözünü yırtıcı heyvan növü kimi başa düşübmüş.

1937-38-ci illərdə ölkənin hər yerində çuğulçular (donosçular) zümrəsi yaranmışdı. Rusiyada göbələk avqustda meydana gəldiyi kimi, onlar da həmin qadalı illərdə münbit mühit tapmışdılar. Onlar böhtan yolu ilə istənilən adamı bədbəxt, hətta məhv edə bilərmişlər. Hər yaşayış məntəqəsinin belə donosçuları var imiş və hamı onlardan çəkinirmiş. İndiki professional amerikan boksçuları kimi onlara ləqəb də qoyularmış.

Mənim tanış olduğuma bənzər nüsxələr həmin mənfur qaydaların yenə də qayıdacağına çox ümid bəsləyirdilər və güman edirdilər ki, qoca vaxtlarında da köhlən atın belində vüqarla gəzəcəklər. Arzu ahıl yaşa baxmır. Axı 94 yaşlı Venetsiya doju Enriko Dandolo da səlibçiləri aldadaraq, onların yürüş istiqamətini dəyişdirmiş, öz şəhərinin ticarətdə böyük rəqibi olan Konstantinopolu səlibçilərin köməyi ilə 1204-cü ildə tutub, şəhəri qarət etmişdi. Burada o, Latın dövləti yaratmışdı. İşğal etdiyi şəhərdə at belində məğrurcasına gəzərkən, yıxılıb budunu sındırmış və 1205-ci ildə Konstantinopolda da ölmüşdü.

Misal çəkilən primitiv adamlar repressiya üçün yanacaq rolunu oynasalar da, elə bir əhəmiyyətli fiqur deyildilər. Təəssüf ki, özünü ədəbiyyat nəhəngləri hesab edənlər də bu biabırçı işə öz "töhfələrini" verməkdən qalmırdılar. Onlar böhtan atmaqla qələm dostlarından rəqib saydıqlarını sıradan çıxarırdılar. Milli respublikalarda bu biabırçı praktika daha geniş yayılmışdı. Bəzən yazıcılar repressiyanın güclənməsi üçün ideoloji dayaq rolunu oynayırdılar. Bəlkə də böyük proletar yazıçısı Maksim Qorki öz şəxsi düşmənlərinə heç bir xətər toxundurmamışdı və ya onlara, ümumiyyətlə, heç malik də deyildi, nə olsun ki, Mayakovski onun Kapri adasında yaşamasını da lağa qoyan şeir yazmışdı, baxmayaraq ki, vərəm xəstəsi olan Qorki əsasən müalicə məqsədilə İtaliyanın bu isti və gözəl guşəsini seçmişdi. Lakin Maksim Qorkinin "Kim təslim olmursa, onu məhv edirlər" sözləri repressiya dalğasının genişlənməsi üçün haray, çağırış rolunu oynadı. Bu kəlmə minlərlə günahsız adamı Qolqofaya aparan yola daş döşədi.

Repressiyalar həm də görünməmiş qorxu, xof hissi yaradırdı, əslində mənəvi terror xarakteri daşıyırdı. Bunlar isə öz növbəsində yaltaqlığı, təzim qılmağı, köləlik xüsusiyyətlərini qidalandırırdı. Axı həqiqi məhəbbət qorxu ilə bir yerdə yaşaya bilmir. Stalinə ifrat tərifə dolu əsərlər yazılırdı, bəzən şairlər onu əsl bütə çevirməyə cəhd edirdilər. Rus yazıçısı Leonid Leonov qriqorian təqvimindən imtina edib, tarixi İisusun deyil, Stalinin anadan olduğu ildən başlamağı təklif edirdi. Bəzi Siyasi Büro

üzvləri Moskvanın adını dəyişib, ona Stalinin adını verməyi təklif edirdilər. Bu, Stalinin hiddətinə səbəb olmuşdu. Roma imperatorları ayların adını dəyişib, onlara öz adlarını verirdilər. Fransa inqilabı isə köhnə təqvimdən əl çəkib, qərar verdiyi ildən tarixi başlamaqla, ayların da adını dəyişdirmişdi. Bir neçə ildən sonra bu yenilikdən əl çəkilməli olundu.

Stalin özü də şəxsiyyətə pərəstişi güclənməsinin qarşısını almaq fikrindən uzaq idi. Alman yazıçısı Lion Feyxtvanger 1930-cu illərdə Moskvada olanda Stalindən soruşmuşdu: "Bəs Sizi bığlı adamın minlərlə portreti qıcıqlandırmır?" Ev sahibi yüngülcə gülümsünüb, belə bir ruhda cavab verdi ki, bəli, əlbəttə, cənab yazıçı,biz sizinlə ziyalı adamlarıq, biz bu bütə sitayişin cəfəngliyini başa düşürük, lakin biz öz təbəələrimizin zövqləri ilə hesablbaşmaqla, alicənab və iltifatlı olmalıyıq, axı onların çoxu dünənki kəndlilərdir. Beləliklə, o, bu daşan çaya bənd çəkmək fikrindən uzaq olduğunu bildirirdi.

Lakin Stalin yəqin ki, bunu da bilməmiş deyildi ki, sitayiş adamların mənəviyyatına ağır zərbə vurur, onları ruhən kasıblaşdırır. Xalq özünə məxsus ləyaqət ruhunu itirdikcə kiçilməyə başlayır. Ona görə də İngiltərənin görkəmli siyasi xadimi, baş nazir olmuş Uilyam Qladstounun Almaniya kansleri Otto fon Bismark barədəki: "O, Almaniyanı böyütdü, almanları isə kiçiltdi" – sözlərini bütünlüklə Stalinə də aid etmək olar. Zəkalara qurşaq qoyulması, düşünən adamların dilinin kəsilməsi, səsinin boğulması cəmiyyəti yalnız tənəzzülə sürükləyə bilər. Stalin epoxası isə həm də belə eybəcərliklərə şərait yaratmışdı.

Yaradıcı ziyalılar kimi elm adamları da şəxsiyyətə pərəstişin şişirdilməsində xalqa olduqca pis nümunə göstərirdilər. Stalinin "SSRİ-də sosializmin iqtisadi problemləri" əsəri çapdan çıxdıqdan sonra, hamı gur səslə onu tərifləməyə, əhəmiyyətini göylərə qaldırmağa başladı. Hüquqşünas alimlər və filosoflar isə yaltaqlıq müstəvisində daha uzağa gedərək, Stalinə məktubla müraciət edib, hüquqa və fəlsəfə elminin tarixinə aid də kitab yazmağı ondan xahiş etmişdilər.

Hakim ideologiyaya xidmət ruhunda yazılmış əsərlər əslində yalnız təbliğat vasitəsi olaraq qalırdı, bədii səviyyə məsələsində hər iki ayaqdan axsayırdı. Ona görə də onların ömrü uzun olmadı, klassikliyə iddia etdikləri halda, öz populyarlığını heç yarım əsr ərzində də qoruyub saxlaya bilmədi. Rəhbərin zövqü etalon kimi qəbul edildiyindən, bu, ədəbiyyata, incəsənətə "ayı xidməti" göstərildi. Belə əsərlər az sonra makulatura xarakteri daşıdı, dram və musiqi əsərləri səhnə üzünə həsrət qaldı, bir günlük kəpənəklər kimi qısa ömürlə kifayətlənməli oldular. Vaxtilə Stalin və ya Dövlət mükafatları laureatı adına layiq görünən müəlliflər indi heç ortabab yazıçıların siyahısına da düşə bilmirlər.

Tarixçilərin fikrinə görə, dəniz qədim yunan üçün yaşayış və düşüncə tərzinin, elmi və praktiki biliklərin sınaq mərkəzi idi. Dəniz yunanların tarlası, zəmisi, həm də özünü təsdiq etmə meydanı idi. Bilikləri mənimsəməklə yanaşı yunan həm də təbiətin uşağı olaraq qalmalı idi. Yunan mədəniyyəti üçün inkişaf etmiş təbiət hissi, onun mütənasibliyi və təbii harmoniyası mühüm əhəmiyyət kəsb edirdi. Totalitar cəmiyyətlərdə isə qan dənizi qorxu mənbəyinə, onu əsaslandırmaq tədqiqatına çevrilir. Dövlətin etibarını və inamını qazanmaq üçün mədəniyyət xadimləri qatilləri vəsf etmək yolunu tutur. Malik olduqları az-çox ilhamlarını buna həsr edirlər. Onlarda adətən yaşamağı davam etdirmək, özü də maddi cəhətdən təmin olunmuş şəkildəki həyata nail olmaq hissi aparıcı rol oynamaqla, həyatın mənasından üstün hesab edilirdi. Belə münasibət isə çoxlarını gələcək unudulmaya, bəlkə də lənət uçurumuna aparırdı. Qədim Roma tarixinin görkəmli şəxsiyyətlərindən biri olan Qay Qrakx demişdi ki, "Gənclərin köməyi ilə nəciblər bir-birini qıracaqlar". Bu sözləri dəyişərək demək olar ki, ənamın köməyi ilə mədəniyyət xadimləri bir-birlərini dövlətin əli ilə qırmaqdan həzz alırdılar. Bu da, onların özlərinin təsvir etməyə qadir olmadıqları ən böyük faciə idi.

Epiloq və ya sərt müəllimdən öyrənmək ehtiyacı

Ötən minilliklər, əsrlər insana çox şeyi öyrədir, bu şərtlə ki, adamların öyrənməyə həvəsi və ehtiyacı olsun. Tarix heç kəsi ona maraq göstərməyə məcbur etmir, bu məsələdə azacıq yanğı hiss edənlər, istənilən an həmin bulağın gözünə dodaqlarını söykəyib, onun təmiz və şirin suyundan yararlana bilər. Tarixdən öyrənmək istəməyənləri isə o, sərt bir müəllim kimi cəzalandırır. Ona görə də ləyaqətlər və qüsurlar daşıyıcılarına nüfuz etdikcə, biz onlar arasındakı fərqləri təhlil etməyi və bundan nəticə çıxarmağı bacarmalıyıq. Yaxşı olan nədirsə, ona can atmalıyıq, pis olandan uzaqlaşmalı, onu məhkum etməklə, yayılmasına bacardığımız qədər, imkanımız çərçivəsində müqavimət göstərməliyik. Belə olan halda, nöqsanlar xeyli azalardı, böyük Çin mütəfəkkirinin dediyi kimi, hər bir adam cəmiyyətdə öz qabiliyyətinə uyğun olaraq yer tutardı. Bu yer istedadlı adamlar üçün xüsusən vacibdir, axı oda qida lazımdır. İstedadsızlar isə iri balıqlar toru deşib çıxan kimi, bütün bəndləri adlayıb, özlərinə müvafiq və sərfəli olan yer tapa bilirlər.

İnsanlar bir qayda olaraq taleyin böyük və ardıcıl zərbələrinə dözməli olur. Makiavelli taleyi daşıb, çölləri basan, ağacları yıxan coşqun çaya bənzədirdi. Bu çay insanları da öz axınına salıb, onlar üzərində istənilən təcrübə apara bilir. Ona görə də

adamlar çayın sakit vaxtlarında ehtiyatlılıq tədbirləri görməlidirlər. Zamana bel bağlamaq da sərfəli deyildir, axı zaman özü ilə həm şəri, həm də xeyri gətirir.

Bir cəhət də nəzərə alınmalıdır ki, adamların xarakteri də dəyişilməyən deyildir, həyat sobasında hər cür filiz əriməyə məruz qalır. Xarakterlərin yaxşı tərəfə dəyişiləcəyi ümidi bizə virtual təsəlli verməklə yanaşı, gələcəyə inam qığılcımını meydana gətirməklə nəcib bir iş görmüş olur. Yəhudilər xanuka bayramını qeyd edərkən, əcdadlarının işığa münasibətinin ifadəsi kimi "azacıq işıq qaranlığı dağıdır" sözlərini təkrar edirlər. Gələcəyə isə insanlar onun daha işıqlı olacağına görə ümid bəsləyirlər, deməli, nəciblik işığı qüsurları, bütün qaranlıq cəhətləri yoxa çıxaracaq və adamların çox arzuladıqları nisbi ləyaqətlər səltənəti bərqərar olacaqdır. Ancaq onu yaddan çıxarmaq olmaz ki, insanlar ağaclardan fərqli olaraq bir-biriylə harmoniyada yaşamırlar.

Əsl ləyaqətlər və harmoniya barədəki arzu isə heç də Qiyamət gününə bəslənən ümiddən kiçik deyildir. Keçmişə salınan kiçik nəzər bu arzunun reallaşması ehtimalının uzaq gələcəyə istiqamətləndiyindən xəbər verir. Dünyaya nə qədər qocalmış kimi baxsaq da, Yer üzü qocalığını etiraf etmir və bizi onun səthində baş verən olaylardan öyrənməyə çağırır. Şərqin böyük şairi Rabindranat Taqorun yazdığı kimi:

Dünya bir sərt müəllimdir.
Keçirir ürəklərimizi sınaqdan.
Biz hamımız öyrənirik məktəbdə,
Dünya adlanan bir atadan.

Atanı, valideynlərimizi saydığımız kimi dünyanın da nəsihətlərinə onlarınkı tək qulaq assaq, yalnız qazanmış olarıq.

Son

Telman Orucov

Şahmat dünyası və ilahə Kaissanın kahinləri

Şahmat: mənşəyi və inkişafı. Oyun qaydaları

Bütün oyunlar içərisində şahmatın icadını, meydana gəlməsini onu insan zəkasının inkişafına xidmət edən bir növ hesab etməklə, ümumi proqressdə xüsusi bir mərhələ kimi qəbul etmək olar. Bu oyun ağılın inkişafına, güclənməsinə böyük təsir göstərən əyləncə vasitəsinə çevrildi və dünyanın əksər hissələrinə yayılmağa başladı. Futbol azarkeşləri kütləviliyinə görə öz sevimli oyunlarını daha vacib hesab etsələr də, lakin çox istedadlı oyunçular istisna olmaqla, futbolda bilavasitə ağılın itiliyi o qədər də mühüm rol oynamır. Şahmatda isə əksinə, ən sadə oyunçu belə bu oyunu oynayarkən ağıl, intellekt rəqabətinə girməli olur. Digər tərəfdən, şahmatla müqayisədə futbol, yaşına görə hələ körpə kimidir, onun min ildən sonra necə olacağını təsəvvür etmək də asan məsələ deyildir.

Şahmatı, əlbəttə ki, böyük ixtiralardan biri hesab etmək olar. Axı bəşəriyyətin elə ixtiraları vardır ki, onlar zaman dəyişsə də, sıradan çıxmırlar, istifadədə qalmaqda davam edirlər. Çörəyi ilk dəfə bəşər qidasına daxil edənlərə indi də minnətdar olmalıyıq, axı minlərlə rəngarənglikdə qida növləri yaransa da, çörək milyardlarla insanlar üçün öz dəyərini hələ də itirmir. Qədim insan zeytundan yağ almağı, üzümdən şərab, arpadan pivə düzəltməyi öyrənmişdi və bu gün də dünyanın hər yerində onlardan istifadə olunur. Texniki ixtiralar içərisində təkərin meydana gəlməsi bir inqilabi yenilik idi. Ona qədər insan öz yaşayış evini, özünü əhatə edən mühiti yaratmaq üçün təbiəti, göy cisimlərini təqlid etmək yolunu tuturdu. Təkərin hərəkətinin isə təbiətdə heç bir analoqu yox idi, canlılardan heç birində bu növ hərəkətə rast gəlinmirdi. Fırlanmaqla irəli, bəzi hallarda isə geri hərəkət etməklə təkər gələcək bütün nəqliyyat növlərinin icad olunmasına yol açdı. XX əsrin əvvəllərində isə döyüş maşını olan tanka, sonra isə iri traktorlara çöl şəraitində müqavimətsiz hərəkətinə imkan yaratmaq üçün tırtıllar icad edildi. Təkəri tanımayan hindular (əslində onların qoşqu heyvanları da yox idi) ispan işğalına qədər yükü kiçik həcmlərdə bellərində daşıyırdılar. Təkər insanı ağır zəhmətdən xilas etməklə yanaşı, ən uzaq məsafələrə belə ağla sığmayan həcmlərdə yüklərin daşınmasına şərait yaratdı.

Şahmatın icadını öz sələfləri olan bütün digər oyunlardan mürəkkəbliyinə və ağıldan daha çox istifadəyə əsaslandığına görə də təkərin ixtira edilməsi ilə müqayisə etmək heç də düzgün olmazdı. Şahmat fərdlərə, təkər isə bəşəriyyətə xidmət edir. Lakin bunun özü də şahmatın dəyərini azalda bilməz. Şahmat taxta üzərində döyüşə girməyə hazırlaşan və bunu təxirə salmadan üz-üzə dayanmış iki ordunu xatırladır. Döyüş isə insana lap çox qədimdən tanış idi. Şahmat əslində silahlı döyüşün miniatür formasını təmsil edir. Şahmat müharibə təcrübəsinə əsaslanır, onun strategiyasını və taktikasını özündə ehtiva edir. Müharibə heç də adi, sadə iş olmadığı kimi, şahmatda da zahiri görünüşdən fərqli olaraq elə bir sadəlik yoxdur və şahmatçılar da müharibəni özünə sənət kimi seçən hərbçiləri xatırladırlar.

Bir idman növü kimi şahmatı elmin, zəkanın, incəsənətin müsabiqəsi hesab etmək olar. Onun idmana xas olan xüsusiyyətləri mövcud olsa da, tam fərqli cəhətlərdən də xali deyildir. Burada nəzəriyyəyə, əvvəllər mövcud olmuş məşhur oyunçuların təcrübəsinə bələdçilik az rol oynamır. Oyun vaxtı meydana çıxan problemləri həll etməkdə birinci növbədə ağıl və iradə köməyə gəlir. Yalnız nəzəriyyəyə dərindən bələd olanlar isə çox hallarda güclü şahmatçılara çevrilə bilmirlər, yaxşı halda onlara məşhur şahmatçılara məşqçilik etmək nəsib olur. Onlar, zəhmətləri lazımınca qiymətini almayan sıravi arxeoloqları xatırladırlar. Şahmatdakı mürəkkəblik insanın fiziki və psixoloji imkanlarını bütünlüklə sınağa çəkir. Hər gedişdə onu təkcə həmin ana xas olan çətinliyi dəf etmək deyil, həm də perspektivi, xüsusən rəqibin əks reaksiyasını nəzərə almaq vacib əhəmiyyətə yiyələnir. Şahmatçı təkcə rəqibi ilə deyil, həm də özündəki zəifliklərlə, şirniklendirilmə ilə mübarizə aparmalı olur. Kronos öz övladlarını yeyən kimi, oyuna ayrılmış vaxt da, zaman ölçüsü də şahmatçının əsəblərini didib-dağıtmaqla məşğul olur. Çünki müəyyən zaman müddətində o, bütün əqli imkanlarını, biliyini, öyrəndiyi xəzinədən nəyə müraciət etməyi səfərbərliyə almalı, ilk gedişdən tutmuş son qələbə və ya məğlubiyyət anına qədər bütün ruhi gücünü tam gərginlikdə saxlamalıdır. Sayıqlığı azca itirmə daha ağır problemlər əmələ gətirir. Yayın dartılma səviyyəsi onun hədəfə dəyməsinə şərait yaratdığı kimi, şahmatçı da mahir oxatan tək bütün diqqətini oyunun inkişafına yönəltməlidir. Burada onun müşahidə etmə, seçim etmə qabiliyyəti ağılın, iradənin hökmranlığına tabe olur və ya onlar qarşılıqlı qaydada bir-birinə təsir göstərirlər. Bu simbioz şahmatçının nəyə qadir olduğunu göstərir.

Şahmatdakı mübarizə elmi və məntiqi dayaqlara əsaslanır. Hər iki tərəf partiyanın əvvəlində döyüş qüvvələri və onların dəyərlərinə görə tam bərabər vəziyyətdə olur. Şahmat ordularında yer dəyişmə və döyüşçülərin hərəkətləri eyni

qaydalara tabe olur. Beləliklə, şahmat partiyasında döyüşün nəticəsini ağılın rəqabətə davamlılığı həll edir.

Şahmat oyunun böhran vəziyyətlərində oyunçudan emosiyalara nəzarət edilməsi tələb olunur. Şahmat partiyası vaxtı oyunçu olduqca ağır emosiya yükünə məruz qalır, bu yükün təzyiqi bəzən saatlarla davam edir. Öz daxili gərginliyi ilə və özü ilə bacarmaq, arzu olunan nəticəni əldə etmək şahmatçının ən birinci və başlıca vəzifəsinə çevrilir.

Şahmat intellektual oyunlar arasında xüsusi yer tutur. Qədim Çində icad edilmiş, Yaponiyada isə daha geniş yayılmış qo oyunu ilə onu bir qədər müqayisə etmək olar. Lakin qo oyunu da dama kimi "qaniçən" oyundur, burada rəqabətin qələbə ilə başa çatması üçün rəqibin fişkaları eynilə damada olduğu kimi bütünlüklə məhv edilməlidir. Şahmatda isə qələbə üçün bütün ordunun hökmən məhv edilməsi tələb olunmur, qələbənin başlıca şərti şahın əsir götürülməsidir. Hələ fiqurların nəinki hamısı, heç xeyli hissəsi də məhv edilməmişdən şahmatın fars dilindəki mənasını bildirən "şah öldü" fazacında oyun başa çatır. Digər tərəfdən qo oyunun və ya damanın, istər bu100-xanalı, yaxud da rus daması olsun, dünyada yayılmasını şahmatın əhatə miqyası ilə heç cür müqayisə etmək olmaz. Qo və ya dama üzrə məşhur oyunçuları yalnız onların azarkeşləri və mütəxəssislər tanıyırlar, görkəmli şahmatçılar isə populyarlıqda bəlkə az sayda futbolçulara və ya boksçulara uduza bilərlər. Şekspirin Kleopatra barədə dediyi «Age cannot wither her» - «Onun gözəlliyini zaman soldura bilmir» sözlərini şahmata da aid etmək olar. Şahlar ölsə də, heç kəs şahmatın nə vaxtsa öləcəyini ağlına belə gətirmir.

Şahmatdakı hökmdarın ölməsi isə onun tələyə düşməsi ilə baş verir. Persiya çarı III Daranın ölümü üçün bütün ordunun məhv edilməsi vacib olduğu halda, şahmatdakı çar bəzən ordunun gözü qarşısında öz sonluğunu tapmalı olur. Makedoniyalı Aleksandr da həyatdan gedəndə, bəzi itkilərinə baxmayaraq, ordusu heybətli bir qüvvə kimi qalırdı. Şahmatdakı hökmdar isə ya rəqibin qurduğu tələyə düşəndə, yaxud da onun taleyini həll edən oyunçunun kobud səhvinə görə vaxtından xeyli əvvəl müdafiəsiz qaldığından öz səltənəti sayılan taxtanı guya ki, tərk etmiş kimi olur. Burada həyatda olduğu kimi, təbiətin deyil, mübarizənin hökmü, son akkordu öz işini görmüş olur.

Şahmat olduqca qədim oyundur, V əsrdən gec olmayaraq, güman edildiyi kimi, Hindistanda meydana gəlmişdir. Bəzi tarixçilər onun yaranma dövrünü VI əsr hesab edirlər. Həmin ölkədə ona çaturanqa deyirdilər, bu da «çatur» - «dörd» və «anqa» - «dəstə» sözlərinin birləşməsindən ibarət idi. Həmin oyun sonralar çox inkişaf edən şahmatın rüşeymi idi. Bu oyun Hindistandan Persiyaya, oradan isə Persiya

imperiyasını işğal edən müsəlman ərəblərə keçmişdi. Müsəlmanlar İspaniyanı işğal etdikdə, oyun bu ölkəyə gətirilmiş, oradan isə əsasən Avropanın qərbinə, bizanslılar vasitəsilə isə qitənin digər hissələrinə yayılmışdır. «Min bir gecə» nağıllarının daha çox məşhurlaşdırdığı VIII əsrin sonu, IX əsrin əvvəllərində islam xəlifəsi Harun ər-Rəşid Avropadakı Qərbin imperatoru Böyük Karla hədiyyə kimi şahmat göndərmişdi. Şahmat sonralar bütün dünyanı dolaşsa da, məhz Şərqdə yaranmışdı. Onun bir çox dillərdəki «şahmat» adı fars sözü kimi «hökmdar» mənasını verən «şah» və «ölü» mənasını verən «mat» ifadələrindən yaranmışdır. Bu oyun intellektual əyləncəyə aid olduğundan, yuxarı siniflər arasında geniş yayılmışdı, ona görə də onu həm də şah oyunu adlandırırlar.

Şahmat öz başlanğıcını Hindistandan, bəzi mülahizələrə görə isə Çindən götürür. Onun qədim formaları mövcud olmuş, bu formalardan Çin, Koreya, yapon, Malay və Birma şahmatları kimi geniş müxtəlif variantlar meydana gəlmişdir. Avropada yayıldıqdan xeyli sonra bu oyun həmçinin öz himayəçisi olan ilahəyə və ya şahmat muzası olan Kaissaya yiyələnənmişdir. Hər şeydə dəqiqlik axtaranlar qoy tarixə elmin və incəsənətin himayəçiləri kimi məlum olan doqquz muza arasında onu axtarmasınlar. Bu ilahənin və ya muzanın adı ilk dəfə 1763-cü ildə ingilis şairi ser Uilyam Consun şeirində səslənmişdir.

Şahmat iki oyunçu arasında oynanılan oyundur. Onlar bu vaxt şahmat taxtasından və fiqurlardan istifadə edirlər. Hər oyunçu müəyyən olunmuş məhdudiyyətlər daxilində və pozulmaz qaydalara uyğun olaraq fiqur tipini hərəkət etdirməklə, rəqibin ən mühüm fiquru olan şahı elə vəziyyətə salmaq istəyir ki, orada məhz əsir düşməkdən, mat olmaqdan qaçmaq heç cür mümkün deyildir.

Şahmat taxtası üzərindəki mübarizə müharibə logistikasına və davranılşalarına bənzəyir. Şahmatın hücum və mübarizə fiqurları rəqib şahı mühasirəyə salmaq məqsədini güdür. Buna baxmayaraq, oyun çox vaxt məhdud müharibə gedişlərini nümayiş etdirir. Ziqmund Freydin təbiri ilə deyilsə, bunun sublimasiyası aqressiv impulsdan ibarətdir. Daha çox isə oyun, onun sehrliliyi hind simvolizmini və digər alleqoriya elementlərini daşıyır.

Şahmat taxtası səkkiz üfüqi və şaquli xətdəki 64 kvadrat xanadan ibarətdir. Onlar növbəli qaydada ağ və qara rəngdə olurlar. Müqayisə üçün qeyd etmək lazımdır ki, qo taxtasında 19 şaquli və 19 üfüqi xətdə 361 xana, damada 100 xana, rus damasında isə 64 xana vardır. Şahmatda şaquli sıralar xətt adlanmaqla, bütün taxta boyu ötüb keçən, eyni rəngdə olan diaqonalları əmələ gətirir. Oyunçular və ya rəqiblər oyuna hansı rəngdə başlamasından asılı olaraq «ağlar» və «qaralar» adlanırlar. Oyunçular bir-birilə üz-üzə oturduğundan, hər bir oyunçu öz sağ qolu altında ağ künc

xanaya malik olur. Ağ piyadalar elə bil ki, yuxarıya doğru hərəkət edirsə, qara piyadalar da müvafiq olaraq aşağıya doğru hərəkət edir.

Hər bir rəqib 16 fiqura malik olur, biri açıq rəngdə olmaqla ağ tərəf hesab olunur, digəri, qara rəngdə başlayan isə qara tərəf hesab olunur. Bu fiqurlar dəstəsinin hər ikisi bir-birilə üz-üzə yerləşmişdir, vuruşmağa hazır olan iki düşmən qoşununu xatırladırlar. Birinci cərgədə o fiqurlar yerləşir ki, onlar özlərinin beş növü ilə bir-birindən fərqlənirlər. Şah, vəzir, top, fil, at adlanan bu fiqurların qarşısındakılar ikinci dəstəni əmələ gətirir və piyadalar adlanırlar. Onların da sayı səkkizdir. Beş fiqurdan ikisi - şah və vəzir təkdirlər, top, fil və at isə cüt saydadır. İkimənalılıqdan qaçmaq üçün iri fiqurlar və piyadalar birlikdə bəzi hallarda maddi qüvvə kimi qəbul olunurlar.

Ser Uilyam Cons Kaissanı yaratmaqla yanaşı, özünün «Hind oyunu olan şahmat haqqında» essesində Hindistanın şahmatın beşiyi olduğu barədəki ideyanı müdafiə edir. Göstərir ki,

həmin oyun qədim dövrlərdən çaturanqa adı ilə məşhur idi. Bu sözün mənalandığı dörd ordu hissələri - fillər, atlar, arabalar və piyada əsgərlər olmaqla qədim hind eposunun tərcüməsindən götürülmüşdü. O, sübut etməyə çalışırdı ki, çaturanqa bizim eranın VI əsrində bir oyun kimi Persiyada tətbiq edilmiş və oradan Şartanc (və ya şirtanc) adı altında Ərəb ərazilərinə yayılmışdır. «Şatranc» sanskrit dilindəki «dörd» mənasını verən «şatr» və «dəstə» mənasını verən «anqa» sözlərinin birləşməsindən ibarət idi. Hind mistitsizminə görə «şatranc» kainatı, onun dörd tərəfi isə Yerin dörd elementini - torpağı, havanı, odu və suyu, həmçinin dörd mövsümü təmsil edir.

H.Marrey isə özünün «Şahmatın tarixi» əsərində belə bir nəticəyə gəlir ki, şahmat hind oyununun törəməsi olub, Qərbdə VII əsrdən yayılmağa başlamışdır. Onun versiyasına belə bir hipoteza da əlavə olunur ki, şahmatın başlanğıcına, quruluşuna və cazibədarlığına qədim simvolizmin müəyyən elementlərinin xüsusiyyətləri uyğun gəlir. Şahmatın inkişafı genetik olaraq qədim dövrlərin gizli sirləri və dini ritualları ilə birləşir. Şahmatçıların seçimi və şahmat hərəkatı kosmik elementlərlə də əlaqələndirilir və hətta belə bir fikir də irəli sürülür ki, adamların şahmat taxtası arxasında oynaması həm də astronomiyaya və kainata müəyyən işarədir.

Sehrli xanalardakı şahmat hərəkətləri və bəzi cəngavər («at» fiquru ingilis dilində knight - «rıtsar», yəni «atlı» deməkdir, çünki avropalı rıtsar - cəngavər yalnız at üstündə güclü, qüdrətli döyüşçüyə çevrilirdi, piyada olduqda isə 40 kiloqramlıq ağır zirehli paltarda hətta yeriməyə çətinlik çəkirdi) səfərləri elə vəziyyət yaradır ki, burada rıtsarlar («atlar») taxta üzərində hər bir xanaya toxunmaqla dövr edirlər. Bütün bu simvollar şahmat kimi stolüstü oyunlardan müharibə meydanına keçmişdi.

Alleqorik qaydada olan çox sayda pritçalar - ibrətamiz hekayətlər və metaforalar əsrlər ərzində şahmat sirlərinə cəlb olunurdu və şahmat motivləri ikonaqrafiyada xüsusi cazibədarlıq yaradırdı.

Bu mürəkkəb oyun müsəlmanlar vasitəsilə ispanlara, bizanslılar tərəfindən isə italyanlara keçmişdir. Bundan sonra isə Avropanın içərilərinə ayaq açmışdı. Oyun tezliklə kübarlığın ən sevimli əyləncəsinə çevrildi. Şahmat populyarlaşdıqca və küçələrdə xalqın içərisinə çıxdıqca müsəlman və xristian kilsələrinin müqaviməti ilə qarşılaşdı. Axı ruhanilər heç vaxt yeniliyi, xüsusən biliklə, elmlə əlaqədar olan yeniliyi müsbət qarşılamırdılar, ona qadağa qoymağa çalışırdılar. Yeni Dünyadan - Amerikalardan gətirilən və tanış olmayan ərzaq bitkilərinin adlarının Bibliyada çəkilmədiyini əsas götürərək xristian kilsəsi onların istehlakına, əkilib-becərilməsinə, məhsul istehsalına zidd çıxırdı. İnsanlar kütləvi şəkildə aclıqdan əziyyət çəksə də olar, təki dini ehkamlara xələl gəlməsin. Ona görə də dinlər bu dəfə də iti silahları olan qadağalara əl atmaq yolunu tuturdu.

Şahmat Avropaya daxil olduqdan sonra oyunun qaydaları, gedişləri və qanunları mühüm dəyişikliklərə məruz qaldı və oyun prosesi xeyli sürətləndi. «Vəzir» öz adını, cinsini və qüdrətini dəyişdirməli oldu. Şatrancda bu fiqur «farz» və ya «firz» adlanırdı. Bu da «müşavir» və ya «general», qədimdə isə «nazir» mənasını verirdi. Bu mənalar da Azərbaycan dilindəki «vəzir» termininin mahiyyətinə daha yaxındır. Rus dilində isə bu fiquru qədim adına yaxın olan «ferz» adlandırırlar. Fransızlar bu sözü «fierse», «fierce» və ya «vierce» («bakirə») kimi, dəyişdirdilər, bu isə onun qadın cinsinə aid olduğunu bildirirdi. Ona görə də bəzi Avropa dillərində bu fiqura əsasən «kraliça» deyilir. İngilis dilində bu söz «queen» kimi səslənir.

Digər bir dəyişiklik də ondan ibarət idi ki, köhnə piyada səkkizinci xəttə çatdıqda, onun qiyməti yüksəlir və farza («vəzirə») çevrilirdi. Başqa heç bir fiqur isə buna qadir deyildi. Beləliklə, piyada sonrakı yüksək rütbəli xanıma və ya kraliçaya - queen-ə çevrilirdi. Məhz həmin vaxtdan da «vəzir» fiquru dama (nəcib qadın), donna və başqa dillərdəki buna bənzər qaydada adlanmağa başladı.

Şah keçmişdə yalnız iki diaqonal xətdə hərəkət edə bilərdi, bu vaxt isə artıq hər tərəfə bir xana irəli və geri, həmçinin yana addımlaya bilərdi. Nəticədə, şah taxta üzərində ən zəif fiqura çevrildi, çünki hərəkət etməyə qadir olduğu kimi ona həmin səkkiz istiqamətdən də həmlə gələ bilərdi.

Fil əgər diaqonalla cəmi iki xana hərəkət edə bilərdisə, bu vaxt artıq bütöv diaqonal boyu gediş edə bilərdi. Persiyalılar arasında bu fiqur «pil» adlanırdı, bu isə «fil» demək idi. Ərəblər isə öz əlifbalarında «p» hərfi olmadığından, onu «fil» kimi və öz artikulları ilə «al-fil» kimi yazırdılar. Azərbaycan dilində həmin fiqur «fil», rus

dilində isə bu mənanı verən «slon» adlanır. Bu fiqur komandada sonra gələn olmaqla «müşavirə» və ya «nazirə» (vəzirə) kömək edən bir qüvvə idi. Şimali Avropada və İngiltərədə isə həmin fiqur «yepiskop» (bishop) termini ilə adlanır.
Top dəyirmi formasının əksinə olaraq, hind arabalarının dəyişmiş formasını əks etdirirdi, ordunun cinahlarını qorumalı idi.

Şah istənilən istiqamətdə eyni vaxtda yalnız bir xana üzrə gediş edir. Vəzir, top və fil uzun xətli fiqurlardır, taxtanın üstündə hər bir istiqamətdə, heç bir uzunluq məhdudiyyəti olmadan istənilən məsafəni qət edə bilirlər. Top şaquli və üfüqi qaydada hərəkət edir, fil isə yalnız diaqonallarla hərəkət edir, ona görə də xanasının rəngini dəyişə bilmir. Vəzir özündə elə bil ki, topun və filin gücünü birləşdirdiyindən istənilən açıq xətlə hərəkət edir. Atın gedişi xüsusi L formasındakı hərəkətdən ibarətdir, eyni vaxtda şaquli iki xananın üstündən hərəkət edir və bir xana üzrə üfüqi qaydada sola və ya sağa burulur. Qara və ya ağ fiqurun üstündən belə tullanmaqla onların arasındakı istənilən xananı işğal edə bilir. Əsir götürmüş piyadadan fərqli olaraq istənilən fiqur gediş etdiyi eyni yolla hərəkət edir. O xanada dayanmış düşmən fiqurunu əsir götürə bilər, bunun üçün əsir götürən fiqur açıq hərəkət etməlidir.

Piyada isə fərqli xüsusiyyətlərə malikdir. Onlar yalnız irəli hərəkət edirlər və əsir götürdükdə yalnız bir addım və diaqonal gediş edirlər. Başlanğıcda piyada bir və ya iki xana hərəkət edə bilər, lakin sonra eyni vaxtda yalnız bir xana hərəkət edir. Bütün fiqurlardan yalnız piyada əvvəlki gedişindən fərqli hərəkət etməklə əsir götürür. Bu, diaqonal qaydada irəli hərəkət etməklə baş verir. Piyada ilk gedişdə iki xana da irəli gedə bilirsə, rəqib piyada onu yalnız bir xana gedişlə əsir götürə bilər. Əgər o, səkkizinci xətdəki xanaya gəlib çatsa, sahibin istəyindən asılı olaraq eyni rəngdə olan vəzirə, topa, filə və ya ata çevrilə bilər. Bu Sinderella tipli transformasiya rütbəcə böyümə, həmçinin vəzirə çevrilmə adlanır, çünki əksər hallarda ən qüdrətli fiqur olan vəzir seçilir. Əgər xüsusi səbəblərə görə, həmin vaxt daha böyük fayda verməsi nəzərə alınaraq, əvəzetmənin seçimi vəzir olmayıb, kiçik fiqurdursa, belə dəyişmə aşağı rütbə böyüməsi adlanır. Piyadanın çevrilməsi üçün hətta əsir götürülmədiyindən taxtadan uzaqlaşdırılmamış fiqur da seçilə bilər, belə ki, oyunçu iki və ya daha çox vəzirə və ya digər fiqurlara malik ola bilər. Lakin onun şaha yüksəlməsinə icazə verilmir. Deməli, piyadanın yüksəlməsi də öz həddinə malikdir.

Şah və top qalaqurma gedişi edə bilərlər. Ümumiyyətlə, oyunda bu, yalnız bir dəfə icra edilir. Bu şahın topa doğru iki xana irəli getməsi ilə həyata keçirilir və sonra top şahın üstündən keçib, sonrakı xanada yerləşir. Hər bir top qalaqurma üçün istifadə oluna bilər. Gediş o vaxt qanuni sayılır ki, nə şah, nə də top öz başlanğıc xanalarından

hələ uzaqlaşmamışdır, həm də əgər onların arasındakı bütün xanalar boşdursa və şaha rəqibin fiqurlarının gedişi ilə hansısa bir əsir götürülmə təhlükəsi yoxdursa.

Şimali və Cənubi Amerikalarda, Böyük Britaniyada və İberiya yarımadasında hər xana öz fərdi əlamətinə malikdir, ağ və qara tərəfdən şahmat taxtası fərqli görünür. Şah və vəzir tərəflərində olan böyük fiqurlar onlara məxsus olan qaydada adlanır. Məsələn, şahın topu, fili və atı və ya vəzirin topu, fili və atı.

Fiqurların dəyər dərəcəsinə gəldikdə, döyüşən qüvvə kimi piyadanınkı 1 kimi qəbul olunur, digər fiqurların döyüş qüvvəsi isə təqribən belədir: at - 3, fil - 3, top - 5, vəzir - 9. At və fil çox vaxt bərabər sayılır, iki fil adətən iki atdan güclü hesab edilir. Bu miqyas maddi bərabərlik ölçüsü kimi qəbul edilir, bərabər olmayan fiqurların əsir götürülməsi ilə dəyişdirilməsi bu bərabərliyi pozur və bu vəziyyət, potensial qaydada nəticənin son həllini verməyə qadir olur. Taktiki hesablamalar isə çox vaxt mücərrəd qiyməti təkzib edir və maddi qüvvənin qurban verilməsi, çox hallarda uzunmüddətli mövqe üstünlüyü verir. Oyun davranışı, beləliklə, həll üstündə ağıl vuruşunda kəmiyyət və keyfiyyətin qarşılıqlı münasibəti mövzusuna çevrilir.

Oyun düşmən şahının əsir götürülməsi ilə udulur. Şahı əsir götürmək təhlükəsi şah elan etmək adlanır. Şahın əsir götürülməsi heç vaxt icra edilmir və simvolik olaraq, şah taxta üzərində qalır. Şaha hücum edildikdə və ya «şah» elan edildikdə və bu hücumdan heç bir vəchlə qaçmaq mümkün olmadıqda, bu vaxt «mat» elan olunur və oyun başa çatır. Çox hallarda məğlubiyyətdən qaçmaq əvvəlcədən mümkün olmadıqda oyunu davam etdirməkdən imtina edilməsi - məğlubiyyətin etiraf edilməsi ilə oyunun başa çatdığı bildirilir.

Ümumiyyətlə, oyun aşağıdakı səbəblərə görə başa çatır: 1) oyunçular mat verməyə qadir olmadıqda; 2) daim şah elan edildikdə; 3) eyni oyunçu gediş etdikdə mövqeyi üç dəfə təkrar etdikdə; 4) maddi mübadilənin yoxluğu vaxtı və ya 50 gediş ardıcıllığı içərisində istənilən piyada hərəkət edirsə, müəyyən istisnalarla əgər oyun başa çatmamışdan əvvəl səlahiyyətini itirmişdirsə; 5) pat vəziyyəti olduqda – bu vaxt oyunçu öz şahına «şah» elan edilmədiyindən qanuni hərəkət edə bilmədikdə və ya 6) oyunçular qarşılıqlı razılığa gəldikdə, baxmayaraq ki, bəzi hallarda hakim özü bunu onlara təklif edir.

Oyun əsasən üç hissəyə – başlanğıca (debütə), oyunun ortasına (mittelşpilə) və son hissəyə (endşpilə) bölünür. Başlanğıc səhnəsində ilk gediş edilməklə, qüvvələri daha çox səfərbərliyə almaq məqsədini güdür ki, nəzərdə tutulan hücumu həyata keçirməkdə onların səyləri əlaqələndirsin. Bu vaxt həm də öz şahının təhlükəsiz mövqedə olmasına çalışılır və əvvəlcədən öz müdafiəsi üçün kompromissə gedilməsi də nəzərdə tutulur. Ağların seçiminə və sonrakı gedişlərinə qaralar variantlarla,

xətlərlə, hücumlarla – müdafiələr adlanan fərqli nümunələrlə cavab verir. Onların seçdikləri kurs şahmatda istifadə olunan giriş nəzəriyyəsinə uyğun gəlir və onlar bu tətbiq qaydasına görə müxtəlif terminlərlə adlanırlar: məsələn, Siciliya müdafiəsi, Karo-kann müdafiəsi, hind müdafiəsi və s. Xüsusi girişin seçilməsi əvvəlki təcrübələrə, həm də dəblərə əsaslanır və bu, oyunun ortası üçün strateji əhəmiyyət daşıyır.

Oyunun ortasında rəqiblər maddi qüvvələri səfərbərliyə almağı başa çatdırdıqda, qalibiyyət strategiyasını seçə bilərlər. Bu faza oyunun ən dinamik mərhələsi hesab olunur. Taktika və strategiya elementilərindən istifadə və kombinasiyaların həyata keçirilməsi ilə qarşıya qoyulan praktiki niyyətlərə cəhd edilir.

Oyunun final fazasına o vaxt daxil olunur ki, artıq kombinasiya hücumları nəticəsində fiqurlar xeyli azalmış olur. Oyunçu piyadasının çoxluğuna xüsusi qənaətcilliklə yanaşır və ya qələbəyə nail olmaq üçün məkanda böyük üstünlüyə malik olur. Bəzən isə uduzulan oyun ağıllı qaydada müdafiə olunmaq vasitəsi ilə heç-heçəyə gəlib çıxa bilər. Bu həmin fazadır ki, onda şah çox aktiv rol oynaya bilər, özünü müdafiəsi üçün olan qüvvələrə rəğmən, həm də öz uğurlu gedişlərinə bel bağlamalı olur.

Əgər oyunçu «Mən fiqurları düzəldirəm» sözlərini deyib, xəbərdarlıq etməyibsə, əli dəydiyi fiqur hökmən ya oynanılmalı, ya da əsir götürülməlidir. Həm də başa çatmış gediş geri qaytarıla bilməz.

Turnir oyunlarında hər bir oyunçu verilən müəyyən vaxt ərzində qaydaya uyğun sayda gediş etməlidir. Bu əvvəlcədən razılaşdırılır və bu zaman kəsimi vaxt limiti adlanır. Əgər oyun, bağlanmış şərtə görə olan vaxt ərzində başa çatmırsa, təxirə salınır. Vaxt limiti çərçivəsinə əməl etməyən oyunçu məğlub hesab edilir.

Əlbəttə, müasir şahmatçılar həm də bu peşələri ilə maddi vəziyyətlərini qaydaya salır, bəziləri isə hətta var-dövlətə yiyələnirlər. Lakin keçmişin ən görkəmli şahmatçıları, hətta bəzi dünya çempionları da heç də maddi cəhətdən yaxşı vəziyyətdə olmurdular. İlk dünya çempionu olan Vilhelm Steynits 1900-cü ildə Nyu-Yorkda ölərkən kasıb, səfil həyatı sürürdü.

Şahmat bir sıra görkəmli dövlət xadimlərinin, sərkərdələrin, siyasətçilərin də diqqətini cəlb edirdi. Mərkəzi Asiyada Çingiz xandan sonra ikinci nəhəng imperiya yaratmış Əmir Teymur (Teymurləng və ya Tamerlan) savadsız olsa da, yaxşı şahmat oynayırdı. Amerika Birləşmiş Ştatlarının məşhur prezidentləri olan Corc Vaşinqton və Abraham Linkoln da şahmatçı idilər. Prussiya kralı Böyük Fridrix filosof Volterlə məktubla şahmat oynayırdı. Rusiya imperatriçəsi Böyük Yekaterina da şahmata həvəs

göstərirdi. Fransa inqilabının rəhbərləri Marat və Robespyer şahmata fanatikcəsinə vurulmuşdular. Napoleon güclü oyunçu olmasa da, şahmatın həvəskarı idi. Görkəmli inqilabi nəzəriyyəçilər və praktiklər olan Marks, Lenin, Mahatma Qandi, Stalin də yaxşı oyun nümayiş etdirirdilər. Böyük rus şairi A. S. Puşkin həyatının sonuna qədər şahmata ciddi maraq göstərmişdi, "Yevgeni Onegin" poemasında da şahmat oyununu təsvir etmişdi. Özünün son partiyasını o, knyaz Meşşerskinin evində qonaq olarkən ölümünə səbəb olan faciəli duel ərəfəsində oynamışdı. Müasir dövlət xadimlərindən Fidel Kastro və Barak Obama da həvəskar şahmatçılardır.

Görkəmli amerikan inqilabçısı və alimi Bencamin Franklin isə Şimali Amerikada şahmatın populyarlaşmasında böyük rol oynamışdı. Onun 1786-cı ildə çapdan çıxmış «Şahmatın əxlaqi cəhətləri» traktatı çox məşhur idi. Bu əsər şahmata məxsus olan professional etikanı və şahmat oynamağın tərbiyəvi dəyərini müstəsna məharətlə açıb göstərirdi.

XX əsr - şahmat əsri kimi

Şahmat üzrə ilk dünya çempionu adı hələ 1886-ci ildə verilsə də, XX əsr böyük proqress əsri olduğu kimi bu oyunun inkişafında və populyarlaşmasında da böyük rol oynamışdır. İlk dünya çempionluğu qazanan Vilhelm Steynits bu adı səkkiz il ərzində saxladığı halda, ikinci dünya çempionu olan Emmanuel Laskerin əldə etdiyi həmin fəxri titul 27 il davam etmişdir və onun iki onilliyi məhz XX əsrə təsadüf etmişdi. Bu əsrin ilk illərində Qərb yarımkürəsində «Şahmat maşını» inkişaf etməyə başladı. Havanadan olan Xose Raul Kapablanka 13 yaşında olarkən Kubanın aparıcı ustası C.Korsonu məğlub etmişdi, 1921-ci ildə isə dünya çempionluğunu Laskerdən aldı. Altı ildən sonra isə şahmat dahisi kimi meydana çıxan rusiyalı Aleksandr Alyoxin onu bu addan məhrum etdi. Alyoxin 1927-1935-ci illərdə və 1937-ci ildən 1946-cı ildəki vəfatına qədər dünya çempionu oldu, lakin həm o, həm də sonrakı böyük şahmatçılar Laskerin çempionluğunun rekord müddətini təzələyə bilmədilər. Rus şahmatçısı 1920-c illərin əvvəllərində Fransaya mühacirət etmişdi. Alyoxin həm də gözübağlı şahmat oyununda fenomenal nəticə göstərirdi. II Dünya müharibəsi illərində alman ordusunun zabitləri ilə Vyanada 52 taxtada gözübağlı oyun oynamaqla, əksəriyyətində qalib gəlmişdi.

Alyoxinin ana vətənində şahmat geniş yayılmağa başlandı. II Dünya müharibəsinə qədər Sovet İttifaqında artıq beş qrossmeyster var idi, müharibədən sonra isə ölkə dünya şahmatında aparıcı mövqeyə çıxdı. Sovet qrossmeysterləri yarım

əsrə yaxın bir müddətdə dünya çempionu adını qazandılar. Alyoxinin ölümündən iki il sonra, 1948-ci ildə beş aparıcı şahmatçının iştirakı ilə keçirilən turnirdə Mixail Botvinnik dünya çempionu oldu və bu ənənə dörd onillik ərzində pozulmadı. 1970-ci ildə dünyanın qalan hissəsinin şahmatçıları ilə SSRİ komandası arasında Belqradda keçirilən yarışda Sovet şahmatçıları 20,5:19,5 hesabı ilə qalib gəldi. Hər komandadan rəqib oyunçu öz rəqibinə qarşı 4 oyun oynamalı idi. Lakin matçın qəhrəmanı gənc amerikan qrossmeysteri Robert Fişer oldu. O, keçmiş dünya çempionu Tiqran Petrosyanı 3:1 hesabı ilə uddu.

20 yaşlı Robert Fişer 1963-cü ildəki ABŞ çempionatında özü də daxil olmaqla 12 iştirakçı arasında 11 mümkün uduş xalından 11-ni qazanmışdı. O, 1970-ci ildə Zaqrebdə, Palmada və Buenos-Ayresdə dünyanın aparıcı oyunçularının iştirakı ilə keçirilən turnirlərdə də oyunları böyük üstünlüklə başa vurmuşdu. Bu, onun şahmat üzrə dünya çempionluğuna irəliləməsinin təzahürü idi. O, 1971-ci ildə SSRİ-dən olan qrossmeyster Mark Taymanovu 6:0 hesabı ilə, danimarkalı Bent Larseni də eyni nəticə ilə uddu. Petrosyana qarşı final iddiaçı matçını 6,5:2,5 nisbəti ilə başa çatdırdı. Bu oyun 1971-ci ildə Buenos-Ayresdə keçirilirdi, şəhərin erməni sakinləri Fişeri çaşdırmaq üçün salonda hay-küy salır, ona təsir göstərməyə çalışırdılar. Lakin bu canfəşanlıq fayda vermədi, kumirləri saydıqları keçmiş dünya çempionu hələ bu ada iddiaçı olmağa cəhd edən amerikan şahmatçısına ona şərəf gətirməyən bir hesabla uduzdu. Bu qələbə artıq dünya çempionunun özünə onun meydan oxumasına yol açırdı. İslandiyanın paytaxtı Reykyavikdə 1972-ci ildə dünya çempionu Boris Spasski ilə keçirilən matçda 12,5:8,5 hesabı ilə qalib gələn Fişer bu adı ondan aldı. Matç nəzərdə tutulandan üç oyun az olmaqla başa çatmışdı, Fişer 7 oyunu udmuş, 11 oyun isə heç-heçə başa çatmışdı. Spasskinin isə 3 qələbə xalı var idi. Bunlardan biri rəqibinə cərimə şəklində ona verilmişdi.

Şahmat oyunundakı dolambaclar Fişeri dünyada ən məşhur adama çevirdi. Hətta Cpasski də Fişerin dühasına böyük ehtiram göstərərək, onun altıncı partiyadakı qələbəsinə salondakılarla birlikdə əl çaldı. Bu jest general Baqrationun 1812-ci ildəki Borodino döyüşündə güllə yağışı altinda ölümdən qorxmadan təpəyə dırmaşan fransız döyüşçülərini "Əhsən, fransızlar" deyə alqışladığını yada salır. General igid adam olduğundan, yadların da rəşadətini qiymətləndirməyi bacarmışdı. Spasski də rəqibinin şahmat məharətinə biganə qalmamışdı. Rus şahmatçısı bənzərsiz oyunçu olsa da, amerikalı bu vaxt həqiqi dahi olduğunu göstərmişdi.. Fişer yüksək kreativliyə və dühaya malik olmaqla çoxlarla insanı şahmat vasitəsilə ilhamlandırdı.

Heç şübhəsiz, Fişer Sovetlərin şahmat nüfuzuna ağır zərbə vurmuşdu. Lakin həmin ölkənin şahmatdakı bu uğursuzluğu uzun çəkmədi və Fişerin əllaməlikləri buna

şərait yartmağa kömək etdi. O, öz titulunu qoruyub saxlamaqdan əslində imtina etdikdə, meydana yenidən sovet şahmatçıları çıxdı. FIDE ilə uzun sürən danışıqlardan sonra Fişer iddiaçı ilə oynamaqdan imtina etdi. 1973-cü ildə Anatoli Karpov iddiaçıların final matçında V. Korçnoyu məğlub etmişdi. Ona görə də 1975-ci ildə FİDE prezidenti Maks Eyve Karpovu dünya çempionu elan etdi. Sonrakı turnirlərdə Karpov bu şərəfə layiq olduğunu öz yüksək nəticələri ilə təsdiq etdi. 1978 və 1981-ci illərdə Karpov Baqioda və Meranoda keçirilən matçlarda Korçnoyu məğlub edib, öz ali titulunu qoruyub saxladı. On il ərzində o, dünya şahmat aləmində ən nüfzlu idmançıya çevrildi və ona layiqli rəqabət göstərən bir adam yox idi.

Əlbəttə, SSRİ-də şahmat çox geniş yayılmışdı və bu kütləvilik yeni istedadların meydana çıxmasına şərait yaratdı. Sovet Şahmat Federasiyası ilə digər ölkələrin federasiyaları arasında dərin uçurum var idi. Sovet İttifaqında əgər federasiya 3,2 milyon nəfəri birləşdirirdisə, həmin vaxt Birləşmiş Ştatlarda federasiyanın 15 min, Böyük Britaniyada isə 8 min üzvü var idi. Qərbi Almaniyada üzvlərin sayı 1970-ci illərdə 50 min, Niderlandda isə 16 min nəfər idi. Mübaliğəsiz demək lazımdır ki, SSRİ-də şahmat milli idman növü idi. Burada sadə adamlar şahmat oyunun anadangəlmə gözəlliyini qiymətləndirə və başa düşə bilirdi.

Yəqin ki, heç kəs belə bir faktı inkar edə bilməz ki, ümumiyyətlə, XX əsrdə idman böyük cazibə qüvvəsinə və bunun nəticəsi kimi kütləviliyə yiyələndi. Professional idmanda isə ad-san qazanmaq heç də asan məsələ deyildir, bu, adətən böyük istedadın, ağır zəhmətin, güclü ağılın, dözümlülüyün və iradənin, bəzən isə bəxti gətirmənin nəticəsi kimi meydana çıxır. İdman növlərində «yüngül» (yüngül atletika), «bədii» (bədii gimnastika) sözləri işlənsə də, bu sözlər adətən onun zahiri, fərqli görüşünü bildirir, onun zirvəsinə yüksəlməkdə heç bir yüngül yol yoxdur.
İdman həyatı ağır sınaqları, cana doyduran məşqləri ilə romantikadan da çox uzaqdır. Hər bir idman növü özünə məxsus olan ağır yükə, bədəni və bəzən ruhu da taqətdən salan zəhmətə dözməyi tələb edir. İdmançılar daim bir alətdə çalmaqdan yorulmayan, bu yolla sənətkarlığını artıran, virtuozluğa yiyələnməyə çalışan musiqiçiləri xatırladırlar. İdman insanda yeni fiziki və əqli imkanlar açır, əsasən yüksək əxlaqi keyfiyyətlər formalaşdırır.

Yuxarı sinfə məxsus olan gənclər bir qayda olaraq idmana maraq göstərmir, ən yaxşı halda bodibildinqlə - bədəni göz oxşayan formaya salmaq növünə üstünlük verirlər. Ona görə də idmançı karyerası onlar üçün əsasən yaddır, bu kastanın nümayəndələri daha çox qladiator oyunlarından həzz alan qədim romalılar kimi idman tamaşalarını bir əyləncə növü hesab edir, onlara yalnız bu nöqteyi-nəzərdən maraq göstərirlər. Qladiatorun vəhşi heyvan və ya rəqibi tərəfindən parçalanması da

tamaşaçılarda heç bir mərhəmət hissi doğurmurdu, axı onlar qan axıdılmasına tamaşa etməkdən həzz alırdılar. Professional idmandan yuxarı dairələr, dövlət rəhbərləri öz ölkəsinin təbliğatı, reklamı üçün istifadə edirlər. İdmanın inkişafı ümumi inkişafın bir, özü də xüsusi qiymətə sahib olan cəhəti kimi nümayiş etdirilir. Beləliklə, idman cəmiyyət üçün vitrin şüşəsi rolunu oynayır.

Həyatın digər sahələrində uğur qazanmağa ümid bəsləməyənlər idmana daha çox maraq göstərirlər, ona özlərinin yaşayışı üçün bolluq yaradan «Amalteya buynuzu» kimi baxırlar və bəzən bu ümidlərində heç də yanılmırlar. Cek London özünün «Meksikalı» hekayəsində haqlı olaraq qeyd edir ki, idman yalnız kasıb, yoxsul ailələrdən olan gənclərin qismətidir. İmkansız ailələrin uşaqları yoxsulluq qurşağının amansız boğmasından qurtulmaq üçün idmanın hansısa bir növü ilə məşğul olmağı seçir. Bir çox hallarda bu, ona ən azı çörək qazanmaq imkanı verir, bəzən isə şan-şöhrətlə yanaşı, onu həm də varlı həyat sürməyə çatdırır. Amerikanın qara dərili boksçuları və ya basketbolçuları təkcə dünya şöhrətinə yiyələnməyib, həm də varlı adamlara çevrilmişlər.

Şahmat da rəqabət, yarış səhnəsi olduğuna görə idman növü hesab olunur, bu oyunda əsasən digər növlərdə olduğu kimi, qalib və ya məğlub müəyyən olunur. Qalib zirvəyə doğru irəliləməyə başlayır, istedadı ilə yanaşı, zəhməti, nəzəriyyəni yaxşı bilməsi ilə, dünyanın qabaqcıl şahmat təcrübəsinə yiyələnməklə daha böyük nailiyyətlərə imza ata bilir.

Şahmat həm də olduqca mürəkkəb oyundur, müharibədə hər qoşun növünün öz vəzifəsi və başqaları ilə öz hərəkətini əlaqələndirmə qabiliyyəti olduğu kimi, burada da piyadaların və böyük fiqurların funksiyaları, vəzifələri, hücum və müdafiə olunmaq variantları vardır. Strateji məqsəd isə aydındır - qalib gəlmək və mümkün olduqca məğlubiyyətdən yayınmaq. Tətbiq edilən taktiki gedişlər də məhz bu məqsədə xidmət etməlidir. Çin filosofu Sun-Tszının qeyd etdiyi kimi, «strategiyasız taktika - ancaq məğlubiyyətdən əvvəlki hay-küydür».

Şahmatda yeganə bir demokratik qayda da mövcuddur, sağ qalıb səkkizinci xəttə çıxan piyada vəzir səlahiyyətlərinə yiyələnə bilir. Bu qədim çinlilərin meritokratiyasını - əyalətdən olan sadə adamın uğurlu imtahanlardan sonra imperator sarayında vəzifə tutmasını yada salır. Lakin orduda sıravi əsgər nadir hallarda rütbəcə böyüyüb, generala çevrildiyi kimi, şahmatda da bu çevrilmə olduqca az hallarda baş verir. Sıravi əsgər kimi piyadanın da xoşbəxt aqibətinə heç də addımbaşı rast gəlinmir.

Şahmat ağıl, iradə, dözümlülük, bəlkə də bir qədər müsəlmansayağı deyilsə, özünü doğruldan səbir tələb edir. Müdafiə imkanlarını hazırlamadan, bu vacib cəhətə

qayğı göstərmədən hücuma atılma ehtirası uzun müddət davam edə bilmir, bir qədər sonra isə kəskin müqavimət nəticəsində sönür. Çünki zəif müdafiə hücuma keçən oyunçu üçün «Axilles dabanı» rolunu oynayır. Rəqib bu zəif mövqedən agah olduqda, əlverişli vəziyyət onun müşahidəsindən yayınmadıqda əks-hücuma keçmək fürsətini əldən vermir. Beləliklə, nəinki əvvəlki hücum qızğınlığından əsər-əlamət qalmır, həm də rəqib oyunun davamını öz xeyrinə dəyişərək, ən azı strateji və ya psixoloji üstünlüyə yiyələnir.

Müharibədəki döyüş taktika və strategiyanın uğurlu sintezindən asılı olduğu kimi, şahmatdakı döyüş də özünün kiçik və iri planlarından xali deyildir. Oyunçu geniş nəzəri və təcrübi diapazona malikdirsə, oyun səhnəsində rəqibin hər gedişindən sonra qarşıdakı pozitiv perspektivi və həm də təhlükələri bütünlüklə nəzərə almaqla yanaşı, özünün hərtərəfli həmlə imkanlarını da yaddan çıxarmır. Şahmatda bilik, yaddaş, gözlənilməz gedişi etmək bacarığı mühüm rol oynayır. Bu gediş rəqibi çaşdırmağa xidmət etməlidir. Həm də rəqibin tətbiq etdiyi yeniliyə, tanış olmayan gedişə cavab tapmaqda xüsusi qabiliyyət nümayiş etdirməli, yeni çağırışı mərdliklə qəbul etməyi bacarmalıdır. Şahmat kombinasiya bacarığı tələb edən oyundur, burada kombinasiya oyunun inkişafında gözlənilməyən yeni üfüqlər açır. Bilik, təcrübə qalxan rolunda çıxış edirsə, cəsarət, təklif olunan labirintdən çıxış yolu tapmaq bacarığı, öz cəbbəxanasında olan «Ariadna sapı» daha böyük əhəmiyyət qazanır.

Şahmatçının oyun boyu çəkdiyi zəhmət, əsəb gərginliyi ölçüyəsığmazdır, bunu məşhur ingilis zooloqu Cerald Darrelin «Kenquru balası» əsərindəki bir oxşar mənzərə ilə müqayisə etmək olar. Müəllif Avstraliyada kenqurunun bala doğmasını müşahidə edib, bunu ustalıqla qələmə almışdır. İri heyvan olan dişi kenquru olduqca kiçik - kibrit qutusu boyda bir bala doğur və o quş yumurtasından çıxan ətcəbalanı yada salır. Bu kiçik varlıq dünyaya gələn kimi, acından ölməmək, öz həyatını hifz etmək üçün ölüm-dirim mübarizəsi aparmalı olur. O, tez qaydada anasının kisəsində olan məməsini əmmək üçün, cod tüklərin arası ilə qala timsallı o kisəyə qalxmalıdır. Bu uzun yolu, özü də bədəninin az qala deşən tüklərin arası ilə qət etməlidir. Azacıq geciksə, aclığın nəticəsi olan ölüm onun yenicə başlanan həyatına bir andaca son qoyacaqdır. Böyük əziyyət hesabına, bu kiçik canlı ət parçası, nəhayət, dırmaşıb kisənin içərisinə girir və ağzı ilə anasının məməsindən elə bərk yapışır ki, nazik dodaqlarında qan əmələ gəlir. Darrel kenquru balasının bu ilk və ağır səfərini alpinistlərin Everestə dırmaşmaları, bu ən yüksək zirvəni fəth etmələri ilə müqayisə edir. O, ana kenqurunun tüklərini nəzərdə tutaraq bu körpə alpinistin iri ağacları olan meşə ilə zirvəyə yüksəlməsini qeyd edir, bu isə çılpaq qaya ilə ən iri zirvəyə dırmaşmaqdan da dəfələrlə çətin bir işdir.

Şahmatçı da kenquru balası kimi uca bir zirvəyə məlum olmayan yolla dırmaşmağa başlayır, bu vaxt o, ancaq öz ağlına, gücünə bel bağlamalıdır. Onun bu yoldakı əziyyətlərini də həmin kiçik varlığın üzləşdiyi ağır sınaqla müqayisə etmək olar. Həm də başlıca bir fərq də orasındadır ki, şahmatçıya instinkt deyil, öz ağlı və intellekti kömək göstərir.

Ümumiyyətlə, şahmat oyununda çox şeylər məlum olsa da, bu rəqabət müəyyən qaydalara və prinsiplərə əsaslansa da, hər bir oyunçu müəmmalar aləminə, sirlər dünyasına səyahət etməli olur. Bu, Kolumbun Amerikaya yollanmasını və ya Magellanın Sakit okeanı üzüb keçməsini xatırladır. Məqsəd, naviqasiya prinsipləri aydın olsa da, onlar məchulluq dünyasının ağır təsirinə məruz qaldıqlarından qeyri-adi cəsarət və fədakarlıq göstərməli oldular. Qorxaq adamdan səyahətçi, tədqiqatçı olmaz, səyahət hamını heyrətə salan igidlik, özünü fəda etməkdən qorxmamaq kimi çoxlarına möcüzəli kimi görünən xüsusiyyətlər tələb edir. Şahmat oyunu müəyyən gözə çarpan, açıq görünən mənzərələri ilə yanaşı, əslində hər gedişdən sonra dəyişən, təhlükələri getdikcə artan Terra Incognita - naməlum torpaq təsiri bağışlayır. Hər bir oyunda oyunçudan «Yeni Dünyanı» kəşf etmək, tədqiq etmək bacarığı tələb olunur. Ona görə də şahmat heç də sadəcə bir oyun olmayıb, özündə müəmmalar yükünü daşıyan ağıl sınağıdır. Bu oyun xəyalən xoşbəxtlik və həm də bədbəxtlik anlarını, variantlarını təklif edən mübarizə, «qanlı» çarpışma meydanıdır. Şah ölində qan axıdılmasa da, «şah» çağırışına cavab tapılmayanda, oyunçu nəhəng əsəb gərginliyinə, «qan verməyə» məcbur edilir.

Oyunçunun sərəncamında hər cür hərəkət etməyə qadir olan qoşun növləri - müxtəlif fiqurlar vardır, onlardan nə vaxt, necə və hansı səriştəliliklə istifadə edilməsi isə onun bilavasitə vəziyyəti analiz etmə, düzgün qiymətləndirmə və perspektivi görmək qabiliyyətindən asılıdır. Redutları möhkəm olmayanlar dəlisovluqla döyüşə atılıb, az keçməmiş məğlubiyyətlə üzləşdiyi kimi, debütdə - oyunun başlanğıcında piyadalar və ağır fiqurlar hələ lazımınca əlaqəli qaydada hərəkətə gəlib, uğur vəd edən mövqe yaratmadan, ağır fiqurlar ortaya atılıb meydan sulaması çox vaxt uğursuzluqla nəticələnir, onların mühasirəyə alınıb əsir düşməsinə və nəticədə oyunçunun maddi itki ilə üzləşməsinə səbəb olur. «Yüngül süvari» hücumu yaxşı nəticə vermir. Ona görə də yaxşı şahmatçısı mahir rəssamı xatırladır, istedadlı rəssam hansı yaxmanı harada vurmağı düzgün seçir. Bu, onun tablosuna pozulmaz harmoniya bəxş edir. Oyunçu da ixtiyarında olan qüvvələrdən ehtiyatla, ən başlıcası faydalı şəkildə istifadə etməyi bacarırsa, bu, nəticədə ona qələbə sevinci gətirir, arzuya çatmaq mümkün olmadıqda isə ən azı məğlubiyyətdən uzaqlaşmağı bacara bilir.

Şahmatda dünya çempionluğu zirvəsi

XX əsr həm də dünyanın şahmat ailəsinə çox sayda görkəmli şahmatçılar, qeyri-adi istedada malik olan ustalar bəxş etmişdir. Onların yaradıcılığı sahəsində şahmat nəzəriyyəsi və təcrübəsi xeyli zənginləşmiş və dərinləşmişdir. Uzun müddət ərzində SSRİ-də, sonra isə postsovet məkanında çox qüvvətli şahmatçılar nəsli meydana gəlmişdir. Başqa ölkələrdə də şahmat iri addımlarla inkişaf etmişdir. 1970-ci illərdə dünya çempionu olmuş amerikanın şahmatçısı Bobbi Fişer, şahmatın vətəninin yetirməsi, XXI əsrin əvvəllərində bu adı qazanan hindli Viştvanatan Anand, yeganə bolqar dünya çempionu olan Veselin Topalov və nəhayət, şahmat səmasında uzun fasilədən sonra parlayan Qütb ulduzu timsallı gənc norveçli Maqnus Karlsen öz oyunları ilə şahmat dünyasına yeni naxışlar vurmuşlar.

SSRİ-də isə 1948-ci ildə dünya çempionu adına sahib olan Mixail Botvinnik həm də dünya çempionluğu matçlarına bir dramatizm elementləri gətirmişdi. O, öz titulunu qorumaq üçün üç dəfə iddiaçılarla mübarizə aparmış, bir dəfə heç-heçə (12:12) nəticəsi ilə titulu əlindən verməmiş, iki dəfə məğlub olduqdan sonra qisas matçlarında qalib gələrək, yenidən çempionluğu özünə qaytarmışdı. Beləliklə, o, 1948-57, 1959-60 və 1961-63-cü illərdə şahmat aləminin fəxri kürsüsündə əyləşmişdi. İlk heç-heçəni 1951-ci ildə David Bronşteynlə oynamış, 1957-ci ildə Vasili Smıslova, 1960-cı ildə isə Mixail Tala uduzmuşdu, lakin sonradan onlardan titulu geri ala bilmişdi. Lakin 1963-cü ildə Tiqran Petrosyana uduzmaqla, dünya çempionluğu ilə birdəfəlik vidalaşmışdı.

23 yaşlı Mixail Talın Botvinnik üzərində qələbəsi böyük hay-küyə səbəb olmuşdu. Bu vaxtlar yeniyetməlik dövründə heç 13 yaşına çatmamış qrossmeyster tituluna yiyələnən ukraynalı şahmatçı, hazırda Rusiya bayrağı altında çıxış edən Sergey Karyagin hələ dünyaya gəlməmişdi. Botvinnik üzərində qələbə sensasiya xarakteri daşıyırdı, özü də dünya çempionunu ağlasığmayan kombinasiyalarla udması möcüzə kimi qəbul olunurdu. Mixail Tal sadəcə dünya çempionu olmadı, o, populyar qəhrəmana çevrildi. Lakin sonra o, qisas matçını uduzdu və özünün o vaxtlar anasına dediyi, ən gənc eks-çempiona çevrilməsi barədəki sözlər indiyədək təkzib olunmamışdır. Sonrakı illərdə dəfələrlə SSRİ çempionu olsa da, bir daha həmin parlaqlıqla işıq saça bilmədi. Bəlkə də ona spirtli içkiyə olan meyli öz mənfi təsirini göstərmişdi. Tiqran Petrosyan isə onun bu zəifliyini xüsusi vəchlə qeyd edir, Talın simasında alkoqolun adamı öldürməsinə inanmadığını vurğulayırdı.

Əslində isə Tal əsl şahmat passionarisi idi və özündən sonra gələn gələcək gənc dünya çempionları olan Boris Spasskiyə, Robert Fişerə, Anatoli Karpova, Qarri Kasparova və xeyli şahmat istedadlarına Edmund Hillari ilk dəfə dünyanın ən yüksək zirvəsi olan Everestə qalxmaqla digər alpinistlərə nümunə göstərdiyi kimi, şahmat zirvəsinin də gənclər tərəfindən fəth ediləcəyi şansının real mövcudluğunu nümayiş etdirdi. Çünki ona qədər şahmat aləmində yaşlı idmançılar ağalıq edirdi. Ən gənc dünya çempionu hesab edilən Kapablanka bu titula 33 yaşında yiyələnə bilmişdi. Tal isə öz qələbəsi ilə elə bil ki, qocaların inhasarına son qoymağa cəhd etdi və sonrakı gənclər bu işi birdəfəlik başa çatdırdılar və şahmat «ahılları» bir daha ali şahmat zirvəsinə yaxınlaşa bilmədilər və gənclər artıq öz inhisarlarını yaratdılar. Şahmat aləmindən təkcə yaşlı Sovet qrossmeysterləri deyil, həm də amerikan Semyuel Reşevski və argentinalı Migel Naydorf kimi patriarxlar da uzaqlaşdılar.

Şahmat öz təbiətinə görə beynəlxalq oyundur, onun məkanı bütün dünyadır. Təəssüf ki, başqa sahələrdə olduğu kimi, şahmat rəqabətinə də millətçilik, ideoloji təsirlər müdaxilə etməyə başladı. 1963-cü ildə Botvinniklə Tiqran Petrosyanın matçı başlananda Bakıda yaşayan ermənilər köhnə dünya çempionunu ələ salırdılar, hətta şahmat taxtası arxasında ördəklə («bat» erməni dilində «ördək» deməkdir, Botvinniki nəzərdə tuturdu), guya onu bir zərbə ilə əzməyə hazır olan erməni şahmatçının oynadığını təsvir edən açıqca onların arasında istehza vasitəsi kimi əl-əl gəzirdi. Qalib gələn Petrosyan az qala ermənilərin milli qəhrəmanına çevrildi. Kasparov Bakıda böyüdüyü kimi, Petrosyan da Tbilisidə boya-başa çatmışdı. Lakin bir qədər sonra o, qalib haləsini itirib, 1971-ci ildə Bobbi Fişerə heç bir müqavimət göstərə bilmədi, artıq onun öyündüyü müdafiə qalxanı da deşilib, əvvəlki qüdrətini itirmişdi.

1985-ci ildə Qarri Kasparov ilk dəfə dünya çempionu olanda bu hadisə, əlbəttə ki, onun vətəni olan Bakıda sevinc hissi ilə qarşılanmışdı. Onun şahmatçı kimi uğurlarında doğma şəhərinin, ona göstərilən qayğının payı az deyildi. Karpovla matçda isə kömək kimi hər cür vasitələrdən istifadə edilmişdi, hətta ekstrasens Tofiq Dadaşov da onun rəqibinə mənfi təsir göstərmək üçün mübarizədə kömək göstərməyə göndərilmişdi. Azərbaycanlı olan bir əyalət sakini hətta qələbə naminə dua yazdırıb, onu Kasparova verməsilə qürrələnirdi. Beynəlmiləlçiliyi ilə seçilən Bakı yeni dünya çempionuna öz doğma övladı kimi baxırdı, bu vaxt onun mənşəyi heç yada da düşmürdü. Lakin bir qədər sonra Kasparov doğulub, şahmatda ilk uğurlu addımlarını atdığı şəhərə minnətdarlıqdan çox uzaq olan münasibət göstərməyə başladı, anasının mənsub olduğu erməni millətinin marginallarının təsiri altına düşməkdən qaça bilmədi. Məhz qatı erməni millətçiləri iki qonşu xalq - azərbaycanlılarla öz xalqı arasında düşmənçilik toxumu səpmiş, bu dalğa start götürəndə yüz minlərlə

azərbaycanlıları Ermənistandan, sonra isə Qarabağdan, öz doğma və tarixi yaşayış məskənlərindən qovmuşdular. Bir milyona yaxın azərbaycanlı təcavüz nəticəsində öz ata-baba torpaqlarını itirməklə qaçqınlara və məcburi köçkünlərə çevrilmişdi. Bakıdan və digər yerlərdən ermənilərin köçməsi də erməni ekstremistlərinin iyrənc fəaliyyətinin məntiqi nəticəsi kimi meydana çıxdı. Ona görə də Kasparovun Bakı barədəki ittihamları heç bir ciddi əsasa söykənmir.

Uzun dövr ərzində iki qonşu xalq dinc və mehriban bir şəraitdə yaşamışdılar. Lakin tarixən kök salmış erməni millətçiliyi bir daha azərbaycanlılara qarşı xəyanət nümayiş etdirdi, bu xalqları müharibəyə cəlb etdi. Ermənistan hərbi qüvvələri Azərbaycan torpaqlarını işğal etdi. Xəyanət öz zəhərli bəhrələrini verdi. Bu xəyanəti, onun müəlliflərini məhkum etmək əvəzinə, onu icra edən bədnam qüvvələr tərəfinə keçmək, əslində bu xəyanətə şərik çıxmaq, bu ağır məsuliyyəti bölüşmək deməkdir. Təcavüzə məruz qalmış, öz insanpərvərlik münasibətilə ona qarşı düşmənçiliyə heç bir əsas verməyən xalqa qarşı ittiham əslində həqiqi günahkarı müdafiə etmək cəhdindən başqa bir şey deyildir. Xəyanətkarlıq isə vicdan cinayəti olmaqla ona daha sərt yanaşmağı tələb edir. Heç də təsadüfi deyil ki, böyük italyan şairi Dante xəyanətkarlığı hətta qətldən də ağır cinayət hesab edərək, özünün məşhur «İlahi komedi»yasında xəyanətkarları, satqınları cəhənnəmin doqquzuncu dövrəsində yerləşdirmişdi.

Belə deyirlər ki, erməni ilə yəhudinin qanının birləşməsindən cəhənnəm qarışığı doğulur. Kasparov da yəhudi atanın və erməni ananın övladıdır. Bədbəxtlikdən yeddi yaşında atasını itirən Qarri artıq anasının himayəsi altında böyümüş, daim onun diqtəsi altında olmuşdu. Onun xarakterindəki bəzi qüsurlar da yəqin ki, ananın təsiri ilə meydana gəlmiş və görünür, dominant xarakter almağa başlamışdı.. Erməni millətçiliyinin də zərərli təsiri özünü çox güman ki, bu mənbədən götürür.

Görkəmli şahmatçılara bu oyunun himayəçisi sayılan ilahə Kaissanın kahinləri adlandırmaq olar. Kahinlər qədim məbədlərdə dini ibadətlərin icrasına nəzarət edən ali ictimai qrup kimi gələcək din xadimlərinin prototipləri idilər. Onlar böyük nüfuz sahibliyinə yiyələnmişdilər, Qədim Misirdə hətta firon-allahlar da bu kastanın üzvlərindən çəkinirdilər. Şahmat özü də zamanın uçurub dağıda bilmədiyi bir məbəddir. Ona bütün şüurlu həyatını sərf edənləri həmin məbədin kahinləri hesab etmək olar. Kahinlər ehtiram obyekti olmaqla bərabər, heç də daim yüksək ləyaqət daşıyıcıları olmurdular. Onların arasında da öz vəziyyətindən narazı, paxıl, xəyanətkar olanlar da az deyildi. Onlar qüsurlardan azad olmaq əvəzinə, onları cilalamaqları ilə öyünürdülər.

Təəssüf ki, şahmatçıların da arasında yüksək istedadına uyğun olmayan ləyaqət «zəlillərinə» rast gəlmək mümkündür. Axı yüksək ağıl heç də zəngin daxili aləmdən xəbər vermir, bəzən onların arasında «asma körpü»də mövcud olmur. Onlar şahmat tacına doğru irəliləyəndə, Vifleem ulduzunun parıltısına məhəl qoymaya da bilərlər. Şahmatda ən mürəkkəb mövqeləri təhlil edib, düzgün nəticə çıxaran bir adam adi həyat hadisələrində büdrəmələrə yol verir, həqiqəti qiymətləndirməkdə aqnostitsizmə yuvarlanır. Millətçilik danltonizmi cəmiyyətdə baş verən hadisələrə tam başqa rəng geyindirir.

Bəzilərinə isə xarakterindəki radikalizm, lovğalıq, «dahilik» xəstəliyinin nəticəsi kimi ambitsiyalarını cilovlaya bilməmək olduqca zərərli təsir göstərir. Bu mərəzin daşıyıcıları özlərini elə aparırlar ki, elə bil ki, yunan allahları ilə birlikdə elə indicə Olimpə qalxacaqlar. Belələri öz böyüklüyü hissini şişirtməklə, bütün ətrafı əhəmiyyətsiz bir toplum hesab edirlər. Onlar özlərini əhatə edən mühiti dəyişdirib, öz hökmranlığı altına salmağa cəhd edirlər və bu vaxt ətrafın, çoxluğun haqlı mövqeyinə belə məhəl qoymurlar. Bu xoşagəlməz vəziyyət isə müxtəlif seqmentlərdə ixtilafların yaranması ilə nəticələnir. Həm də adətən özündən hədsiz razılıq, nəhənglik eşqinə düşmək tam əks nəticə ilə başa çatır.

Beynəlxalq Şahmat Federasiyası (FİDE) 1924-cü ildə yaradılmış, XX əsrin ortalarından başlayaraq dünya çempionluğu matçlarına təşkilatçılıq edirdi. Kasparov dünya çempionu olduqdan sonra FİDE rəhbərliyini, bu təşkilatın özünü ittiham atəşinə tutmağa başladı. Əslində o, bütöv dünya federasiyasını öz şıltaqlığına tabe etmək istəyirdi və 1993-cü ildə FİDE-dən getdiyini elan etdi. Görünür, bu adamda dözümlülük sərhədi çox dardır. FİDE ilə yanaşı, yeni Professional Şahmat Federasiyası (PŞA) meydana gəldi və iki versiya üzrə dünya çempionları müəyyən olundu: FİDE versiyası üzrə Anatoli Karpov, PŞA versiyası üzrə Qarri Kasparov.

FİDE-nin parçalanması şahmata vurulan zərbə idi, axı Kasparovdan əvvəl və sonra olan dünya çempionlarının heç biri bu iddiada olmamışdı. Sonralar Kasparov FİDE-dən ayrılmasını özünün şahmat karyerasındakı ən böyük səhv olduğunu etiraf etmişdi. Lakin bu bəyanat vurulan ziyanı heç cür kompensasiya edə bilməzdi. Axı tarixən «Herostrat kompleksi» ambitsiyası, şöhrət iştahı hədd tanımayan adamları özünə maqnit kimi cəlb etmişdi.

Sonralar FİDE-yə qayıdan Kasparov 2014-cü ildə bu beynəlxalq təşkilatın prezidenti olmağa cəhd etsə də, seçkidə mövcud ölkə federasiyaları nümayəndələrinin qəti verdikti ilə üzləşməklə, 61:110 hesabı ilə həmin vəzifəni uzun illər ərzində daşıyan ekssentrik şəxsiyyət olmaqla yanaşı, dünyanın ayrı-ayrı ölkələrində şahmatın populyarlığının artmasında müəyyən xidmətləri olan Kirsan İlyumjinova uduzmuşdu.

2015-ci ilin yayında isə Kasparovun həmin vaxt səsləri pulla satın alması cəhdləri barədə yeni ittihamlar səslənmişdi. Oktyabrın 21-də yayılan məlumata görə isə həmin məsələdə Kasparovun hərəkətlərində korrupsiya faktı öz təcdiqini tapdığına görə FİDE –nin etika komissiyası onu FİDE ilə əlaqədar olan istənilən hər bir fəaliyyətdən kənarlaşdırmışdır. Kasparov iki il müddətinə nəinki FİDE-də, hətta bu təşkilata daxil olan milli federasiyalarda da hansısa bir vəzifəni tutmaq imkanından məhrum edilməklə yanaşı, FİDE-nin mənəvi kodeksini pozmaqda təqsirkar hesab edilmişdir.

SSRİ-də şahmata göstərilən diqqət Azərbaycandan da yan keçməmişdi. XX əsrin üçüncü rübündə Azərbaycanın siyasi rəhbərliyi respublikada şahmatın kütləviliyinin artmasına ciddi fikir verməyə başladı. Paytaxtda və rayon mərkəzlərində şahmat məktəbləri binalarının tikintisi vüsət aldı, bu sahədə elan olunmamış bir yarış başlandı. Bu fəaliyyət heç də nəticəsiz qalmadı. Kişilər və qadınlar arasında xeyli istedadlı şahmatçılar meydana çıxdı. Bunu XVIII Prussiyasındakı təhsil sahəsindəki proqresslə müqayisə etmək olar. 1740-cı ildə taxt-taca çıxmış II Fridrix (gələcək Böyük Fridrix) atasından fərqli olaraq təkcə militarizmə deyil, həm də savadlılığın artmasına böyük qayğı göstərməyə başladı, ölkədə çox sayda ibtidai və digər məktəblər açıldı. Savadlılığın artması elm xadimlərinin yetişməsinə da şərait yaratdı. Elə həmin əsrin sonunda Kant, Hegel kimi dünya şöhrətli alman filosofları meydana gəldi.

Azərbaycanda da şahmatın inkişafı sahəsində dörd onillik bundan əvvəl səpilən toxumlar çoxlu və sağlam cücərtilər verdi. Gənc qrossmeysterlər yetişdi. Teymur Rəcəbov və Şəhriyar Məmmədyarov uzun müddət FIDE reytinqinə görə dwnyanın on ən güclü şahmatçısı siyahısında yer tutdu. Qadınlar arasında da şahmat geniş yayıldı. Bu hərəkat XXI əsrin əvvəllərində daha geniş miqyas alıb, idmanın başqa sahələrinin də gur inkişafına keçdi. Ölkənin paytaxtını və rayon mərkəzlərini müasir Olimpiya stadionu və Olimpiya mərkəzləri bəzədi. Azərbaycanın idman şöhrəti onun hüdudlarından kənara yayıldı.

Azərbaycanda dəfələrlə iri beynəlxalq turnirlər keçirilmişdir. 2015-ci ilin sentyabr- oktyabrında Bakıda keçirilən Dünya Şahmat Kuboku yarışları çox güclü iştirakçılar tərəfindən yüksək qiymətləndirilməklə, əslində möhtəşəm şahmat bayramına çevrildi. Yeganə məyus edən cəhət ondan ibarət idi ki, böyük ümid bəslədiyimiz istedadlı şahmatçımız Teymur Rəcəbov uğursuz çıxış edib, yarışı başlanğıc mərhələsində tərk etdi. Digər şahmatçımız Şəhriyar Məmmədyarov isə dörddə bir finala çıxmağı bacarmadı. Lakin bu da böyük beynəlxalq tədbirin miqyasına və əhəmiyyətinə xələl gətirə bilmədi.

Görkəmli şahmatçılarla görüşlərin təəssüratları

Əsasən təsadüflər hesabına üç köhnə dünya çempionu ilə tanış olmuşdum. İlk dəfə 1979-cu ilin noyabrında təyyarə ilə Amsterdama uçarkən, Varşava hava limanında qısa müddətdə dayanmaq vaxtı, aeroportun xüsusi otağında Vasili Smıslovla tanış oldum. Uzun boylu, sadə sifət cizgiləri olan, daim eynək taxan bu adam heç də mübarizlərə xas olan zahiri əlamətlərə malik deyildi. Onda hansısa bir lovğalıqdan da əsər-əlamət yox idi. Hətta söhbət edəndə də utancaq adam təsiri bağışlayırdı. O, artıq əvvəlki dəyərində mövcud olduğu şahmat aləmini tərk etmişdi, keçmiş şöhrətin azacıq nəzərə çarpan nazik kölgəsi qalmışdı. Bütün bunlarla yanaşı, o, ünsiyyətdə olduğu adamda pozitiv təəssürat yaradırdı, baxmayaraq ki, güclü energetikaya malik deyildi.

1985-ci ilin aprelində Moskvadan Madridə uçarkən təyyarənin birinci klass salonunda vur-tut dörd-beş adam idik. Onlardan biri Anatoli Karpov idi, o, təyyarə göyə qalxandan sonra köməkçisi ilə kiçik taxtada nərd oynayırdı. Oyun başa çatdıqdan sonra biz tanış olduq və təyyarə İspaniya paytaxtının Barakas hava meydanında yerə enənə qədər söhbət etdik. Bu o vaxt idi ki, o, Kasparovla uzun müddət davam edən matçını FİDE prezidenti Kompamanesin qərarı ilə təxirə salmalı olmuşdu və bu şəhərə şahmat üzrə altıncı «Oskar»ını almağa gedirdi. Söhbətimizin mövzusu əsasən şahmatdan idi. Məndə belə bir təəssürat yarandı ki, o, olduqca sadə insandır, təvazökarlığı süni olmayıb, onun xarakterindən irəli gəlir. Ona şöhrət, «ulduz» xəstəliyi də yad idi, bir dəfə də olsun titulunu, çox saydakı qələbələrini xatırlamadı, baxmayaraq ki, o, artıq on il idi ki, dünya çempionu titulunu daşıyırdı. Əksinə, digər şahmatçılar, hətta özünün həmin dövrdəki rəqibinin şahmat ustalığı barədə xoş sözlər söyləməkdən qalmırdı. Mən Robert Fişerin bənzərsiz şahmatçı olduğunu söylədikdə, bunu inkar etməməklə yanaşı, qeyd etdi ki, o, Boris Spasskini hamıdan, hətta Fişerdən də böyük istedada malik olan, universal şahmatçı kimi qəbul edir.

O, şahmat ustalığı barədə öz rəyini bildirərək dedi ki, bu sahədəki uğur iki bünövrəyə - istedada və zəhmətə əsaslanır. Onların sintezi şahmatçıya yaxşı nailiyyətlərə sahib olmağa imkan verir. Bu mənada Spasskinin qüsurunu da qeyd etdi və göstərdi ki, istedad barədə təbiət ona olduqca böyük əliaçıqlıq göstərmişdir. Lakin zəhmətsevər olmaması onun istedadının daha parlaq cilalanmasına mane olurdu. Onu hətta, sadəcə olaraq, tənbəl adlandırmaq olardı. Fişerin oyun üslubuna bələd olduğuna, xeyli qüvvətli şahmatçıları tarmar etməsini bildiyi halda, onunla çempionluq uğrundakı matça əslində hazırlaşmamışdı. Hökumət yarışdan iki ay əvvəl

ona Kislovodskda əla şərait yaratmış və güclü məşqçilərlə tanış etmişdi. O isə günü-günə sataraq, guya əhval-ruhiyyəsinin yaxşı olmadığını bəhanə gətirərək hazırlığa başlamadan matçdan əvvəlki dövrü başa vurmuşdu. Hər axşam isə Fransada yaşayan arvadı ilə uzun vaxt ərzində telefonla danışırmış. Belə münasibət ona ağır zərbə vurdu və Fişerin tərəfindən ağır məğlubiyyətə düçar edilməsinə yol açdı. Hazırlığa lazımi fikir verməməsini Karpovun özünə də yalnız Kasparovla təxirə salınmış matçın davam etdirməsindən əvvəlki olan dövrə şamil etmək olar. Digər bütün oyunlara isə Karpov ciddi hazırlıqla başlayırdı.

Spasskinin mühüm matç qarşısındakı mümkün təhlükəyə biganəliyini təmsildəki cırcırama ilə müqayisə etmək olar. Yay gözəldir, rəqs etmək vaxtıdır, deyən cırcırama qışa qida hazırlığı görməyi bütünlüklə unutmuşdu, Reykdavikdəki məğlubiyyətin əsası da Kislovodskda keçirilən laqeyd günlərdə qoyulmuşdu.

Kasparov barədə də o, maraqlı fikirlər söylədi və qeyd etdi ki, əgər indi də olmasa, Kasparov gələcəkdə hökmən dünya çempionu olacaqdır. Çünki şahmata lazım olan hər iki mühüm cəhət onda artıqlamasilə vardır. Qüsurlarına gəldikdə, anasının çox vaxt onun xarakterinə ziyan vuran diqtəsi altında olmağını qeyd etdi. Anası onu təkcə rəqibinə qarşı pis münasibət bəsləməyə istiqamətləndirmir, həm də məşqçilərinə şübhə ilə yanaşmağı təlqin edir. Anası onun özündən razılığını daha da qızışdırmağa çalışır. Təəssüf ki, o, anasının idarəciyindən azad ola bilmir.

Kasparovun gələcəyi barədəki bu rəy tezliklə özünü doğrultdu və o, elə həmin ilin sonunda dünya çempionu oldu. Bu vaxt Kasparovun 22 yaşı var idi və o, şahmat tarixində ən gənc yaşında bu titula yiyələnən bir adam kimi qalmaqda davam edir. Son dövrlərin dünya çempionu Maqnus Karlsen də bu yaşda həmin ada sahib olsa da, çempionluğa yiyələnən dövrdəki Kasparovdan bir neçə ay böyük idi.

Bu uğurlar Kasparovda belə bir fikir yaratdı ki, o, dünyanın ən güclü şahmatçısıdır, onu məğlub etmək mümkün olmayacaqdır. Lakin bu ümid özünü doğrultmadı. 2000-ci ildə Vladimir Kramnik Kasparovla olan matçı udub, PŞA versiyası üzrə dünya çempionu oldu. Bu dövrdə Kasparov nisbətən hələ cavan yaşında qalırdı, onun 37 yaşı var idi. Özü də bir cəhət daha ağrılı idi ki, Kasparov Kramnikə həmin matçda bir dəfə də olsun qalib gələ bilməmiş, rəqibi isə onu iki oyunda məğlub etmişdi. 2006-cı ilə qədər PŞA üzrə çempionluğu əlində saxlayan Kramnik 2006-2007-ci illərdə mütləq dünya çempionu oldu. Bu vaxt artıq PŞA ləğv olunmuşdu.

2005-ci ildə Kasparov şahmatda idman karyerasına son qoyduğunu elan etdi. Bu bəyanatı verdiyi Linaresdə bolqar şahmatçısı Vesemin Topalova uduzmuşdu. Ona ən ağır təsir edən məğlubiyyət isə iki il əvvəl elə həmin şəhərdə baş vermişdi. Burada o, azərbaycanlı şahmatçı, 15 yaşlı Teymur Rəcəbova uduzmuşdu. Bu partiya turnirin

ən gözəl partiyası elən edildikdə, Kasparov bu qərara dözə bilməyərək bəyan etmişdi ki, belə seçimi özünə qarşı açıq təhqir və aşağılanma kimi qəbul edir. Gəncliyindəki uğurları ilə öyünən bir adam başqa bir gəncin parlaq istedadının təzahürünə dözümsüzlük nümayiş etdirmişdi. O, özünü həm də sürətli oyunda güclü hesab edirdi, lakin belə oyunda da Mixail Tala, onun ölümündən bir qədər əvvəl məğlub olmuşdu.

Hakimiyyətdəki uzun sürən ağalığa, nəhayət, təbiət müdaxilə edərək, son qoymalı olduğu halda, şahmatdakı liderliyə təbiətin meydana çıxardığı yeni istedadlar son qoya bilir, heç kəs şahmat tacını Alyoxin kimi qəbrə qədər daşıya bilmir, axı o da holland şahmatçısı Maks Eyve tərəfindən məğlub edilərək, tacı iki illiyə ona verməyə məcbur olmuşdu. Əbədi şah olmadığı kimi, ədəbi şahmat liderinin də mövcudluğu qeyri-mümkündür.

Lakin Kasparovun çox gücü şahmatçı olması danılmaz faktdır. Onun qatı əleyhdarı olduğu Rusiya prezidenti Putin də bunu etiraf edərək demişdi ki, «Ondan hələ siyasətçi alınmamışdır, ancaq o, görkəmli şahmatçıdır».

Həm Anatoli Karpov, həm də Qarri Kasparov sonralar siyasət aləminə daxil oldular, lakin burada onların öz parlaq qələbələri ilə öyünməsi bir qədər şübhəli görünə bilərdi. Karpov Rusiya Dövlət Dumasının deputatı seçildi və bu kütlənin sadə bir üzvlünə çevrildi. Kasparov isə Putin hakimiyyətinə əks mövqedə olmaqla, müxalifət hərəkatına qoşuldu. Bu hərəkatda liderlik etməyə çalışsa da, buna müvəffəq olmadı. Radikalizmi ilə seçilən Kasparov əslində ordusu olmayan generalı yada salırdı, bu qiyafəni isə özü-özünə bəxş etmişdi. Ona görə də Putin onun bu cəhdinə istehza ilə yanaşmışdır. Hərəkat elə bir uğura imza ata bilmədiyindən, müxalifətin fəallığı xalqın dəstəyini əldə edə bilmədiyindən, sönük epizodlardan başqa heç nə ilə yadda qalmadı. Hakimiyyətin təzyiqi də öz işini görürdü və ümidini bütünlüklə itirən Kasparov xaricə mühacirət etdi.

Kasparovla tanışlığım isə hələ çempion olmamışdan Moskvadakı Azərbaycanın daimi nümayəndəliyində baş vermişdi. O, «VÇ» telefonu ilə Bakıdakı Dövlət Təhlükəsizlik Komitəsinin işçisi ilə əlaqə saxlayırdı. Sonra Qaxda onun üçün ayrılmış istirahət evində - villada görüşdük. O, özündən razılıq zirehini daim gəzdirirdi və bu, onun xarakterindəki səmimiyyət işartısına da mane olurdu.

Dünya çempionları ilə qısa müddətli tanışlığımın təəssüratı o qədər bol olmasa da, onların şəxsiyyəti barədə müəyyən anlayışa sahib olmağa imkan verilmişdi və bu, əlbəttə ki, sırf fərdi rəyə yiyələnməkdən uzağa gedə bilməz.

Məşhur eston şahmatçısı Paul Kereslə sağlığında tanış olmasam da, Tallindəki kolleqalarımın məsləhəti və müşayəti ilə onun qəbrini ziyarət etmişdim. O, Estoniyada böyük nüfuza malik olmuşdu. Onu güclü, lakin bəxti gətirməyən şahmatçı

hesab etmək olardı. Üç dəfə iddiaçıların turnirində iştirak edib, hər dəfə yalnız ikinci yeri tutmaqla kifayətlənməli olmuşdu. Hətta turnirin lideri kimi David Bronşteynlə son oyunda tam uduş mövqeyinə malik olsa da, yeganə səhv gedişi etməklə, məğlub olub, son iddiaçılığı ona verməyə məcbur olmuşdu. Lakin David Bronşteyn də Botvinniklə matçda heç-heçə oynadığına görə, iddiaçılıqdan yuxarı gedə bilməmişdi.

Dünya çempionlarının yaradıcılığını təhlil etdikdə, belə bir qənaətə gəlirsən ki, bu səviyyəyə yüksəlmək üçün təkcə güclü şahmatçı olmaq heç də kifayət deyildir, bunun üçün başqalarına məxsus olmayan bir qığılcım işartısının olması da vacibdir. Axı hətta ən güclü alpinistlər də bəzən 8 min metrlik zirvələri fəth etmək qabiliyyətinə malik olmurlar. Şahmatda da belədir, Comolunqmanı fəth etmək üçün qeyri-adi xüsusiyyətlər tələb olunur. Dünya çempionu zirvəsinə yüksəlmək üçün onun oyun üslubu çaxmaq daşı kimi qığılcım əmələ gətirməlidir. Tatar mənşəli Qata Kamski uşaq vaxtı şahmatda böyük ümidlər verdiyindən, atası daha əlverişli şəraitin yaradılması məqsədilə onunla birlikdə ABŞ-a mühacirət etmişdi. O, burada şahmat ustalığını xeyli təksilləşdirmişdi, hətta 1996-cı ildə FİDE versiyası üzrə Karpovla matçda oynamış, lakin çempionu uda bilməmişdi. Onunla görüşən digər dünya çempionu isə Kamski haqqında maraqlı, həqiqətə uyğun, lakin onun üçün ağır olan bir fikir söyləmişdi və qeyd etmişdi ki, dünya çempionu olmaq üçün oyunda nümayiş etdirilməli olan bir qığılcım Qatanın üslubuna xas deyildir. Ona görə də o, heç vaxt bu titula yiyələnə bilməyəcəkdir.

Doğrudan da, dünya çempionlarının hər biri öz fərdi üslubunu nümayiş etdirməklə, bu nailiyyətə sahib olmuşdu. Alyoxinin kombinasiya istedadı, Botvinnikin analitik dəqiqliyi, Talın dahiyanə intuisiyası, Petrosyanın idman hiyləgərliyi, Spasskinin universalizmi, Karpovun «kompüterə bənzər» hesablaması, Kasparovun şahmat sənətinə yaxşı bələd olması, onlara məlum şöhrəti bəxş etmişdi. Ona görə də onlar uzun müddət qalxanı yerə atmadılar.

Şahmat sirli aləm olduğu kimi, onun özünəməxsus rekordları da mövcuddur. İsveç qrossmeyster Gidson Ştanberq 1941-ci ildə Buenos-Ayresdə 400 oyun oynamış, onlardan 364-də qalib gəlmiş, 22-ni uduzmuş, 14-də heç-heçə oynamışdı. Heç kəs indiyədək Laskerin uzunmüddətli çempionluq rekordunu ötüb keçməmişdir.

Şahmat yarışlarının digər növləri də mövcuddur. Onlardan biri gözübağlı oynamaqdır. Bu vaxt oyunçu taxtanı və onunla oynayan rəqibləri görməməlidir. Gedişlər ayrıca adam tərəfindən elan edildikdə, gözübağlı oyunçu öz növbəti gedişini elan edir. 1947-ci ildə argentinalı qrossmeyster Migel Naydorf Braziliyanın San-Paulu şəhərində keçirilən yarışda gözübağlı oynamaqla 45 oyundan 39-nu udmuş, yalnız ikisini uduzmuşdu. 1945-ci ildə Nyu-Yorkdakı sərgidə Reuben Fayn gözübağlı

qaydada dörd ustaya qarşı yüksək sürətlə - hər gedişə yalnız 10 saniyə vaxt sərf etməklə oynamışdı.

Yüngül və yaxud sürətli şahmat oyunu da geniş yayılmışdır. Blits adlanan bu şahmat oyunu sərt vaxt ölçüsü ilə məhdudlaşır. Fərdi blits oyunlarında hər bir oyunçuya beş, yeddi və ya on dəqiqə vaxt verilir ki, öz oyununu başa çatdırsın, əgər həmin vaxta əməl edə bilməsə, o, hətta uduş mövqeyində olsa da, uduzmuş hesab olunur. Məktubla şahmat oyunu da mövcuddur bu vaxt oyunçu öz rəqibini şahmat taxtası arxasında görmür, gedişləri ona məktubla çatdırırdı. Adətən uzaq məsafələrdə yaşayanlar bu oyun növündən istifadə edirdilər və bu növdə oyun, əlbəttə ki, uzun çəkirdi. Lakin kompüter bu oyunu da xeyli sürətləndirə bilmişdir.

Şahmat yaşayır, ona rəğbət bəsləyənləri əvvəlki tək özünə cəlb etməkdə davam edir. Oyundakı şahın ölməsi bu oyunun ən başlıca məqsədidir. Şahmat isə ölməkdən çox uzaqdır. Şahmat ətrafındakı əllaməliklərə, onu siyasətin girovuna çevirmək cəhdlərinə baxmayaraq, şahmatın süqut etməsi mümkün deyildir. Görünür, şahmat günəşi də kainatı işıqlandıran Günəş kimi işıq və hərarət saçmaqda davam etməklə, ona susayan könüllərə sevinc paylaması şəklindəki möcüzəli xüsusiyyətini heç vaxt itirməyəcəkdir.

SON